بسم الله الرحمن الرحيم

***Bağışlayan və mehriban Allahın  adı ilə***

# DÖVLƏT VƏ QANUN

## (“MALİK ƏŞTƏR” XÜTBƏSİNİN ŞƏRHİ)

# *DÖVLƏT VƏ QANUN*

## *(“MALİK ƏŞTƏR” XÜTBƏSİNİN ŞƏRHİ)*

***Ayətüllahül-üzma Şeyx Məhəmməd Fazil Lənkərani***

***Mütərcim: Faiq Vəlioğlu***

نام کتاب: آیین کشورداری از دیدگاه امام علی علیه السلام
( دولت وقانون)
نام نویسنده: آیت الله العظمی فاضل لنکرانی
نام مترجم: فائق ولی اوقلو
زبان ترجمه: آذری لاتین

**Kitabın adı:** ______ "Dövlət və qanun" **(Malik Əştər xütbəsinin şərhi**
**Müəllif:**__________ Ayətullahül-üzma Şeyx Fazil Lənkərani
**Mütərcim:** _______ Faiq Vəli oğlu
**Redaktor:** ________ **İftixar Məhəmmədov**
**Hazırlayan:** ______ **"Ümumdünya Əhli-beyt ¢" cəmiyyətinin tərcümə idarəsi, mədəni-maarif şö`bəsi**
**Nəşr edən:** _______ **"Ümumdünya Əhli-beyt ¢" cəmiyyəti**
**Çap növbəsi:** _____ **Birinci**
**Çap tarixi:** _______ **2006**
**Çapxana:** ________ **Leyla**
**Tiraj:**____________ **3000**

**Elektron poçtu: info@ahl-ul-bayt.org**
**İSBN: _________ 964-529-029-5**

***Kitabın çap və sair hüquqlari "Ümumdünya Əhli-beyt ¢" cəmiyyətinə məxsusdur.***

Bismillahir-rəhmanir-rəhim

***"Ümumdünya Əhli-Beyt ¢ cəmiyyətindən***

Şübhəsiz, Əhli-Beyt (əleyhimus-salam) məktəbinin nəfis inci xəzinələrindən olan və ardıcıllarının vasitəsilə qorunub saxlanılan mədəni-maarif mirası islami maarifin müxtəlif yönlərində olan hərtərəfli bir məktəbdir. Bu məktəb qeyd olunan zülal çeşməsindən mümkün qədər su içməyə qabiliyyəti olan iste`dadlı insanları tərbiyə etmiş, İslam ümmətinə bu məktəbin yolunu gedən böyük alimlər və dahi şəxsiyyətlər təqdim etmişdir. Bu böyük alimlər də mütəmadi olaraq əsrlər boyu –həm islam cəmiyyətinin daxilində, həm də xaricində – müxtəlif ideologiyalar və məzhəblər müqabilində düzgün mövqe seçərək, onlara ən dolğun və qənaətbəxş cavablar vermişlər.

"Ümumdünya Əhli-Beyt ¢" cəmiyyəti öhdəsinə aldığı bu məs`uliyyətli vəzifəni yerinə yetirmək və İslamla müxalif olan müxtəlif firqə və məzhəb başçıları tərəfindən risalət hüdudları və onun həqiqətlərinə qarşı yönələn ardıcıl hücumlar qarşısında onu müdafiə etmək üçün Əhli-Beyt (əleyhimus-salam) və bu haqq məktəbin davamçılarının üslubunu davam etdirmək əzmindədir.

Bu xüsusda Əhli-Beyt ¢ məktəbi alimlərinin dəyərli kitablarında mövcud olan təcrübələr öz növbəsində misilsizdir. Çünki onlar əql və bürhan əsasında olan dərin elmi üsullara arxalanır və boş təəssübkeşlikdən və nəfsani istəklərdən uzaqdır, onun dinləyiciləri mütəxəssis alimlər

və mütəfəkkirlərdir ki, onlara sağlam fitrətin qəbul etdiyi və əqlin bəyəndiyi bir tərzdə xitab edir.

“Ümumdünya Əhli-Beyt ¢” cəmiyyəti həqiqət aşiqləri üçün bu məktəb alimlərinin, yaxud bu şərəfli məktəbin ardıcılı olmaq və Allahın ne`mət verdiyi şəxslərin yazdığı müasir zəngin elm və mə`rifət xəzinəsini onlara təqdim etmək üçün yeni bir mərhələni qarşıya qoymuşdur. Bundan əlavə, qədim şiə alimlərinin də bu məqsədlə yazdığı nəfis əsərlər onların ixtiyarına verilir ki, haqq axtaranlar üçün bir hədiyyə olmuş, “Ümumdünya Əhli-Beyt ¢” cəmiyyətinin bəşərin əqli səviyyəsinin yüksələrək təkamülə çatdığı, ruhun çox sür`ətlə inkişaf etdiyi bir əsrdə bütün dünyaya təqdim etmək istədiyi həqiqətlərə yol açılmış olsun.

Əziz oxuculardan xahiş edirik ki, özlərinin dəyərli tənqid və təkliflərini yazıb bizə göndərsinlər. Eləcə də, bütün alimləri, müəllif və mütərcimləri, mədəni-maarif mərkəzlərini də`vət edirik ki, əsl İslam mədəniyyətinin yayılmasında öz köməklərini əsirgəməsinlər.

Allah-taaladan aciz surətdə istəyirik ki, bu azacıq işi bizdən qəbul etsin, bizi Özünün xüsusi nəzərləri sayəsində və yer üzündəki höccətinin – İmam Məhdi ™-ın himayəsində qərar versin!

Bu dəyərli kitabın müəllifi Həzrət Ayətullahül-üzma Fazil Lənkəraniyə, onu Azərbaycan dilinə tərcümə edən Faiq Vəliyev cənablarına, eləcə də kitabın çapa hazırlanmasında zəhmət çəkən bütün şəxslərə, xüsusilə tərcümə bölməsinin əməkdaşlarına dərin minnətdarlığımızı bildiririk.

***“Ümumdünya Əhli-Beyt ¢” cəmiyyətinin mədəni-maarif şö`bəsi***

***BİSMİLLAHİR RƏHMANİR RƏHİM***

## *ÖN SÖZ*

***İslam aləmində şəxsiyyət və məqamını vəsf etmək mümkün olmayan, birinci mə`sum, imam, həzrət Əmirəl-mö`minin Əli ™)-ın "Nəhcül-bəlağə" kitabını tanımayan çox az olar. Bu kitabı çox vaxt Qur`anın "kiçik qardaşı" adlandırırlar. Kitabda olan İslam maarifinin, irfan və hikmətləri bu sahədə arif olanlar daha yaxşı bilirlər. İmamın hər bir kəlməsinin ardında onlarca hikmət var. O cəhətdən Nəhcül-bəlağəyə yazılan yüzlərlə şərhin bu hikmətləri açıqlamağa qüdrətləri çatmır. Hər il bu kitaba çoxlu şərh və izahlar yazılır, amma yenə də bu hikmətli sözlərin dərinliklərinə vara bilmirlər.***

***Bə`ziləri bilməməzlik üzündən İslam dininin yalnız namaz qılıb, oruc tutmaqdan ibarət olduğunu hesab edir və bu dinin bəşəriyyətin bütün sahələrdə olan ehtiyaclarını tə`min etməsində şəkk edirlər. Bu səbəbdən də İslam düşmənlərinin ayaqları yer tutur və bu müqəddəs dinə qarşı mübarizəni daha da şiddətləndirirlər. Amma belə qafillərə bildirmək lazımdır ki, bəlkə də sadə müsəlmanlar müəyyən zaman və şərait üzündən İslam dininin müqəddəs və İlahi qanunlarını bilməsinlər, amma əmin olsunlar ki, bu günəş nə vaxt bulud arxasından çıxsa və hamıya öz***

*nurunu çatdırsa, artıq onların İslama qarşı olan əks təbliğatlarının heç bir faydası olmayacaqdır.*

*İslam günəşinin parlaq nurlarından biri sayılan həzrət Əli ™-ın hikmətli kəlamları bu mətləbə ən yaxşı nümunədir. Hər kəs o həzrətin sözlərini başa düşürsə, mə`nəviyyatı birə min artır və İslam dinini daha yaxından tanıyır. Bunun da səbəblərindən biri İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alihi və səlləm) O həzrəti "Elm şəhərinin qapısı" adlandırmasıdır. Nəhcül-bəlağə bu elmin kiçik bir zərrəsidir. Tərcümə olunan bu kitab isə həmin zərrələrin izahı və şərhi barəsindədir.*

*Doğrudan da insan İslam dinində olan ədalət, qanun və rəhbərliklə tanış olduqca bu dinə olan inam və imanı birə min artır. Müqəddəs İslam dinini insanların gözündə xurafat kimi cilvələndirməyə can atanlar bu kitabı mütaliə edib tutulmuş gözlərini açsınlar və bir daha həqiqəti deməyə cür`ətləri çatsın! Həzrətin Malik Əştərə verdiyi hər bir göstərişin özünəməxsus hikmət və fəlsəfəsi vardır. Bütün bunları şərh etməkdən ötrü onlarla belə şərhə ehtiyac duyulur.*

*Dahi alim, müctehid və həmvətənimiz ayətullahül-üzma Fazil Lənkərani dinləyicini nəzərə almaqla bu hikmətli və irfani sözləri müəyyən bir səthdə şərh və müsəlmanlara təqdim etmişdir.*

*Ümidvarıq ki, azərbaycanlı mö`min bacı-qardaşlarımız da bu dəyərli sözlərd'n özlərinə örnək götürsünlər!*

*Faiq Vəli oğlu*
*2003-cü il*

## *MÜƏLLİFİN HƏYATI İLƏ QISA TANIŞLIQ*

Elm, iman və əməl sahibi olan ayətullahül-üzma Hacı Şeyx Məhəmməd Fazil Lənkərani (Qafqazi) müasir dövrdə Qum elmi mərkəzində tanınmış böyük mərcəyi-təqlidlərdən biridir. O, 1310-cu ildə (şəmsi tarixi ilə) İranın müqəddəs Qum şəhərində dünyaya gəlmişdir. Atası mərhum ayətullah Fazil Lənkərani (Hacı Bəşir oğlu) Lənkəranın "Ərkivan" bölməsinin əhalisindən idi və Qum elmiyyə hövzəsinin böyük alimlərindən və ustadlarından sayılırdı. O, azərbaycandan gələn mühacirlərdən idi. Bir neçə müddət İranın Məşhəd və Zəncan elmiyyə hövzələrində dini təhsil almış və tədrislə məşğul olmuşdu. Ayətullah Hacı Əbdülkərim Hairi Qum elmiyyə hövzəsini təşkil etdikdən bir il sonra Fazil Lənkərani Qafqazi (atası) bu müqəddəs elm ocağına pənah gətirir. Elə ilk günlərdə də nəcib ailədən olan bir qadınla ailə qurur. Bu ailə həyatında çoxlu övladlar dünyaya gəlir. Övladların dördüncüsü əziz ustadımız Ayətullah Hacı Şeyx Məhəmməd Fazil Lənkərani idi. Onu da qeyd edək ki, bu ailədən yalnız Şeyx Məhəmməd Fazil Lənkərani ruhani olur. Uşaqlığının ilk vaxtlarından atasının mə`nəviyyatının tə`siri altına düşür. Ürək açıqlığı ilə onun pak yolunu seçir və uşaqlıq iradəsi ilə qərara alır ki, atasının yolunu özünə nümunə seçib, ruhaniyyət aləminə qoşulsun. Dünyəvi

elmlərdə yüksək iste`dada və müvəffəqiyyətlərə nail olduğuna baxmayaraq, altı illik orta təhsilini qurtaran kimi dini elmləri oxuyan tələbələrin sırasına qoşulur. Qəlbində bir dünya sevinc ilə tutduğu yolu davam etdirir, sadə tələbəlik mə`nəviyyatına daxil olur. Bu yolu özünün eşq və məhəbbəti ilə seçməsindən əlavə, başqa bir qüvvə də onun ruhaniyyət aləmində dözümlə irəliləməsinə tə`sir edir. Bu şəxs uşaqlıq dostu və məktəb yoldaşı, imam Xomeyninin böyük oğlu mərhum ayətullah seyyid Mustafa Xomeyni idi. İki səmimi dost əl-ələ verərək bu uzun və pak yolu dərin sevinc hissi ilə davam etdirirdilər. Ustadın öz sözü ilə desək: ***"Tutduğum yolda eşq və əlaqəmin çoxalmasında bu əziz dostumun böyük rolu vardı. İlk günlərdə bir-birimizin əlindən tutur və mübahisə (elmi mübahisə) yolu ilə təhsilimizə davam edirdik. "***

Ustadın bu elmə eşq və əlaqəsi olduğu müddətdən böyük irəliləyişlər əldə edir. Dini təhsilini sür`ətlə başa vurur. Belə ki, ərəb ədəbiyyatı və orta səthli dərslərini altı il müddətində qurtarır. Halbuki, adi halda tələbələr bu dövrəni 8-9 ilə bitirirdilər. Buna görə də 19 yaşı tamam olduqda elmi hövzənin axırıncı mərhələ dərslərini oxuyur.

19 yaşlı cavan, mərhum ayətullahül-üzma Burucerdinin hər kəsin qavraya bilmədiyi yüksək səthli dərsində iştirak edir. Dərs otağında ən cavan şagird Məhəmməd Fazil Lənkərani idi. Buna görə də şagirdlər arasında ən çox nəzəri cəlb edərdi. Bə`ziləri təsəvvür edirdilər ki, bu cavan deyilən mətləbi anlaya bilməz. Amma bu cür təsəvvür, ittihamdan başqa heç bir şey deyildi. Buna şahid odur ki, əziz ustad, ayətullah Burucerdinin hər bir dərsini, dərsdən çıxdıqdan sonra

ərəcə qeydə almışdır. Bu onu göstərir ki, dərsi başa düşməklə yanaşı onun dərin mə`nalarını anlayıb qeydlər də aparmışdır. Belə ki, bir müddət sonra ayətullah Burucerdi onun atasının mənzilində Fazil Lənkəraninin əlyazmalarına baxıb buyurur: ***"Heç fikirləşməzdim ki, bu az yaşlı cavan müxtəlif, dərin elmi mətləbləri bu cür başa düşsün. Təəccüblü budur ki, deyilən mətləbi səlis ərəb dilində yazsın!"***

O zamanlar böyük İslam inqilabının rəhbəri imam Xomeyni elmi hövzədə bir dövrə ***"Üsul"*** elminin tədrisinə başlayır. Onun dəyərli elmi bəyanlarından bəhrələnməkdən ötrü ətrafına çoxlu tələbələr cəm olurlar. Bu dərsdə vəsfəsığmaz maraqla iştirak edənlərdən biri də ayətullah Fazil Lənkərani idi. O, ayətullah Burucerdinin dərslərində iştirak etməklə yanaşı, imam Xomeyninin bu dərsini fövtə vermir. Beləliklə, tam bir dövrə "***üsul", "əlfaz"*** və ***"əqli"*** bəhslərini təxminən yeddi il ərzində imam Xomeyninin dərslərindən istifadə edir. Bundan əlavə, imam Xomeyninin ***"üsul"*** dərsləri ilə yanaşı ***"fiqh"*** dərsinə də başlayır. Ayətullah Lənkərani ilk gündən imamın ***"fiqh"*** bölməsinin ***"Təharət"*** kitabının dərsində iştirak edir. Özünün dəqiq nəzəri ilə dərsin bütün bəhslərini izləyir və deyilənləri qeyd edir. Belə ki, bu yazılar axırda bir neçə cild kitab həcminə gəlib çatır. Beləliklə, ustad bərəkətli ömrünü təhsil və tədris yolunda sərf edir. Cavanlıq vaxtlarında təxminən on bir il mərhum ayətullah Burucerdinin və təxminən, doqquz il imam Xomeyninin ***"üsul"*** və ***"fiqh"*** dərslərində iştirak edir. Bu elm dəryasından gücü çatan qədər mə`nəvi azuqə əxz edir. Elm öyrənmək şövqü ustadın bütün vücudunu əhatə etmişdir. Bunlarla

yanaşı ayətullah Fazil Lənkərani bərəkətli ömrünün bir hissəsini ***"hikmət"*** və ***"fəlsəfə"*** dərslərinə sərf edir. Bu bölmədə onun ustadı tanınmış alim və təfsirçi mərhum Əllamə Təbatəbai olur. Bir neçə il müddətində Səbzevarinin ***"Mənzumə"*** və Molla Sədra Şirazinin ***"Əsfar"*** kitablarından dərs alır. Əlbəttə, bunlarla yanaşı başqa mühüm bəhsləri, o cümlədən, əqaid və əxlaq dərslərini tanınmış ustadlardan mənimsəmişdir. Özünün yüksək fitri iste`dadına, təhsil müddətində hədsiz diqqət və ayıqlığına görə ayətullah Lənkərani ictihad məqamına tez çatır. Sadaladığımız İslam elmlərini və maarifini ələ gətirdikdən, müntəzəm olaraq on bir il ayətullah Burucerdinin, doqquz il böyük İslam inqilabının rəhbəri imam Xomeyninin bərəkətli və mə`nəvi dərslərindən istifadə etdikdən sonra, otuz yaşında olarkən artıq təqlidə ehtiyacı olmur. Buna görə də ayətullah Burucerdinin mərcəiyyət dövründə ona təqlid edən Lənkərani, onun vəfatından sonra öz elmi qüdrətinə arxalanaraq qarşıya çıxan dini və məzhəbi məsələləri öz ictihadı əsasında həll edir. Ustadın həyatında başqa diqqətli nöqtədən biri də budur ki, cavanlıq çağlarında təhsil və tədrislə yanaşı, elmi münazirələrdə də hazır olur. Təhsil dövranının ikinci və üçüncü illərində, yə`ni təxminən 15-16 yaşında tələbələr içində birinci olduğu ilə yanaşı, tanınmış alimlərdən dərs alır. Tələbələrdən bir dəstəsinə dini tədris etməklə məşğul olur. Ustadın dərs məclisləri ilk vaxtlarda qızğın olur. Çoxlu elm və iman sahibi olan şəxsiyyətlər onun dərslərində iştirak edirlər. Maraqlı burasıdır ki, tam diqqətlə ustadın dərslərinə qulaq asan tələbələrin hamısı yaşda Fazil Lənkəranidən böyük idi. Cavan ustad öz şagirdlərinin

qarşısına çıxanda, kənardan baxan inanmazdı ki, bu cavan alim o qədər yaşlı tələbələrə elm öyrədir və sinəsindəki incə məsələləri onlara çatdırır. 15-16 yaşlı ustadın dərsində o vaxtlar 7-8 nəfər, 19 yaşına çatdıqda isə yüzə qədər tələbə hazır olur. Ayətullah Fazil Lənkərani ***"Kifayətül-üsul"*** kitabını tədris etdikdə onun dərsində 600-700 nəfərə yaxın tələbə iştirak edirdi. Ustadın o dərsləri lentə yazıldığı üçün bu gün də ***"Kifayə"*** oxuyan tələblər ondan istifadə edirlər.

Aayətullah Fazil Lənkərani hal-hazırda ali dərəcədə tədrislə məşğuldur. Adlı-sanlı təhqiqatçı, alim və müxtəlif əsər sahibləri ustadın bu dərslərində iştirak edir və onun dərin fəzilətli elmindən sirab olurlar.

### *USTADIN ƏSƏRLƏRİ*

Cavanlığının ilk çağlarından başlayaraq İslam maarifi və elmi məsələlər haqqında kitab yazmağa başlayır. Birinci əsərini ayətullah Burucerdinin dərsləri əsasında yazır. Ardıcıl şəkildə yeddi il iştirak etdiyi dərsi ***"Nihayətut-təqrir"*** adlı kitab şəklində cəm edir. 50 səhifədən ibarət olan bu kitab ayətullah Burucerdinin nəzərindən keçdikdən sonra müvəffəqiyyətlə çapa verilir (O zaman ayətullah Lənkəraninin 26 yaşı var idı). Bir neçə il sonra ***"Nihayətut-təqrir"*** kitabının ikinci cildi çap olunur. Bu iki cild kitab mərhum ayətullah Burucerdinin tədris etdiyi ***"Səlat"*** kitabı haqqında idi. Bundan əlavə, ustadın ***"müsafir namazı"*** və ***"cümə namazı"*** bəhsləri ayrıca çap olunur. Bu üç cildlik kitab, ayətullah Burucerdinin səkkiz il müddətində tədris etdiyi ***"Səlat"*** bəhslərini tamamilə əhatə edir.

Ayətullah Fazil Lənkərani bundan əlavə, imam Xomeyninin dərslərindən istifadə edərək ***“Usuli-Fiqh”*** bəhsləri haqqında qiymətli əlyazmalar hazırlamışdır. İmam Xomeyninin ***“üsul”*** bölməsinin əksər dərslərini əhatə edən əlyazmalar ***“Əlfaz və əqli”*** bəhslərə aiddir. Ustadın, imamın dərsləri barəsində hazırladığı əlyazmalar beş cildə yaxındır.

Ustadın ən böyük işlərindən biri də ömrünün çox hissəsini sərf etdiyi ***“Şərhi Təhrirül-vəsilə”*** kitabıdır. Əlbəttə, kitabın yazılışı hələ də davam edir. Bu dəyərli kitab İranda baş verən maraqlı hadisələrlə doludur. Mübariz İran xalqının, ruhanilərin fəaliyyətləri, bu mübarizədə əzab-əziyyətə mə`ruz qalanlar, şəhid olanlar, nəhayət zindanlarda zəncirdə olanlar haqqında kitabda mə`lumatlar verilib. O zamanlar ayətullah Fazil Lənkərani mübariz bir ruhani kimi fəaliyyət göstərirdi. Şahın xəfiyyə işçiləri tərəfindən dəfələrlə həbs və ölkənin müxtəlif məntələrinə sürgün olunmuşdu. Sürgün olunduğu şəhərlərdən biri ***“Yəzd”*** idi. Ustad iki il yarım bu məntəqədə sürgündə olmuşdur. Həmin yerdə qərara alır ki, vaxtından istifadə edib əlyazmalarını davam etdirsin. İmam Xomeyninin ***“Təhrrul-Vəsilə”*** kitabına şərh yazmağı qərara alır. Bu minvalla, əzab və dərdlə dolu günlərdə yazılmağa başlanan kitabın əlyazması hələ də davam edir. Artıq dövran dəyişmiş, mə`nəviyyat öz bəhrəsini vermişdir. O müddətdə ustad Fazil Lənkərani kitabın beş cildini tamam edir. Əvvəldə qeyd etdiyimiz kimi, kitabın yazılışı hələ də davam edir. Ehtimal verilir ki, bu dəyərli kitabın şərhi, Allahın köməyi ilə, qırx cildə çatsın. İndiyə qədər kitabın on beş cildi çap olunub. Başqa iki cildi ***“Təfsiliş-şəriə fi şərhi təhriril-vəsilə”*** adı

ilə çap olunub. Ustadın əsərlərindən biri də ***“Mədxəlut-təfsir”*** kitabıdır. Kitab ustadın tə`til günlərində tələbələrə verdiyi dərsləri əhatə edir. Bu kitab üç mövzunu əhatə edir:

1-***Qur`anın mö`cüzəsi;***

2-***Qur`anın müxtəlif qiraətləri;***

3-***Qur`anın təhrif olunmaması.***

Ustad bu bəhslərə aid olan qeydlərini sürgündə olanda yazmışdı. O zamanlar bu qeydlər otuz səhifəlik bir kitab şəklində çap olunmuşdu. Ustadın kitablarından biri də mərhum ayətullah İşraqi ilə birlikdə iki cilddə qələmə aldığı ***“İmamət məsələləri Qur`an baxımından”*** adlanıbdır. Onun birinci cildi, ***“Əimmeyi əthar və ya vəhy qoruyucuları Qur`an baxımından”*** adı ilə, ikinci cild isə ***“Təthir ayəsində parlaq simalar”*** adı ilə çap olunub. Bu iki kitabda araşdırılan mətləblər o qədər dəqiqdir və sənədləri islami mənbələrdə o qədər mö`təbərdir ki, alimlərin fikrincə, hər kəs bu kitabları təəssübdən uzaq olaraq mütaliə etsə, Qur`anın imamət və onun şəraitləri haqqındakı nəzəri ilə tanış olmaqdan əlavə, Mə`sumların imamətini (ələyhimussalam) açıq ürəklə qəbul edər. Ümidvarıq ki, o gün olsun dini, məzhəbi və e`tiqadi məsələlərin üzərindən təəssüblük hissi götürülsün və İslam ümmətinin ruhu həqiqət və mə`rifətlə qidalansın.

Bundan əlavə, ayətullah Fazil Lənkəraninin çoxlu kitabları da vardır ki, onların hər biri İslam dininin müxtəlif hökmlərini aydınlaşdırır.

## *USTADIN SİYASİ MÜBARİZƏLƏRİ*

Ayətullah Fazil Lənkəraninin həyatının mühüm dövrlərindən biri də onun siyasi həyatı və mübarizələridir. İmam Xomeyni zülmə və fəsada qarşı ciddi mübarizəyə başladığı vaxtdan e`tibarən, o öz müəlliminin qələbəyə çatması üçün bu yolda ciddi fəaliyyətə başlayır. İmam Xomeyninin ciddi tərəfdarlarından və şövqlü şagirdlərindən hesab olunan Lənkərani ilk vaxtlardan onun ardınca hərəkət edir. Bu mübarizə həm fərdi, həm də hövzeyi-elmiyyənin təşkil etdiyi ***"camieyi-müdərrisin"*** təşkilatının üzvlüyündə davam edir. Qeyd olunan cəmiyyət o vaxt imkan daxilində İmamla birlikdə fəaliyyət göstərirdi. O gündən başlayaraq Lənkərani öz mübarizəsində vəhdət və birliyi inqilabın ən əsas və aparıcı amillərdən hesab edir və bu yolda çalışırdı. Məhz bu fəaliyyətin nəticəsində dəfələrlə şah rejimi tərəfindən həbs olunmuş və məhkəmə orqanlarında istintaqa çağırılmış, zindanlarda ağır işkəncələrə mə`ruz qalmışdır. Axırda da ölkənin ən pis iqlimli məntəqəsinə sürgün olunur. İlk sürgün yeri ***"Bəndəri-Lingə"*** məntəqəsi olur. Dörd ay müddətində nəfəs kəsən yandırıcı gün altında yaşayır. Bu dörd ay, ustadın öz dediyinə görə, qırx illik əzab-əziyyətə bərabər idi. Bundan sona ayətullah Fazil Lənkəraninin sürgün yerini Yəzd şəhərinin Kuvəyri məntəqəsinə dəyişirlər. İki il yarım şərəfli ömrünü bu ucqar yerdə keçirir.

Ayətullah Lənkərani sürgün müddətindən məharətlə istifadə edir, gizlin şəkildə yazdığı elmi əsərlərdən əlavə, mühüm işlər də görür. Belə ki,

“mehrab şəhidi” ayətullah Səduqinin köməyi ilə əhali ilə gizli görüşlər təşkil edir, özünün tərbiyəvi sözləri ilə əhalini imam Xomeyninin mübarizəsinə qoşulmağa çağırır. Bunların nəticəsi olaraq, inqilabın şiddətli vaxtında Yəzd əhalisi əli boş halda tank və topun qarşısına çıxıb yüzlərlə şəhid verərək bu hərəkatı müdafiə etdilər, bununla da İslam inqilabının qələbəsində böyük addımlar atdılar.

Nəhayət, sürgünlük dövranı qurtarır, zülmün, küfrün və istismarın dövranı başa çatmaqla bərabər, fəsad, ictimai eybəcərliklər aradan gedir, onun yerini təmizlik, azadlıq, əmin-amanlıq tutur. İslam günəşi buludlar arxasından zühur edir, öz şö`ləsini bütün aləmə saçır və hər tərəfi işıqlandırır.

Ayətullahül-üzma Fazil Lənkəraninin ***“mərcəiyyəti”*** (mərcəyi-təqlid) ayətullahül-üzma Ərakinin vəfatından sonra Qum elmi hövzəsinin ***“Camieyi-müdərrisin”*** təşkilatı tərəfindən verilib. O, elmi hövzənin bütün müctehidləri arasında yeganə şəxsdir ki, əksəriyyət təşkil edən səs çoxluğu ilə şiə aləminə mərcəyi-təqlid kimi tanıtdırılıb.

***QARŞINIZDAKI KİTAB HAQQINDA***

Böyük İslam inqilabının zəfərli qələbəsindən sonra ustad hiss edir ki, əhali gündən-günə əsl İslam mədəniyyətinə ehtiyac duyur. Başqa tərəfdən, ***"Qum İslam təbliğatı"*** idarəsində ***"imam Sadiq ™-ın mədrəsəsinin*** şagirdləri və Qum elmi hövzəsinin ruhaniləri üçün həzrət Əli (əleyhissalam)-ın ***"Nəhcül-bəlağə"*** kitabının dərslərini başlayır. Bu dərsdə mövzu, ustadın özünün istəyi ilə həzrəti Əli (əleyhissalam)-ın Malik Əştər Nəxəiyə yazmış olduğu məkubu idi. Bu dərslər ***"İslam təbliğatı"*** idarəsi tərəfindən lentə yazılaraq kiçik kitabça şəklində tələbələr arasında paylanıldı. Qərara aldım ki, ustadın dərslik kitabçalarını həm özümün, həm də başqalarının bəhrələnməsindən ötrü kitab şəkilinə salım və onu hamının istifadəsinə verim. Onu da qeyd edim ki, mən bu bəhsləri cəm etdikdə, ustadın özündən istifadə etdiyim bəyanlara arxalanaraq bu bəhslərin deyiliş və yazılışında bə`zi dəyişikliklər etmişəm. Belə ki, hamının başa düşməsi və çətin olmaması üçün sözlərin bə`zilərini dəyişmişəm. Amma əsil mətni dəyişmədən, çalışmışam ki, ağır termin və kəlmələri kitab cümləsi ilə bəyan edəm. E`tiraf edirəm ki, bu kitabın hər nə qədər cazibədarlığı və faydaları varsa, ustadım ayətullahül-üzma Fazil Lənkəraninin elm və biliyinin bərəkətindən, nöqsan və çatışmazlıqlar isə mənim elmimin az olmasından irəli gəlir.

***Ayətullahül-üzma şeyx Məhəmməd Fazil Lənkəraninin şagirdlərindən: Hüseyn Kərəmi***

# *BİRİNCİ FƏSİL*

## *MALİK ƏŞTƏR VƏ MİSİR HÖKUMƏTİ*

Əgər ***“Nəhcül-bəlağə”*** haqqında sadə bir tə`rif vermək istəsək, ***“Nəhcül-bəlağə”*** həzrət Əli (əleyhissalam)-ın söylədiyi kəlamlardır – deyə bilərik. Bu kəlam o həzrətin danışıqları, yazıları, məktub və vəsiyyətləri, qısa hikmətli kəlmələri və moizələrini ehtiva edir. Min ildən artıq bir dövrdə bu kitab üç bölmədə-xütbələr, məktublar və qısa hikmətli kəlmələr şəklində yazılır və ya çap olunur. Amma Qur`an haqqında dediyimiz tə`rif və ***“Nəhcül-bəlağə”*** barəsindəki bəyan, onların haqqında söylənilənlərə nisbətdə, dəryanın bir damlasına da çatmır. Əslində vəhy kitabı olan Qur`ana və onun yolunu tam şəkildə davam etdirən ***“Nəhcül-bəlağə”yə*** bu cür tə`riflər vermək danışan üçün xəcalət, eşidən üçün əfsusdan başqa bir şey deyildir**.**

***“Nəhcül-bəlağə”*** haqqında necə söz danışmaq olar? Halbuki, yüz illərdir ki, onun əzəməti dünyanı öz qanadları altına almış, tarix səhifələrindən keçən bəşəriyyət onun ucalığı qarşısında təəccübə və dəhşətə gəlmiş, onun misilsiz əzəməti qarşısında diz çökməkdən başqa bir yol görməmişdir. Min il Qur`ani-Kərimlə yanaşı dillər əzbəri olan bir kitab haqqında nə demək olar? Yalnız dostlar yox, düşmənlər də onu tə`rifləmiş və əzəməti qarşısında aciz olduqlarını e`tiraf etmişlər. Min illik bu kitab haqqında necə danışmaq olar, halbuki, hər bir əsrdə alimlər onun haqqında

kitablar yazmış, dərindən fikirləşmiş, amma bir yerə çata bilməmişlər. Minlərlə mühəqqiq onun barəsində saysız-hesabsız kitablar yazmış, milyonlarla səhifəni ən gözəl, ürəkoxşayan və fəxrli sözlərlə bəzəmişlər, amma bəşəriyyət hələ də onun əzəmətinin bir guşəsini layiqli surətdə şərh etməyə və həzrətin dərin mə`nalı kəlamlarının dolğun mə`nalarını aşkar edə bilməmişdir.

Biz də çarəsizlik üzündən ***"Nəhcül-bəlağə"*** barəsində azacıq tanışlıqla kifayətlənirik. Ümidvarıq ki, o Həzrətin pak nəfəsi sayəsində onun aşiqləri öz mütaliələrində bu kitabdan istifadə etdikcə mə`rifətləri çoxalsın və Həzrətin dəryalar qədər mə`nalı sözlərindən istifadə etsinlər. İnşallah!

Min il öncə İlahi məktəbin ardıcıllarından, o Həzrətin xalis şiələrindən biri olan Seyyid Rəzi hicrətin 400-cü ilində o Həzrətin şifahi şəkildə söylədiyi kəlamları və yazıları cəm edərək ***"Nəhcül-bəlağə"*** adlı kitab şəklinə salmışdır. (Mərhum Seyyid Rəzidən əvvəl bütün bu deyilənlər və yazılanlar müxtəlif kitablarda, pərakəndə şəkildə mövcud idi. ) Bu əzəmətli kitabda Həzrətin yüzdən çox geniş mə`nalı kəlamı, xütbəsi, hədisi, məktubu, vəsiyyətnaməsi, nəsihəti, qısa kəlməsi, hökumətlə əlaqədar fərmanı, Qur`an təfsiri və insanın ruhunu cilalayan yüzlərlə göstərişi vardır. İnsan həyatının bütün yönlərini əhatə edən qanunlar bu kitabda qeyd olunmuşdur. Mərhum seyyid Rəzi çalışmışdır ki, Həzrət Əli (əleyhissalam)-ın misilsiz kəlamlarının ən bəlağətli və gözəl sözlərindən istifadə etsin. Ona görə də kitabı ***"Nəhcül-bəlağə"*** (bəlağət yolu) adlandırıb. Bu kitab on əsrdən çoxdur ki, üç qismdən-***"xütbələr", "məktublar"*** və ***"qısa kəlmələr"-***

şəklində mövla Əli (əleyhissalam)-ın aşiqlərinin ixtiyarına verilib. Kitabın bə`zi özünəməxsus xüsusiyyətləri vardır ki, qarşınızdakı kitabda onlara işarə edəcəyik. Bu xüsusiyyətlərlə yanaşı, bə`zi mühüm məsələlər də vardır ki, Həzrətin bəlağətli kəlmələrindən ələ gəlir və hər bir oxucunu istər-istəməz özünə cəzb edir. Bütün bunlar o Həzrətin həyatını təcəssüm edir və baş verən ayrı-ayrı hadisələrə nə cür münasibət bəsləməsini göstərir. Buna görə də ***"Nəhcül-bəlağə"*** İslam Peyğəmbərininin (səlləllahu əleyhi və alih) haqq canişininin əzəmətli və nümunəvi həyatını bizlərə nişan verən bəlağətli bir kitabdır. Bu məktəbin şagirdləri öz imamlarının əzəmətli simasını və həyatının müxtəlif cəhətlərini bu kitabdan aydın hiss edib, onu öz həyatlarında me`yar götürə bilərlər.

### *MALİK ƏŞTƏRƏ FƏRMAN*

***"Nəhcül-bəlağə"nin*** başqa mövzuları kimi, onun parlaq fəsillərindən biri də Həzrət Əli (əleyhissalam)-ın özünün vəfalı köməkçisi və sərdarı Malik Əştərə yazdığı ***"Əhdnamə"*** və ya "***Tarixi fərmandır".*** Bu fərman on dörd əsr əvvəldən indiyə qədər əbədi insaniyyət nişanəsi kimi İslam mədəniyyəti tarixində yadigar qalmışdır.

İmam bu məktubu, yaxın dostu və köməkçisi, İslam qoşununun sərkərdəsi Malik Əştəri Misrə göndərərkən yazmışdır. Malik Əştər İslamın hökmünü icra etmək və Əli (əleyhissalam)-ın əmrini yerinə yetirməkdən ötrü bu ölkəyə gedirdi. İmam Əli (əleyhissalam)-ın bu məktubda Malik Əştərə xitab edib İslam hökumətini hansı qanunlarla idarə etmək lazım olduğunu buyurmasına baxmayaraq, həqiqətdə hansı

məkanda və zamanda olmasından asılı olmayaraq, bütün insanlar bu məktubun dinləyicisidirlər. Başqa sözlə desək, bu məktubda insanı tərbiyə edən qanunlar qeyd edilmişdir ki, günəş kimi şərqdən-qərbə qədər bütün dünyaya nur saçır. Bu nuru hamı görür və hiss edir, yalnız mə`nən kor və qəlbi bağlı insanlar bu müqəddəs nurdan xəbərsiz qalmışlar.

Malik Əştərə yazılan ***"Əhdnamə"***də Həzrəti Əli (əleyhissalam)-ın qısa fikir və nəzərləri çox dəqiq şəkildə bəyan olunmuş, hər bir insanın vəzifəsi aydın şəkildə canlandırılmışdır. Belə ki, hər kəs, istər qul, istərsə də azad, istər cəmiyyət üzvü, istərsə də İslam hökmlərini icra edən hakim öz vəzifəsini aydın şəkildə dərk edib anlayacaqdır.

Məktubda Malik Əştərə deyilən tövsiyələr əslində bütün insanlara və bəşəriyyət tarixinə edilir. Doğrudan da, əgər Həzrətin tövsiyələrinə əməl olunsa, cəmiyyətdə ədalət və əmin-amanlıq tam mə`nada bərqərar olunacaq, insan cəmiyyətində qarşılıqlı yardım və kömək etməyə şərait yaranar, insanlar, elm, iman və huşyarlıqla İslam göstərişi əsasında nəfsini mə`nəvi çirkinliklərdən paklaşdırmağa məşğul olar, özlərini rəzil xislətlər və fəsaddan təmizləyərək hamılıqla Allahın mö`min və saleh bəndələri kimi Allah yoluna gələr, yalnız düzgün yolu getməyi qarşılarına məqsəd qoyarlar.

Bəli, bu ***"Əhdnamə"*** insanın dünya və axirətinin xoşbəxliyinə zəmanət verir, düzgün yolu insana göstərir. Ona görə ki, həzrət bu məktubda hər şeydən əvvəl insan cəmiyyətinin hər bir fərdini müəyyən tonla, ayıldıcı xitabla mə`nəviyyat, şərafət və sədaqət dünyasına də`vət edir. Bu əzəmətli də`vət də məhz

ictimai ədalətin bərqərar olunması, zülm və təcavüzkarlıqla mübarizə, azadlıq, qanun qarşısında bərabərlik və iman əsasında gerçəkləşə bilər.

Gələcək bəhslərdə Həzrətin bu məktubunu hissə-hissə araşdıracağımıza görə məktub haqqında bundan artıq mə`lumat verməyə ehtiyac yoxdur. Ona görə ki, müqəddimədən məqsəd məktubun mə`nası və xüsusi əhəmiyyəti haqqında qısa tanışlıq vermək idi.

## *MALİK ƏŞTƏR NƏXƏİNİN ŞƏXSİYYƏTİ*

Hər şeydən əvvəl bunu qeyd edək ki, İslamın böyük sərkərdələrindən olan Malikin xüsusiyyətini və şəxsiyyətini tanımaqla aydın olar ki, Həzrəti Əli (əleyhissalam) nəyə görə belə bir misilsiz məktubu onun üçün yazmışdır. İmam (əleyhissalam)-ın bu məktubun tarixdə əbədi qalacağını bilməsi ilə yanaşı, onun adını məktubda qeyd etməsi, əslində bütün bəşəriyyəti nəzərdə tutduğuna görə idi. Bəli, İmam Əli (əleyhissalam) belə bir işi dəlilsiz görməzdi. İmamın əzəmətli və tarixi məktubunu alan şəxs yüksək məqama və çoxlu üstünlüklərə malik olmalı idi.

Malik Əştərin şəxsiyyəti barəsində bəhsə başlamazdan əvvəl, yaxşı olardı ki, Həzrəti Əli (əleyhissalam)-ın onun haqqında buyurduğu kəlamı bəyan edək və o Həzrətin özünün Malik barəsində fikrini nəzərə alaq. Bildiyiniz kimi, Malik Əştər, imam Əli (əleyhissalam) tərəfindən ədaləti bərqərar etmək üçün Misrə vali göndərilir. Amma o, Misrə tərəf hərəkət edərkən yol əsnasında Müaviyənin xaincəsinə tökdüyü tədbir əsasında zəhərlədilir və şəhid olur. Əlbəttə, həzrəti Əli (əleyhissalam) öz imamət elmi ilə

bilirdi ki, Malik özünün göndərildiyi yerə gedib çıxmayacaq və İslam şəhidlərinə qovuşacaq, nəticədə ***“Əhdnamə”***nin maddələrini o ölkədə icra etməyə macal tapmayacaq. Bununla belə Malikin şəhadət xəbərini və onun necə şəhadətə yetməsini o Həzrətə xəbər verdikdə, Həzrət dərin narahatçılıqla matəmə qərq olur. Malik haqqında tarixi bir cümlə buyurur. Belə ki, o cümlənin vasitəsi ilə Malikin şəxsiyyəti haqqında ən gözəl və aydın nəticəyə gəlmək olar. Həzrət buyurur: ***“Həqiqətdə, mənim üçün Malikin məqamı, Peyğəmbərin (səlləllahu əleyhi və alih) yanında mənim məqamım kimi idi. ”***

Bu kiçik cümlənin dərin mə`nalarına diqqət etdikdə Malikin məqam və şəxsiyyətinin nə qədər uca olduğu aydınlaşır. Əks halda, İmam heç də səbəbsiz söz deməzdi, mə`sum İmamın sözlərində şişirtmə və mübaliğə də olmaz. Buyurduğu hər bir kəlmə xalis həqiqətdir. Diqqət etdikdə görəcəksiniz ki, İmam Əli (əleyhissalam) Malik haqqında mübaliğəsiz söz danışır, onu, özünün İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) yanında olan müqəddəs vücuduna bənzədir. Beləliklə, həmin bəyandan aydın olur ki, həzrəti Əli (əleyhissalam) İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) yanında ən böyük və layiqli şəxsiyyət, İslam məktəbinin kamil şagirdi sayıldığı kimi, Malik Əştər də Həzrət Əli (əleyhissalam)-ın nəzərində İslam məktəbinin ən layiqli şagirdi və böyük şəxsiyyəti hesab olunurdu. Qeyd edək ki, İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) yanında Əli (əleyhissalam)-dan layiqli və şəxsiyyətli bir insan yox idi. İmam da Malik Əştəri yüksək vəsflə tə`rifləyir, onun üçün heç kəsin çata bilmədiyi ən üstün məqam tə`yin edir. Buna

görə ki, İmam Əli (əleyhissalam) heç kəsin haqqında belə bir cümlə söyləməmişdir.

### *İSLAM PEYĞƏMBƏRİNİN (səlləllahu əleyhi və alih) NƏZƏRİNDƏ MALİK ƏŞTƏRİN ŞƏXSİYYƏTİ*

Malik Əştərin yüksək şəxsiyyəti və məqamını göstərən başqa dəlillərdən biri də illərlə öncə onun barəsində İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) mübarək dilindən deyilən cümlədir. O zaman bu sözlərin kimin haqqında olduğu heç kimə mə`lum deyildi. Amma, zamanın keçməsilə Peyğəmbərin (səlləllahu əleyhi və alih) gələcəkdən verdiyi xəbərlər öz yerini tutur, mə`lum olur ki, bu dəyərli sözlər Malik Əştər Nəxəi haqqındadır. Əsl hadisə (tarixdə azacıq fərqlə nəql olunur) aşağıdakı kimidir:

İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) böyük əshablarından biri olan Əbuzər belə nəql edir: ***Bir gün Peyğəmbər (səlləllahu əleyhi və alih) bir dəstə əshabı ilə birlikdə oturmuşdu. Peyğəmbər (səlləllahu əleyhi və alih) oturanlara xitab edərək buyurdu: "Sizlərdən biri günlərin birində uzaq səhralarda, çöllükdə elə bir halda vəfat edəcəkdir ki, onun ətrafından çox uzaqda heç bir yaşayış olmayacaq. Ölüm ayağında onun yanında heç kəs olmayacaq ki, ona qüsul versin, kəfənləyib dəfn etsin. Amma həmin yerə Allahın bir dəstə mö`min bəndəsi gələr və soruşarlar ki, burada bir qərib dünyadan gedib, görəsən haradadır?! Gəlib çatdıqdan sonra onun barəsində bütün İslam mərasimlərini icra edərlər. Onu kəfənləyib ehtiramla torpağa tapşırarlar. "***

O vaxt heç kəs bilmirdi ki, bu iş orada olanların hansının başına gələcək. Amma zamanın keçməsilə

məsələ aydınlaşır. İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) dünyasını dəyişib Allahın rəhmətinə qovuşur. Həzrəti Əli (əleyhissalam) evdə oturur. İslam hökuməti top kimi əldən-ələ keçir, nəhayət, üçüncü xəlifə Osmana çatır. Əbuzər, Osmanın əmri ilə Məkkə ilə Mədinə arasında yerləşən otsuz, susuz çöllük olan ***"Rəbəzə"*** adlı məntəqəyə sürgün olunur. O, bir müddət kiçik ailəsi ilə birlikdə o biyabanda qalır və ailə üzvləri tədriclə aclıqdan ölür. Əbuzər yalnız öz qızı ilə quru səhrada əzab-əziyyətlə həyatını davam etdirir. Nəhayət, əcəl onun da sorağına gəlir. Əbuzər hiss edir ki, axır nəfəsləridir, az qalır ki, ruh bədənindən çıxsın. Qızını səsləyib buyurur: İndi yəqin edirəm ki, İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) "səhralıqda tənha ölən şəxs" haqqında buyurduğu sözlər mənim haqqımda imiş. Ona görə ki, o vaxt həmin məclisdə iştirak edən bütün dostlarımın hamısı vəfat edib. Hər birisi bir şəhərdə, ya da kənddə dünyadan gedib. Yalnız mən bu çöllüyə gəlib çıxmışam. Amma qızım, əsla narahat olma! İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) buyurduğuna görə mən öldükdən sonra Allahın bir dəstə xeyirxah bəndəsi buraya gələcəklər. Mən öləndən sonra yol kənarına gedib onların yolunu gözlə. Elə ki, gəldilər, əhvalatı onlara söylə. Arxayın ol, onlar hökmən mənim sorağıma gələcəklər.

Əbuzərin qızı nəql edir: "Atamda ölüm nişanələrini gördükdə, özümü yol kənarına çatdırdım. Əvvəlcə heç bir bəni-adəmdən əsər-əlamət görmədim. Amma bir az sonra uzaqdan bir karvan göründü. Elə ki, mənə yaxınlaşdılar, gördüm ki, Malik Əştər onların qabağında hərəkət edir. Məni görüb dayandılar. Mən də bütün əhvalatı onlara söylədim. Dedim ki, atam-

Peyğəmbərin (səlləllahu əleyhi və alih) səhabəsi can üstədir. Bunu eşidən kimi Malik Əşətər yanındakılarla birlikdə dərhal yola düşdülər. Atam artıq dünyasını dəyişmişdi. Onlar bütün şər`i hökmləri yerinə yetirib atamı izzət və ehtiramla dəfn etdilər. ”

Bütün bunları nəzərə almaqla mə`lum olur ki, İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) Malik Əştəri Allahın saleh və layiqli bəndəsi kimi qələmə verir. Xoş olsun Malikin məqam və əzəmətinə ki, İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) onu belə vəsf etmişdir.

### *DÜŞMƏN DİLİNDƏN TƏ`RİF*

İndi də Müaviyənin Malik Əştər haqqındakı tə`rifini aydınlaşdıraq. Çünki, düşmən tərəfindən tə`riflənmək də xoşdur. Düşmənin tə`rifi qarşı tərəfin həqiqi simasını və əzəmətini göstərir. Əvvəldə qeyd etdik ki, Malik Əştər, Müaviyənin məkrli tədbiri və bir nəfər xainin vasitəsi ilə zəhərlənib şəhid edildi. Müaviyə bu xəbəri eşidən kimi, sevincək mənbərə çıxır ki, bu xəbəri əhaliyə e`lan etsin. O öz xütbəsinə başlayır və sözlərinin əsnasında Malik Əştərin ölümünü aşağıdakı kimi bəyan edir:

***“Camaat! Bilin ki, Əli İbni Əbi Talibin iki əli vardı. Bu gün hər iki əli kəsilib və əlsiz qalıb. Əllərindən biri Əmmar Yasir idi ki, Siffeyn döyüşündə öldürüldü. Başqa əli isə Malik Əştər idi. Bu gün onun ölüm xəbəri mənə yetişib. Belə isə şad olun ki, Əli əlsiz qaldı!”***

Diqqət edin: Müaviyə nadanlıq üzündən Malik Əştəri bu cür tə`rifləyir. Bu da Malik Əştərin uca məqamına bir işarədir. Müaviyənin Malik Əştəri

Həzrəti Əli (əleyhissalam)-ın ***"ikinci əli"*** adlandırmasından mə`lum olur ki, hətta qatı düşmənlər belə Malik Əştərin İmamın yanında nə qədər böyük məqama malik olmasını bilir və e`tiraf edirlər. Belə olduqda Həzrət Əli (əleyhissalam)-ın Malik Əştəri İslam valisi kimi tə`yin edərək ictimai ədaləti xalqa bəyan etməsinə güclü əsas vardır.

### *MİSİR HAQQINDA*

Tarixi faktlara görə Misir ölkəsi o zaman təkcə İslam ölkələri arasında yox, bütün dünya ölkələri içərisində ən çox inkişaf etmiş mədəni bir ölkə idi. Tarixi sənədlər göstərir ki, Misir ölkəsi bizim e`ramızdan 400 il əvvəl inkişaf etməyə başlamışdır. Fir`onlar sülaləsinin hakimiyyəti dövründən başlayaraq bu ölkədə çoxlu elmi mərkəzlər və kitabxanalar yaranıb inkişaf etməyə başlamışdır. Bu elmi inkişafın əsas səbəbi də yunanlıların bir dəstəsinin ölkəyə başçılıq etməsi olmuşdur. Elm ab-havasında böyümüş əsl yunanlıların ölkədə hakimiyyətdə olması ilk növbədə müxtəlif elmlərin, o cümlədən fəlsəfə, hikmət, əqli və nəqli elmlərin genişlənməsinə səbəb olur. Bu barədə yazılanların bə`zilərinin əfsanə olmasına baxmayaraq, bütün bunlar göstərir ki, Misir ölkəsi qədimdən elm və fəlsəfə mərkəzi olmuşdur.

### *İSGƏNDƏRİYYƏ ŞƏHƏRİ*

Tarixi sənədlərə görə Misrin ən mühüm elm və mədəniyyət şəhərlərindən biri İsgəndəriyyə şəhəridir. Bu şəhər hətta hal-hazırda belə, Misrin ən mühüm şəhərlərindən hesab olunur. Bu şəhər eramızdan 400 il əvvəl Makedoniyalı İsgəndər vasitəsi ilə salınmışdır.

Müsəlmanların Misri fəth etdiyi vaxta qədər (təxminən 100 ilə yaxın) bu şəhər Misrin mühüm şəhərlərindən biri və paytaxt hesab olunurdu. İsgəndəriyyə şəhərinin mühüm əhəmiyyəti onun elmi mərkəz olması idi. İsgəndərdən sonra onun canişinləri bu şəhərdə elm və mədəniyyəti inkişaf etdirməyə başladılar. Onlar İsgəndəriyyədə bir neçə elm və tədqiqat mərkəzləri, muzeyləri, kitabxanalar, tədris ocaqları və təhsil mərkəzləri yaratdılar. Əslində onlar qısa müddətdə dünyada şöhrət tapan elmi akademiyanın bünövrəsini qoydular. Dünya alimləri və elm tədqiqatçıları hər tərəfdən nəzərlərini bu elmi mərkəzlərə yönəltdilər. Tarixi sənədlərə görə, o zamanlar dünyanın bütün həkimləri, filosofları, əqli və nəqli elm sahibləri ora üz tuturdular, böyük bir elm ocağı və əzəmətli kitabxana təşkil edirdilər. Elmi və mədəni sahələrin, akademiyanın yüksək dərəcəli alimlər yetişdirməsi o dərəcəyə çatır ki, İsgəndəriyyənin və Misrin bir çox alimləri Yunanıstanın böyük alimləri ilə mübahisə aparır, hətta bə`zi sahələrdə yunan alimlərinə qələbə çalırdılar. Buna görə də bu alimlərin adları dünyanın məşhur və tanınmış şəxsiyyətləri arasında qeyd olunur. Bəşəriyyət əsrlər boyu onların əsərlərindən istifadə edir. Tanınmış təhqiqatçı və tarixçi Corc Sartonun sözləri dediklərimizi təsdiq edir. O, qərbli və məsihi bir adam olmasına baxmayaraq, vicdanlı və insaflı olduğuna görə e`tiraf edir ki, İslam dininin dünya elm və mədəniyyətinin boynunda böyük haqqı vardır. Bu şəxs hətta İslam alimləri barəsində təhqiqat edir və yazır:

*“**İki şey nəzərdən qaçıb və elm tarixində olduğu kimi qeyd olunmayıb. Bu barədə ixtilaf əmələ gəlib.***

***Birinci məsələ odur ki, şərqin elmi barəsində yaxşı təsəvvür yayılmayıb. Elmin yunanlardan başlanmasını təsəvvür etmək çox gülünc bir fikir olardı. Ona görə ki, "Yunan elmlər mö`cüzəsin"dən min illərlə əvvəl, Misir və başqa ölkələr elm haqqında çoxlu işlər görüb çalışmışlar. Yunan elmi, əslində bu elmləri təzədən dirçəldib, heç də onu özləri ixtira etməmişlər. İkinci məsələ budur ki, şərq və yunan elmlərində yaranan bə`zi şəraitlər düzgün olmayan bə`zi ehtimalların qəbul edilməsinə səbəb olsun. Yunan elminin inkişafında şərq elminin əsl səbəb olması məsələsini gizlətmək ən pis işlərdən biridir. Tarixçilərin çoxunun ehtimal verdiyi məsələlərin əslinə diqqət etmək elmin inkişafının qarşısının alınmasında çox böyük tə`sir qoymuşdur. Onlar, bəlkə də, bu ehtimal və xətaları bir neçə qat etmişlər. Halbuki, bu cür məsələlərin həmin vaxtda aradan aparılması mümkün idi. "***[1]

Başqa yerdə Misrin mədəni inkişafı haqqında belə yazır: "***Əlbəttə, bizim eradan əvvəl, Misirdə olan elmi inkişafın vəziyyətini və hansı şəraitdə olduğunu bəyan etməyə qüdrətimiz yoxdur. Bunu qeyd etmək kifayətdir ki, Misrin bizim eradan əvvəlki elmi-mədəni tarixi "daş dövrünün" axırlarına təsadüf edir. Qədim misirlilər əkinçiliyin müxtəlif növlərində də usta idilər. Əhalinin arpa, buğda, kətan və sair kimi sahələrdə təcrübəsi var idi. İllik təqvim ixtira olunmuşdu. Tarixi həqiqətlər kəşf edilsə, görərik ki, birinci fir`onlar sülaləsi Misirdə hakimiyyətə gəlirlər. Bu dövrdə Misir mədəniyyəti elə yüksək səviyyədə idi ki, "elm və mədəniyyətin ilk və ibtidai səviyyədə inkişafı"***

---

[1] Corc Sarton, «Elm tarixi», müqəddimə

***adlandırmaq qeyri-mümkündür. Bəlkə də o zaman Misrin mədəniyyəti elə səviyyədə idi ki, bir neçə min illik dövranı keçmədən o mədəniyyətə yetişmək olmazdı. "***[1]

### *İNKİŞAF VƏ GERİÇİLİK*

Misir tarixində elmi inkişaf dəfələrlə enişli-yoxuşlu yollara düşür. Bə`zən elə vəziyyətə gəlir ki, tam şəkildə aradan getməklə təhdid olunur. Belə ki, tarixçilər yazır:

"Uzun müddət ərzində (təxminən, İsgəndər və onun canişinləri zamanı) Misir dövləti Yunanıstanın siyasi nüfuzu altında idi. Təbiidir ki, bu vəziyyətdə iki ölkənin mədəni və elmi inkişafı bir-birinə qarışmışdır. Amma ***"Bətalis"*** padşahlığıdan sonra yunan inşikafı tənəzzülə doğru gedir. Roma ilə Yunanıstan bir-biri ilə döyüşə başlayan zaman romalılar yunanlılar üzərində qələbə çalırlar. Yunanlıların işğal etdiyi bütün ərazilər, o cümlədən Misir və İsgəndəriyyə, yenidən Roma imperatorluğunun nüfuzu altına keçir. O dövrdən başlayaraq Misrin elmi və mədəni inkişafı, İsgəndəriyyə akademiyası çətinliklərlə qarşılaşır. Bir neçə dəfə tənəzzül edir və yenidən inkişafa başlayır. Nəhayət, 400-cü ildə Roma dövləti iki qismə bölünür; biri şərqi Roma, (paytaxtı indiki Türkiyənin İstambul şəhəri), o birisi qərbi Roma (indiki İtaliyanın mərkəzi) adlanır. Şərqi Roma məsihiyyətə tərəf meyl edir. Məsihiyyət, Romanın, Yunanın, eləcə də Misrin və İsgəndəriyyənin elmi və mədəni inkişafına mənfi tə`sir göstərir. Əsas e`tibarilə qərbin renosans dövranı və

---

[1] Corc Sarton "Elm tarixi" müqəddimə, 21-ci səh

tənəzzül etməsi həmin orta əsrlərdən başlayır. Şərqi Roma zalım hökumət olması ilə yanaşı, məsihiyyətin mədəniyyətini dəyişdirən kilsə başçılarını himayə etməklə, bəşəriyyətin elmi və mədəni inkişafına qarşı düşmənçiliyə başlayır. Ona görə ki, məsihiyyət kilsəsi elm və fəlsəfənin öyrənilməsini və tədris edilməsini məsihi dini ilə müxalif hesab edirdilər. Bu yolda addım atan hər kəsi yolundan azmış, kafir, Allahın və kilsənin düşməni sayırdılar.

Əlbəttə, romalıların hakimiyyət dövründə vəziyyət heç də sabit deyildi. Bu dövrdə İsgəndəriyyə bir neçə dəfə elmi inkişafa doğru irəliləmiş, elm və mədəniyyətin təzədən dirçəlməsi üçün münasib fürsətlər yaranmışdı. Lakin hər dəfə məzhəbi ixtilaflar nəticəsində Misrin elmi və mədəni inkişafı özünün təkamül yolunda zərərə uğrayır və onun son nöqtəsinə çata bilmir. Bütün bunlarla yanaşı, Misir ölkəsi özünün uzaq və parlaq keçmişi ilə elm və mədəniyyət sahəsində təkamülə çatmışdı, o vaxtkı ölkələr, xüsusilə, İslam dövlətləri arasında xüsusi mövqeyə malik idi. Təbiidir ki, Həzrət Əli (əleyhissalam) ***"Əhdnaməni"*** yazanda bunların hamısını nəzərdə tutmuşdu və Malik Əştəri hansı ölkəyə göndərdiyini, əhalisinin hansı xüsusiyyətlərə və mövqeyə malik olduğunu, bu əhaliyə hökumət etmək üçün hansı şeyləri bilməli olduğunu, oranın hakiminin hansı şəraitlərə malik olmasını yaxşı bilirdi. Həmçinin, bunu da yaxşı bilirdi ki, hansı böyük şəxsiyyəti və yüksək əxlaqi və mə`nəvi səciyyələrə malik olan bir kəsi bu ölkəyə hakim göndərir. Ona görə də Misir ölkəsi haqqında Malikə tövsiyə etdiyi kimi, misirlilərə də Malik haqqında tövsiyə və onları Malikin şəxsiyyəti ilə tanış etmişdi. Həzrət Əli (əleyhissalam)

Misrin sabiq valisi Məhəmməd ibn Əbi Bəkrin qətl xəbərini eşitməmişdən əvvəl, Maliki ora göndərdi və Misir əhalisinə belə bir məktub yazdı:

***"Agah olun! Mən Allahın qılınclarından birini sizə tərəf göndərirəm. Onun nə zərbəsinin xətası var, nə də ağzı kütdür. Əgər sizə köç etmək əmrini versə, köçün! Əgər sizə qalmaq fərmanı versə, qalın! Ona görə ki, o mənim göstərişim olmadan nə irəli gedir, nə də arxaya çəkilir... "[1]***

## *MİSİRİN SİYASİ VƏZİYYƏTİ*

Misrin mədəni və elmi inkişafından bəhs olunduqda, bu ölkənin başqa ölkələrlə siyasi vəziyyətinə də işarə etmək zəruridir. Müsəlmanların Misri fəth etməsindən təxminən 100 il əvvəl bu ölkə Makedoniyalı İsgəndərin hakimiyyəti altında idi. Ondan sonra İsgəndərin canişinləri bir müddət bu ölkədə hökmranlıq etmişlər. Az sonra romalılar yunanlılara qalib gəldi və Misri özünün siyasi nüfuzu altına aldı. Bu ölkə uzun illər boyu şərqi Roma imperiyasının (Bizans imperiyasının) ən sərvətli məntəqəsi hesab olunurdu. Bərəkətli torpağa və bol suya malik olduğuna görə əkinçilikdə ildə üç dəfə məhsul almaq olurdu. Bu cəhətdən Misir ölkəsi Bizansın "dolu anbarı" sayılırdı. [2]

Bununla belə, Bizans hökuməti Misrin əhalisi ilə qəddarcasına rəftar edirdi. Buna görə də müsəlmanların Misri fəth etməsindən bir az əvvəl

---

[1] Tarixi Yə`qubi, 2-ci cild, «Əmirəl-mö`mininin (ə) xilafəti» fəsli;

[2] Doktor Zərrinkub: "Bamdade İslam», səh. 116

ölkədə iğtişaşlı vəziyyət hakim idi. Misirlilər Bizans hökumətinə qarşı nifrət bəsləyirdilər. Onlardan əsas e`tibarilə məzhəbi məsələlərdə işkəncə və əzab-əziyyət görmüşdülər. "Yə`qubi" məzhəbinin tərəfdarları, "Qibtilər" və "Məlkal" (Ortodoks) məzhəbinin tərəfdarları Bizans hökuməti ilə müxalifət edirdilər. "Məlkali" keşişləri və hökumət mə`murları zülm və təcavüzkarlıqla məşğul olaraq düşmənçilik toxumu səpirdilər. Müsəlmanların Misri fəth etmələrindən əvvəl İran şahı Xosrov Pərviz Misrə hücum etmiş, oranı döyüş meydanına çevirmiş və bir müddət Nil vadisinin bir hissəsini öz işğalı altında saxlamış idi. Lakin Roma hökuməti başqa bir döyüşdə təzədən Misri Xosrov Pərvizdən geri alır. [1]

Yenidən baş verən döyüşlərdə hər iki tərəfin-istər romalılar, istərsə də misirlilərin rəftarı düşməncəsinə olur. Ölkənin daxili vəziyyəti qiyam və iğtişaşlara səbəb olur. Belə bir böhranlı vəziyyətdə Əmr ibni As Misrə hücum edir. O, "Bəni Üməyyə" tayfasından olan hiyləgər bir adam idi. Sonralar öz həyatını Həzrəti Əli (əleyhissalam)-la düşmənçiliyə həsr edir. O, bu düşmənçilikdə, müsəlmanlara xəyanət etməkdə, hiyləgərlikdə, İslam hökumətinin hərbi dəstələrində təxribat yaratmaqda, Əli (əleyhissalam)-a qarşı müharibə təşkil etməkdə, Həzrətin vəfalı köməkçilərini şəhadətə yetirməkdə əlindən gələni əsirgəmir. Məhz həmin Əmr ibn As Müaviyə tərəfindən Həzrəti Əli (əleyhissalam)-ın Misirdəki nümayəndəsi Məhəmməd İbn Əbi Bəkrlə döyüşə gedir və onu öldürtdürür. Bundan əlavə, Müaviyə tərəfindən Malik Əştəri

---

[1] Doktor Zərrinkub, "Bamdade İslam», səh. 116

şəhadətə yetirmək üçün mə`muriyyət alır. Bu cinayəti də hiyləgərcəsinə yerinə yetirir.

Əmr ibn As cavanlıq vaxtlarında ticarət karvanları ilə Şama və Misrə səfər etdiyi üçün Misrin daxili vəziyyətindən, təbii sərvətlərindən və strateji üstünlüklərindən xəbərdar idi. İkinci xəlifə hakimiyyətə gəldikdən sonra Əmr As dəfələrlə ondan xahiş etmişdi ki, Misri fəth etmək üçün ona fərman versin. Amma xəlifə bu işlə müxalifət edirdi. O zaman Misrin hökmdarı Qeyrus (və ya Kuroş) adlı qafqazlı bir şəxs idi. Ona görə də əhali arasında "Qafqazi" adlandırılırdı. Müsəlmanlar onu "Moqoqos" kimi tanıyırdılar. "Moqoqos",[1] Bizans imperatoru Heraklın (və ya Herakliyusun) əmri ilə Misrə gəlmişdi. Misrin idarəçilik işlərində də imperator Heraklın nümayəndəsi kimi tanınırdı. [2]

Moqoqos Misir ölkəsində məqam və qüdrət kəsb edir. Həzrəti Rəsuli Əkrəm (səlləllahu əleyhi və alih) məktub yazaraq onu İslam dininə də`vət edir. O da İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) göndərdiyi elçi ilə yaxşı rəftar edir və O həzrət üçün çoxlu hədiyyələr göndərir. Hədiyyələrdən biri Qibti tayfasından Mariya adlı kəniz idi. Peyğəmbərin (səlləllahu əleyhi və alih) ondan İbrahim adlı oğlu dünyaya gəlir, amma südəmər dövründə vəfat edir. [3]

İkinci Xəlifə Müaviyənin ədalətsizliyi, israfçılığı və Şam əhalisi ilə oyunbazlığı haqqında mə`lumat aldıqdan sonra bütün bu işləri yoxlamaq məqsədi ilə

---

[1] «Bamdade İslam», səh. 116

[2] Ərəb tarixi, 1-ci cild, səh. 208

[3] "Bamdade İslam", səh. 17-75

Şama səfər edir. Belə bir fürsət gözləyən Əmr As yol əsnasında özünü xəlifəyə çatdırır və ***“Beytül-Müqəddəs”də*** onunla məxfi şəkildə görüşür, Misrə hücum etməyi və oranı fəth etmək məsələsini yenə də ortalığa atır. Xəlifəni bu işə təşfiq etmək üçün Misri tə`rifləməyə başlayır. Yə`qubinin yazdığına görə xəlifəyə belə söyləyir:

***“Mənə icazə verirsənmi ki, Misrə tərəf yola düşüm?! Əgər oranı fəth etsək, müsəlmanlar üçün böyük qüvvə ələ gələcək. Misrin sərvəti bütün ölkələrin sərvətindən çoxdur. Amma döyüşdə hamıdan zəifdirlər.”***

Əmr ibn As Misri xəlifənin gözündə həddən artıq şişirdir və oranın fəthinin asan olmasını ona təlqin edirdi. [1] O, “Misrin fəth olunması İslamın əzəmət və başıucalığına çox kömək edəcək” – deyə tə`kid edir. Amma batində özünün şöhrət və məqamını yüksəltmək fikrində idi. Xüsusən, Xalid ibn Vəlidə çox həsəd aparırdı. Daim istəyirdi ki, onun məqamından ucada olsun, onun kimi qoşun sərkərdəliyini öz öhdəsinə alsın, döyüşlərdə özünün əzəmətini göstərsin. “Ərəb tarixi” kitabında belə yazılır:

***“Əmr ibn As elə bir meydan axtarırdı ki, orada özünün Xaliddən üstünlüyünü göstərsin. İkinci xəlifə “Beytül-Müqəddəsə” gəldikdə, fürsəti qənimət bilib Ömərin yanına gəlir, istəyir ki, Misirlə döyüşdə çoxdankı arzusu olan qoşun başçılığını öz üzərinə götürsün. ”***[2]

---

[1] Tarixi Yə`qubi (farsca tərcümə) , 2-ci cild, səh. 32

[2] Tarixi-Ərəb, 1-ci cild, səh. 206

Əlbəttə, xəlifə Əmr ibn Asın bu təklifi ilə həmişə müxalifət edərək deyirdi ki, Misir romalılırın nüfuzu altındadır, onların başdan-ayağa silahlanmış əsgərləri orada dayanmışlar. Bizim ümidimiz yoxdur ki, İslam qoşunları oranı fəth edə bilsin. Nəhayət, Əmr ibn As dörd min nəfərlik qoşun hazırlayır. Əsgərlərin əksəriyyətini "Əkk" əhalisindən təşkil edir. Xəlifənin xəbəri olmadan bu qoşuna başçılıq edərək Misrə hücum etməyə hazırlaşır. Bu xəbər xəlifəyə çatanda o çox narahat olur. Dərhal bir məktub yazıb, Əqəbə ibn Amir Cəhəninin vasitəsi ilə Əmr ibn Asa göndərir. Xəlifə məktubda Əmr ibn Ası ***"günahkar oğlu günahkar"*** adlandırır və onu hədələyərək yazır:

***"Nəyə görə az qoşunla, romalıların başdan-ayağa silahlanmış qoşunları yerləşən bir ölkəyə hücum edirsən?! Əgər bu məktub sənə yetişəndə Misir torpağına daxil olmamışsansa, dərhal qayıt! Amma Misir torpağına daxil olmusansa, artıq çarə yoxdur, Allaha təvəkkül et və irəli get!"***

Əqəbə ibn Amir Cəhəni, Əmr ibn Asa çatanda artıq İslam qoşunlarının bir hissəsi Fələstinin axırıncı səhra məntəqəsi hesab olunan "***Rəfəh"*** şəhərinə, başqa bir hissəsi isə Misirlə iki günlük fasiləsi olan ***"Əsqəlan"*** şəhərinə daxil olmuşdu. Əmr ibn As Əqəbəni görcək başa düşür ki, xəlifə tərəfindən göndərilib və xəlifə məktubda Misirə həmlə etməmək əmrini vermişdir. Ona görə də Əqəbəyə əhəmiyyət vermədən yoluna davam edir. Bir qədər yol getdikdən sonra Roma dənizinin yaxınlığında, Şam ilə həmsərhəd və Misir ərazilərindən hesab olunan Ureyş məntəqəsinə çatır. Orada Əqəbə ibn Amir Cəhənini çağırır və məktubu ondan alıb açır. Xəlifənin tövsiyəsini bildikdən sonra

qoşun başçılarını və əsgərlərdən bir dəstəsini toplayıb onlardan soruşur. “Hazırda olduğumuz yer hansı ölkədən hesab olunur?” Cavab verirlər: “Misir torpağıdır. ” Əmr As deyir: “Elə isə, hərəkətinizə davam edin. Xəlifə məktubda mənə yazıb ki, əgər Misir torpağına daxil olmamışdan məktubu alsan, yoldan geri dön. Artıq biz Misir torpağına daxil olmuşuq. Geriyə yol yoxdur. ”

Əmr ibn As öz yoluna davam edir. Misir torpağında oranin hakiminin başçılıq etdiyi qoşunlarla döyüşə başlayır. Təxminən bir ay çəkən döyüşdə Əmr ibn As qələbə çala bilmir. Çünki, xəlifənin də xəbər verdiyi kimi, o başdan-ayağa möhkəm silahlanmış əsgərlərlə qarşılaşmışdı. Nəhayət, Əmr ibn As xəlifəyə məktub yazıb ondan kömək istəyir. Xəlifə dörd nəfər qoşun başçısı-Zübeyr ibn Əvam, Miqdad ibn Əsvəd, Übadət ibn Samit və Məsləmət ibn Xalidi on iki min nəfər döyüşçü ilə birlikdə Əmr Asın köməyinə göndərir. Döyüşçülər arasında mühacirlərdən və Peyğəmbər (səlləllahu əleyhi və alih) əshabından on dörd nəfərin Zübeyr ibn Əvamın dəstəsində və on altı nəfər ənsarın Übadət ibn Samitin dəstəsində olması döyüşçülərin əhval-ruhiyyəsini gücləndirir. Təxminən üç ay çəkən döyüşdə, nəhayət İslam qoşunları qalib gəlir. Bütün qala və səngərləri ələ keçirir, Misrin bir hissəsini ələ alırlar. Oranın başçısı Moqoqos müsəlmanlarla danışığa gəlir. Qərara alınır ki, Misir hökuməti hər əsgər üçün iki dinar cizyə (vergi) versin.

Bundan sonra İslam qoşunları İsgəndəriyyəyə tərəf üz tuturlar. [1] İsgəndəriyyədə üç böyük qala və çoxlu

---

[1] Tarixi Yə`qubi, 39-cu səh. Bamdade İslam, səh. 117

səngər var idi. Əsgərlərin sayı da əlli minə yaxın idi. Halbuki müsəlmanların sayı iki mindən artıq deyildi və şəhəri mühasirə etmək üçün lazımınca döyüş sursatları yox idi. Bununla belə, İsgəndəriyyə asanlıqla və sülh yolu ilə təslim olur. Səbəbi də ölkə daxilində baş alıb gedən münaqişə və ixtilaflar idi ki, əhali, müsəlmanlarla döyüşməkdənsə, cizyə (vergi) verməyi üstün tuturlar. Asanlıqla fəth olunan şəhərin misilsiz məhsullar düzənlikləri və geniş inkişaf tarixi var idi. Əmr ibn As özü şəhər haqqında belə mə`lumat verir:

***“Elə bir şəhəri fəth etmişəm ki, onun vəsfində başqa şeyi yox, yalnız bunu qeyd edirəm ki, dörd min istirahət sarayı, dörd min hamam, dörd min nəfər vergi verən yəhudi , dörd min şahzadələrə məxsus saray mənim əlimə düşmüşdür. ”***

Beləliklə, bol sərvəti və məhsuldar düzənlikləri olan Misir ölkəsi müsəlmanların əlinə keçdi. Misrin fəthindən sonra Əmr ibn As orada təxminən dörd il vali oldu.

### *İSLAMDAN SONRA MİSİRDƏ BAŞ VERƏN İKİ MÜHÜM HADİSƏ*

Həzrət Əli (əleyhissalam)-ın Misrin həssas siyasi mövqeyinə diqqət yetirməsinin səbəbini başa düşmək üçün bu ölkə ilə əlaqədar iki mühüm hadisəni qeyd etmək lazımdır. Bu elə bir hadisədir ki, Misir ölkəsinin o vaxt son dərəcə həssas ölkələrdən hesab olunduğunu göstərir. Onlardan biri budur ki, Misir əhalisi tez bir zamanda gördülər ki, ölkənin yeni başçısı (Əmr ibn As) və onun döyüşçüləri əhali ilə yaxşı rəftar etmirlər. Onlara aman verdiklərinə baxmayaraq, əhaliyə əzab-əziyyət və işkəncə verir və onları təhqir edirlər. Bu cür

rəftar əhalinin hər yerdə narazılığına səbəb olur və vəziyyət sür`ətlə dəyişir.

Misrin fəthindən üç il sonra Bizansın dəniz qüvvələri yenidən İsgəndəriyyə şəhərinə hücuma keçir və çalışırlar ki, məntəqəni geri alsınlar. Həmin vaxtda müsəlmanlardan narazı olan əhali onlara arxa çevirərək şəhərin darvazasını Bizans qoşunlarının üzünə açır və şəhəri onlara təslim edirlər. Əlbəttə, Bizans qoşunlarının bu dəfə çox da güclü qoşunları yox idi. Az müddətdən sonra Əmr ibn As Misrin uzaq məntəqəsindən İsgəndəriyyəyə hücum edir və romalıları qovub şəhərdən çıxardır. Amma bu mövzu, məsələnin çox həssas olduğunu göstərir. Həqiqətdə, Misir barıt çəlləyi kimi hər an partlamağa ehtimalı olan bir ölkə idi. Əhali uzun illər yunanlıların və romalıların əsarəti altında olmuşdu. Xüsusən, romalılardan çoxlu əzab-əziyyət görmüşdülər nə yeni vəziyyətə ümid bəsləyirdilər. Onlar İslam dini adı altında hökmranlıq edənlərdən zülm görəcəklərinə əsla inanmırdılar.

İkinci mühüm hadisə isə Osmanın xilafəti dövründə Misir əhalisinin bir dəstəsinin qiyam etməsi və öz ölkələrini tərk edib, zülmün qarşısını almaq üçün Mədinəyə gəlmələri idi. Onlar bir müddət Osmanın evini mühasirədə saxladılar və nəhayət onu qətlə yetirdilər.

### *MİSİRİN ƏHƏMİYYƏTİ GÜNDƏN-GÜNƏ AŞKAR OLUR*

İsgəndəriyyəni fəth etdikdən sonra Misrin bütün bərəkətli məhsuldar torpaqları tədriclə müsəlmanların əlinə keçdi. Demək olar ki, Misrin bütün məntəqələri

müqavimətsiz və asanlıqla müsəlmanlara təslim oldu. Ölkədə "Yə`qubi" məzhəbi ilə "Məlikan" məzhəbi arasında olan uzunmüddətli ixtilaf və keşməkeşlərin aradan qaldırılmasında müsəlmanların böyük rolu oldu. Misrin fəthindən sonra bu ölkə ilə sərhəd olan məntəqələrdə, İslam dini yayılmağa başlayan ərazilər genişlənirdi. O cümlədən qərb tərəfdən müsəlmanlar öz ərazilərini daha da genişləndirdi. Liviya torpaqlarına və nəhayət, İspaniyaya qədər irəlilədilər. Bununla da Misrin müsəlmanlara əhəmiyyəti getdikcə aşkar oldu. Hicrətin 32-ci ilində müsəlmanlar ***"Benta olis"ə*** tərəfə hərəkət etdilər. "Bərqə" məntəqəsini ələ keçirdilər. "Bərbər", "Trablos" və "Ləvate" qəbilələrini özlərinə tabe etdirdilər. Bir müddət sonra Əmr ibn Asın Misirdəki nümayəndəsi Əbdüllah ibn Əbi Sərəh "Trablos" ölkəsində o qədər irəliləyir ki, Afrikanın bir çox mühüm məntəqələrini müsəlmanların tabeçiliyinə gətirdi. Mərkəz şəhəri hesab olunan Kartaj müsəlmanlara vergi verməyi qəbul edərək onlarla sülh bağladı. [1]

Bütün bunları nəzərə almaqla mə`lum olur ki, Misrin coğrafi mövqeyi İslam dünyası üçün çox mühüm əhəmiyyət kəsb edirdi. Bu da ölkənin vəziyyətinə diqqətlə yanaşılmasını və əhalinin əmin-amanlığının tə`min olunmasını tələb edirdi. Amma buna baxmayaraq, üçüncü xəlifənin dövründə bütün işlər diqqətsizlik üzündən öz əhəmiyyətini əldən verdi. Xəlifə Misirə çox e`tinasız yanaşır, əhalinin qəzəbi gündən-günə şö`lələnirdi. Xüsusilə, Osmanın Əbdullah ibn əbi Səroh kimi bir adamı Misirə vali tə`yin etməsi

---

[1] "Ərəb tarixi", səh. 215

və onun əhali ilə amansız rəftar etməsi Misir əhalisini cana gətirmişdi. Halbuki, o, Məkkənin fəthində İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) qəzəbinə düçar olmuşdu və Peyğəmbər (səlləllahu əleyhi və alih) tərəfindən qanı halal edilən on nəfərdən biri idi. [1] Bununla belə, Osman onu Misir kimi həssas məntəqəyə vali tə`yin etmiş və əhali ilə istədiyi kimi rəftar etməsinə tam səlahiyyət vermişdi. Nəhayət, Misrin fəallarından və Osmanla müxalifətdə olan Məhəmməd ibn Hüzeyfə Əbdüllah ibn Əbi Sərəhi ölkədən qovub Misrin idarəçiliyini öz əlinə almaq istəyir. Ona görə də Əbdüllahı ölkədən qovub çıxardıqdan sonra məscidə gedir. Camaat namazını qıldıqdan sonra e`lan edib deyir ki, Misrin valisi mənəm.

## *HƏZRƏT ƏLİ (ƏLEYHİSSALAM) MİSRİN VƏZİYYƏTİNİ YAXŞILAŞDIRIR*

Həzrət Əli (əleyhissalam) 25 il ***"gözündə tikan, boğazında sümük qalmış"*** vəziyyətdə evdə oturub, İslam naminə uzun müddət sükut edir. Nəhayət, Peyğəmbərin (səlləllahu əleyhi və alih) canişinliyi olan xilafət mənsəbini – çoxdankı haqqı idi – öz öhdəsinə alır. Hər şey dəyişməyə başlayır. O cümlədən Həzrət, Misrin həssas məntəqə olduğunu bildiyi üçün xilafətə gələn kimi bu ölkənin vəziyyətini sahmana salmağa başlayır. İlk növbədə e`timad etdiyi şəxslərdən Qeys ibni Sə`d ibni Übadəni Misrin təzə valisi tə`yin edir. Qeys Misirə gedir və hökuməti öhdəsinə alır. Amma Müaviyə çoxdan bəri tamah gözünü Misirə dikmişdi və oranı öz nüfuzu altına almaq istəyirdi. Başqa

[1] "Tarixi Yə`qubi", 2-ci cild, «Osmanın xilafəti» qisməti.

tərəfdən Əli (əleyhissalam)-a çoxdan düşmənçilik bəsləyirdi. O fürsəti münasib görüb dərhal Qeysə məktub yazır. Təklif edir ki, Əlidən əl çəkib, mənə bey`ət et! Müaviyə bu məktubda bütün məkr və hiyləgərliklərini işə salır. Bir tərəfdən Qeysə yüksək məqamlar və`d verərək onu arxayın edir, başqa tərəfdən Həzrət Əli (əleyhissəlam)-ın Osmanın qətlində əli olmasını iddia edir və onu Osmanın qatili adlandırır. Amma bunların heç biri Qeysə tə`sir etmir və onu yolundan azdırmır. Qeys bir tərəfdən Misirə təzə gəldiyi, başqa tərəfdən Müaviyə kimilərin hiylələrinə qarşı hansı tədbirlərin görülməsini bilmədiyi üçün Müaviyəyə qəti cavab vermir. Bəlkə də işi dolaşıq vəziyyətə salır. Müaviyəyə ikitirəli cavab yazır ki, onun əlində əsas olmasın. Müaviyə təzədən məktub yazır. Bu dəfə Qeysə və`d vermək əvəzinə onu şiddətlə qorxudur ki, təklifi qəbul etsin. Qeys bu dəfə davam gətirə bilmir, aşkar şəkildə rədd cavabı yazaraq Həzrət Əli (əleyhissalam)-ın tərəfdarı olduğunu bildirir. Məktubda yazır: ***"Sən və sənin ətrafında olanlar hamınız batil yoldasınız. Haqq yalnız Əli (əleyhissalam) və onun ətrafındakılarladır***. "

Məktub Müaviyənin əlinə çatan kimi Qeysdən ümidini kəsir, amma hiylələrindən əl çəkmir. Bu dəfə Qeys tərəfindən başdan-başa yalanla dolu bir məktub hazırlayır. Qeysin əvvəlki məktubunu da ona əlavə edib Şamda e`lan edir ki, Əlinin Misirə göndərdiyi nümayəndə (Qeys) mövlasından üz döndərib, mənimlə bey`ət etdi. Bu xəbər Həzrət Əli (əleyhissalam)-a və əshaba çatanda çox narahat olurlar. Söz-söhbət başlanır. Əshab tə`kid edirlər ki, (məxsusən, Əbdullah ibn Cə`fər) bu fitnəni aradan qaldırsın və Qeysi dərhal

Misrin hakimliyindən kənar etsin. Amma Həzrət bu təkliflə müxalifət edib buyurur: ***“Bu işdə hiyləgərlik işlənib. Mən Qeysi yaxşı tanıyıram və bilirəm ki, bu işləri görməz. Bəlkə də bu iş ona vurulan töhmətdir. ”***

İmam bütün bu işlərdən xəbərdar olmaq və Qeysin vəfadarlığını yoxlamaq üçün qərara alır ki, onu hökumətdən kənar etsin və Məhəmməd ibn Əbi Bəkri onun əvəzində Misirə vali seçsin. [1]

---

[1] Burada bə`ziləri belə bir sual verə bilər ki, məgər mümkündür ki, İmam Əli (əleyhissalam) Qeysin günahsızlığını və bu sözlərin ona vurulan töhmət olmasını bilməklə yanaşı, ətrafındakı bə`zi şəxslərin narazılığına görə onu öz məqamından kənarlaşdırsın? Cavab verilir: “Bəli, şayiələrin cəmiyyətdə ruhi sarsıntıların yaranmasına səbəb olduğu vaxtda İslamın əsas ideyalarını hifz etməkdən ötrü şərait bunu tələb edirdi ki, həzrəti Əli (əleyhissalam) kimi şəxsiyyət, özünün batini meylinin əksinə olaraq cəmiyyətdə əmin-amanlığı qorumaq üçün belə bir iş görsün və buna razılıq versin. Bu məsələnin nümunəsini öz zəmanəmizdə də görmüşük. Belə ki, İranda yüksək dövlət məqamında olan Bəni Sədr, İslam inqilabının ziddinə hərəkət etməsinə baxmayaraq layiq olmadığı halda bir müddət öz vəzifəsində saxlanılır. Onu vəzifəsindən kənarlaşdırdıqdan sonra İmam Xomeyni buyurdu: “Mən bir il bundan əvvəl bilirdim ki, Bəni Sədr İslam inqilabının ziddinə hərəkət edir. ” Amma şərait və cəmiyyətin vəziyyəti Bəni Sədrin ifşa olunması üçün münasib deyildi. Buna görə də İmam Xomeyni bu cür şəxsiyyətin təxminən bir il müddətində vəzifədə qalmasına dözür. Bunları müqayisə etməklə həzrəti Əli

Məhəmməd ibn Əbi Bəkr Misirə çatdıqdan sonra hökuməti öz öhdəsinə alır. Həzrətə məktub yazaraq belə bildirir:

***“Halal-haramın ümumi qanunlarını və nəsihətlərini yazılı şəkildə mənə göndərin ki, öz vəzifəmi yerinə yetirməkdə qanuni olum, İslam hökmlərinə əsasən əməl edərkən xətasız olum, iztirab hissi keçirməyim. ”***

Həzrəti Əli (əleyhissalam) onun cavabında geniş və dolğun məzmunlu bir məktub yazaraq özünün dərya elmindən istifadə etməklə İslam hökmlərinin lazımi göstərişlərini və bə`zi qanunlarını onun ixtiyarında qoydu. Malik Əştərə yazılan məktubla yaxından əlaqəsi olan bu məktub ***Nəhcül-bəlağədə*** yazılmışdır. Hər iki məktub böyük əhəmiyyətə malikdir. İlahi həqiqətləri axtaran və Əli (əleyhissalam)-ın elmi ilə maraqlananlar ***“Nəhcül-bəlağəyə”*** müraciət edə bilərlər.

### *MƏHƏMMƏD İBNİ ƏBU BƏKRİN ŞƏHADƏTİ VƏ ONDAN SONRAKI HADİSƏLƏR*

Məhəmməd ibn Əbi Bəkrin Misirdə vali olması çox çəkmir. Müaviyə fitnə-fəsad salmaq üçün öz dostu, müşaviri, siyasətbaz və hiyləgər Əmr ibn Ası Misirə göndərir. Əmr ibn As hiylə qurub Məhəmməd ibn Əbi Bəkri şəhadətə çatdırır. Onun şəhadətindən sonra bütün dövlət sənədləri, kitablar, məktublar, o cümlədən Həzrəti Əli (əleyhissalam)-ın Məhəmmədə yazdığı dərin mə`nalı əməli qanun Əmr ibn Asın əlinə

---

(əleyhissalam)-ın hansı şəraitdə bu işi gördüyünü dərk etmək olar.

keçir. O, məktubu oxuyub məzmunu ilə tanış olduqdan sonra Müaviyəyə göndərir. Müaviyə məktubu oxuyanda həzrət Əli (əleyhissalam)-ın dərin mə`nalı sözləri ilə tanış olur, təəccübdən donub qalır. Onu yanındakılara göstərir. Vəlid ibn Uqbə[1] bu məktubu gördükdə Müaviyəyə təklif edir ki, onu yandırsın. Amma Müaviyə razı olmayıb deyir:

***“Sən aqil deyilsən. Heyifdir ki, belə bir məktubu yandıraq. Yaxşı olar ki, onu saxlayıb göstərişlərindən istifadə edək. Əgər onu yandırsan, bundan sonra bir kəs tapılmayacaq ki, hətta bir kəlmə də olsa, onun mə`rifət və elm dəryasından bir şey öyrənsin və bizə öyrətsin!”***

Vəlid deyir: ***“Əgər əhali başa düşsə ki, sən Əlinin yazılarını özünə örnək seçmisən və ondan istifadə etməklə işlərini idarə edirsən, onda bu iş düz olarmı?”***

Müaviyə cavab verir: ***“Bəs sən mənə təklif edirsən ki, misilsiz elmdən ibarət olan bir məktubu yandırım? Allaha and olsun, mən indiyə qədər bundan geniş və möhkəm elm görməmişəm və eşitməmişəm!”***

Vəlid deyir: ***Sən ki, Əlinin elminin bir guşəsini göstərən kiçik bir məktubu bu qədər təəccüblə tə`rifləyirsən və ona təslim olursan, bəs nəyə görə bütün bu elmlərdən dəfələrlə çox elmə sahib olan məktub sahibi ilə be`yət etmirsən və Onunla döyüşə girmisən?”***

Müaviyə bu sualın qarşısında məntiqi bir cavab tapa bilmir. Ona görə də bəhanəyə əl atıb həqiqətdən

---

[1] Bu həmin şəxsdir ki, Osmanın xilafəti dövründə şərab içib, sərxoş halda sübh namazına pişnamaz olub dörd rəkət qılmış və məsxərə ilə camaata üz tutub demişdi: «Əgər çox istəyirsiniz deyin, mən qılaram. »

qaçaraq Həzrəti Əli (əleyhissalam)-ın Osmanın qətlində müdaxilə etməsi məsələsini irəli çəkir və deyir:

***“Bizim döyüşümüz Osmanın intiqamını almağa görədir. Əlbəttə, mən əhaliyə deməyəcəm ki, bu məktub Əlidən gəlib. Əksinə söyləyəcəyəm ki, məktubu Məhəmmədin atası Əbu Bəkr oğluna yazıb və onda oğluna yaxşı qanunlar yazıb!”***

Məhəmməd ibn Əbi Bəkrin şəhadətə yetməsi belə olmuşdur: O hakimiyyətinin ilk çağlarında Həzrət Əli (əleyhissalam)-la bey`ət etməyən bir dəstə adama xəbərdarlıq etmişdi ki, ya gərək bey`ət edəsiniz, ya da Misirdən çıxasınız. Onlar Həzrət Əli (əleyhissalam)-la bey`ət etməyi qəbul etmir və Məhəmməd ibn Əbi Bəkrlə döyüşə başlayırlar. Başqa tərəfdən, əvvəldən tamamilə gözünü həmişə Misirə tikmiş Müaviyə bilirdi ki, Misri ələ keçirməklə Əli (əleyhissalam)-la axıra qədər döyüşmək və Onun qurduğu ədalətli hökuməti aradan aparmaq mümkün olardı.

Siffeyn döyüşü ***həkəmiyyət*** məsələsi sona yetdi. “Həkəmiyyət” Müaviyənin xeyrinə tamamlandıqdan sonra Misri işğal etmək sevdası güclənir. Müaviyənin yanında olanlar onun bu işi ilə razılaşırlar. Beləliklə, Əmr ibn Asın başçılığı ilə bir qoşun dəstəsi Misirə tərəf yola düşür. Əmr ibn As Misirə daxil olanda Məhəmməd ibn Əbi Bəkr daxili müxalifləri ilə döyüşürdü. Əmr ibn Asın qoşunları müxaliflərlə birləşib hücuma keçirlər. Nəhayət, döyüş Məhəmməd ibn Əbi Bəkrin şəhadətə yetməsi ilə tamamlanır.

Belə bir böhranlı vəziyyətdə Həzrəti Əli (əleyhissalam) özünün vəfalı köməkçisi Malik Əştərə, Misirdə hökumətlik etmək göstərişi verir. Bütün bu

hadisələr nəticəsində çoxlu əhalisi olan Misir xüsusi bir vəziyyətdə qərar tapmışdı. Orada müxtəlif qəbilələr yaşayırdı. Müxtəlif mədəniyyətlər və tərz-təfəkkürün hökm sürdüyünə, mərkəzi hökumətdən uzaqda qaldığına görə onun idarəçiliyinə dəqiq nəzarət olunmurdu. Bu ölkə İslamı üç il əvvəl qəbul etmişdi, amma təzədən İslama qarşı çıxmış, şəhər darvazalarını İslamın qatı düşməni olan Bizans hökumətinin üzünə açmışdılar. Həmçinin, əhali əvvəlki xəlifələrin işlərindən cana gələrək üçüncü xəlifəyə qarşı qiyam etmiş və onu qətlə yetirmişdilər. Bu ölkənin əhalisinin bə`ziləri Həzrəti Əli (əleyhissalam)-ın göndərdiyi nümayəndə ilə müxalifətçilik etmiş, ona itaət etməmişdilər. Bu da onların arasında döyüşün başlanmasına səbəb oldu və Məhəmməd ibn Əbi Bəkr şəhadətə yetirildi.

Bəli, Misir bu cür fövqəl`adə və həssas vəziyyətə malik idi. Hakimiyyətə Malik Əştər kimi bir şəxs gəlməli idi və hökuməti idarə etmək üçün ***"Əhdnamə"*** kimi dərin mə`nalı və dolğun bir qanun mövcud olmalı idi.

## *İKİNCİ FƏSİL*

# *İMAM ƏLİ (ƏLEYHİSSALAM)-IN NƏZƏRİNDƏ ÖLKƏNİ İDARƏ ETMƏ YOLU*

## *“NƏHCÜL-BƏLAĞƏ” İLƏ ÜZBƏÜZ*

Şiə aləmində və şiəlik tərz-təfəkküründə insanların düzgün fikirləşməsində me`yar və haqqın batildən ayrılmasının yeganə yolu Qur`an, “Nəhcül-bəlağə” və mə`sumların (əleyhimussalam) başqa əsərlərindədir.

Bu baxımdan alimlər təfəkkür meydanında, İslam maarifi haqqında olan əsərləri, danışıqları təsdiq etmək üçün Qur`an, Nəhcül-bəlağə və mə`sumların (ələyhimussalam) qısa kəlmələrinə istinad etməlidirlər. Yalnız belə olduqda onların nəzəri səhih olar. Amma bu yollarla nəzər verilməzsə, fikirlərin hamısı əsassız və batil olacaqdır. Ona görə də Mə`sum İmamlar (ələyhimussalam) onlardan nəql olunan rəvayətlərin düzgün və ya saxta olmasını aydınlaşdırmaq üçün buyurmuşlar: ***“Bizdən nəql olunan hədisləri Qur`anla tutuşdurun. Əgər Qur`an ilə uyğun gəlsə düzgündür. Əgər Quranla uyğun gəlməsə saxta və ya təhrif edilmişdir. ”***

Bu tutuşdurma və müqayisə, Qur`an və Nəhcül-bəlağədən istifadə etmək qaydası iki yolla ola bilər: ***Birincisi,*** insan təmiz zehn və əvvəlcədən hökm vermədən bu müqəddəs kəlmələrlə qarşılaşır. ***İkincisi,*** insan əvvəlcədən hökm verib örnək götürməklə və müəyyən bir e`tiqadla Qur`anın, Nəhcül-bəlağənin və mə`sum İmamların (ələyhimussalam) sözlərini

araşdırsın. Aydındır ki, ikinci surətdə Qur`an və Nəhcül-bəlağədən qavranan mətləb Qur`anın və Nəhcül-bəlağənin nəzəri olmayacaq. Əksinə, öz əqidə və ideyamızı Qur`ana qəbul etdirib, Qur`andan və Nəhcül-bəlağədən öz əqidəmizi təsbit etmək istiqamətində istifadə edəcəyik. Qur`an və Nəhcül-bəlağəyə bu cür müraciət etməklə onun həqiqi mə`nasını əldə edə bilmərik, üstəlik bu nəinki insana heç bir şey öyrətmir, həm də insanın yolundan azmasına səbəb olur. Məgər bizim əqidəmiz bu deyildirmi ki, Qur`an "vəhy"lə nazil olan İlahi kəlamdır. Nəhcül-bəlağə də mə`sum İmamlarımızın (əleyhimussalam) kəlamıdır və vəhydən qaynaqlanır. Elə isə biz özümüzü vəhy kəlamının və kəlmələrinin yolunda qərar verməliyik, nəinki onlardan özümüzün şəxsi əqidəmizi sübut etmək, özümüzdən quraşdırdığımız bə`zi əqidələrimizi və fikrimizi təsdiq etmək üçün istifadə edək. Fikrimizi isbat etmək bu müqəddəs kəlmələrin bə`zilərinə istinad edib başqalarını kənara qoymaq heç də düzgün deyildir.

Bununla da aydın olur ki, Qur`an ayələri və mə`sum İmamların (ələyhimussalam) kəlamlarından istifadə etməyin qaydası budur ki, insan onların qarşısında özünü müstəqil nəzər sahibi hesab etməsin, cavabını axtardığı məsələ haqqında nə bilirsə, hamısını kənara qoysun, təmiz zehnlə, şəxsi fikrindən istifadə etmədən bu nurlu kəlmələrin sorağına getsin.

Qur`ani-Kərimdən lazımi qaydada, düzgün istifadə edilməməsi və nəticədə bə`zilərinin düzgün yolundan azmasını İslam inqilabı dövründə müşahidə etmişik. Hamıya aydındır ki, İslama zidd olan dəstələr məhz həmin yoldan istifadə edirdilər. Yə`ni, insan

onların hər bir məsələ haqqında Qur`an ayələrini dəlil gətirdiklərini düşünür, amma Qur`an ayəsindən hansı mə`na, hansı təfsir və hansı əqidə ilə istifadə etdiklərini araşdırmaq lazımdır. Həqiqətdə onlar Qur`anın nə demək istədiyini bilmək istəmirdilər, əksinə, əvvəldən hər hansı məsələyə e`tiqad bağlayıb, sonradan Qur`anı açırdılar ki, bir ayə tapıb əqidələrini ona istinad versinlər. Nəticədə Qurani-Kərimdən çox qəribə mə`nalar əldə edirdilər. Allahın kəlamından elə mə`na və məfhumlar çıxarırdılar ki, saxta olması ilə yanaşı gülünc vəziyyət yaradırdı. Qur`andan əsl həqiqəti dərk etmək əvəzinə, Allah-taalaya yalan nisbəti verib özlərini bu ayələrin nümunələri qərar verirdilər:[1]

وَلاَ يَزِيدُ الظَّالِمِينَ إِلاَّ خَسَاراً

***"O (Qur`an) zalimlərin ancaq ziyanını artırır!"*** Yə`ni, onlar Qur`ana bu cür müraciət etməklə yalnız bir şey əldə edirdilər, o da budur ki, özlərinin fəsad, xəsarət və zəlalətdə olmaqlarını artırırdılar. Öz yanlış əqidələrini daha da dərinləşdirirdilər.

Məsələnin aydınlaşması üçün bu cür yanlış istifadələrdən bir nümunəni qeyd edirik. Diqqət olunsa, bu cür işlərin insanın düzgün yoldan azmasına nə qədər səbəb olmasını anlamaq olar. Allah-taala Bəqərə surəsində ***müttəqiləri*** tanıtdıraraq buyurur:[2]

الَّذِينَ يُؤْمِنُونَ بِالْغَيْبِ

***"Müttəqi şəxslər onlardır ki, qeybə inanırlar"***

Başqa ayələrdən istifadə etməklə ayə haqqında onu demək olar ki, ondakı ***"qeyb"*** kəlməsindən məqsəd "***Allah"***-dır. Yolundan azmış bə`zi dəstələr özlərinin

---

[1] İsra surəsi, 82-ci ayə.

[2] Bəqərə surəsi, 2-ci ayə.

səhv və yanlış əqidələrində ayəni bu cür təfsir edərək deyirdilər: “***Ayədə “qeyb”, yə`ni, yeraltı və gizlin mübarizə mə`nasını verir. Deməli, Qur`an sizi gizli mübarizəyə də`vət edir. ”*** Bundan əlavə, məgər onların mübarizəsi İslam və Qur`andan başqa şey ola bilər?! Bütün bu təhlükəli fikirlərin mənşəyi və dəlili nədir? Ən mühüm dəlili budur ki, bu cür şəxslər özlərini Qur`anın göstərdiyi yolda qərar vermək istəmirlər. Qur`anın nə dediyini fikirləşmirlər. Əksinə, Qur`anı öz hədəfləri yolunda bir vasitə qərar verib çalışırdılar ki, öz fikir və əqidələrini Qur`ana qəbul etdirsinlər. Yə`ni, əvvəlcədən bir iş barəsində fikirləşib e`tiqadlı olduqdan sonra Qur`anı vərəqləməyə başlayırdılar ki, görəsən bir ayə tapa bilərikmi ki, zahirdə bizim əqidəmizə oxşasın?! Sonra belə bir nəticə alırdılar ki, Qur`an bizim əqidəmizi təsdiq edib.

Beləliklə, aydın olur ki, Qur`ani-Kərimə bu cür yanaşmaq və Allah kəlamından bu yolla istifadə etmək fəsad və azğınlıqdan başqa bir nəticə vermir. Mə`sumların (ələyhimussalam) kəlamlarından istifadə etmək də eynilə o cürdür. Xüsusən, bizim əsl bəhsimiz olan Nəhcül-bəlağəni o vaxt araşdırmalıyıq ki, zehnimizi əvvəlcədən müxtəlif fikirlərlə doldurmayaq. Bilmək istədiyimiz mövzu haqqında əvvəlcədən müəyyən mə`lumatlar yığıb məsələ haqqında qabaqcadan nəzər verməyimiz, əvvəlcə bir şeyə yəqinlik tapıb sonradan Nəhcül-bəlağəyə müraciət etməyimiz və bir cümlə tapıb öz əqidəmizi həmin cümlə ilə isbat etməyimiz düzgün deyil. Əksinə, Nəhcül-bəlağənin sorağına gedərkən zehnlər təmiz olmalıdır. Qəsdimiz yalnız bu olmalıdır ki, İmam Əli (əleyhissalam)-dan bu mövzu haqqında nə söylədiyini

dərk edək. Əgər bu yolla, yə`ni zehni hər cür fikirdən pak halda ***“Nəhcül-bəlağə”nin*** sorağına getsək, ondan layiqli şəkildə faydalana bilərik. Əks halda isə fəsaddan, xəsarətdən başqa heç bir şey əldə olunmayacaq.

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ

هَذَا مَا أَمَرَ بِهِ عَبْدُ اللَّهِ عَلِيٌّ أَمِيرُ الْمُؤْمِنِينَ مَالِكَ بْنَ الْحَارِثِ الْأَشْتَرَ

***"Bağışlayan və mehriban Allahın adı ilə! Bu bir fərmandır ki, Allahın bəndəsi Əmirəlmö`minin Əli, Haris oğlu Malik Əştəri Misrə vali tə`yin etdiyi zaman ona göstəriş verir. "***

Qeyd etdiyimiz kimi, mə`sumların (ələyhimussalam) kəlamları adi insanlar arasında geniş yayılmış və hər cür çaşqınlıq və səhvdən uzaqdır. Onların hər birinin özünəməxsus mə`na və aydın məfhumu vardır. Sözlərində artıq kəlmələr və mə`nasız cümlələr müşahidə edilməz. Deməli, belə nəzərə gəlir ki, Həzrəti Əli (əleyhissalam) özünün, ***"ma əmərə bihi"*** "***Bu bir fərmandır ki, Allahın bəndəsi Əmirəl-mö`minin Əli... göstəriş verir"*** cümləsi ilə İslam mədəniyyətində iki mühüm və əsas mətləbi göstərir:

***Birincisi: Qəflətdən uzaq olmaq***

Əksəriyyəti fəsad, zülm, sitəm, istismar, adam öldürmək və sair kimi rəzil xislətlərə düçar olan qüdrət sahiblərinin ən böyük bəlalarından biri də özlərinin kimliyindən və necə olmalarından qafil olmalarıdır. Əgər hər hansı bir hakim və qüdrət sahibi malik olduğu məqam və mənsəblə yanaşı bilsə ki, onun bütün güc və qüvvəsi, ruhu, nəfəsi və iste`dadı başqa yerdən ona mərhəmət olunur, mərhəmət sahibi istədiyi vaxt onu kəsə və bu güc-qüvvəsini ondan birdəlik geri ala bilər, bu halda heç kəsə zülmü və sitəmi rəva bilməz, müharibə, tüğyan və təkəbbürlük fikrində də olmaz. Amma, əgər qeyd olunanlara, Xaliqin sonsuz əzəmətinə və özünün müqayisəolunmaz dərəcədə heçliyinə diqqət etməsə, özünün təkəbbür və tüğyanı

hər an artacaqdır. Həzrət Əli (əleyhissalam) da zahiri bir məqamda əyləşmişdi. (Bəlkə də) özünə və nəfsinə buyurdu:

***“Agah ol! Hər nəyin varsa Xaliqdəndir və hər şey Ona tərəf dönəcək!”***

Ona görə də namaz halında oturub duranda ***“Allahın qüdrəti ilə oturub dururam”***-cümləsini demək müstəhəbdir. Yə`ni, insan bilməlidir ki, namazın bütün mərhələlərində oturub-durmaq, yalnız Allahın lütf və mərhəməti ilə müyəssər olur, onun qüdrət və gücü müstəqil olmayıb və heç vaxt da olmayacaq. Deməli, əgər dünyanın qüdrətliləri yalnız bu məsələyə diqqət yetirsələr, Allahın qüdrətini hər anda gözləri önünə gətirsələr və bütün qüdrət və güclərinin Allah tərəfindən olduğunu bilsələr, görəsən, yenə zülm və sitəm dünyanı tutarmı?

***İkinci:Allaha bəndəlik etməklə rəhbərlik***

Həzrət Əli (əleyhissalam)-ın nəzərində (əsl İslam mədəniyyəti də məhz budur) qüdrət, məqam, rəhbərlik, mə`nəvi nüfuz və nəhayət, böyüklük (özünün həqiqi mə`nasında, qarətçilik və zorakılıq mə`nasında yox) yalnız Allaha bəndəçilik sayəsində gerçəkləşə bilər. Əli (əleyhissalam) bu hədəfini bəyan etmək üçün rəhbərlik və Allaha bəndəlik məqamını bildirən: ***“fərman”*** kəlməsindən sonra ***“Allahın bəndəsi”*** mövzusunu bəyan edir və buyurur: ***“Bu bir fərmandır ki, Allahın bəndəsi Əli... ”*** Həmin mə`nanı Qur`ani-Kərimdə oxuyuruq: ***“Pakdır o kəs ki, gecə vaxtı öz bəndəsini Məscidül-Həramdan Məsscidül-***

***Əqsaya apardı."***[1] Allah-taala bu ayədə ***"Mən Rəsulullahı me`raca apardım"*** – deyə buyurmur. Əksinə buyurur: ***"Pakdır o kəs ki, Öz bəndəsini ... apardı"***. Yə`ni, bəndəçiliklə me`rac arasında birbaşa rabitə vardır. Məhz xalis bəndəlik sayəsində Allah insanı həzrət Məhəmməd (səlləllahu ələyhi və alihi və səlləm)-i me`raca aparır. İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) həmin mə`na barəsində buyurur:

***"Hər pak mö`minin me`racı namazdır"***.

Bu rəvayət namazla me`racın arasında bəndəlik rabitəsini göstərir. Gündəlik namazların təşəhhüdündə belə oxuyuruq:

***"Şəhadət verirəm ki, həqiqətən Məhəmməd Allahın bəndəsi və elçisidir. "***

Bəndəliyin risalətdən öncə gəlməsi onu göstərir ki, o həzrətin xalis bəndəliyi onun risalətə seçilməsi üçün dəlil və səbəb olmuşdur.

---

[1] İsra surəsi, 1-ci ayə

## *HÖKUMƏT VƏ VİLAYƏT ƏTRAFINDA*

فِي عَهْدِهِ إِلَيْهِ حِينَ وَلَّاهُ مِصْرَ جِبَايَةَ خَرَاجِهَا وَ جِهَادَ عَدُوِّهَا وَ اسْتِصْلَاحَ أَهْلِهَا وَ عِمَارَةَ بِلَادِهَا

***"Misir hökumətinin başçılığında Malikin vəzifəsi bunlardan ibarətdir: Xərac cəm etmək, düşmənlərlə cihad etmək, oranın əhalisini islah edib onlar üçün sülh və əmniyyət yaratmaq və şəhərləri abad etmək. "[1]***

Həzrəti Əli (əleyhissalam) hökumət və vilayət mövzusunda Malik Əştərə dörd əsas və mühüm məsələni tövsiyə edir:

### *ƏVVƏL: XƏRAC CƏM ETMƏK*

"Xərac" kəlməsi ərəb sözü olub maliyyat (vergi) mə`nasınadır. Bu da sonradan izah olunacağı kimi xüsusi növ maliyyatdır. Bildiyimiz kimi, Misir əhalisi İslam dinini öz istək və ixtiyarları ilə qəbul etməmişdilər. Əksinə, müsəlmanlar onlarla döyüşüb qələbə çaldıqdan sonra İslamı qəbul etmişdilər.

Fiqh terminində İslam qoşunlarının hər hansı bir ərazini sülh və saziş olmadan ələ keçirdikləri torpaqlara ***"ərazi məftuhətul-ənvəh"*** adlanır. Belə torpaqlar bütün müsəlmanların mülkiyyəti sayılır və onların hamısı onda şərikdir və payları vardır. Bu əsasa görə İslam hakimi bu torpaqları İslam dininin məsləhətlərinə riayət etməklə, müsəlmanlar arasında ədalətlə bölüb onların ixtiyarına verməlidir. Bunun da

---

[1]Əlavə mə`lumat almaq üçün mərhum Şeyx Ənsarinin "Məkasib" kitabına müraciət olunsun.

müqabilində ildə bir dəfə onlardan maliyyat (vergi) alınır. Bu cür maliyyata fiqh terminində ***“xərac”*** deyilir.

## *İKİNCİ: DÜŞMƏNLƏRDƏN MÜDAFİƏ*

Həzrət Əli (əleyhissalam)-ın kəlamındakı ***“cihad”*** kəlməsinin ***“ədüvviha” (düşmənlər)*** kəlməsi ilə olan nisbətindən başa düşülür ki, Həzrətin ***“cihad”***dan məqsədi, müdafiə yönlü cihaddır və “***fiqh”*** istilahında olan ***“cihad”*** mə`nasını nəzərdə tutmamışdır. Ona görə ki, Əhli-Beyt (ələyhimussalam)-dan (şiə alimlərinin fikir birliyinə görə) nəql olunan hədislərə əsasən, ***“ibtidai cihad”,*** yə`ni İslam qoşunlarının bir ölkəyə qoşun yeridib onları özlərinə təslim etməsi, yalnız mə`sum İmam (ələyhimussəlam)-ın əmri və onun nəzarəti ilə olmalıdır. İmam qeybdə olan dövrdə birbaşa başqa ölkəyə hücum edib, onları müsəlman olmağa vadar etməyə icazə verilmir. Təbiidir ki, Malik Əştər mə`sum İmamın (əleyhissalam) nəzarətindən uzaq olan bir ölkədə vali olaraq müxtəlif hərbi bölmələri idarə edəcəkdi. İmamın (əleyhissalam) birbaşa nəzarəti olmayan vaxtda, yalnız yadların və düşmənlərin hücumu qarşısında müdafiə olunmaq ixtiyarı var idi, amma əvvəldən başqa ölkəyə qoşun yeridib, hücum etməyə ixtiyarı yox idi.

## ÜÇÜNCÜ: ƏHALİNİN İSLAH OLUNMASI

Bu bəyandan aydın olur ki, hakimin vəzifəsi yalnız əhalinin maddi rifah və müdafiəsi ilə bitmir, əksinə, mə`nəvi cəhətdən islah olunmaları və hidayət edilmələri də onun əsas vəzifələrindən biri sayılır.

Beləliklə, məs`uliyyətli şəxslər diqqət etməlidirlər ki, onların vəzifələri təkcə yollara asfalt döşəyib, küçə

və xiyabanları düzəltmək, həmçinin, başqa maddi məsələləri həll etməklə sona yetmir. Hakim, əhalinin mə`nəvi cəhətlərini diqqət mərkəzində saxlamalı və onların bu cəhətdə inkişaf etmələrindən ötrü əlindən gələni əsirgəməməlidir. O, bu kimi məsələləri ruhani sinfinin boynuna atmaqla özünü məs`uliyyətdən kənarlaşdırmamalıdır.

### *DÖRDÜNCÜ: ŞƏHƏR VƏ KƏNDLƏRİN ABADLAŞDIRILMASI*

Malikin başqa əsas vəzifələrindən biri də şəhər və kəndlərin abadlaşdırılması hesab olunur. İmamın bu sözü tarix boyu bu müqəddəs dinə vurulan töhmətlərin qarşısını alır. Buna görə də demək olar ki, İslam, məsihi rahiblərinin əksinə olaraq, cəmiyyətin maddi və rifahi məsələlərinə çox diqqət yetirmişdir. Nə qədər ki, dünya ne`mətləri və maddi ləzzətlər insanın Allahdan qafil olmasına gətirib çıxarmayıb, eləcə də zülmə, sitəmə və başqalarının hüququnun pozulmasına səbəb olmayıb, şəriət insanın bu ne`mətlərdən istənilən qədər istifadə edilməsinə icazə verir.

### *MƏRKƏZLƏŞMİŞ SİSTEM, YOXSA.... ?*

Bə`ziləri Əli (əleyhissalam)-ın bütün bu ixtiyarları (vergilər, hərbi, qəzavət və mədəni işləri) Malik Əştərə verməsilə ***"İslamda hökumətin idarəçilik sistemi, mərkəzləşmiş yolla deyil və İslam mərkəzləşmə ilə müxalifdir. "*** – deyə güman edə bilərlər. Həzrətin – başqa köməkçiləri ilə – hökumətlə əlaqədar işlərinə diqqət etdikdə bu gümana yer qalmır. Nümunə üçün: İmam (əleyhissalam) Əş`əs ibn Qeyslə tam başqa cür

rəftar edir, ona az ixtiyar verir və əsas ixtiyarları mərkəzi hökumətdə saxlayır. Belə nəzərə çarpır ki, Həzrətin ölkəni bu yolla idarə etməsi onun dostlarının şəxsiyyətindən asılıdır. Əslində isə İslamın hökumət sistemi mərkəzləşmə əsasındadır. Sadalanan bütün bu xüsusiyyətləri Malik Əştərdə gördükdə insana elə gəlir ki, bu ixtiyarların hamısının Malik Əştərə verilməsinin əsas səbəbi Həzrət Əli (əleyhissalam)-ın Ona tam əmin olması və onu hökumət sisteminin bütün cəhətlərində əmanətdar olmasını qəbul etməsidir. Buna görə də, Malikin əməllərinə nəzarət etməyi lazım bilmir. Lakin o həzrətin başqa hökumət işçiləri ilə olan rəftarı tam fərqlidir. Ona görə də onlara az ixtiyar verib, əməllərinə nəzarəti çoxaldır.

أَمَرَهُ بِتَقْوَى اللَّهِ

***“Həzrət Əli (əleyhissalam) Malikə İlahi təqvanı əmr edir. ”***

Bu cümləni əvvəlki cümlələrlə yanaşı qoyduqda aydın və dərin bir mə`na alınacaq. Əvvəlki cümlələrin birində Həzrəti Əli (əleyhissalam) Malik Əştəri hökumət başçısı olaraq xalqı düzgün yola də`vət edən bir şəxs kimi tanıtdırmışdır. Aydındır ki, əgər hökumət başçısı təqvalı olmasa, həmçinin, nəfsinin, arzularının, heyvani istəklərinin əlində əsir olsa, onda əhalini öz göstərişləri ilə düzgün yola hidayət edə bilməz. Ona görə də başqalarına düz yol göstərmək istəyən insan ilk növbədə özünə xitab etməlidir. Əgər nəfsani istəklərini əql və mə`nəvi cəhətdən nəzarət altına almaq və öz nəfsinə kamil surədə qalib gəlməyə qadir olsa, onda bir nəfəri hidayət etməyə də (özü-özünə) qadir olar. Beləliklə, bu əqidədə olan şəxs öz vücudundan xaricdə olanlara (cəmiyyətə) tə`sir qoya və cəmiyyəti düzgün yola də`vət edə bilər. Amma əgər onun özü nəfsani istəklərə tabe olsa, şeytani istəklərinin əsiri olsa, özünün düz yola gəlməsində qüvvəti olmasa, başqalarını hidayət etməkdə necə müvəffəq ola bilər.

Əgər insan öz nəfsi ilə mübarizədə heç bir müvəffəqiyyət əldə edə biməsə, necə mümkün ola bilər ki, başqaları ilə hərdən qarşılaşdığı halda onları düzgün yola hidayət edə bilsin? Əgər hər hansı bir cəmiyyəti nəzərə alsaq, insanların sayı bir neçə dəfə artacaq. Həmin mətləb, vəzifəsi əhalini hidayət etmək və düzgün yola gətirmək olan ruhanilərə də aid olur. Əgər ruhani öz nəfsini rəzil xislətlərdən pak etməyə qadir olmasa, özünü Allah dərgahına yaxın edə bilməsə, nəfsinin əlində əsir olsa, bu şəxsin başqalarını

hidayət etməyə qüdrəti çatmaz. Hətta belə bir halda onun vücudunun tə`sirindən cəmiyyət bərbad hala düşəcək. Biz cəmiyyətdə belə ruhaniləri dəfələrlə müşahidə etmişik. Qur`an məhz belə şəxsləri nəzərə alaraq buyurur:[1]

فَاعْتَبِرُوا يَا أُولِي الْأَبْصَارِ

***“Ey ağıl sahibləri! Bu hadisədən ibrət alın!”*** Digər nümunələr tarix boyu çox müşahidə edilmişdir. Məhz bunların nəticəsində müqəddəs İslam dinində müxtəlif məzhəblər və qarşıdurmalar əmələ gəlir. Bu da İslam ümmətini fəsada və geriliyə doğru çəkir.

## QUR`ANDA TƏQVANIN ƏHƏMİYYƏTİ

Qur`ani-Kərimdə müxtəlif izahlarla təqva, cihad, elm və sair haqqında bəhslər olunmuşdur. Bu şərif kitabda daha çox tə`kid olunan məsələlərdən biri də ***“təqva”***dır**.** Qua`ni-Kərim alimin cahildən üstünlüyündən söz açanda belə buyurur:

قُلْ هَلْ يَسْتَوِي الَّذِينَ يَعْلَمُونَ وَالَّذِينَ لَا يَعْلَمُونَ

***“Məgər elm əhli cahil adamlarla bərabərdirlər?”***[2]

Bu bəyan göstərir ki, hər aqil insan öz əql və vicdanının hökmü ilə alimin cahilə olan üstünlüyünü bilir. Bunu isbat etmək üçün əlavə dəlil gətirməyə ehtiyac yoxdur. Başqa yerdə Qur`ani-Kərim mücahidlərdən (Allah yolunda cihad edənlərdən) söz açanda, onların cihada getməyib evdə oturanlarla nisbəti haqqında buyurur:

فَضَّلَ اللَّهُ الْمُجَاهِدِينَ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ عَلَى الْقَاعِدِينَ دَرَجَةً

---

[1] həşr surəsi, 2-ci ayə

[2] Zümər surəsi, 9-cu ayə

***“Allah malları və canları ilə cihad edənləri (cihada getməyib evdə) oturanlardan uca və üstün tutdu. ”***[1]

Bu cür məsələlər (bir dəstənin başqa dəstəyə üstünlüyü) yalnız əql və vicdanın hökmü ilə isbat olunur. Amma hər vaxt Qur`anda ***“təqvadan”*** söz açılanda müttəqilər şöhrətpərəst və əxlaqsızlarla müqayisə olunmur, onların bir-birinə nisbət üstünlüyü aşkar edilib qiymətləndirilmir. Əksinə, ***“müttəqi”*** kəlməsi Qur`anda Allah kəlməsi ilə birlikdə qeyd olunur:

إِنَّ أَكْرَمَكُمْ عِندَ اللَّهِ أَتْقَاكُم

***“Allah yanında sizlərin ən üstünü, ən təqvalı olanınızdır. ”***[2]

Burada müttəqinin, qeyri-müttəqidən üstünlüyündən, onların bir olmasından söz açmır, əksinə, buyurur ki, ***“müttəqi”*** Allah yanında mə`lum olur və onun hesabı Allahladır. Məhz təqva səbəbilə insan kəramətli olur. Bu kəramət (hörmət) də Allah dərgahındadır. Bütün bunlar təqvanın xüsusi səciyyə olmasından, onun əzəmət və kəramətindən xəbər verir.

### *TƏQVANIN MƏ`NASI*

Təqvanın əhəmiyyəti və zəruriliyi mə`lum olduqdan sonra onun mə`nası haqqında söhbət açırıq. Rağib İsfahani özünün “Müfrədat” adlı lüğət kitabında yazır:[3]

***“Viqayət”*** bir şeyi, ona yetişəcək hər bir zərər və ziyandan qorumağa deyilir. ***“Təqva”***-yə`ni, nəfsi hər

---

[1] Nisa surəsi, 95-ci ayə.
[2] Hucurat surəsi, 13-cü ayə.
[3] Müfrədati əlfazi Qur`an, “Vəqəyə” kəlməsi.

hansı təhlükəli şeydən qorumaq. Əsl mətləb budur ki, kəlmənin cümlədə işlənmə qaydasına görə “bə`zən müsəbbəbi (səbəb olunmuş kəlməni) səbəbin əvəzində, bə`zən də səbəbi müsəbbəbin (səbəb olunmuş kəlmənin) əvəzində işlədirlər. ” Bə`zən qorxu, ***“təqva”*** kəlməsinin yerində, bə`zən də ***“təqva”*** kəlməsi ***“qorxu”*** kəlməsinin əvəzində işlənilir. ***“Təqva”*** şəriət istilahında “insanın öz nəfsini onu günaha tərəf çəkən və ya rəğbətləndirən hər bir şeydən qorumağına, bunun vasitəsi ilə də haram olunmuş şeyləri tərk etməsinə” deyilir. [1]

Bu izahdan və ***“təqva”*** barəsində mə`sum İmamlardan (əleyhimussalam) söylənilən rəvayətlərdən istifadə edirik ki, ***“təqva”,*** təkcə pərhizkarlıq mə`nasında deyil, həm də ***“özünü qorumaq” “ehtiyatlı olmaq”*** “***nəfsi nəzarət altına almaq”, “nəfsə hakim olmaq”*** mə`nalarında da işlənir. Bə`ziləri ***“təqvanı***” pərhizkarlıq mə`nasında işlədərək deyirlər ki, ***“təqva***” dedikdə cəmiyyətdən və İslam ümmətindən uzaqlaşmaq, tək qalmaq mə`nası nəzərdə tutulur. Bu heç də düzgün deyil. Bə`ziləri ***“təqvanı”*** qorxu mə`nasına yozur və

---

[1] Əgər “təqva”nın pərhizkarlıq mə`nasında işlədildiyini fərz etsək, onda sual verilər ki, nədən pərhiz etmək “təqvalı” olmağa səbəb olur? Əgər yalnız Allahın haram buyurduğu işlərdən pərhiz etmək “təqva” olarsa, bu kifayət deyildir. Ona görə ki, “təqvanın” olmasında, Allahın vacib buyurduğu əməllər qarşısında müti olmaq və onlara əməl etmək şərtdir. Bu əsasa görə deyirik ki, “təqva” hifz etmək mə`nasında işlənir. Bu mə`na həm Allahın haram buyurduğu işlərdən çəkinmək, həm də vacib əməllər qarşısında müti olmaq və dini fərizələrə əməl etmək mə`nasına aid olur.

inanırlar ki, ***“təqva”*** şəriətdə qorxu mə`nasında işlənir. Bizim fikrimizcə, bütün Qur`an ayələrini və rəvayətləri nəzərə almaqla ***“təqva”*** “qorxmaq” mə`nasında işlənmir. Ona görə ki, Qur`anda oxuyuruq:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

***“Oruc (hökmü) sizin üçün yazıldı, necə ki, sizdən əvvəlkilər üçün yazılmışdı. Bəlkə təqvalı olasınız!”***[1]

Əgər ***“təqva” “qorxu”*** mə`nasında olsa, onda demək olarmı ki, oruc tutmaq insanda qorxu yaradır?! Axı qorxu ilə oruc tutmaq arasında hansı münasibət var? Halbuki, əgər ***“təqva”*** özünü qorumaq mə`nasında olsa, (və elə həmin mə`nadadır) oruc tutmaqla özünü qorumaq arasında birbaşa rabitə vardır. Ona görə ki, oruc tutmaq özünü və nəfsi (günahdan) qorumaq üçün şərait yaradır. Qur`an başqa bir ayədə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَ حَقَّ تُقَاتِهِ

***“Ey iman gətirənlər! Allah qarşısında layiqincə təqvalı olun!”***[2]

Aydındır ki, əgər yuxarıdakı ayədə ***“təqva”*** kəlməsini qorxu mə`nasında götürsək, mə`na düzgün olmayacaq. Amma əgər ***“təqvanı”*** hifz etmək, qorumaq mə`nasında işlətsək, ayənin hədəfi aydın olacaq. Həmçinin başqa ayədə oxuyuruq:

إِنَّ أَكْرَمَكُمْ عِندَ اللَّهِ أَتْقَاكُمْ

***“Sizin Allah yanında ən hörmətliniz, ən çox təqvalı olanınızdır!”***[3]

---

[1] Bəqərə surəsi, 183-cü ayə

[2] Ali-İmran surəsi, 102-ci ayə

[3] Һucurat surəsi, 13-cü ayə

Bu ayədə də əgər ***“təqvanı”*** “hifz etmək və özünü qorumaq mə`nasında işlətsək, ayənin məqsədi və mə`nası aydın olur. Amma əgər ***“qorxu”*** mə`nasında işlənsə, ayənin mə`nası tamamilə dəyişir.

## *TƏQVANIN DƏRƏCƏ VƏ MƏRTƏBƏLƏRİ*

Qur`an ayələrində və Nəhcül-bəlağədə ***“təqva”*** haqqında deyilənlərdən mə`lum olur ki, İslam nəzərində təqvanın müxtəlif mərtəbə və dərəcələri vardır. Bir dərəcədə və eyni bir mərtəbədə qalmaq “təqvada”dan deyil. Yolçu hər mənzili keçdikdən sonra təzə mənzilə qədəm qoymalıdır. Deməli, belə fikirləşmək olmaz ki, əgər hər hansı bir şəxs Allahın haram buyurduğu işlərdən çəkinsə və vacib əməlləri yerinə yetirsə, təqvası və özünü qoruma səciyyəsi kamil olub və bununla da əlavə hərəkətə, təkamülə ehtiyacı yoxdur. Xeyr! Bundan sonra da hərəkət vardır. Bu hərəkət elə geniş səviyyəlidir və bu təkamül elə ucadır ki, qurtaran deyil. Əhli-Beyt (ələyhimussəlam)-dan və İlahi şəxsiyyətlərdən başqa heç kəs onun təkamül zirvəsinə çata bilməz. Bu müddəanın dəlili Qur`anın bə`zi ayələri və mə`sum İmamların (ələyhimussəlam) ***“təqva”*** haqqındakı sözləridir. Qur`anda oxuyuruq:[1]

إِنَّ أَكْرَمَكُمْ عِندَ اللَّهِ أَتْقَاكُمْ

***“Həqiqətən, Allah yanında sizin ən hörmətliniz, ən təqvalı olanınızdır.”***

***“Ətqa”*** kəlməsinin ***“özünü ən çox qoruyan”*** mə`nasında işlənməsi göstərir ki, bu səciyyənin müxtəlif mərtəbələri var. Yə`ni ***“ən çox qoruyan”***,

---

[1] Hucurat surəsi, 13-cü ayə

***“qoruyan”, “az qoruyan”*** və sair. Əks halda hər növ səhvdən və xətadan uzaq olan Qur`ani-Kərim kəlməni bu formada işlətməzdi.

Həzrəti Əli (əleyhissalam) özünün ***“Həmmam”*** adlı xütbəsində ***“müttəqilər”*** haqqında yüzdən çox fəzilət, daha doğrusu, yüzdən çox sifət və xasiyyət saymışdır. Bu bəhsdə mətləbə aydınlıq gətirmək üçün Həzrətin bə`zi kəlamlarını qeyd edəcəyik. Həmmam Həzrəti Əli (əleyhissalam)-ın yaxın səhabələrindən biri olub. Bir gün İmama deyir: “Ey mənim mövlam! Təqvalı şəxsləri mənim üçün elə bəyan et ki, sanki onları görürəm. ” Həzrət, təqvalı şəxslərin bir neçə əlamətini saymaqla sözlərini tamam edir. Amma Həmmam bununla qane olmur, tə`kid edir ki, İmam daha çox əlamət söyləsin və sözlərinə davam etsin. Bu zaman İmam (əleyhissalam) ən gözəl söz ustalığı və mə`na çalarlığı ilə özünün məşhur ***“Həmmam”*** xütbəsinə başlayır:

***“Təqvalıların xüsusi fəzilətləri var. Onların sözləri həmişə sadiqdir. Geyimlərində və libaslarında (həyatda) orta səviyyədə olarlar. Yol getmələri təvazökarlıqladır. Gözlərini Allahın onlara haram etdiyi şeylərdən yumarlar. Əgər əcəl olmasaydı, savaba yetmək və əzabdan qurtarmaq üçün bir göz qırpımında olsa da canları bədənlərində qalmaz, fikirləşmədən Allaha qovuşardılar. (Yalnız) Allah onların yanında ucadır. Ondan başqa (nə varsa hamısı) gözlərində heç və kiçik görünər. ”***

Həzrətin dəyərli kəlmələrinin tə`siri altına düşən Həmmam (bəlkə də fikirləşdi ki, bu cür sifətlərə yetişmək onun qüdrətindən xaricdir) titrəyib yerə yıxılır. Onu huşa gətirmək istəyirlər, amma mə`lum olur ki, fani dünya ilə vidalaşıb.

Bəli, bütün bunlar öz aydınlığı ilə təqvanın mərtəbəsini isbat etməkdə bizə kömək edir. Ona görə ki, Allahın haram buyurduqlarına göz yummaq təqvanın bir mərtəbəsi, təvazökar və ədəbli olmaq onun başqa mərtəbəsi, nəhayət Allahın hüzurunda Ondan başqa hər bir şeyi əhəmiyyətsiz və zəlil hesab etmək, təqvanın başqa mərtəbəsi sayılır...

### *SƏADƏT VƏ BƏDBƏXTLİK YOLU*

İslam nəzərində əbədi səadət yolu Allahın əmr və göstərişlərinə əməl etməkdə, əzab yolu isə Allahın göstərişlərindən boyun qaçırmaqdadır. Bu mətləbi aydınlaşdırmazdan əvvəl İmamın (əleyhissalam) Malik Əştərə verdiyi fərmanın ardını oxuyaq. Əli (əleyhissalam) hər şeydən əvvəl Malikə bu işləri əmr edir:

وَ إِيْثَارِ طَاعَتِهِ وَ اتِّبَاعِ مَا أَمَرَ بِهِ فِي كِتَابِهِ مِنْ فَرَائِضِهِ وَ سُنَنِهِ الَّتِي لَا يَسْعَدُ أَحَدٌ إِلَّا بِاتِّبَاعِهَا وَ لَا يَشْقَى إِلَّا مَعَ جُحُودِهَا وَ إِضَاعَتِهَا

***1. İlahi təqvaya malik olmaq;***

***2. Allaha itaət etmək;***

***3. Allahın Öz kitabında əmr etdiyi vacibatlara və qanunlara əməl etmək. Ona görə ki, Allahın göstərişlərinə tabe olmadan səadətə yetişmək olmaz və Allahın əmrlərini tərk edən şəxs doğrudan da bədbəxtdir!***

Yuxarıda qeyd olunan ***“kitab”***dan məqsəd yalnız Qur`an deyil, əksinə, hədəf Qur`an və Əhli-beyt (ələyhimussalam)-dan olan rəvayətlərdir. İslam dinində bütün şər`i qanun və qaydalara ***“kitabullah”*** deyirlər. Ona görə ki, bütün vaciblər, haramlar, məkruh və müstəhəb əməllər Allahın yazısıdır. Yə`ni, Allah bunların hamısını insanlar üçün me`yar qərar

vermişdir ki, ona əməl etsinlər. Bu əməl də şəriətdə göstərilən qaydada yerinə yetirilməlidir. Yuxarıdakı ***"inkar"*** ədatı və ***"yalnız"*** mə`nasını verən "illa" ədatı (hər iki hərf, həsr və inhisar mə`nasındadır) hərflərinin cümlədə işlənməsindən səadət və bədbəxtliyin yolu müəyyən qədər mə`lum olur. Ona görə ki, Həzrət buyurur:

***"Dünyada heç kəs Allahın göstərişlərinə itaət etmədən xoşbəxtliyə çata bilməz; yalnız Allaha itaət etmək və Onun vacib buyruqlarına əməl edib haram buyurduqlarını tərk etməklə (həqiqi) xoşbəxtliyə çatmaq olar. Bu yolun müqabilində bədbəxtlik yolu durur. Yə`ni, hər kəs Allahın buyurduğu qanunlardan üz döndərsə və Onun vacibatlarını tərk etməsə, sözsüz ki, axırı bədbəxtliyə gəlib çıxacaq. "***

Bütün bunlardan aydın olur ki, yalnız müəyyən elmi mərtəbədə olmaq, müxtəlif elmlərdən agahlıq insanı səadətə çatdırmaz. İnsan yalnız o vaxt səadətə çata bilər ki, elminin və biliyinin sayəsində Allaha itaət etsin. Bu vaxt insanın dərəcəsi daha da ucalar və səadətə tez çatar.

### *TƏQVANIN CƏHƏTLƏRİ*

Təqvanın iki cəhəti vardır; Bir cəhəti dinin vacibi əməllərini yerinə yetirmək, ikinci cəhəti isə haram və bəyənilməz işləri tərk etməkdir. Həzrət Əli (əleyhissalam)-ın kəlamında ***"Allaha itaət etmək"*** birinci cəhəti, ***"nəfsini, istəklərini tərk etməklə sındır"-*** cümləsi isə ikinci cəhəti bəyan edir.

***"Kəsr"*** sındırmaq mə`nasındadır. Bu kəlmə o yerdə işlədilir ki, bir şey quru və möhkəm halda olsun. Məsələn: ***"şüşəni sındırmaq"*** cümləsi onu bildirir ki,

şüşə özü sınmaq qabiliyyətinə malikdir və möhkəmliyi var. Əgər təzə göyərmiş budağı ağacdan ayırıb sındırmaq istəsən sınmaz. Bütün bunlar bəyan edir ki, insanın nəfsi, heyvani şəhvətlərinin, meyllərinin qarşısında möhkəm ciddiyyətlə dayanmalıdır, qəflət və süstlüklə yox. Həmin mövzuda fəqihlər ***“oruc”*** kitabında, “orucun tə`rifi nədir?” sualına bu cür cavab verirlər. Oruc nəfsi, yeməli və içməli şeylərdən qorumaq deməkdir. ” Mə`lumdur ki, insanın nəfsinin Ramazan ayında yeməli və içməli şeylərə iştahası çoxdur. Ona görə də onun qarşısını tam qüdrətlə almaq lazımdır.

### *ƏN BÖYÜK CİHAD*

Bə`zi rəvayətlərdə nəfslə mübarizə aparmaq “***cihad”*** ünvanı ilə qeyd edilir. ***“Cihad”*** kəlməsi ***“cəhd”*** kökündən olub ***“axtarmaq”*** deməkdir. Hər çalışmağa cihad deməzlər. İnsan var qüvvəsini çalışmağa sərf etdikdə və hər bir imkandan istifadə etdikdə ***“cihad”*** kəlməsi ona aid olur. ***“Müctehid”*** bütün qüvvəsini və imkanlarını ilahi hökmləri ələ gətirmək üçün sərf etdiyinə görə ona ***“müctehid”*** deyirlər. Mücahidlər (cihad edənlər) bütün imkan və qüvvələrini düşmənə qarşı istifadə etdiklərinə görə onlara ***“mücahid”*** deyirlər.

İslam Peyğəmbərindən (səlləllahu əleyhi və alih) nəql olunan məşhur rəvayətdə, insanın nəfsi ilə mübarizə aparması ***“ən böyük cihad”*** adlanır. Bu barədə “Vəsailuş-şiə” kitabının müəllifi imam Sadiq (əleyhissalam)-dan nəql edərək yazır: “İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) bir dəstə müsəlmanları döyüşə göndərmişdi. Döyüşçülər qələbə

ilə qayıtdılar, sonra Peyğəmbərin (səlləllahu əleyhi və alih) hüzuruna gəldilər. Həzrət onlara xitab edərək buyurdu:

***“Afərin sizlərə ki, “cihadi-əsğəri” (ən kiçik cihadı) başa vurdunuz, amma hələ “cihadi-əkbər”iniz (ən böyük cihadınız) qalmışdır. Bir nəfər qarşıda böyük bir döyüşün olduğunu təsəvvür edib soruşur: Ya Rəsuləllah! ”Cihadi-əkbər” hansıdır? Həzrət cavabında buyurur: Nəfslə cihad (mübarizə).*** [1]

Mə`sum İmamlardan (ələyhimussalam)-dan nəql olunan bu cür rəvayətlər nəfslə mübarizənin nə qədər əzəmətli və zəruri olduğunu aydınlaşdırır. Mübarizənin əzəmətini dərk etməkdə bu kifayət edər ki, Qur`ani-Kərim ***“Behiştə”*** getməyi insanın nəfsini qoruması ilə şərtləndirir. İnsan, nəfsani istəklərinin və heyvani qərizələrinin qarşısını ala bilsə, bu məqama yetişər. Qur`an buyurur:

وَأَمَّا مَنْ خَافَ مَقَامَ رَبِّهِ وَنَهَى النَّفْسَ عَنِ الْهَوَى (40) فَإِنَّ الْجَنَّةَ هِيَ الْمَأْوَى

***“Amma hər kəs Rəbbinin məqamından qorxsa və öz nəfsini nəfsani istəklərdən təmizləsə, behişt onun yeridir. ”***[2]

Göründüyü kimi, bu ayədə cənnətə çatmaq üçün iki əsas şərt qeyd olunmuşdur: Birincisi, Yaradanın əzəmətindən qorxmaq. İkincisi, nəfsani istəklərin qarşısını almaq. Aydındır ki, Yaradanın məqam və əzəmətini kamil surətdə tanımayınca, Ondan qorxmaq mümkün olmayacaq. Başqa tərəfdən, insan nə qədər ki, öz nəfsinə hakim olmayıb və nəfsinin ixtiyarını tamamilə əlinə almayıb heyvani istəklərinin cilovlaya

---

[1] Vəsailuş-şiə, 11-ci cild, səh. 122

[2] Naziat surəsi, 40-41-ci ayələr.

bilməz. Qur`anın buyurduğu kimi, insanın nəfsi hər cür pisliklərlə doludur. Nəfslə bu cür mübarizə aparmaq çox qüdrət tələb edir. İnsan yorulmadan mübarizəyə davam etməli, bu yolda Allahdan kömək istəməlidir.

***İlahi! Bir göz qırpımı bel,ə bizi öz başımıza buraxma!***

وَ أَنْ يَنْصُرَ اللَّهَ سُبْحَانَهُ بِقَلْبِهِ وَ يَدِهِ وَ لِسَانِهِ فَإِنَّهُ جَلَّ اسْمُهُ قَدْ تَكَفَّلَ بِنَصْرِ مَنْ نَصَرَهُ وَ إِعْزَازِ مَنْ أَعَزَّهُ وَ أَمَرَهُ أَنْ يَكْسِرَ نَفْسَهُ مِنَ الشَّهَوَاتِ وَ يَزَعَهَا عِنْدَ الْجَمَحَاتِ فَإِنَّ النَّفْسَ أَمَّارَةٌ بِالسُّوءِ إِلَّا مَا رَحِمَ اللَّهُ

***Malikə** (**fərman verir ki**, ): **Pak və münəzzəh Allaha qəlbi, əli və dili ilə kömək etsin. Ona görə ki, hər kəs Allaha kömək etsə, Allah onu himayə edər, hörmətli edər və onu əziz tutar. (Ona fərman verir ki, ) arzularını tərk etməklə öz nəfsini sındırsın. Nəfsi tüğyan edən vaxtı onun cilovunu çəksin. Həqiqətən, nəfs həmişə insanı pisliklərə sövq edir, yalnız, Allahın mərhəmət etdiyi nəfsdən başqa. ”***

## *ALLAHIN QEYBİ KÖMƏKLƏRİ*

Bu gün İslam cəmiyyətində ilahi və qeybi köməklər başqa zamanlara nisbətən daha çox dillərə düşüb. Xüsusən, döyüş bölgələrində, haqqın batilə qarşı müharibəsində İslam əsgərləri hamıdan çox İlahi köməkləri görmüş, qeybi imdadlardan bəhrələnmişlər. ***“Qur`an”*** və ***“Nəhcül-bəlağə”*** ilahi və qeybi köməklərin baş verməsini ***“Allaha kömək”lə*** şərtləndirir. ***“Allaha kömək”*** məfhumunu aydınlaşdırmazdan əvvəl başqa bir məsələni həll etməliyik. Soruşula bilər ki, ***“kömək”*** kimə qarşı olunmalıdır və kimin köməyə ehtiyacı ola bilər? Bir kəs ***“filan milyonçuya on manat kömək etdim”*** – desə gülməzlərmi? Halbuki, ***“filan fəqirə kömək etdim”*** – desə onun bu işini tə`rifləyərlər. ***“Allaha kömək”*** etmək nə deməkdir? Məgər (nəuzu billah) Allahda nöqsanlı hal və çatışmayan bir şey var ki, Ona kömək olunsun?! Məgər Allahın işlərində zəiflik təsəvvür edilə bilərmi?! Bu suala cavab vermək

üçün ilk növbədə Allahın qanunlarından biri ilə bəşərin yaratdığı qanunu müqayisə etmək zəruridir.

### *QANUN ZOR GÜCÜNƏ YOX, DAXİLİ İSTƏKLƏ İCRA OLUNMALIDIR*

Müasir dünya qanunlarında qanunvericinin məqsədi yalnız onun icra olunmasıdır; istər bu qanunlar məcburiyyətlə və zorla icra olunsun, istərsə də eşq, əlaqə və qəlbi istəklə. Amma bunun əksinə olaraq Allah qanunlarında və peyğəmbərlərin göstərişlərində, qanunun icra olunmasında məqsəd zorla və məcburiyyət əsasında yox, yalnız onun daxili istəyi və imanı ilə yerinə yetirilməsidir. Buna görə də görürük ki, hər hansı ölkədə vergi vaxtı çatanda, dövlət özünün hərbi və polis qüvvələrindən istifadə etməklə, zorla da olsa, əhalidən vergi toplayır. Amma İslam ***"xüms", "zəkat"*** və sair... kimi qanunları verəndə e`lan edir ki, bu vergilər veriləndə gərək qəsdi-qürbət (Allaha görə) və ***"qürbətən iləllah"*** (Allaha yaxın olmaq üçün) niyyətini etsinlər. Mə`lum olduğu kimi "***qəsdi-qürbət"in*** birinci mərtəbəsi Allahın qanunu qarşısında səmimi qəlbdən təslim olmaq və bu qanunu təmiz qəlblə qəbul etməkdir. Buna görə də İslam fəqihləri inanırlar ki, əgər bir şəxs milyonlarla manat ***"xüms"*** versə, amma ***"qürbət"*** niyyəti etməsə, xüms verməyən insan kimi hesab olunur.

Bu xüsusiyyəti anladıqdan sonra ***"Allaha kömək"*** sözünün mə`nasını yaxşı təsəvvür edə bilərik. Qeyd etdiyimiz kimi, peyğəmbərlərin gətirdikləri ilahi qanunlar məhz bu əsasla təbliğ edilir ki, insanlar Allahın qanunlarını öz əqidələri, imanlı qəlbləri və istəkləri əsasında icra etsinlər. Allahın qoyduğu

qanunlar məcburiyyət üzündən və zorla, ixtiyarsız şəkildə yerinə yetirilmir. Aydındır ki, bu cür hədəflərin həyata keçməsi üçün insanların fikri inkişaf etməli, qəlbləri qəflətdən ayılıb əsl insaniyyətə qayıtmalıdır. Beləliklə, bu hədəfin yerinə yetməsi üçün ən yaxşı yol insanın öz fitrətinə qayıtması və öz əslini dərk etməsidir. ***"Allaha kömək"*** ifadəsinin məfhumu budur. Belə ki, əgər insan özünü tanıması və cəmiyyətin islahı istiqamətində kiçik bir tədbir görsə, həqiqətdə, ***"Allahın köməyinə"*** gedir və İlahi köməyə tələsir. İndi görək Allaha hansı yolla və necə kömək etmək olar? Həzrət Əli (əleyhissalam)-ın Malik Əştərə xitab etdiyi sözlərinə diqqət yetirməklə aydın olur ki, bu hədəfə üç yolla çatmaq olar:

***Əvvəl: Qəlblə kömək***

İnsan qəlbinin vasitəsi ilə Allaha kömək etmək istəsə, hər şeydən əvvəl gərək öz nəfsini rəzil xislətlərdən və pisliklərdən pak etsin, öz batinini təmizləmək üçün çalışsın. Ona görə ki, Allaha qəlblə kömək etməyin mə`nası, insanın öz qəlbini, ruhunu və nəfsini təmizləməsindən, insanın öz əslinə qayıtmasından başqa bir şey deyildir (yə`ni, insan fitri olaraq Allah qarşısında təslimdir). Buna görə də nəfsi saflaşdırmaqda atılan ilk addımda insan öz batinini tərbiyə etməli, möhkəm e`tiqad, iman və Allahın qanunlarını qəbul etmək üçün qəlbini və ruhunu hazırlamalıdır. Başqa sözlə desək, hər kəs Allaha qəlbi ilə kömək etmək və haqq yolunda qədəm atmaq istəsə, gərək qəlbində kamil e`tiqada, möhkəm imana şərait hazırlasın. O zaman insan bu yolu xalis imanla ötüb keçəcək ki, e`tiqadı və imanı gündən-günə kamilləşsin

Bununla da insan bu uca yolda daim təzə mərhələlərə qədəm qoyur və hər mərhələdə tə`sirli addımlar atır.

***İkinci: Əllə kömək***

Həzrət Əli (əleyhissalam) öz dəyərli sözlərində Allaha ***"əllə kömək"*** mövzusundan söhbət açanda Onun ***"əldən"*** məqsədi ***"qüdrət"***dir. Belə ki, Qur`ani-Kərimdə oxuyuruq:

يَدُ اللَّهِ فَوْقَ أَيْدِيهِمْ

***"Allahın qüdrəti ən üstün qüdrətdir. "***[1]

Heç bir qüdərt, Allahın yenilməz və əzəli qüdrətinə çata bilməz. Adi insanlar arasında ***"əl"*** dedikdə bədənin xüsusi üzvü nəzərdə tutulmasa, həmin ***"qüdrət"*** mə`nasında işlənir. Nümunə üçün, deyirik: ***"Filankəsin əlindən bu iş gəlmədi"*** və ya ***"fələyin əli məzlumun intiqamını zalımdan alacaq".*** Hər iki cümlədə ***"əl"*** kəlməsi ***"qüdrət"***ə kinayədir. Bütün bunları nəzərə aldıqda mövla Əli (əleyhissalam)-ın Malik Əştərə yazdığı ***"əllərinlə Allaha kömək et!"*** cümləsindən məqsədin nə olduğu bizim üçün aydınlaşır. Yə`ni məqsəd budur ki, Malik bütün qüdrət və imkanı ilə Allah yolunda qədəm götürsün, Allahın qanun və əhkamlarının icrasında var qüvvəsindən istifadə etsin. Bununla da müqəddəs İslam dininin əsl hədəfini yerinə yetirmiş olur.

***Üçüncü: Dillə kömək***

Bu gün təbliğatın dünyadakı rolu heç kəsə gizlin deyil. ***"Təbliğ"*** silahı hər bir silahdan kəsərli və qüdrətlidir. Ən çox tə`sirli təbliğ dillə olan təbliğdir. Bu növ təbliğin qüdrəti, hansı mövzuda olursa-olsun, öz tə`sirini göstərir. Əgər insanın dili hiyləgərlik və

---

[1] Fəth surəsi, 10-cu ayə.

təxribatçılıqla iş görsə, insanlara yolu azmaq istiqamətində tə`sir göstərəcək. Əgər bu dil, İlahi qanun və əhkamların təbliği yolunda işlənsə, sözsüz ki, Allahın dininin yayılmasına çox kömək edər. Bu da əslində Allaha kömək sayılır.

### *ALLAHIN VƏ`DƏSİNDƏ XİLAF OLMAZ*

İnsan hər vaxt qəlbi, əli, dili və nəhayət, bütün qüdrəti ilə Allah yolunda çalışsa, yeganə məqsədi Allah qanunlarının icrası olsa, sözsüz ki, Allahın köməyi onun sorağına gələr. Ona görə ki, Allah-taala Qur`anda və`də vermişdir ki, hər kəs Allaha kömək etsə, Allah da ona kömək edər:.

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِن تَنصُرُوا اللَّهَ يَنصُرْكُمْ

***"Ey iman gətirənlər! Əgər siz Allaha kömək etsəniz, Allah da sizə kömək edər. "[1]***

Bu İlahi və`dədə hər bir xüsusiyyətlərdən öncə, iki cəhəti nəzərdə tutmaq lazımdır:

***Birinci:*** Bu və`də Allah və`dəsidir. Allahın və`dəsi də əksər insanların puç və əsassız və`dələrinə bənzəməz. Əksinə, o elə bir və`dədir ki, sözsüz yerinə yetər. Allah hər zaman hər hansı bir işi iradə etsə, yerinə yetirər.

***İkinci:*** Kömək edən Allahdır və Onun qüdrəti də sonsuzdur. Təbiidir ki, əgər Allah Öz sonsuz qüdrəti ilə zəif məxluq olan insana kömək etsə, bu insanın qarşısında heç kəs dayana bilməz:

إِن يَنصُرْكُمُ اللَّهُ فَلاَ غَالِبَ لَكُمْ

***"Əgər Allah sizə kömək etsə, heç kəs sizə qalib gələ bilməz. "[1]***

---

[1] Mühəmməd surəsi, 7-ci ayə.

İlahi köməyin eynilə belə bir nümunəsi İran İslam inqilabının böyük rəhbəri İmam Xomeyninin haqqında olmuşdur. Mə`lumdur ki, İmam Xomeyni malik olduğu hər şeyi (ailə, uşaq, vətən, təhsil... ) Allah yolunda, İslam qanunlarının həyata keçməsinə sərf etmişdir. Bunun qarşısında Allahın köməyi onun bütün işlərində özünü doğrultdu. Tutduğu yolun nə ilə nəticələndiyi mə`lumdur.

Həzrət Əli (əleyhissalam)-ın bu cümlələrindən alınan nəticə elə bir məsələ haqqındadır ki, bu gün dünya müsəlmanları onun bəlasına düçar olublar. Yə`ni, bu gün dünyanın hər yerində müsəlmanlara qarşı cinayətkarcasına mübarizə başlanmışdır. Biz müsəlmanların da vəzifəsi budur ki, var qüvvəmizlə onların qarşısını alaq. Şəkk yoxdur ki, əgər İslam ümməti Allahın qanunlarını himayə etsə, Allahın köməyi onlara daha tez yetişər.

### *ÖZÜNÜ UNUTMAQ*

Bə`ziləri mö`min, ürəyiyanan və məs`uliyyətli olmalarına görə ölkə rəhbərinə bə`zi çatışmazlıqları göstərib, öz müxalifətçiliklərini bildirirlər. Onlar ölkə başçısının bütün işlərini diqqətlə izləyir, hər bir əməl haqqında nəzər verirlər. Amma özləri vəzifəyə keçib bə`zi işləri öhdələrinə aldıqda, əvvəlki işlərini yaddan çıxarır sanki unutqanlığa mübtəla olurlar. Sanki bunların vəzifəyə gəlməyi ilə bütün işlər qaydasına düşmüş və daha heç bir çətinlik yoxdur. Həzrəti Əli (əleyhissalam) ***“unutqanlıq”*** halının qarşısını almaq üçün Malik Əştərə xəbərdarlıq edir. Ona görə ki, bu hal

---

[1] Ali-İmran surəsi, 160-ci ayə

insanda ***“təkəbbür”***, ***“özünü ən yaxşı adam hesab etmə”*** kimi halları yaradır. Dünənə qədər sən və sənin kimilər məs`ulların əməllərinə nəzarət edirdiniz, onlara xəbərdarlıq verirdiniz. Bu gün onlar sizin əməlləriniz barədə sual edirlər.

ثُمَّ اعْلَمْ يَا مَالِكُ أَنِّي قَدْ وَجَّهْتُكَ إِلَى بِلَادٍ قَدْ جَرَتْ عَلَيْهَا دُوَلٌ قَبْلَكَ مِنْ عَدْلٍ وَ جَوْرٍ وَ أَنَّ النَّاسَ يَنْظُرُونَ مِنْ أُمُورِكَ فِي مِثْلِ مَا كُنْتَ تَنْظُرُ فِيهِ مِنْ أُمُورِ الْوُلَاةِ قَبْلَكَ وَ يَقُولُونَ فِيكَ مَا كُنْتَ تَقُولُ فِيهِمْ

***"Ey Malik! Bil, mən səni elə şəhərlərə göndərmişəm ki, səndən əvvəlki hakimlər orada həm ədalət və insaf, həm də zülm və sitəmlə rəftar etmişdilər. Sözsüz, sən əvvəllər hakimlərin işlərinə nə cür nəzarət etmisənsə, əhali də sənin işlərinə o cür baxacaq. Sənin haqqında, sənin başqalarına dediyin şeyləri deyəcəklər. "***

Malik Əştərdən əvvəl Misirdə hansı ***"ədalətli dövlətlər"***in olması və oranın hakimlərinin kimliyi haqqında iki nəzər var:

***Birinci:*** Məqsəd, Sə`d ibn Qeys və Məhəmməd İbn Əbi Bəkrin dövranıdır.

***İkinci:*** Məqsəd Həzrəti Yusif (əleyhissalam)-dır. Ona görə ki, istilahda Sə`d ibn Qeysin və Məhəmməd ibn Əbi Bəkrin hakimiyyətinə ***"dövlət"*** kəlməsi aid edilmir.

Aydındır ki, ölkənin məs`ulları Həzrətin yalnız bu tövsiyəsinə əməl etsələr, əhali onların hesablarına yetişməzdən və onların əməllərindən sual etməmişdən əvvəl özləri fikirləşib əməllərini saf-çürük edərlər, bu işdə yalnız Allahı nəzərdə tutarlar. Bu cür olsa, ölkədə çatışmazlıq yaranarmı?

### *XEYİRXAHLARIN DÜNYADAKI MÜKAFATI*

İslamın İlahi məktəbində heç bir əməl mükafatsız qalmaz. Xeyirxah və əməlisaleh şəxslər qiyamətdə savaba yetişmələrindən əvvəl, bu dünyada onlara İlahi mükafat çatar. Xeyirxahların dünyadakı mükafatı salam, rəhmət, salavat və bir sözlə, yaxşı addır. Bu

mükafat insanın dünyada yaşadığı müddətdə deyil, əksinə, bütün tarix boyu və dünyanın gərdişi qədərdir. Buna görə də tarix səhifələrində zalımlar və təcavüzkarlar daim xeyirxahlarla və Allahpərəstlərlə mübarizə aparmışlar. Xeyirxahların adları tarix boyu salam-salavatla yad edilmişdir, amma o biri dəstəni həmişə lə`nətlə, nifrətlə xatırlamışlar. Həzrəti Əli (əleyhissalam) bu İlahi mükafatı qeyd edərək buyurur:

وَ إِنَّمَا يُسْتَدَلُّ عَلَى الصَّالِحِينَ بِمَا يُجْرِي اللَّهُ لَهُمْ عَلَى أَلْسُنِ عِبَادِهِ فَلْيَكُنْ أَحَبَّ الذَّخَائِرِ إِلَيْكَ ذَخِيرَةُ الْعَمَلِ الصَّالِحِ

***Allah-taala insanların pis və yaxşı işlərini əhalinin dilinə salır. Beləliklə də xeyirxahları günahkarlardan ayırmaq olur. Belə isə sənin üçün ən yaxşı yol azuqəsi "əməlisaleh" olmaqdır.***

Mövla Əli (əleyhissalam)-ın bu hikmətli sözü Qur`ani-Kərimdən əldə olunmuşdur. Qur`an bu mövzuya işarə edib buyurur:

إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ سَيَجْعَلُ لَهُمُ الرَّحْمَنُ وُدّاً

***"O kəslər ki, iman gətiriblər, Rəhman Allah onları (xalqın gözündə) sevimli edəcək. "***[1]

Bu ayə göstərir ki, xeyirxahların adı həmişə xalqın qəlbindədir və əhali onları sevib məhəbbət bəsləyir. Aydındır ki, bu qəlbi və daxili əlaqə, qəlblərdə həbs olunub qalmaz. Bir gün gələr ki, insanlar öz eşq və əlaqələrini aşkar edər, batini hissiyyatların, insanı duyğuların səmtində hərəkət edərlər, istədikləri şəxslərin iradəsini yerinə yetirərlər. Deyilə bilər ki, insan gərək Allah dərgahında xeyirxah olsun, Allahın xoşuna gəlsin. Əgər bu cür olmasa, xalq arasında yaxşı adla tanınmağın nə kimi tə`siri var?

---

[1] Məryəm surəsi, 96-cı ayə.

Ümumiyyətlə, xalq arasında yaxşı ad qazanmaq insanın e`tibarını azaldır, ya yox? İnsanın zərərinədirmi? Cavabında söyləyirik: Xalq arasında yaxşı ad çıxarmağın çoxlu faydaları və nəticələri vardır. Biz xülasə olaraq onlardan ikisinə işarə edirik:

***Birinci:*** Əgər insan cəmiyyətdə özünə məhəbbət qazansa, sözsüz ki, cəmiyyət ona inanar və e`timad edər. Bu e`timadın nəticəsində də bir nəfərin qüvvəsi böyük bir cəmiyyətin qüdrətinə çevrilir. Bu cür şəxs təklikdə minlərlə xeyirxah əməli yerinə yetirə bilər. Bu işin ən bariz nümunəsi İran İslam inqilabında hamıya aydın oldu; İmam Xomeyninin yalnız mə`nəvi qüdrəti nəticəsində İranın 40 milyonluq cəmiyyəti xiyabanlara və küçələrə axışdı, neçə milyonluq nümayişin vasitəsi ilə 2500 illik tarixi keçmişə malik olan şah rejimini devirdi. Gördüyünüz kimi əhalinin İmam Xomeyniyə olan həddindən artıq eşq və əlaqəsi, məhz qəlblərin ona e`timad etməsi sayəsində idi.

İndi sual edirik: Əgər xalqın İmam Xomeyniyə e`timadı, eşq və inamı olmasaydı, İmam hərəkət edə bilərdimi? Əlbəttə, xeyr!

***İkinci:*** Cəmiyyətdə təbliğin tə`siri hamıya mə`lumdur, təbliğ silahı ən iti və kəsərli silah hesab olunur. Təbliğin mühüm yollarından biri Allahın xeyirxah bəndələrinin yaxşı əməllərini yada salmaq, onları hamı üçün aydınlaşdırmaqdır. Bu cür xatırlamaq, hər hansı ***"şəxsi"*** təbliğ etmək sayılmır; əksinə, xeyirli işi, xeyirxahların məqamlarını bəyan etməkdir. Əgər biz ayətullah Şəhid Murtəza Mütəhhərini tə`rifləyiriksə, sadəcə onun şəxsiyyətini tə`rifləmirik, əksinə, İslamı, İslam ruhanilərini və nəhayət, ***"xeyirxah işi"*** tə`rifləyirik.

## *YAXŞI AD AXİRƏTDƏ XEYİRXAHLARIN SƏNƏDİDİR*

Qiyamət günündə insanın bütün əməllərindən tək-tək sorğu-sual olunacaq. Qur`anın bəyanı ilə desək:

فَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْراً يَرَهُ (7) وَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ شَرّاً يَرَهُ

***"(O gün) hər kəs zərrə qədər xeyir iş edibsə, onu(n mükafatını) görəcək. Hər kəs də zərrə qədər pis iş edibsə onu (n cəzasını) görəcək."***[1]

Hər insan, ən xırda əməlinin belə əvəzini görəcək. Xeyirxahlar xüsusi üstünlüklərdən istifadə edəcəklər. Yə`ni, Allah-taala onların xeyir əməllərini və yaxşı adlarını onlar üçün şahid qərar verəcək. Buna görə də onların bə`zi kiçik xətaları bağışlanacaq, nəticədə xeyirxahlar bu dəhşətli gündən azad və alnıaçıq çıxacaq, behiştin saysız-hesabsız ne`mətlərindən bəhrələnəcəklər.

Bura qədər xeyirxahların dünyada olan mükafatları aydın oldu. İndi görək xeyirxah işin əhəmiyyəti nədir və onu hansı yolla əldə etmək olar?

## *XEYİRXAH İŞİN ƏHƏMİYYƏTİ*

İslam əqidəsinə görə insanın vücudu iki yöndən təşkil olunub; Birincisi maddi tərəf-torpaq. İkincisi isə mə`nəvi və mələkuti cəhəti. Bu tərkibə azadlıq və ixtiyar əlavə olunduqdan sonra bu ixtiyar insanı müxtəlif növ fəsadlara, ziyanlara tərəf sürükləyir. Bütün bu xəsarətlərdən yalnız iman, saleh əməl və səbirlə xilas olmaq mümkündür. Qur`anda oxuyuruq:

---

[1] Zəlzələ surəsi, 6 və7-ci ayələr.

وَالْعَصْرِ (1) إِنَّ الْإِنسَانَ لَفِي خُسْرٍ (2) إِلَّا الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ وَتَوَاصَوْا بِالْحَقِّ وَتَوَاصَوْا بِالصَّبْرِ (3)

***"And olsun əsrə (zamana) ki, bütün insanlar xəsarət və ziyandadır. Yalnız iman gətirən, xeyirxah əməl edən, bir-birlərinə haqqı və səbri tövsiyə edənlər xəsarətdə deyildirlər. "***[1]

Bu surədə xeyirxah əməlin ifa etdiyi rol və malik olduğu əhəmiyyət yaxşı şəkildə təfsir olunmuşdur. Buradan aydın olur ki, fəsaddan, xəsarətdən nicat yolu yalnız iman və xeyirxah işdir. Özü də bir yox, çoxlu xeyirxah əməllər yerinə yetirmək lazımdır.

### *XEYİRXAH İŞLƏR HANSILARDIR?*

Bura qədər xeyirxah işlərin əhəmiyyəti və rolu haqqında söhbət olundu. İndi görək xeyirxah işlər hansılardır? Hansı yolla bilmək olar ki, müəyyən bir iş xeyirxah işdir? Xeyirxah işi üç yolla tanımaq olar:

***Birinci: Təklif yolu***

Allahın insanlar üçün təklif (mükəlləfiyyət) kimi tə`yin etdiyi bütün vacib əməllər xeyirxah işlərdir. Onların vacib olması xeyirli olmalarına dəlildir. Ona görə ki, əgər bu işlər xeyirli olmasaydı, Allah-taala insana, onu yerinə yetirməyi əmr etməz və bu işləri vacib təklif kimi vacib etməzdi. Deməli, oruc, namaz, xums, zəkat, cihad, əmr be-mə`ruf, nəhy əz-münkər və İslamın başqa vacibatının hamısı ***"əməli saleh"*** hesab olunr.

***İkinci: Tə`rifləmə yolu***

Qur`ani-Kərimdə, Əhli-beyt (ələyhimussəlam)-ın rəvayətlərində hər vaxt bir əməlin tə`riflənməsindən

[1] Əsr surəsi

söz açılsa, bu o işin xeyirxah olduğunu göstərir. Ona görə ki, əgər bu iş xeyirxah olmasaydı, Allah-taala heç vaxt onu tə`rifləməzdi. Bu səbəbdən aşağıda zikr olunanlar saleh əməl hesab olunur:

قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ (1) الَّذِينَ هُمْ فِي صَلَاتِهِمْ خَاشِعُونَ (2) وَالَّذِينَ هُمْ عَنِ اللَّغْوِ مُعْرِضُونَ (3)

***“Həqiqətən mö`minlər qurtuluşa çatdılar. Onlar ki, namazlarını hüzuri-qəlb ilə qılarlar; onlar ki, bihudə (əbəs) və batil sözlərdən üz çevirərlər.”***[1]

Həzrəti Əli (əleyhissalam) özünün məşhur “***Həmmam”*** xütbəsində ***“müttəqi”***lərin sifətlərini bəyan etdikdə buyurur: ***“Onların danışıqları həmişə düzdür. Libas geyinməkdə orta səviyyədə olarlar. Yol getmələri və rəftarları təvazökarlıqladır... Yaradan onların gözündə ucadır, Ondan başqa nə varsa hamısı onların nəzərində kiçik hesab olunar... İstəkləri yüngül (az), nəfsləri pak, çətinliklərdə səbirlidirlər. Halal mal arxasınca gedərlər. Qəlbləri Allahdan qorxan, nəfsləri qanedir”***[2]

***Üçüncü: Eşitmək yolu***

Bə`zi əməllər xüsusi əhəmiyyətə malik olduğu üçün Qur`anda və mə`sum İmamların (ələyhimussəlam) rəvayətlərində bunları xeyirxah əməl olması açıq şəkildə qeyd olunub. Qur`ani-Kərim, İslamın əvvəllərindəki mücahidlərin vəziyyətlərini qeyd etdikdən sonra aşkar şəkildə e`lan edir ki, bə`zi xüsusiyyətlərə malik olanlara qiyamətdə ***“saleh əməl”*** yazılacaq. Həmin mövzuda oxuyuruq:

---

[1] Mu`minun surəsi, 1-3-cü ayələr.

[2] Nəhcül-bəlağə, (Feyzul-İslam) 194-cü xütbə.

مَا كَانَ لِأَهْلِ الْمَدِينَةِ وَمَنْ حَوْلَهُم مِّنَ الأَعْرَابِ أَن يَتَخَلَّفُواْ عَن رَّسُولِ اللّهِ وَلاَ يَرْغَبُواْ بِأَنفُسِهِمْ عَن نَّفْسِهِ ذَلِكَ بِأَنَّهُمْ لاَ يُصِيبُهُمْ ظَمَأٌ وَلاَ نَصَبٌ وَلاَ مَخْمَصَةٌ فِي سَبِيلِ اللّهِ وَلاَ يَطَؤُونَ مَوْطِئاً يَغِيظُ الْكُفَّارَ وَلاَ يَنَالُونَ مِنْ عَدُوٍّ نَّيْلاً إِلاَّ كُتِبَ لَهُم بِهِ عَمَلٌ صَالِحٌ إِنَّ اللّهَ لاَ يُضِيعُ أَجْرَ الْمُحْسِنِينَ

***“Mədinə və onun ətrafında olan əhali Allahın elçisinin (fərmanından) çıxmasınlar, öz canlarını Peyğəmbərin canından əziz tutmasınlar. Bu ona görədir ki, (Peyğəmbərə) itaət etmələrinin, Allah yolunda aclığın, susuzluğun, yorğunluğun və kafirləri qəzəbə gətirən hər bir işlərinin, düşmənlərə vurduqları hər bir zərbənin, bütün bu əziyyətlərin hər birinin qarşısında onlar üçün əməli-saleh yazılar. Allah-taala xeyirxahların mükafatlarını zay etməz. Allah yolunda verilən hər bir malın (əvəzi), hər bir ölkənin keçilməsi qarşısında, əməl dəftərində yazılar. Allah onlara əməl etdiklərinin dəyərindən yaxşı mükafat verər. ”[1]***

[1] Tövbə surəsi, 120-ci ayə.

## NƏFSƏ QALİB GƏLMƏK

İslam hökuməti elə bir şəxsi rəhbər kimi qəbul edir ki, o, hər bir nəfsani istəklərindən azad olsun...

İslam hökumətinin kamil nümunəsini təşkil edən Həzrəti Əli (əleyhissalam) Malik Əştəri vali kimi Misrə göndərir və ona xitab edərək buyurur:

فَامْلِكْ هَوَاكَ

***Ey Malik! Nəfsinin istəklərinin maliki ol!***

Əvvəlki bəhslərdə təqva və nəfsi istəklərdən qorunma haqqında bə`zi mətləblər bəyan olundu. İndi görək ***"nəfsə malik"*** olmaqla ***"əməli-saleh"*** arasında nə kimi fərq var? Görəsən, ***"nəfsə malik olmaq"*** elə ***"əməli-saleh"*** və ***"əməli-saleh"*** elə ***"nəfsə malik olmaq"*** deməkdirmi, yoxsa onların hər birinin başqa-başqa mə`naları var? Mümkündür ki, ***"nəfsə hakim olmaq" "əməli-saleh"*** işlərdən biridir deyilsin. Ona görə ki, əməli saleh, yalnız əl, ayaq və sair bədən üzvləri ilə olmur, əksinə, ***"qəlbi-əməllər"***də, əməli-saleh iş hesab olunur. İnsanın qəlbindən keçən yaxşı əməllər də xeyirxah iş sayılır. Bu müddəanın ən yaxşı dəlili Qur`ani-Kərimdir: [1]

وَأَمَّا مَنْ خَافَ مَقَامَ رَبِّهِ وَنَهَى النَّفْسَ عَنِ الْهَوَى (40) فَإِنَّ الْجَنَّةَ هِيَ الْمَأْوَى

***"Amma hər kəs Allahın məqamından qorxub nəfsini pis istəklərdən qorusa, əslində Behişt onun məkanıdır. "***

Ayədəki fe`l şəklində bəyan olunan ***"nəfsin qorusa"*** cümləsi hekayət edir ki, insanın nəfsi ***"əməl"*** edə bilər: Yə`ni, insanın təkamülə yetmək üçün nəfsini bə`zi şeylərdən qoruması vacibdir. Bununla da aydın olur ki, nəfsə hakim olmaq ən mühüm ***"əməli saleh"*** iş

---

[1] Naziyat surəsi, 40-cı ayə.

sayılır. Bunun əhəmiyyəti o qədərdir ki, İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi) buyurur:

***“Əgər nalayiq sözlər danışmasaydınız, ürəklərinizdə qara olmasaydı, mən gördüyüm hər şeyi siz də görərdiniz, mən eşitdiyim hər şeyi siz də eşidərdiniz. ”***[1]

Bə`ziləri fikirləşirlər ki, ***“nəfsə hakim”*** olmaq ***“əməli-saleh”*** iş deyil. Əksinə, ***“əməli-saleh”*** işin müqəddiməsidir. Bu mə`nada ki, əgər insan əməli-saleh iş yerinə yetirmək istəsə, əvvəlcə ***“nəfsinə hakim”*** olmalıdır. Nəfsinin yersiz istəklərinin qarşısını almalıdır.

## *MEYLLƏRİ QORUMAQ*

Freydin[2] cinsi azadlıq nəzəriyyəsinin, rahiblərin ***“həqiqətə çatmaq üçün qərizələri öldürmək lazımdır, ”*** kimi yalançı fikrinin əksinə olaraq, İslam e`tiqadına görə insanın batinində Allah tərəfindən yaradılan bütün meylləri şər və fəsad mənşəyi hesab etmək olmaz. İnsan bütün meyllərindən şəriət qanunlarının hüdudlarından aşmamaq şərti ilə istifadə edə bilər. Başqa sözlə desək, İslam meyllərin orta səviyyədə və mö`tədil olmasını qəbul edir. Bu din, insan meyllərinin tamamilə məhv edilib aradan aparılmasının tərəfdarı deyil, buna görə də mütləq şəkildə olan qeydsiz-şərtsiz cinsi azadlığın qəti ziddinədir. Başqa tərəfdən, cinsi meyllərin qarşısının tamamilə alınması iddiasını irəli sürən rahibləri də rədd edir. Həzrəti Əli (əleyhissalam) bu barədə həqiqəti aydınlaşdıraraq buyurur:

---

[1] Əl-Mizan, 5-ci cild, səh 292.
[2] Qərb psixoloqlarından biri.

وَ شُحَّ بِنَفْسِكَ عَمَّا لَا يَحِلُّ لَكَ فَإِنَّ الشُّحَّ بِالنَّفْسِ الْإِنْصَافُ

***“Nəfsini sənə halal olmayan şeylərdən qoru! Ona görə ki, sevdiyin və xoşun gəlməyən işlərdə özünü saxlamaq, elə insafın özüdür.”***

## *İSLAM VƏ PUÇ “BƏŞƏR HÜQUQU” İDDİAÇILARI*

Yalandan “bəşər hüququ” iddia edənlər deyirlər ki, yer üzündə bütün insanlar eyni və bərabər hüquqa malikdirlər. Amma əməldə bu iddiaya əməl etməməkdən əlavə, kiçik ölkələrə zərrə qədər belə qiymət və əhəmiyyət vermirlər. Bu ölkələrə asudə yaşayış və əmin-amanlıq imkanını verməməkdən əlavə, onları kütləvi şəkildə qırğına tərəf aparır və qanlarını nahaq yerə axıdırlar. Keçən əsrlərdə özlərini Həzrəti Məsihin (əleyhissalam) tərəfdarları adlandıran kilsə üsul-idarəsi İsa peyğəmbərin (əleyhissalam) insansevərliyinin və mehr-məhəbbətinin əksinə olaraq, azlıqda olan dinlərin ardıcıllarını kütləvi şəkildə qırmağa başlayırlar. Onların nümunəsi kimi məsihilərin yüz il boyu müntəzəm şəkildə müsəlmanlara qarşı ***“səlib yürüşlərini”*** qeyd etmək olar. Onlar bu döyüşlərdə milyonlarla müsəlmanı qətlə yetirmişlər. Müasir dövrdə də İsrail qəsbkarları Fələstin torpaqlarını zəbt etməkdən əlavə, onların evlərini və əkin yerlərini yerlə yeksan edir, dağıdır, bu ölkənin əsl sahibi olan müsəlmanlara orada yaşamaq hüququ vermirlər. Hər gün onlardan böyük bir dəstəsini öldürür, başqa bir dəstəsini ölkədən çıxarıb səhralarda qaçqın və didərgin halına salırlar. Amma İslam dini əsla bu cür deyil. Bunun canlı şahidi İran

İslam cümhuriyyətində Xomeyninin az saylı dinlərə azadlıq verməsi və Həzrəti Əli (əleyhissalam)-ın qeyd olunacaq kəlamıdır.

مِنْهَا فِيمَا أَحَبَّتْ أَوْ كَرِهَتْ وَ أَشْعِرْ قَلْبَكَ الرَّحْمَةَ لِلرَّعِيَّةِ وَ الْمَحَبَّةَ لَهُمْ وَ اللُّطْفَ بِهِمْ وَ لَا تَكُونَنَّ عَلَيْهِمْ سَبُعاً ضَارِياً تَغْتَنِمُ أَكْلَهُمْ فَإِنَّهُمْ صِنْفَانِ إِمَّا أَخٌ لَكَ فِي الدِّينِ اَوْ نَظِيرٌ لَكَ فِي الْخَلْقِ يَفْرُطُ مِنْهُمُ الزَّلَلُ وَ تَعْرِضُ لَهُمُ الْعِلَلُ وَ يُؤْتَى عَلَى أَيْدِيهِمْ فِي الْعَمْدِ وَ الْخَطَإِ فَأَعْطِهِمْ مِنْ عَفْوِكَ وَ صَفْحِكَ مِثْلِ الَّذِي تُحِبُّ وَ تَرْضَى أَنْ يُعْطِيَكَ اللَّهُ مِنْ عَفْوِهِ وَ صَفْحِهِ فَإِنَّكَ فَوْقَهُمْ وَ وَالِي الْأَمْرِ عَلَيْكَ فَوْقَكَ وَ اللَّهُ فَوْقَ مَنْ وَلَّاكَ وَ قَدِ اسْتَكْفَاكَ أَمْرَهُمْ وَ ابْتَلَاكَ بِهِمْ

***“Qəlbinin şüarını əhali ilə dostluğa, məhəbbətə və onların haqqında lütf və mərhəmət etməyə tərəf yönəlt! Rəiyyət üçün yırtıcı heyvan (kimi) olma ki, onların azuqələrini qənimət hesab edəsən! Ona görə ki, rəiyyət iki dəstədir: Ya sənin din qardaşların, ya da yaradılışda (insanlıqda) səninlə şərik insandırlar. Bə`zi səbəblər qarşıya çıxdığına görə, onlardan bə`zən çatışmazlıq və xoşagəlməz işlər-istər səhvən, istərsə də qəsdən baş verir. Necə ki, sən öz (günahların üçün) Allahdan bağışlanmaq gözləyirsən, onlara özünün bağışlanmaq niyyətin ilə bax! Ona görə ki, sən onlardan yuxarıdasan. Səndən də yuxarıda bir kimsə var, sənə vilayət verib. Ondan da yuxarıda Allahdır. Əhalinin işini sənə həvalə etməklə səni imtahan edən Odur!”***

Mə`lum olur ki, Həzrət çox dəqiqliklə hökumətin nəzarəti altında olan əhalini təsnif etməklə Malikə tövsiyə edir ki, cəmiyyətin bütün üzvlərinə bərabər səviyyədə nəzər etsin, onların hüququnu zərrə qədər belə azaldıb-əskiltmədən özlərinə tapşırsın. Bu xüsusi göstəriş yalnız İslam hökumətinə məxsusdur. Dünyanın qüdrətli ölkələrində və “bəşər hüququnun müdafiəçisi” iddiasını edən ölkələrdə bunun tamamilə əksini müşahidə edirik. Bu ölkələrdə azlıqda olan

millətlər və zəif təbəqələr eyni hüquqdan və imtiyazlardan məhrum olmaqdan əlavə, həmişə müxtəlif bəhanələrlə əzilir, istismar olunur və müxtəlif yollarla işkəncələrə mə`ruz qalırlar.

### *ÖZBAŞINALIĞIN VƏ FƏSADIN SƏBƏBLƏRİ*

İmamın buyurduğu ***"onlar üçün bə`zi səbəblər qarşıya çıxdığına görə"*** cümləsindən aydın olur ki, cəmiyyətdə günah və əxlaqi pozğunluqların amilləri meydana gəlir. Doğrudur ki, insanın batinində həmişə-ya qəsdən, ya da təsadüfən xətərli və insana layiq olmayan fikirlər yaranır, amma çox vaxt bu fikirlərin cəmiyyətdə meydana gəlməsi üçün münasib şərait yaranır. Nümunə üçün, fahişəliyin (pozğunçuluğun) və bə`zi şəxslərin zinaya olan nisbətini nəzərə alaq. İmanın zəif olması nəticəsində insan bu işə baş qoşur, amma bu yaramaz işin rəvac tapmasınln əsas səbəbi ailələrdə bə`zi çatışmazlıqlar, ər-arvad arasında mehribançılığın, səmimiyyətin olmaması, diqqətsizlik və məcburiyyət üzündən olan evlənmələr və onlarla digər səbəb ola bilər.

### *"İSMƏT", "ƏDALƏT" VƏ "FASİQ" KƏLMƏLƏRİNİN MƏ`NALARI*

Həzrətin kəlamlarının aydın olması üçün bir neçə fiqhi kəlmələrdən istifadə etməliyik. O kəslər ki, hər növ günaha baş qoşar və günah işləri görməkdə heç də ar etməzlər, bu cür şəxsələrə fiqh istilahında ***"fasiq"*** deyirlər. Bunların müqabilində o kəslər ki, nəfslərini nəzarət altına alır, müəyyən şəraitə adət etməklə özlərini Allahın haram buyurduğu işlərdən qoruyurlar,

vacib və müstəhəb işləri eşq və əlaqə ilə yerinə yetirirlər, bunlar ***“adil”*** adlanırlar. Bu halətə isə ***“ədalət”*** deyirlər. Bu cür halət daimi deyil, bir müddətdən sonra bə`zi günahların səbəbindən aradan gedə bilər. Bu zaman insan günahdan və fəsaddan uzaqlaşa bilmir. Odur ki, bə`ziləri yüz və ya yüz min manat haram pulun qarşısında öz pak nəfslərinə rahatçılıqla nəzarət edir və bu cür günaha baş qoşmurlar. Lakin çox vaxt bu cür şəxslər yüz milyonlarla pulun qarşısında imanlarını əldən verirlər.

Adil insan özünün uzun müddətli çalışmaları səbəbinə nəfsini qoruya bilir, hər hansı vəziyyətdə olsa da günaha yaxın durmur. Amma həmin adil şəxs mümkündür qəflət və ya unutqanlıq səbəbilə bə`zi günahlara düçar olsun. Bu zaman Allahın nəzərində bu iş günah hesab olunmur. Qiyamətdə ondan sorğu-sual olunmur və onun ədalətindən heç bir şey əskilmir.

***“İsmət”*** elə bir halətdir ki, Mə`sum (əleyhissalam)-ı həmişə və bütün günahların qarşısında-istər qəsdən, istərsə də yaddan çıxmaq üzündən olsun-qoruyur. Bu halət səbəbi ilə Mə`sum (əleyhissalam) heç vaxt günaha düşməz.

### *MƏ`SUM ŞƏXS GÜNAHA DÜŞÜRMÜ?*

Fəqihlərin nəzəri budur ki, mə`sum heç vaxt günah etməz. Belə bir sual yaranır, görəsən Mə`sum (əleyhissalam)-ın günah etməyə qüdrəti çatmır ki, günah etsin, yoxsa günah etməyə imkanı yoxdur? Əgər mə`sum İmamların (ələyhimussəlam) günahsızlığı bu yolladırsa, yə`ni onların günaha tərəf getməyə qüdrəti olmasa və buna görə də günah etməsələr, bu cür ismət və günahsızlıq onlar üçün fəzilət hesab oluna bilməz.

Amma əgər mə`sumlar (əleyhissalam) günah iş görməyə qüdrətləri ola-ola heç vaxt günah iş görmürlərsə, bu hansı şəraitdə olur və onu necə təsəvvür etmək olar? Bu suala cavab vermək üçün İlahi məqam sayılan ***“ismət”*** məfhumunu daha da aydınlaşdırmaq lazımdır.

Adi insanlar, yə`ni mə`sum olmayan insanlar bə`zi günahlar qarşısında bir növ ***“ismətə*”** malikdirlər. Yə`ni, o işi görməyə qadir ola-ola heç vaxt o işi görmürlər. Nümunə üçün ***“övrəti açmaq”*** İslamda ən pis işlərdən hesab olunur. Sağlam, ağıl sahibi olan hər bir insan bu işə qadir olduğuna baxmayaraq, övrətini camaatın gözü önündə açmaz. Səbəbi budur ki, bu işin çirkinliyi onun üçün tamamilə aydındır və onun fəsadlı bir iş olmasına tam inanıb. İndi də bu nəzərlə peyğəmbərlərin xasiyyətlərinə nəzər edək. Dedik ki, peyğəmbərlər və mə`sumlar (ələyhimussalam) heç vaxt günah iş görməzlər. Onu da əlavə edirik ki, mə`sum İmamlar (ələyhimussalam) hər hansı bir çirkin əməli görməyə qüdrətləri olan halda heç vaxt bu işi görməzlər. Ona görə ki, adi insanlarda hər hansı bir çirkin işin yaramaz olmasına kamil surətdə elm əmələ gəlir və buna görə də onu yerinə yetirmirlər. Mə`sum İmamlar da (ələyhimussalam) bütün çirkin işin yaramazlığını adi insanlardan qat-qat artıq bildiklırinə görə Allahın qadağan etdiyi hər hansı kiçik günahı heç vaxt görməzlər. Bu halət istər qəsdən, istərsə də səhvən olsun, mə`sumlarda baş verməz.

## *YADDAN ÇIXAN HALDA "MƏ`SUM" OLMAĞIN RƏMZİ*

Qeyd etdik ki, mə`sumların (əleyhimussalam) isməti iki cəhətdən adi insanların ismətindən genişdir:

***Birincisi***, mə`sumların (ələyhimussalam) bütün əməllərə qarşı ismətləri vardır.

***İkincisi,*** onlar adi, nə də yaddan çıxan halda Allahın qanunlarının ziddinə əməl etməzlər. Sual oluna bilər ki, unutqanlıq halında (qeyri-ixtiyari) ismətli olmağın rəmzi nədir? Ola bilərmi ki, mə`sumlar (əleyhissalam) unutqanlıq üzündən günaha düşsünlər və Allahın qanunlarına zidd əməl etsinlər? Məgər qeyd olunmadı ki, insan bilməyərəkdən günah iş görsə, Allah-taala onu günahkar hesab etmir və bu cür əməllərdən sorğu-sual olunmur?

Mə`lumdur ki, peyğəmbərlər, Qur`anın bəyanı ilə desək ***"bəşir"*** və ***"nəzir"*** olmaqla bərabər, cəmiyyətin rəhbərliyini öz öhdələrinə götürmüşlər. Əgər cəmiyyətin rəhbərləri səhvən və unutqanlıq üzündən belə qəflət və günah etsələr, bu iş şəriətdə günah hesab olunmasa da, rəhbərin əhalinin nəzərində öz məqamından düşməsinə səbəb olacaq və əhali tərəfindən o qədər də e`tibarlı sayılmayacaqlar. Peyğəmbərlər və İmamlar tarix boyu insanların hidayətlərini öz öhdələrinə götürmüşlər. Əgər səhvən və ya xəta üzündən belə günah iş görsələr, sözsüz ki, mə`nəvi və ictimai məqamları aşağı düşəcək və rəhbərlik işlərində süstlük əmələ gələcək. Buna görə də peyğəmbərlər və mə`sum imamlar səhvən və yaddan çıxan halda da ismətə malikdirlər, günah və xəta etməzlər.

## *ƏHALİ İLƏ QƏZƏBLƏ RƏFTAR ETMƏK ALLAHLA MÜHARİBƏ KİMİDİR*

Həzrəti Əli (əleyhissalam)-ın nəzərində əhali ilə qəzəblə davranmaq və Allah bəndələrinə zülm etmək Allahla düşmənçilik kimi bir işdir. Zalımların və sitəmkarların aqibəti həmişə məğlubiyyət və peşmançılıqla başa çatır. Ona görə ki, heç bir qüdrət sahibi dünyanın Xaliqi ilə qarşı-qarşıya dura bilməz. Bütün varlıqlara qüdrət verən halda, kimin Onunla qarşılaşmaq qüdrəti var?! Heç bir hakim Allahın rəhmətindən və bağışlamasından ehtiyacsız deyil.

وَ لَا تَنْصِبَنَّ نَفْسَكَ لِحَرْبِ اللَّهِ فَإِنَّهُ لَا يَدَ لَكَ بِنِقْمَتِهِ وَ لَا غِنَى بِكَ عَنْ عَفْوِهِ وَ رَحْمَتِهِ
وَ لَا تَنْدَمَنَّ عَلَى عَفْوٍ وَ لَا تَبْجَحَنَّ بِعُقُوبَةٍ وَ لَا تُسْرِعَنَّ إِلَى بَادِرَةٍ وَجَدْتَ مِنْهَا مَنْدُوحَةً

***“Əhali ilə qəzəblə rəftar edib özünü Allahla müharibə məqamında qərar vermə! Onunla qarşı-qarşıya durmağa səndə qüdrət yoxdur, Onun bağışlamasından və mehribançılığından ehtiyacsız deyilsən. (Əhalini) bağışlamağından peşman olma, onlara cəza verdikdə özündə şadlıq hissinə yol vermə. Çoxlu səhvlərin mənşəyi olan qəzəb halında tələsmə!”***

## *DİKTATORÇULUQ*

Təkəbbür, özünüsevmək, şəxsiyyətə pərəstişlikdən irəli gələn diktatorluq, insanı, öz əqidəsini əhaliyə zorla qəbul etdirməyə sövq edir. Bu cür xüsusiyyətə malik olan şəxs müsəlmanların rəhbəri olarsa, cəmiyyəti zorakılığa və yalançılığa aparmaqdan əlavə, müqəddəs İslam dininin əsaslarının viran olunmasına gətirib çıxarır. Bununla da müsəlmanlar səadət və xoşbəxtliklərini əldən verib, bədbəxtçiliyə düçar olarlar. Həzrət buyurur:

وَ لَا تَقُولَنَّ إِنِّي مُؤَمَّرٌ آمُرُ فَأُطَاعُ فَإِنَّ ذَلِكَ إِدْغَالٌ فِي الْقَلْبِ وَ مَنْهَكَةٌ لِلدِّينِ وَ تَقَرُّبٌ مِنَ الْغِيَرِ

***Heç vaxt demə ki, "mən onlara başçıyam! Məndən fərman vermək, onlardan da itaət etmək. " Ona görə ki, bu iş fəsadın ürəklərə yol tapmasına, dinin zəifləməsinə, Allahın ne`mətinin kəsilməsinə səbəb olur.***

### *TƏKƏBBÜRLÜK*

Əvvəlcədən qeyd etdik ki, diktatorluğun əsl səbəbləri kimi, təkəbbürlük, özünü istəmə, fəxr etmə hallarını göstərmək olar. Onu da qeyd etmək istərdik ki, bütün bunların hamısı insanın cəhalət və nadanlığından irəli gəlir. Ona görə ki, əgər insan özünün ruhi və cismi quruluşunu tanısa, aləmin Pərvərdigarının müqəddəs zatı qarşısında nə qədər aciz və zəif olduğunu bilər və başa düşər ki, hər nəyi varsa Ondandır, hər şeydə yalnız Onun verdiyi qüdrətlə hərəkət edir. Bütün bunları başa düşdükdən sonra öz təkəbbürçülüyündən xəcalət çəkəcək.

Həzrəti Əli (əleyhissalam) Malik Əştəri özü haqqında düşünməyə təşviq edir. Allah-taalanın əzəmətli məqamı qarşısında özünün hansı məqamda olmasını ona xatırladaraq buyurur:

وَ إِذَا أَحْدَثَ لَكَ مَا أَنْتَ فِيهِ مِنْ سُلْطَانِكَ أُبَّهَةً أَوْ مَخِيلَةً فَانْظُرْ إِلَى عِظَمِ مُلْكِ اللَّهِ فَوْقَكَ وَ قُدْرَتِهِ مِنْكَ عَلَى مَا لَا تَقْدِرُ عَلَيْهِ مِنْ نَفْسِكَ فَإِنَّ ذَلِكَ يُطَامِنُ إِلَيْكَ مِنْ طِمَاحِكَ وَ يَكُفُّ عَنْكَ مِنْ غَرْبِكَ وَ يَفِيءُ إِلَيْكَ بِمَا عَزَبَ عَنْكَ مِنْ عَقْلِكَ إِيَّاكَ

***Hər vaxt məqam və mövqeyin qəlbində təkəbbür yaratdısa, Allah-taalanın əzəmət və qüdrətinə nəzər et ki, səndən üstündür. Onun sonsuz qüdrəti ilə, özünü və o şey ki, ona qadir deyilsən, müqayisə et! Şəksiz, bu***

***müqayisə səni təkəbbür atından aşağı gətirəcək, tüğyançı nəfsini ram edəcək, ağlını özünə qaytaracaq.***

Qüdrət və məqampərəstlik arzuları insanı elə bir mə`nəvi korluğa və qəflətə çəkir ki, insan Allahın məxluqu olduğu halda, öz qüdrətini Allahın sonsuz qüdrətilə bərabər hesab edir. Əmirəl-mö`minin Əli (əleyhissalam) bu cür hisslərə qapılmanın aradan getməsi üçün buyurur:

وَ مُسَامَاةَ اللَّهِ فِي عَظَمَتِهِ وَ التَّشَبُّهَ بِهِ فِي جَبَرُوتِهِ فَإِنَّ اللَّهَ يُذِلُّ كُلَّ جَبَّارٍ وَ يُهِينُ كُلَّ مُخْتَالٍ

***Özünü böyüklükdə və hakim olmaqda Allahla şərik olmadan və Ona bənzətməkdən çəkin! Ona görə ki, Allah-taala hər təkəbbür edəni və boynu yoğunu zillətə salır!"***

Yuxarıdakı cümlələrdə Həzrət ***"bənzətmə"dən*** istifadə edib. Bu da Həzrətin məsələ qarşısında hədsiz diqqət və məs`uliyyət hissi keçirdiyini göstərir. ***"Oxşatmaq"*** və ***"bənzətmək"*** kəlmələri bir mə`nanı ifadə etməsinə baxmayaraq, ***"bənzətmək"*** sözündə xüsusi incəlik, lətafət və xüsusiyyət vardır. Bə`zən ***"Zeyd şir kimidir"*** – deyərək Zeydi şirə oxşadıblar. Bu oxşatmanın da səbəbi ***"şücaət"***dir. ***"Zeyd şücaətdə şir kimidir"*** – cümləsi o vaxt deyilir ki, Zeydi tanıyırıq və onun şücaətindən xəbərimiz var. Məhz bundan sonra Zeydi şirin şücaəti ilə sifətləndiririk. Bu qeyddən mə`lum olur ki, Zeyd həqiqətdə də şir kimi şücaətlidir. Bu mövzuda ***"oxşarlıq"*** kəlməsinin işlənməsinin heç bir eybi yoxdur. Üstəlik ən yaxşı və məntiqi kəlmə kimi işlənilir.

Bə`zən ***"oxşatma"***lar həqiqi olmur. Yə`ni, şəxsdə oxşatmağa heç bir məqam və dərəcə yoxdur. Əslində heç bir oxşatma yeri yoxdur, amma zahirdə nəzərə

çarpır ki, oxşatma işlənilib. Bu cür yerlərdə ***“təşəbbüh”*** (bənzətmə) mə`nasından istifadə olunacaq. Əslində oxşatmırıq, amma iki kəlməni elə deyirik ki, oxşatma nəzərə gəlir. Nümunə üçün, deyirik ***“yağ istidə əriyib su oldu”,*** amma bilirik ki, yağla su arasında heç bir oxşarlıq yoxdur. Sadəcə olaraq yağ əridiyinə görə onunla su arasında bənzətmə işlədi. Bunu bildirmək istəyik ki, qəsd etdiyimiz yağ maye halına gəldiyinə görə suya bənzər oldu. Başqa nümunə: ***“Çörək süfrədən kənarda qalıb ağac kimi qurudu”.*** Quru çörəklə, quru ağac arasında həqiqi oxşama yoxdur. Əksinə, onların arasında quruluq cəhətindən bənzətmə vardır. Başqa nümunədə deyirik: ***“bu yeməyin əti yaxşı bişməyib, rezin kimi bərkdir. ”*** Mə`lum olduğu kimi ətlə rezin arasında heç bir oxşarlıq yoxdur, bənzətmə ilə ətin bərk olmasını bildirmək istəyirik. Bu cür yerlərdə həmin bənzətmə (təşəbbüh) işlənir. Yə`ni, iki kəlmə arasında həqiqi oxşarlıq yoxdur, amma bu oxşarlığı zorla göstərmək istəyirik. Həzrəti Əli (əleyhissalam) yüksək diqqət və məharətlə həmin mə`nanı özünü təkəbbürlü aparan şəxslər haqqında işlədir. Həzrət öz işlərini Allahın gördüyü işlərə bənzətmək istəyən və təkəbbürlük edənlər barəsində demək istəyir ki, heç kəs özünün işlərini əzəmətli məqam sahibi olan Allah-taalaya bənzədə bilməz. Yə`ni, ***“məxluq” “Xaliqə”*** bənzəyə bilməz. Amma məxluqun bu cür fikirləri zehnindən keçirməsi heç də uzaq deyil. Belə ki, o, bu haləti zahirdə bəyan etməyə bilər. Həzrət dərin mə`nalı cümləsi ilə bildirmək istəyir ki, əzəmət və ucalıq yalnız Allah-taalaya məxsus olduğu halda, heç kəs onu başqasına bənzədə bilməz. Bu məsələnin başqa bir dəlili vardır ki, əgər ona diqqət etsək Həzrətin

tövsiyəsinin dərin mə`nasına vararıq. Bizim qüdrətimiz (hər hansı qüdrət olursa olsun; istər İslam hökumətinin altında, istər Allahın qanunlarını yaymaq üçün və istərsə də sair üçün) nə qədər çox olsa, yenə də bu qüdrət bizdə zatən və əsl deyildir, öz-özündən coşmur, böyümür və yaxud bizim vücudumuzdan əmələ gəlmir, əksinə, bütün dünya qüdrətləri hər hansı bir vəzifədən, məqamdan qidalanıb. Bu qüdrətlər Allahın qüdrətindən güc almaqla əmələ gəlir. Bu bir həiqətdir və bizim Allahın verdiyi qüdrətdən başqa heç bir qüdrətimiz yoxdur. Hətta, kiçik hərəkət (qüdrət) hesab olunan oturmaq və durmaq da bizim özümüzdən deyil, Allahın sonsuz qüdrətindən qaynaqlanır. Buna görə də namazda oxuyuruq: ***"İlahi, yalnız, Sənin qüdrətinlə oturub dururam. "*** Əgər bu cür olmasa, bizim hansı gücümüz var ki, oturaq, yaxud duraq? Allahın qüvvəsi gəlməsə, nə nəfəs çəkmək olar, nə də nəfəs vermək. Biz hər bir qüdrətin mənşəyini Allah-taaladan bilirik, hər bir mövcudun vücudu aləmin Pərvərdigarındandir. ***"Allahın qüvvət və qüdrətindən başqa, heç bir güc və qüdrət yoxdur!"***

Belə nəticə alırıq ki, bu dünyada bizim ixtiyarımızda olan hər bir güc və qüdrət Allahın güc və qüdrətindəndir. Hər bir qüdrətimiz Allahın sonsuz qüdrətindən bir zərrədir ki, bizə əmanət verib. Bunun hara qədər davam edəcəyi, nə müddətdə olacağı və nəhayət, nə vaxt bizdən alınacağı mə`lum deyildir. Beləliklə, insanın bütün bu qüdrətlərinin mənşəyi Allah tərəfindən olan halda Onun əzəməti qarşısında özünə məqam tutması və öz qüdrətini Allahın qüdrəti ilə müqayisə etməsi düzgün olarmı? Əgər təbiət aləmində bu halətə nümunə tapmaq istəsək dünyanı

işıqlandıran günəşin kiçik ulduzlara nisbətindən başqa bir şey tapa bilmərik.

## *ÖZLƏRİNİ SƏHVSİZ HESAB EDƏNLƏRİN SƏHVİ*

Bəli, Həzrət Əli (əleyhissalam)-ın bu sözləri doğrudan da insanı qəflətdən oyadır. Bə`ziləri dünyada yüksək məqama yetişdikdən sonra özlərini itirir və adi haldan çıxırlar. Bu sözlər insanları özünə gətirir və həqiqətlərə açıq gözlə baxmağı öyrədir. Bu qiymətli tövsiyələrin əhəmiyyətini o zaman anlayacağıq ki, insanın heç vaxt səhvdən və çaşqınlıqdan tamamilə xilas ola bilməməsi mə`lum olsun. İnsan elə bir varlıqdır ki, onu “xəta məkanı” kimi qələmə verirlər. O, çox vaxt elə səhvlərə və xətalara mübtəla olur ki, tə`sirləri heç vaxt aradan getmir. Bu səhvlər o vaxt şiddətlənir və daimi olur ki, bir nəfər pis niyyəti olmadan sadəcə xalqa xidmət qəsdi ilə meydana gəlir və Allah rizası üçün insanlara xidmət etmək istəyir. Amma insanın səhvləri və xətaları onu elə vəziyyətə salır ki, işinin nəticəsi xalqa xəyanətdən başqa bir şey olmur. Burada məsələ qəlizləşir və insan təəssüflənir. Bu xətalar o zamandan başlayır ki, insan işinin ilk addımında özünü hər bir səhvdən və xətadan uzaq bilsin.

İnsanın əsas eyblərindən biri də budur ki, həmişə başqalarının müsibət və faciələri onun başına gəlməyəcəyini fikirləşir. Məsələn, səhv yolda işə başlayır və təsəvvür edir ki, hər bir xətadan uzaqdadır. Bu özü bir xətadır ki, insanı xətalar quyusunda saxlayır. Məsələyə diqqət edin və görün ki, nə cür olur insan özü də bilmədən səhv yola düşür və irəliləyir?

Əsas məsələ budur ki, biz insanlar bir çox əməllərimizdə o qədər səhvlərə və xətalara yol vermişik ki, adət üzündən heç bir müşküldən və müsibətlərdən bizə zərər yetişəcəyini hiss etmirik. Halbuki, faciələr bizi hər tərəfdən əhatə etmişdir. Ətrafımıza nəzər salırıq, amma onlardan heç bir əsər-əlamət görmürük. Nümunə üçün, yorğan-döşəydə yatan xəstəni görürük, o uzun illər xəstəxanalarda və ya mənzilində yorğan-döşəyə düşüb əzab-əziyyət içində boğulur. Amma həmin halda özümüzü sağlam hiss etdiyimizə görə özümüzdə xəstəliyin əsər-əlamətlərini görmürük. Heç bunu fikirləşmirik ki, sağlamlıq və şadlıq bizim üçün həmişəlik qalmayacaq. Fikirləşmirik ki, ola bilsin sabah həmin xəstəlik və ya ondan da pis bir xəstəlik bizim sorağımıza gələ bilər. Sanki insan özünü xəstəliyə tutulmaqdan istisna edib. Məgər həmin yatağa düşən xəstə neçə illər bundan əvvəl, sağlam vaxtlarında "bir müddətdən sonra elə bir xəstəliyə tutulacağam ki, xəstəxanada yatmalı olacam?" – deyə heç fikirləşmir. Bütün xəstəxanlara baş vurub, xəstələrlə söhbət etsəniz, görəcəksiniz ki, hamısı qeyd olunan kimi fikirləşirmiş. Xəstələnməzdən əvvəl xəstəlik haqqında ağlına heç bir şey gəlməzdi. Ümumiyyətlə, "müəyyən şərait yarana bilər və mən filan xəstəliyə tutula bilərəm" – deyə fikirləşməmişdi. Buna görə də insan çoxlarının mübtəla olduğu ən adi məsələlərdən qafildir. Hətta demək olar ki, insanın ömrünün çoxu qəflətdə keçir. Özü də elə məsələlərdən qafil olur ki, iş baş verəndə insan heç də təəccüb etmir və demir ki, nə üçün bu iş mənim başıma gəlib. Hətta insan hər an baş verməsi mümkün olan ən sadə, aşkar və adi məsələlərdən qəflətdədir. Əgər insan adi

vaxtlarda ən sadə məsələlərdən belə qəflətdə qalırsa, onda görün, hər hansı məqama çatdıqda, qüdrətə yetişdikdə bu qəflət necə olar?! Bu vaxt həqiqətən, insan qəflət içində boğulur. Ona görə də qüdrətə gəlməyin ən böyük eyblərindən biri də insanın qəflətə düşüb çıxılmaz vəziyyətdə qalmasıdır. Həqiqətdə, insanın böyük bir qüdrətə çatıb o qüdrətin tə`siri altında öz mə`nəviyyatını və nəfsini islah edə bilməsi çox çətindir. Çox vaxt insanın ruhiyyəsi belədir ki, qüdrətə çatan kimi bu qüdrətin onun üçün həmişəlik olduğunu, bu qüdrəti ondan alacaq bir səbəbin olmadığını güman edir. Halbuki, çox görünüb ki, ən böyük qüdrətlər vücuda gələndən az müddət sonra aradan gedib. Filankəs bu gün nazirdir, katibdir və ya hər hansı böyük bir məqamda əyləşib, amma sabah ondan xəta baş verdiyinə və ya hər hansı başqa səbəbə görə onu vəzifədən kənarlaşdıra bilərlər.

## *İNSAF VƏ ƏDALƏTLƏ ƏMƏL ETMƏK, ZÜLMLƏ MÜBARİZƏ APARMAQ*

Görəsən "Allah və əhali ilə insaflı olmaq"dan məqsəd nədir? Əvvəlcə Həzrətin fərmanını oxuyaq, sonra isə bu iki kəlmənin mə`naları ilə tanış olaq:

أَنْصِفِ اللَّهَ وَ أَنْصِفِ النَّاسَ مِنْ نَفْسِكَ وَ مِنْ خَاصَّةِ أَهْلِكَ وَ مَنْ لَكَ فِيهِ هَوًى مِنْ رَعِيَّتِكَ فَإِنَّكَ إِلَّا تَفْعَلْ تَظْلِمْ

***Allahla insaflı rəftar et! Əhali ilə-istər Allah tərəfindən, istər xüsusi və yaxın qohumların tərəfdən, istərsə də əhali arasında hörmət bəslədiyin şəxslərlə insafla rəftar et! Əgər bu cür etməsən, zülm etmiş olacaqsan!***

Həzrəti Əli (əleyhissalam)-ın bu sözləri iki mühüm mövzunu əhatə edir. Biri Allah-taalanın göstərişlərini

nəzərə almaq, ikincisi isə həmişə Allahın ne`mətlərini yada salıb onların müqabilində şükür etmək. Bə`ziləri adi yaşayışlarında fiziki və ruhi cəhətdən sağlamdırlar, heç bir narahatçılıqları yoxdur. Halbuki, bu böyük ne`mətin dəyəri haqqında fikirləşmir, bu böyük ilahi ne`mətin qədrini bilmirlər. Məsəl var deyərlər, insan nə qədər ki, sağlamdır, sağlamlığın qədrini bilmir. Nə qədər ki, insanın dişləri sağlamdır, gündəlik yeməklərini heç bir müşkül olmadan meyl edir. Bu dişlər elə təbii və sadə hərəkət edir ki, insan ağzındakı tikələri çeynəyərkən ağzındakı bir belə dişlər haqqında fikirləşmir. Sağlam ayaqları olan şəxs rahatçılıqla yol gedərkən, hər hansı nümayişdə, saatlarla hərəkət etdikdə bir an belə fikirləşmir ki, sağlam ayağa malik olmaq necə də böyük ne`mətdir. Amma, həmin dişlərdən biri xarab olduqda və ya onun əsəbində ağrı baş verdikdə, sanki dünya gözündə qaralır. Bu zaman nəinki rahat yemək yeyə bilmir, üstəlik ağrının şiddəti onu yerə yıxır, bir tərəfdə oturub bütün işlərindən əl çəkir. Nə qədər ki, diş ağrıyır, insanın qulağı da yaxşı eşitmir, gözləri yaxşı görmür, hətta ağlı da yaxşı işləmir. İndi yadına düşür ki, sağlam dişə malik olmaq necə də böyük ne`mət imiş! Halbuki, əvvəllər buna çox az diqqət edər, qədrini çox da bilməzdi.

İnsanın ayaqları xəsarət gördükdə, yol yeriməyə qadir olmadıqda, qızğın gediş-gəlişindən əl çəkir, bir guşədə oturmaq məcburiyyətində qalır. İndi başa düşür ki, sağlam ayağa malik olmaq necə böyük ne`mət imiş. Bə`zən kiçik bir çatışmazlıq insana elə ruhi əzab verir ki, bütün həyatını mə`nasız bilir. Hamımız sübh yataqdan qalxandan yatana qədər gözlərimizdən istifadə edirik. Əgər gözlərimiz sağlam olsa, vəzifəmizi

yaxşı yerinə yetirəcəyik. Bəlkə də minlərlə işi gözümüz vasitəsi ilə yerinə yetirəndə bir dəfə də olsun ağlımıza gəlmir ki, bu iki şəffaf göz, özünün mürəkkəb quruluşu ilə necə böyük ne`mətdir. Heç kəs gözləri sağlam olanda bir gün də olsun fikirləşmir ki, vaxt gələr gözlərinə xəsarət dəyər, o zaman hansı böyük ne`məti itirmiş olar? Hansı əzaba düçar olar? Amma gözlərinə kiçik bir xəsarət dəydikdə başa düşür ki, necə böyük ne`mətə xəsarət dəyib və onu zəlil edib. Bu vaxt insanın qarşısına o qədər müşkül və təəccüblü məsələlər çıxır ki, insanın canını əzab-əziyyətdə saxlayır. İnsan bu cür müşkül məsələlər haqqında heç vaxt əvvəldən fikirləşmirdi. Amma indi gözlərinin əsl qiymətini bilir. Heç vaxt fikirləşmirdi ki, kiçik nəzərə çarpan bu gözlər insan həyatında nə qədər böyük rol oynayır. Fikirləşmirdi ki, gözlərinə ziyan dəysə, həyatında hansı çətinliklərlə qarşılaşacaq, həyatını necə davam etdirəcək, ətrafda olan hadisələri nə cür dərk edəcək, mütaliə etmək, elm öyrənmək, ali məqsədlərə çatmaq, yol getmək, hətta ayağının altını görmək kimi məsələlər onu hansı böyük müşküllər qarşısında qoyacaq. Həmin məsələni dərk edin, qalanlarını isə özünüz hesablayın. Bu gün malik olduğunuz hər bir ne`məti nəzərinizdə canlandırın və təsəvvür edin ki, Allah eləməmiş, bütün bu ne`mətlər birdən məndən alınsa və ya onlara kiçik bir xəsarət yetişsə, bu sizin həyatınızda hansı böyük və bərpa olunmaz müşküllər qarşıya çıxaracaq (istər ruhi, istərsə də fiziki cəhətdən), sizi təbii yaşayış yolundan necə saxlayacaq. Məhz burda Allahla insafla rəftar etmək məsələsi qarşıya gəlir. Bir iş barəsində Allahla insaflı rəftar etmək, Onun ne`mətlərinə şükür etməkdir. Bunun əsl yolu da Allah-

taalanın bütün qanunlarına və göstərişlərinə əməl etməkdir.

Məgər insafdırmı ki, insan bütün bu ne`mətlərə sahib olan halda, Allahın qanunlarını görməməzliyə vursun və Allaha itaətdən boyun qaçırsın?! O qanunlar ki, çox sadə və xülasə şəkildə inşa edilib, insanın məhz öz xoşbəxtliyi və səadəti üçün nəzərdə tutulub. Çünki, Allahın bizə heç bir ehtiyacı yoxdur. İnsanların onun qanunları icra edib-etməməsinin Onun üçün heç bir fərqi yoxdur. Dəqiq və incə məsələlərdən biri də budur ki, biz öz dostlarımızın və ya başqa şəxslərin yanında xəcalət çəkdiyimiz qədər, Allahın qarşısında xəcalət çəkmirik. Məsələn, əgər bir kəs bizim haqqımızda kiçik bir yaxşılıq etsə və ya hər hansı kiçik işimizdə bizlərə kömək etsə, onun qarşısında imkanımız qədər minnətdarlığımızı bildiririk. Bə`zən əxlaqi vəzifəmiz tələb edir ki, ömrümüzün axırına qədər bu köməyi yadımızdan çıxarmayaq, harada olsaq, bu ehsanın əvəzini verməyə çalışaq. Amma necə olur ki, əxlaqımız Allah tərəfindən olan bütün bu ne`mətlərin qarşısında şükür etməyi tələb etmir? Nəyə görə özümüzü haqqı tanıyaraq şükür etmək vəzifəsindən kənar çəkirik? Allahın bizlərin xoşbəxtliyi üçün göndərdiyi sadə və asan qanunlara əməl etmirik? Halbuki, bu qanunların icra edilib-edilməməsinin Allah üçün heç bir faydası yoxdur. Əksinə, bu qanunların bizim özümüzün təkamülə yetməyimizdə və xoşbəxtliyə çatmağımızda faydası vardır. Bütün bunlardan nəticə alırıq ki, hər növ ne`mətə qarşı nankorluq etmək, Allahın lütf və mərhəmətinin qarşısında hər növ müxalifət və Onun qoyduğu ilahi qanunları yerinə yetirməmək Allaha qarşı ***"insafsızlıq"*** hesab olunur.

## *ƏHALİ İLƏ İNSAFLI OLMAQ*

Əhali ilə insafla rəftar etmək, yə`ni hər kəsin haqqını layiqincə ödəmək, hər bir insanın hüququna tam və bərabər şəkildə riayət etmək. Hakim hökumət məqamında əhali ilə iki cəhətdən insafla rəftar etməlidir:

***Birinci:*** Öz haqqında (istər dövlət məsələlərində olsun, istərsə də şəxsi məsələlərdə);

***İkinci:*** Qohumları, dostları və ona yaxın olanlarla;

İslam hökumətindən əldə olunan qənimətləri böləndə, hakimin vəzifəsi insafa riayət etməkdir. O, bütün əmlakı müsəlmanlar arasında insafla bölməlidir. Şəxsi məsələlərdə də eynilə; məsələn, əgər hakim bir nəfər müsəlmanla qonşu olarsa, hakimlik məqamından istifadə etməklə bə`zi məsələləri ona qəbul etdirməyə haqqı yoxdur. Əgər ona bir şey satmaq və ya almaq istəsə ixtiyarı yoxdur ki, öz məqamından sui-istifadə edib ona baha mal satsın və ya malı ondan ucuz qiymətə alsın. Hər iki mövzuda ədalət və insafla rəftar etmək zəruri və lazımdır. Tarixdə dəfələrlə müşahidə olunmuşdur ki, tacirlər qüdrətli şəxslərlə alver edərkən onların məqamlarından çəkinərək özlərinin ən qiymətli mallarını bazar qiymətindən dəfələrlə ucuz qiymətə satmışlar. Bunlar hələ alver zamanı olurdu. Bə`zən də tacirlər işlərinin yola düşməsindən ötrü özlərinin ən yaxşı mallarını hakimlərə hədiyyə verirdilər.

Bura qədər əhali ilə insaflı olmaq haqqında söhbət olundu. İndi də yaxın şəxslər və qohumlarla insaflı olmaq mövzusunda bəhs edəcəyik. Hakim özünün qohumları və ya yaxın adamlarına onun adından istifadə etməklə əhali ilə insafsızlıqla rəftar etməyə icazə verməməlidir. Ona görə ki, hər kəsin öz

qohumlarına və övladlarına xüsusi əlaqəsi var. Onlara olan əlaqəsinə görə onlara bə`zi imtiyaz və üstünlüklər verməsi mümkündür. Hakim bu cür olmamalıdır. Əgər belə bir hadisə baş versə, qohumlarla başqaları arasında insafsızlıqla rəftar hesab olunur. Ədalət və insaf tələb edir ki, xalqın bütün hüquqları qorunub tə`min olunsun.

### *ZALIM KİMİNLƏ HESABLAŞMALIDIR?*

Həzrət buyurur: ***"Hər kəs Allahın bəndəsinə zülm etsə Allahla düşənçilik edir. "*** Bu sözdən aydın olur ki, əgər bir nəfər Allahın bəndələrinə zülm etsə, sanki Allah-taalanın Özü ilə müxalifətçilik etmişdir. Yə`ni, Allah-taala məzlumdan əvvəl zalıma qəzəb edir. İntiqamını hər tərəfdən onun başına endirir. Nümünə üçün, əgər birisi sizin özünü müdafiə etməyi bacarmayan kiçik yaşlı uşağınıza zülm etsə, doğrudur ki, sizinlə işi olmayıb, amma özünüzü zülm olunmuş tərəf kimi hesab edirsiniz. Ona görə ki, aqillərin nəzərində övlada zülm olunduqda, ata zülmün ağrısını özündə hiss edir, qeyrət hissi cuşa gəlir, zalıma qarşı düşmənçiliyə başlayır. Ümumiyyətlə, ata-övlad rabitəsi bu haləti tələb edir. İslam Peyğəmbəri (səlləllhu əleyhi və alehi və səlləm) buyurur:

***"Allahın bəndələri Onun ailə üzvləri hesab olunur"***[1]

Bütün insanlar Allahın himayəti altındadırlar. Onlara zülm olunduqda, onlar da bu zülm qarşısında müqavimət göstərə bilməyib öz haqlarını ala bilmədikdə, Allah-taala Özü zalımlar və sitəmkarlarla

---

[1] Üsul-Kafi, 2-ci cild, səh 164

qarşı-qarşıya durar. Görəsən ata ilə övladın münasibəti möhkəmdir, yoxsa Allahın Öz bəndələrnə olan münasibəti? Əqli elmlərdə isbat edilir ki, atanın, övladın vücuda gəlməsindəki rolu ***"tam səbəb"*** deyil, heç ***"şərtiyyət"*** rolunu da oynamır. Əksinə, ata, övladın vücuda gəlməsində sadəcə olaraq ***"vasitəçi"*** rolunu oynayır. Bu şərt, övladın vücuda gəlməsinin tam səbəbindən kiçik bir rolunu öz üzərinə alır. Ata və övladın rabitəsi ilə həmin az miqdar ölçüsündədir. Yə`ni, ata övladın dünyaya gəlməsində kiçik bir vasitə hesab olunur.

Amma həmin övladın dünyaya gəlməsində Allah-taalanın rolu əsl səbəb rabitəsidir. Ona görə ki, övladı dünyaya gətirən, ona vücud bağışlayan məhz Odur. Yaradılışın vücuda gəlməsinin əsl səbəbi Odur. Övlad Onun iradəsi ilə dünyaya gəlir. Deməli, Allahın Öz bəndələri ilə olan rabitəsi əsl səbəb olması ünvanı ilə atanın oğlulla rabitəsindən qat-qat çoxdur. Ona görə də hər vaxt sizin övladınıza zülm olunsa, siz zalıma qarşı çox ciddi düşməçilik hissi ilə mübarizə aparmaq istəyərsinizmi? Allahın zalıma qarşı düşmənçiliyi sizinlə müqayisəolunmaz dərəcədədir. Bəli, sağlam düşüncə sahibləri tərəfindən sözsüz qəbul olunan danılmaz məsələ budur ki, Allah-taalanın zalıma qarşı qəzəbi, məzlumun (məzlumun zalıma qarşı) düşmənçiliyindən üstündür.

وَ مَنْ ظَلَمَ عِبَادَ اللَّهِ كَانَ اللَّهُ خَصْمَهُ دُونَ عِبَادِهِ وَ مَنْ خَاصَمَهُ اللَّهُ أَدْحَضَ حُجَّتَهُ وَ كَانَ لِلَّهِ حَرْباً حَتَّى يَنْزِعَ أَوْ يَتُوبَ

***Hər kəs Allahın bəndələrinə zülm etsə, Allah, bəndələri tərəfindən onun düşməni olar. Allah hər kəslə düşmənçilik etsə, onun məntiqini aradan aparar. Bu cür şəxs, ölənə və əlini zülmdən çəkənə qədər, yaxud tövbə edib Allahın fərmanına gələnə qədər Onunla döyüşən hesab olunur. "***

### *GÖZƏL SÖZ ÜSLUBUNDA DƏRİNDƏN FİKİRLƏŞMƏK*

Bizim nəzərimizcə Həzrəti Əli (əleyhissalam) ***Nəhcül-bəlağədə*** elə incə, lətif və bəlağətli kəlamlardan istifadə etmişdir ki, onların dərinliklərinə varmaq adi insanların işi deyil. Amma insan Həzrətin bəyanlarına gücü çatan miqdarda zəhmət və diqqətlə fikir versə, nə qədər dərin mə`nalardan istifadə olunduğu aşkar olar. Belə ki, əvvəlki bəhslərdə İmamın kəlamındakı cümlələrin birində ***"nas"*** (insanlar) kəlməsi işlənib. Əhalinin adil İslam hökumətində yaşadığını nəzərə alaraq onların hüquqlarını xatırladıb buyurur: ***"Əhali ilə insafla rəftar et!"*** Başqa yerdə İslam hökumətinin tabeçiliyində olanları müxtəlif dəstələrə ayıraraq onlara ***"rəiyyət"*** adı ilə işarə edir və buyurur:

***"Rəiyyət iki dəstədir: Ya din qardaşlarındır, ya da yaradılışda səninlə şərik olan insanlardırlar. "***

Amma bu hissədə Həzrət zülm məsələsini bəyan edir, insanın diqqətini ona tərəf yönəldir. Zalımın qarşısında Allahın dayandığını bəyan etdikdə "***nas"*** və ***"rəiyyət"*** kəlməsindən deyil, yüksək incəlik və lətafətlə başqa ünvandan istifadə edir. Elə bir ünvan ki, həm ***"əhali"*** mə`nasını verir, həm də onların Allahla

rabitəsini göstərir. Diqqət edin ki, bu incə məsələni çatdırmaq və bu mə`nanın dərinliyini anlatmaq üçün Həzrət hansı incəlik və diqqətlə bəlağətli kəlamdan istifadə edir. Sadə və eyni zamanda dərin mə`naya malik olan bu kəlmə ***"ibadəllah"*** (Allahın bəndələri) kəlməsidir. Həzrət bu kəlmədən istifadə etməklə bir dünya mətləbi kiçik bir ünvanla bəyan edir və buyurur:

"***Bunlar Allahın bəndələridir. Allahla, Xaliq-məxluq rabitələri var. Elə bir rabitə ki, ata-övladın rabitəsindən qat-qat güclü və möhkəmdir. Onlar Allah-taalanın himayəsi altındadırlar. Əgər onlara zülm olunsa və məzlumiyyətdə qalsalar, Allah-taala bu zülmün qarşısında sakit dayanmaz və məzlum bəndələrinin tərəfindən zalımlarla düşmənçilik edər. "***

Başqa yerdə Həzrət, Allahın zalımlarla düşmən olmağını bəyan edərək buyurur:

***"Allahla döyüş məqamında olar, "*** amma ***"Allahla döyüşən olar. "*** – demir. Bu cür bəyan, ərəb dilində yüksək bəlağətə və xüsusi mə`nalara işarədir. Mətləbin aydın olması üçün bir nümunə zikr edək. Məsələn, bir dəfə: ***"Zeyd adildir"*** başqa yerdə isə: ***"Zeyd özü ədalətdir"-***deyirik. Birinci cümlədə biz yalnız, Zeydin adil olmasını isbat etdik. Amma ikinci cümlədə (Zeyd özü ədalətdir) birinci cümlənin mə`nasını yetirməsinə baxmayaraq, ondan əlavə Zeydin ədalətinin şiddətli olmasını da sübut edir. Yə`ni, ***"Zeyd özü ədalətdir"*** cümləsini işlətməklə həqiqətdə bunu çatdırmaq istəyirsiniz ki, Zeyd ədalət simvoludur və ədalətin ən yüksək mərtəbəsinə malikdir. Bununla belə, bu cümlə, ***"Zeyd adildir"*** cümləsinin ziddinə deyil, sadəcə olaraq o cümlənin mə`nasını daha yüksək məqama qaldırmaqla bəyan edir. Maraqlı burasıdır ki, Həzrəti

Əli (əleyhissalam) Allahın bəndələrinə zülm edənlər haqqında: ***“Allahla döyüş etmiş olar, ”*** – deyə buyurur. O, Allahla döyüş halında olmaqdan əlavə, özü Allah qarşısında döyüş simvoluna çevriləcək. Yə`ni, Allahın nəzərində zalım eynilə ***“döyüş”*** simvoludur. Necə ki, həmin mə`nanı ***“Zeyd özü ədalətdir”*** cümləsində işlətmişdik. Nəticə budur ki, zalım, Allah qarşısında döyüş simvolu kimi qərar tutub.

### *ZALIMIN LABÜD OLAN MƏĞLUBİYYƏTİ*

Nə qədər ki, zalım, Allahla qarşı-qarşıya durub, əhali ilə yalnız quldurluq, zorakılıq və yalançılıqla rəftar edir. Bütün qüdrətlərdən üstün olan Allah-taala ***(“Allahın qüdrəti bütün qüdrətlərdən üstündür. ”)*** zalımın çöhrəsi ilə isbat edir ki, onun zülm və sitəmi əql və məntiq əsasında yox, quldurluq əsasındadır. Allah-taala yalançıları ifşa etdikdə və haqq zalımın tərəfindən götürüldükdə, əhali onun əsl siması olan zülmkar sifətini görər və tanıyar. Məhz bu vaxt Allaha arxalanmaqla onunla mübarizəyə başlayar. Bu çarpışmada Allah məzlumları himayə etdiyinə görə məzlum qələbə çalar və zalım məğlub olar. Həmin mə`na Həzrətin, ***“Allah onun məntiqini aradan aparar”*** cümləsində özünü göstərir.

### *ZALIMIN TÖVBƏSİ*

İslam zülmə qarşı çox şiddətlə və ciddiyyətlə mübarizə aparır və zülmü ən böyük günah hesab edir, Allah-taalanın zülmün qarşısında tam qüdrətlə dayandığını bəyan edir. Amma bununla belə, bütün qayıdış və tövbə qapılarını zalımın üzünə bağlamır. Ona görə ki, bağışlayan və mehriban Allah, həqiqi

tövbə edən hər bir günahkara rəhm edir. aləmin Pərvərdigarının rəhmət və əvf qapısı tövbə edənlər üçün daim açıqdır. Buna görə də Həzrəti Əli (əleyhissalam) buyurur: Həmin zalım insanı, döyüş simvoluna çevrilməsinə baxmayaraq, yenə də Allah bütün nicat qapılarını onun üzünə bağlamır. Allahın zalımla düşmənçiliyi ora qədər davam edir ki, zalım öz zülmünə davam etsin və tövbə edib haqq yoluna qayıtmasın. Deməli, zalım şəxs öz zülmündən əl çəkməyincə, Allah onunla düşmənçilik edəcəkdir. Əgər sidq-qəlblə peşman olaraq tövbə etsə, bağışlayan və mehriban Allah onun günahından keçər və tövbəsini qəbul edər. Artıq bu vaxt Allah onunla düşmənçilik etməz.

Əlbəttə, tövbənin də müxtəlif məqam və mərtəbələri vardır ki, onlara riayət etmək lazımdır. Məsələn, əgər birisi xalqın haqqını mənimsəyib, əmlakını dağıdıb-yeyibsə, onun tövbəsinin qəbul olunması üçün bu zülmdən əl çəkməsi təklikdə kifayət deyildir. Əksinə, var qüvvəsindən istifadə etməklə gücü çatan qədər hər kəsin haqqını özünə qaytarmalı, zülm etdiyi bəndələrin razılığını ələ gətirdikdən sonra tövbə etməlidir. Məsələn, əgər başqasının malını oğurlayıbsa, birinin var-yoxunu əlindən alıbsa, birinin evini zorla alıb ailəsini didərgin salıbsa, qanunsuz yolla mal-dövlət sahibi olubsa, onun ***“bu gündən belə haram mala əl vurmaram, halal yolla pul qazanaram, özgənin malını, xalqın min bir zəhmətlə qazandığını daha yemərəm və tövbə etməklə bu dünyada və axirətdə bağışlanaram”***-deyə fikirləşməsi kifayət etməz. Xeyr, əsla bu cür deyil! Bu hərəkət, Allaha qarşı məkr və hiyləgərcəsinə rəftar etməkdir. Bu cür hiylələr insanı

Allah yanında üzü ağ edə bilməz. Ona görə ki, Allah-taala ən böyük hiylələrin qarşısını, insanın ömrü boyu ağlına gəlmədiyi işlərlə alır. Allah insanın hər bir məkr və hiyləsindən xəbərdardır.

Beləliklə, hər kəs tövbə edib Allah yoluna qayıtsa, tövbə etməklə bərabər, haqqını tapdaladığı şəxslərin haqqını da özlərinə qaytarmalı, onların razılığını ələ gətirməlidir. Yalnız, bu halda Allah-taala o şəxsin səmimi və sidq-qəlbdən olan tövbəsini qəbul edər.

### *MƏZLUMUN NALƏSİNİN TƏ`SİRİ*

İslam baxımından bə`zi günahlar ne`mət və izzətin zillət və bədbəxtçiliyə çevrilməsinə səbəb olur. Bə`zi günahlar isə əzab və bəlaların nazil olmasına səbəb olur. Həzrəti Əli (əleyhissalam)-ın nəzərində Allah bəndələrinə zülm etmək ən böyük amildir ki, bir tərəfdən Allahın ne`mətini zillətə və zülmətə çevirir, başqa tərəfdən isə bəla və əzabın yer üzünə tez nazil olmasına səbəb olur. Bu əzabın həm axirət əzabı, həm də dünya əzabı olması və dünyada ona yetişməsi mümkündür. Zülmün isə ne`mətin bir neçə qat artıqlaması ilə zillətə çevrilməsinə səbəb olması mümkündür. Eləcə də həmin zülmün sağlamlıq ne`mətinin zalımın əlindən birdəfəlik alınması və onun özünün ölümünə səbəb olması da mümükündür. Bütün bunların hamısı məzlumun naləsindən asılıdır. Görəsən məzlumun arzu və istəyi nədir? Məzlum şəxs qüdrətli zalımın qarşısında qərar tutduqda, görür ki, zalımla üzbəüz durmağa və özünü müdafiə etməyə qüdrəti yoxdur. Bu zaman üzünü Allah-taalanın dərgahına tutur, tək olan ulu Tanrıdan kömək istəyir.

Görəsən onun bu andakı istəyi nədir? Təbiidir ki, istəyi bu olar:

***“İlahi! Bu zalımın qüdrətini ondan al ki, bundan sonra heç kəsə zülm etməsin. Ona verdiyin ne`mətləri ondan al ki, zəlil və xar olsun! Onun özünü müxtəlif əzablara mübtəla et ki, məzlumların qəlblərinə vurduğu zülmün dadını bilsin...!”***

Məzlumun istəkləri bu cür olduğundan, Allah-taala onun naləsini çox tez eşidir, dualarını tez qəbul edir. Nəticədə zalımın ne`mətləri sür`ətlə zillətə, izzəti və şan-şöhrəti isə əzaba çevrilir.

: وَ لَيْسَ شَيْءٌ أَدْعَى إِلَى تَغْيِيرِ نِعْمَةِ اللَّهِ وَ تَعْجِيلِ نِقْمَتِهِ مِنْ إِقَامَةٍ عَلَى ظُلْمٍ فَإِنَّ اللَّهَ سَمِيعٌ دَعْوَةَ الْمُضْطَهَدِينَ وَ هُوَ لِلظَّالِمِينَ بِالْمِرْصَاد

***Allahın ne`mətlərinin dəyişməsində (ne`mətlərin zillətə çevrilməsində), Onun intiqam üçün tez qəzəblənməsində zalımların möhkəm və tə`kidli zülmlərinə davam etməsindən tə`sirli amil yoxdur. (Yə`ni, zalımın xalqa zülmündə tə`kid etməsi, hər bir şeydən tez səbəb olacaq ki, Allah insandan ne`mətlərini geri alsın, onu rüsvay etsin və qəzəbini insana göstərsin.) Ona görə ki, Allah-taala məzlumların dualarını və istəklərini daha tez eşidir. Özü də zülmlə həmişə qarşı-qarşıyadır.***

### *HAKİMİN QƏRAR ÇIXARMA ME`YARLARI*

İslam hakiminin çıxardığı hər bir qərar, İslam qanunları çərçivəsində olmalıdır. Buna görə də hakim hər hansı qərar verəndə ***"haqq"*** və ***"ədalətə"*** riayət etməli, əhalinin əmin-amanlığını tə`min etməlidir.

وَ لْيَكُنْ أَحَبَّ الْأُمُورِ إِلَيْكَ أَوْسَطُهَا فِي الْحَقِّ وَ أَعَمُّهَا فِي الْعَدْلِ وَ أَجْمَعُهَا لِرِضَى الرَّعِيَّةِ فَإِنَّ سُخْطَ الْعَامَّةِ يُجْحِفُ بِرِضَى الْخَاصَّةِ وَ إِنَّ سُخْطَ الْخَاصَّةِ يُغْتَفَرُ مَعَ رِضَى الْعَامَّةِ

***Sənin yanında ən sevimli işlər gərək haqda orta səviyyəli olmaq, ədalətdə hamını nəzərə almaq olsun! Bütün işlərdə xalqın hamısı ilə razılığa gəl! Ona görə ki, əhalinin qəzəbi xüsusi şəxslərin razılığını heç edir, amma xüsusi şəxslərin qəzəbi isə əhalinin razılığı ilə aradan gedir***

***"Rəiyyət haqqında ədalət"***dən məqsəd, zehndə xəyali və fəzilətli (utopik) ölkə yaratmaq deyil ki, hakimin hər cür elmi qərarını idiealizmə çəksin. Ona görə də Həzrət ***"haqda orta səviyyəli"*** cümləsi ilə hakimi real və mövcud olan imkanları nəzərə almağa də`vət edir, buyurur ki, haqqı himayə etdikdə imkan daxilində elmə və həqiqətə yaxın olan haqqa riayət et, həqiqi haqqa elm tapmağın çətinliyini bəhanə edib, məs`uliyyətin altından qaçma. Bu dünyagörüşünə görə Həzrəti Əli (əleyhissalam) ədalətə riayət edərkən Malikə məsələnin bütün təfərrüatını nəzərə almağı tövsiyə edir. Ədalətə yaxın olan məsələnin dəyəri daha böyükdür. Nəhayət, ədalət və haqdan sonra xalqın razılığını və əmin-amanlığını əsas götürməyi İslam hakiminə tövsiyə edir. Görəsən, nəyə görə əhalinin razılığına bu qədər tə`kid olunur? Hökumətin nəzarəti altında yaşayan şəxslər iki qismə bölünür.

***1-ci: Əksəriyyət təşkil edənlər;***

***2-ci: Azlıqda olanlar***;

Cəmiyyətin əksər hissəsini adi adamlar təşkil edir. Bu qisim əhalinin imkanları adətən aşağı səviyyədə olur. Bu təbəqənin də qarşısında azsaylı insanlar var ki, maddi imkanları yüksək səviyyədədir. Ona görə də özlərini cəmiyyətin ***"xüsusi şəxsləri"*** hesab edirlər.

Onlar özlərini adi insanlardan üstün və şəxsiyyətli sanırlar. Heç bir hakim öz məqamında hər iki dəstənin razılığını eyni zamanda ələ gətirə bilməz. Ona görə ki, əgər zəif təbəqənin tərəfinə çox getsə, azlıqda olanlar narazı qalacaq. Əgər azlıqda olanların xeyrini düşünsə, əhalinin əksər hissəsi narazı olacaq. Təbiidir ki, xalqın əksər hissəsinin razılığını ələ gətirmək hökumətin və hakimin xeyrinədir, azlıqda olan təbəqənin narazılığı heç də müşkül qarşıya çıxartmaz.

### *ADİ VƏ XÜSUSİ İNSANLARIN XÜSUSİYYƏTLƏRİ VƏ HƏR BİRİSİNİN HÖKUMƏTDƏ ROLU*

Əvvəldə qeyd etdik ki, əgər hakim hiylə işlətməsə heç vaxt bütün əhalinin (istər əksəriyyət, istərsə də xüsusi təbəqənin) razılığını qazana bilməz. Təbiidir ki, hər bir dəstənin razılığı o biri dəstənin narazılığına səbəb olacaq. İndi də bu iki dəstənin hər birinin xüsusiyyətlərini və hökumətdə nə kimi rol ifa etdiyini Həzrəti Əli (əleyhissalam)-ın nəzərində öyrənək.

وَ لَيْسَ أَحَدٌ مِنَ الرَّعِيَّةِ أَثْقَلَ عَلَى الْوَالِي مَؤُونَةً فِي الرَّخَاءِ وَ أَقَلَّ مَعُونَةً لَهُ فِي الْبَلَاءِ وَ أَكْرَهَ لِلْإِنْصَافِ وَ أَسْأَلَ بِالْإِلْحَافِ وَ أَقَلَّ شُكْراً عِنْدَ الْإِعْطَاءِ وَ أَبْطَأَ عُذْراً عِنْدَ الْمَنْعِ وَ أَضْعَفَ صَبْراً عِنْدَ مُلِمَّاتِ الدَّهْرِ مِنْ أَهْلِ الْخَاصَّةِ

***Rəiyyət içərisində sülh və adi şəraitdə, yaşayış xərcləri hökumətin öhdəsinə ən ağır olan, ağır şəraitdə köməkləri ən az olan, ədalətin icrasına ən az kömək edən, öz istəklərində ən çox narazı olan, bəxşiş etməkdə ən çox simic olan, əhali arasında ən az təşəkkür edən, hökumət tərəfindən qadağalar qoyulanda ən çox narahat olan, müşkül hadisələr qarşıya çıxdıqda ən zəif və davamsız sinif, cəmiyyətin xüsusi şəxsləridir.***

### *ƏN YÜNGÜL XƏRC, ƏN ÇOX KÖMƏK*

Cəmiyyətin zəif və adi sinfinin birinci xüsusiyyəti budur ki, məişətlərində yemək, içmək, geymək və s. kimi ehtiyaclarından həmişə orta həddə istifadə edir, qənaətlə keçinirlər. Buna görə də hökumətə və hakimə ağır yük olmurlar. Halbuki, cəmiyyətdəki dövlətlilər özlərinin təmtəraqlı, ağır dəm-dəstgahı ilə günbəgün bahalıq və qıtlıq yaratmaqla hakimə ağır yük olurlar. Bütün bu ağırlıqlar və israfçılıqlar ilə birlikdə hökumətə bəla gəldikdə və ya müharibə başladıqda hamıdan əvvəl özlərini döyüş meydanından və çətinliklərdən kənara çəkirlər. Halbuki, zəif sinif müharibə qarşıya çıxarkən həmişə səbirli, dözümlü və qane olur, imkanları olan həddə hökumətə kömək edirlər.

### *İNSAF VƏ ƏDALƏTİ QƏBUL ETMƏK*

Cəmiyyətdə ***“ədalətin”*** bərqərar olması, İslamın ən ali-insani xüsusiyyəti hesab olunur. Hər bir İslam hakimi Qur`anın ***“Öz aranızda ədalətli olmağı əmr***

***etdim”***[1] hökmünü nəzərə almaqla cəmiyyətdə ədalətə və insafa dəqiq şəkildə riayət etməlidir.

### *NE`MƏTLƏR QARŞISINDA TƏŞƏKKÜR*

İnsan öz fitrətinin hökmünə görə ona hörmət edən hər kəsin qarşısında təşəkkür etməyi özünə borc bilir. Məhrum insanlar əsl fitrətlərinə əsasən şükür edən dilə malikdirlər. Hakimin onlara etdiyi ehsan və yaxşılıq qarşısında həmişə təşəkkür edir və bunları yaddan çıxarmırlar. Halbuki, cəmiyyətdəki bə`zi sərvətlilər hakimin ehsan və yaxşılıqlırını görməməzliyə vurur və təşəkkür etməyi özlərinə layiq bilmirlər.

### *ÜZRÜ QƏBUL ETMƏK*

İslam dövlətində cəmiyyəti dolandırmaq və əhalinin ehtiyaclarını tə`min etmək hakimin əsl vəzifələrindən biridir. Təbiidir ki, bu vəzifəni hər hansı bir şəraitdə yerinə yetirilməsi üçün, cəmiyyətdə bir növ dəyişiklik lazımdır. Bə`zən yaxşı imkan olduğuna görə dövlət bu vəzifəni daha sür`ətlə yerinə yetirir və əhalini razı halda saxlayır. Bə`zən də xüsusi böhranlara görə hökumət bu vəzifəni layiqincə yerinə yetirə bilmir. Bu kimi hallarda dövlət özünü əhaliyə borclu bilir, işin gedişini onlara xəbər verməklə üzrxahlıq edir. Bu vəziyyətdə məhrum siniflər və adi əhali üzrü qəbul edir, işin mütləq yerinə yetirilməsinə tə`kid etmirlər. Halbuki, bə`zi dövlətlilər bu cür üzürləri qəbul etmir və öz istəklərinə daha çox tə`kid edirlər.

---

[1] Şura surəsi, 15-ci ayə.

## *MÜSİBƏTLƏR QARŞISINDA SƏBİRLİ VƏ MÖHKƏM OLMAQ*

Hər bir millət ictimai həyatda salamatçılıq və əmin-amanlıqla yaşamaqla yanaşı, bə`zən xoşagəlməz hadisələr və daxili çətinliklərlə qarşılaşırlar. Heç bir hakim ölkəsinin gələcəkdə müsibət və giriftarçılıqla qarşılaşmayacağını iddia edə bilməz. Cəmiyyətin adi adamları güzəranlarını həmişə çətinlik və məhrumiyyətlə keçirdiklərinə görə müsibət baş verəndə və böhranlı vaxtda özlərini daha səbirli, təmkinli və dözümlü aparırlar. Halbuki, cəmiyyətdə güzəranını ali şəraitlə keçirən bə`zi dövlətlilər bu vəziyyətlə razılaşıb səbir etmirlər. Bütün bu xüsusiyyətlər hakimi cəmiyyətdə zəiflərə tərəf çəkir və onu məcbur edir ki, cəmiyyətdə ilk növbədə məhrumların xeyrini nəzərə alsın, onların razılığına cəlb etsin.

وَ إِنَّمَا عِمَادُ الدِّينِ وَ جِمَاعُ الْمُسْلِمِينَ وَ الْعُدَّةُ لِلْأَعْدَاءِ الْعَامَّةُ مِنَ الْأُمَّةِ فَلْيَكُنْ صِغْوُكَ لَهُمْ وَ مَيْلُكَ مَعَهُمْ

***Dinin dayağı, müsəlman cəmiyyətinin əksəriyyətini təşkil edən və düşmənlərə qarşı ehtiyat qüvvəsi sayılan yalnız adi əhalidir (zorakılıq işlədənlər və yolunu azmış dövlətlilər yox). Elə isə qulağın və meylin əhaliyə tərəf olsun.***

Həzrətin bu bəyanından və Qur`ani-Kərimin ayələrindən nəticə alırıq ki, İslam sadə cəmiyyətlərin dinidir. Məhz sadə insanlar həyatda haqq-ədalətə riayət etməklə yaşamaq istəyirlər. İslam həmişə ədalətin və haqqın tərəfdarıdır. Həqiqi azadlıq yalnız İslamda həyata keçə bilər. Adi insanlara arxa duran məhz İslam dinidir.

### *AZADLIQ YOLUNUN DÖYÜŞÇÜLƏRİ*

İslam dini insanlara azadlıq vermək, məhrum və zəiflərin vəziyyətini yaxşılaşdırmaq, onları zülm və sitəmdən azad etmək üçün həmişə mübarizə aparıb. Buna görə də zorakılıq edənlər, sərvətlilər, mütəkəbbirlər hər yeüdə olsalar - istər ölkənin daxilində, istərsə də ölkədən xaricdə-İslam dinini aradan aparmağa çalışırlar. Cəmiyyətin azadlığı uğrunda mübarizə apardıqda, ön cəbhədə həmişə adi insanlar, zəif və məhrumiyyətdə olanlar qərar tuturlar. Daxili və xarici düşmənlər ilə də adətən, cəmiyyətin bu sinfi mübarizə aparır. Halbuki, bə`zi sərvətlilər kənarda dayanıb tamaşa edirlər. Bu həqiqətin əyani nümunəsini bu gün haqqın batilə qarşı apardığı döyüş cəbhələrində müşahidə edirik. Sərvətlilər daim kənarda dayanıb tamaşaçı rolunu ifadə edirlər. ***“Düşmənə qarşı qüvvə”*** cümləsindən zəiflərin və

məhrumların xüsusiyyətini bildikdən sonra mə`lum olur ki, hər bir hakim cəmiyyətin zəif və məhrum təbəqələrinə tərəf meyl etməli, onların şər`i istəklərini yerinə yetirməyə çalışmalıdır.

## *"XƏBƏRÇİLƏRİ" RƏDD ETMƏKLƏ HÖKUMƏTİN DAİMİ OLMASI*

İslam mədəniyyətində ***"xəbərçilik"*** ən çirkin və rəzil sifətlərdən biri hesab olunur. İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) səhabələrinin xəbərçiliyinin çirkinliyini bəyan edərək buyurur:

***"Sizə ən pislərinizi tanıtdırımmı? Cavab verdilər: Buyurun, ya Rəsuləllah! Buyurdu: O kəslərdir ki, xəbərçilik edir, dostlar arasında ayrılıq salırlar. "***[1]

Bu əsasa görə İmam Baqir (əleyhissalam) behiştin ***"xəbərçilərə"*** haram olduğunu bildirir və buyurur:

***"Yalan quraşdıranlara və xəbərçilərə behişt haramdır."***[2]

Əgər Rəsuli-Əkrəmin (səlləllahu əleyhi və alih) bəyanına diqqət etsək, xəbərçilik xasiyyətinin çirkinliyinin və pisliyinin səbəbəni biləcəyik. Mə`lumdur ki, mə`sumlardan (ələyhimussalam) başqa heç bir insan xətadan və eybdən pak deyil. Hər bir insanda müəyyən qədər çatışmayan, zəif cəhətlər tapmaq olar. ***"Xəbərçilik"*** xasiyyətinə mübtəla olmuş insan, əhali ilə hökumətin rabitəsini tam rahatlıqla poza bilər. Aydındır ki, xəbərçilər və yalançılar başqasının dostu haqqında zəif bir cəhət müşahidə etdikdə, dayanmadan onu dostuna çatdırır və bu da iki

---

[1] Üsul-Kafi, 2-ci cild, səh. 274
[2] Üsul-Kafi, 2-ci cild, səh. 274

nəfərin dostluq əlaqəsinin qırılmasına, onların arasında kin və düşmənçiliyin yaranmasına səbəb olur. Deməli, əgər bu cür şəxs özünün çirkin xasiyyəti ilə hökumət aparatına daxil olsa və hökumət işçiləri ilə get-gəl etsə, şəxsiyyətlərin zəif cəhətlərindən istifadə etməklə, hakimi çox asanlıqla əhalidən ayırar və əhalinin gözündə hakimə qarşı nifrət hissi oyadar, nəticədə hakim özünün əsl qüvvələrindən uzaq düşər. Buna görə də Həzrəti Əli (əleyhissalam) ölkədə əmin-amanlıq və e`timad yaratmaq üçün Malikə xəbərçilərdən və yalançılardan uzaq olmağı tövsiyə edir.

**وَلْيَكُنْ أَبْعَدَ رَعِيَّتِكَ مِنْكَ وَ أَشْنَأَهُمْ عِنْدَكَ أَطْلَبُهُمْ لِمَعَايِبِ النَّاسِ فَإِنَّ فِي النَّاسِ عُيُوباً الْوَالِي أَحَقُّ مَنْ سَتَرَهَا فَلَا تَكْشِفَنَّ عَمَّا غَابَ عَنْكَ مِنْهَا فَإِنَّمَا عَلَيْكَ تَطْهِيرُ مَا ظَهَرَ لَكَ وَ اللَّهُ يَحْكُمُ عَلَى مَا غَابَ عَنْكَ فَاسْتُرِ الْعَوْرَةَ مَا اسْتَطَعْتَ يَسْتُرِ اللَّهُ مِنْكَ مَا تُحِبُّ سَتْرَهُ مِنْ رَعِيَّتِكَ أَطْلِقْ عَنِ النَّاسِ عُقْدَةَ كُلِّ حِقْدٍ وَ اقْطَعْ عَنْكَ سَبَبَ كُلِّ وِتْرٍ وَ تَغَابَ عَنْ كُلِّ مَا لَا يَضِحُ لَكَ وَ لَا تَعْجَلَنَّ إِلَى تَصْدِيقِ سَاعٍ فَإِنَّ السَّاعِيَ غَاشٌّ وَ إِنْ تَشَبَّهَ بِالنَّاصِحِينَ**

***Səndən ən uzaq şəxs o adam olmalıdır ki, əhalinin eyiblərini çox axtarır. Ona görə ki, bütün insanlarda (mə`sumlardan başqa) eyib vardır. Başqalarından da çox hökmdarların vəzifəsi odur ki, eyibləri örtsünlər. Elə isə, sənə gizlin olan eyibləri arayıb-axtarma! Sənin vəzifən yalnız aşkarda olan eyib və nöqsanları islah etməkdir. Səndən gizlin olanlar barədə Allah hökm edəcək. (Qiyamət günündə insanların gizlin günahlarının hesabına yetişəcək. ) Gücün çatan qədər əhalinin eyblərini gizlət! Onların ürəyindən hər bir kinin düyününü aç! Tənhalığın hər bir amilini öz qəlbindən qır! Sənə mə`lum olmayan şeydə özünü bilməməzliyə vur! Hər xəbərçinin dediyi sözü təsdiq etməkdə tələsmə! Ona görə ki, xəbərçi xain olur. Özünü "nəsihət verən" və "xeyirxah" libasına salsa da, ona inanma!"***

## *SİRR SAXLAMAQ VƏ EYBLƏRİ ÖRTMƏK*

İslam dinində sirr saxlamaq və əhalinin eyblərini örtmək hakimin əsas vəzifələrindən biridir. Həzrət Əli (əleyhissalam) bu mətləbi bəyan etmək üçün yuxarıdakı cümlələrdə (***Hakimin vəzifəsidir ki, əhalinin eyblərini örtsün)*** Malik Əştərə sirr saxlamağı və hökumətin nəzarəti altında olan əhalinin eyblərini açmaqdan qorunmağı tövsiyə edir. Buyurur ki, başqalarının sənin sirrini bilməsini istəmədiyin kimi,

özün də başqalarının sirrini ifşa etməyə çalışma. Bu barədə İmam Sadiq (əleyhissalam) İslam Peyğəmbərindən (səlləllahu əleyhi və alih) belə nəql edir:

***“Mö`minlərin səhvlərini axtarmayın! Ona görə ki, hər kəs mö`min qardaşının səhvlərini axtarsa, Allah-taala da onun səhvlərini axtarar. Allah-taala hər kəsin səhvlərini axtarsa, evinin içərisində də olsa, onu rüsvay edər!”***

## *İMPERİALİZMİN ƏN QORXULU HİYLƏSİ*

Cəmiyyətdə fəsadın, əxlaqsızlığın və fahişəliyin artması imperializmin nüfuzunun ən aşkar nişanələrindən biridir. Materialistlər və kommunistlər dindarlığın kökünü kəsməyə, allahsızlığı genişləndirməyə və bununla da müqəddəs e`tiqadları dəyərsizləşdirməyə çalışdıqları kimi,[1] imperializm və istismarçı qüvvələr də istəyirlər ki, cəmiyyətdəki iffət və paklığı aradan aparıb yerinə fəsad və fahişəlik gətirsin, zəif xalqları mə`nəviyyatdan ayırsın, insanın əsalətini və şəxsiyyətini çirkləndirməklə onları özlərindən biganə vəziyyətinə gətirsinlər ki, artıq heç bir arxalanacaqları yer olmasın. Belə vəziyyətdə insan məcburi olaraq özünü çirkinliklər tufanına atır, istismarın hazırladığı çirkablı suda qərq olur.

İmperializm və istismar özlərinin davam etməsi üçün müxtəlif hiylələrə əl atırlar. Onlar cəmiyyətdə fəsad və fahişəliyi yaymağı özlərinin ən təxribatçı və qaneedici hiyləsi hesab edirlər. Onlar son iki-üç əsrin

[1] Buna görə də hər həftə televiziyada “allahsızlıq” verilişi təşkil etmişdilər.

təcrübələrindən istifadə edərək yaxşı bilmişlər ki, hər bir millətin biganələr, yadlar qarşısında möhkəm və alınmaz qalası, iffət və paklıqdır. Həmin səbəbdən də hər vaxt iffət və mə`nəviyyat aradan getsə, fəsad və əxlaqsızlıq onun yerinə keçəcək. Əvvəlcə cəmiyyətdə insanın əsaləti aradan gedir, sonra yavaş-yavaş insaniyyət sifətindən xaric olub nəfsinin və şəhvətinin əsiri olur. Bu o qədər davam edir ki, axırda dini əqidələrin əsasları və kökləri sarsılır. Bu anda möhkəm "iffət qalası" uçub dağılır. Bununla da istismarın nüfuzu üçün şərait hazırlanır. İslam bu cür yaramaz halların qarşısını almaq üçün fəsad və çirkinliyin mənşəyi olan amillərlə şiddətlə mübarizə aparır. Hər kəs istər aşkarda, xalqın içərisində, istərsə də bə`zi yerlərdə və xəlvətdə fəsad yaymaqla məşğul olsa, onu ən şiddətli cəzaya məhkum edir. Bu əsasa görə Həzrəti Əli (əleyhissalam Malik Əştəri cəmiyyətdə aşkar olan fəsadla mübarizəyə aparmağı tövsiyə edir, bununla islami cəmiyyətin yolunu azmasının qarşısı alınır.

### *DÜYÜN AÇAN*

Həzrət Əli (əleyhissalam)-ın buyurduğu; ***"xalqın qəlbindən hər bir kinin düyününü aç"*** cümləsindən aydın olur ki, hökumət məs`ulları üçün tə`yin olunan əsas vəzifələrdən biri də əhalinin maddi və mə`nəvi istəklərinin tə`min olunması, düyünlü (çətin) işlərin hökumət və qanun vasitəsi ilə açılmasıdır. Aydındır ki, əhalinin bəşərə məxsus olan hissiyyatlarına görə müəyyən arzuları var. Onlar bu əlçatmaz arzularına nail olmaqda hökuməti məs`ul və cavabdeh bilirlər. Özlərinin məhrumiyyətdə olmasını görüb fikirləşirlər

ki, hökumətin bizim bütün arzularımızı yerinə yetirməyə qüdrəti var. Təbii haldır ki, hökumət onların bütün bu arzularını yerinə yetirməsə (yetirə də bilməz), onların qəlbində hökumət işçilərinə qarşı kin və ədavət yaranacaq. Bu narahatçılıqlar hökumətin əsl köklərini sarsıdacaq və süquta doğru gedəcək. Nəticədə hakim, öz hakimiyyəti dairəsində olan əhalinin bütün istəklərini yerinə yetirə bilmədiyinə görə, bu cür vəziyyətdə əhali ilə xoşluqla rəftar etməli və onları İslam əxlaqından bəhrələnməyə də`vət etməklə dövlətin nöqsanlı hal və çatışmazlıqlarını onlara başa salmalı, nəhayət, hansı yolla olursa olsun, əhalinin razılığını ələ gətirməlidir.

## *İSLAMDA MƏŞVƏRƏT*

İslam mədəniyyətində ***“müşavirə”, “məşvərət”*** təkəbbürçülüyün və şəxsiyyətpərəstliyin qarşısını almaq üçün ən yaxşı yol hesab olunur. Ona görə də məşvərət olunan məsələ nə qədər mühüm olsa, onun ətrafında müşavirə olduqda daha da həssas və zərif olacaqdır. Məşvərət etmək və məsələni müşavirə yolu ilə həll etmək iki cəhətdən zəruri nəzərə çarpır:

***Birinci:*** Siyasi, mədəni, əxlaqi, incəsənət, iqtisadi, sən`əti və sair... Məsələlərin genişlənməsi, xüsusən, bə`zi məsələlərin mürəkkəb olması, müşkül məsələnin dərk olunmasını daha da çətinləşdirir. Bə`zi problemlər var ki, ən güclü şəxsiyyətlər belə onun həll olunmasında çətinlik çəkir və ya ümumiyyətlə başa düşə bilmir. Nəticədə müşavirə etmək və mütəxəssislərlə məsləhətləşməkdən başqa yol qalmır.

***İkinci:*** İnsan əql və düşüncə baxımından başqalarından nə qədər güclü olsa da, yenə də bir insandır. Onun yalnız bir zehni var. Halbuki, başqaları ilə məşvərət etsə və onların fikirlərindən bəhrələnsə, çətin məsələnin həll yolunu daha da yaxşı və istənilən səviyyədə ələ gətirə bilər. Qurani-Kərimdə, eləcə də İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) və mə`sumların (ələyhimussəlam) dilində ***"müşavirə"*** və ***"məşvərət"in*** zərurətindən bəhs olunaraq onun mühüm məsələ olması təsdiq olunur. Məsələnin mühüm olmasının əsas dəlillərindən biri odur ki, Qur`ani-Kərim hətta dünyanın ən böyük mütəfəkkiri və birbaşa Allah-taaladan ***"vəhy"*** alan İslam Peyğəmbərini (səlləllahu əleyhi və alih) ***"məşvərət"*** etməyə də`vət edərək buyurur:

فَبِمَا رَحْمَةٍ مِّنَ اللّهِ لِنتَ لَهُمْ وَلَوْ كُنتَ فَظّاً غَلِيظَ الْقَلْبِ لاَنفَضُّواْ مِنْ حَوْلِكَ فَاعْفُ عَنْهُمْ وَاسْتَغْفِرْ لَهُمْ وَشَاوِرْهُمْ فِي الأَمْرِ فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى اللّهِ إِنَّ اللّهَ يُحِبُّ الْمُتَوَكِّلِينَ

"***Məhz Allahın rəhməti sayəsində əhali ilə mehribansan; əgər kobud xasiyyətli və daşürəkli olsaydın, camaat sənin ətrafından hökmən dağılardı. Onları əfv et, onlar üçün Allahdan bağışlanmaq istə! İşlərdə onlarla məşvərət et! O vaxt ki, işə başlamaq istədin, Allaha təvəkkül et! Allah-taala təvəkkül edənləri dost tutur."***[1]

Həzrət Əli (əleyhissalam) məşvərətin zəruri və lazım olması barəsində başqa yerdə buyurur:

***"Öz başına iş görmək, insanı həlak olmağa doğru aparır. Amma başqaları ilə məşvərət etmək, onların***

---

[1] Ali-İmran surəsi, 159-cu ayə

***ağıllarlndan istifadə etməkdə onlarla şərik olmaq deməkdir.”[1]***

Məşvərət və müşavirənin zəruri olmasını bildikdən sonra görək kimlərlə məşvərət etmək lazımdır. Məgər hər kəslə məşvərət etmək olarmı?

## *MÜŞAVİRLƏRİN ƏXLAQİ NİŞANƏLƏRİ*

Bu gün dünya səviyyəsində hər bir işdə müşavirlərdən istifadə edir, başqalarının təcrübələrindən bəhrələnirlər. Xüsusən, hökumət aparatında və idarəçilikdə təcrübəli, işbilən və ağıllı şəxslərdən istifadə edilir. Ancaq təəssüflə bu şəxslərin əxalaqi me`yarları nəzərə alınmır. Başqa sözlə desək, qeyri-islami hökumətlərdə ən yaxşı müşavirlər ən təcrübəli və ən bacarıqlı şəxslər kimi tanınır, bundan başqa heç bir şərt qoyulmur. Halbuki, İslam məktəbində əql və təcrübədən başqa əxlaq da me`yar kimi götürülür. Müşavirənin müxtəlif cəhətlərini tanımaq üçün əvvəldə, müşavirlərin şərtlərini təhlil edək. Kimlər müşavir ola bilər? Müşavir olanların şərtləri xülasə şəkildə aşağıdakılardan ibarətdir:

***1. İslam (müsəlman olsun)***
***2. Əqlsahibi olsun;***
***3. Təvazökar olsun;***
***4. Təfəkkürə malik olsun;***
***5. Təqvalı olsun;***
***6. Təcrübəli olsun;***

Bütün bunları nəzərə almaqla aydın olur ki, İslam nəzərində müşavir müsəlman, aqil, təqvalı və təcrübəli olmalıdır. Müsəlman olmayanı, fasiqi, nadanı,

---

[1] Nəhcül-bəlağə, 2-ci cild, səh. 184

bədxasiyyəti, təqvasızı və təcrübəsizi müşavir kimi qəbul etmək olmaz. İmam Sadiq (əleyhissalam) bu barədə buyurur:

***“Dinin tələb etdiyi işlərdə beş xislətə malik olan şəxslərlə məşvərət et: Ağıllı, təvazökar, təcrübəli, mütəfəkkir və təqvalı. ”***[1]

### *KİMLƏR MÜŞAVİR OLA BİLMƏZ?*

Aşağıdakı sifətlərə malik olanlarla məşvərət etmək olmaz:

***1-Qorxaq;***

***2-Paxıl;***

***3-Həris;***

***4-Axmaq ;***

***5-İkiüzlü;***

***6-Davakar;***

***7-Cahil**;*

Bu şərtlərdən aydın olur ki, qorxaq, ağılsız və nadan şəxslərlə məşvərət etmək olmaz. Ona görə ki, onların ***“müşavir”*** məqamına gəlməyə ləyaqətləri yoxdur. İmam Sadiq (əleyhissalam)-dan bu mövzuda belə nəql olunur:

***“Özbaşına, axmaq, ikiüzlü və davakar şəxslərlə məşvərət etmə!”***[2]

---

[1] Biharul-ənvar, 75-ci cild, səh. 103.
[2] Əl-həyat, səh-196.

وَ لَا تُدْخِلَنَّ فِي مَشُورَتِكَ بَخِيلًا يَعْدِلُ بِكَ عَنِ الْفَضْلِ وَ يَعِدُكَ الْفَقْرَ وَ لَا جَبَاناً يُضْعِفُكَ عَنِ الْأُمُورِ وَ لَا حَرِيصاً يُزَيِّنُ لَكَ الشَّرَهَ بِالْجَوْرِ فَإِنَّ الْبُخْلَ وَ الْجُبْنَ وَ الْحِرْصَ غَرَائِزُ شَتَّى يَجْمَعُهَا سُوءُ الظَّنِّ بِاللَّهِ

***Məşvərətində paxıl şəxsə yol vermə! Ona görə ki, səni ehsan etməkdən saxlayacaq və fəqirliklə qorxudacaq. Qorxaqla məşvərət etmə, ona görə ki, işlərində ruhiyyəni zəifləndəcək. Habelə, həris şəxslə də məşvərət etmə, çünki tamahı zülmlə birlikdə sənə zinətləndirəcək. Həqiqətən paxıllıq və qorxaqlıq, tamah müxtəlif qərizələrdir (instinktlərdir) ki, onların hamısının mənşəyi Allah-taalaya sui-zənn etməkdir.***

### *DÖVLƏT ADAMLARI*

Dövlət aparatını təşkil edən ən yüksək məqamlar nazirlərdir. Onlar həm cəmiyyəti düzgünlüyə və səadətə tərəf apara bilərlər, onları fəsada və əxlaqsızlıq çirkabına tərəf sövq edə bilərlər. Buna görə də hökumətin ədalətli və əzəmətli olması birbaşa onlara bağlıdır. Təbiidir ki, keçmişdə zalım hakimlərin yanında nazir işləyən şəxslər özlərini günahkar və fasiq şəxslərə bağlamışdılar. Onların nazir olması düzgün deyildir. Ona görə ki, onlar ölkə qanunlarını yaramaz və fasiq mədəniyyət üstündə tənzimləmişdilər. Zülmkarlığa göz yummuşdular. Onların ədalətli hökumətlə heç bir ünsiyyətləri olmayıb.

Başqa tərəfdən, onların zülmünü görmüş millət, yenidən onları bu məqamlarda görsə yalnız bunu fikirləşərlər ki, bu hökumət eynilə əvvəlki zalım hökumətdir və hər kəs özünün şəxsi mənafeyinə uyğun əməl edəcəkdir. Aydındır ki, bu zaman əhali yenə də zülm altında olduqlarını hiss edib hökumətə

əsla e`timad etməyəcəklər. Bunun da nəticəsində dövlətlə əhali arasında dərin ayrılıq əmələ gələcək, dövlət bir daha xalqdan ayrılacaq. Bütün bunlar dövlətin uçuruma tərəf getməsi və süqut etməsinə şərait yaradır.

إِنَّ شَرَّ وُزَرَائِكَ مَنْ كَانَ لِلْأَشْرَارِ قَبْلَكَ وَزِيراً وَ مَنْ شَرِكَهُمْ فِي الْآثَامِ فَلَا يَكُونَنَّ لَكَ بِطَانَةً فَإِنَّهُمْ أَعْوَانُ الْأَثَمَةِ وَ إِخْوَانُ الظَّلَمَةِ وَ أَنْتَ وَاجِدٌ مِنْهُمْ خَيْرَ الْخَلَفِ مِمَّنْ لَهُ مِثْلُ آرَائِهِمْ وَ نَفَاذِهِمْ وَ لَيْسَ عَلَيْهِ مِثْلُ آصَارِهِمْ وَ أَوْزَارِهِمْ وَ آثَامِهِمْ مِمَّنْ لَمْ يُعَاوِنْ ظَالِماً عَلَى ظُلْمِهِ وَ لَا آثِماً عَلَى إِثْمِهِ

***Ən pis vəzirlərin onlardır ki, səndən əvvəlki zalım hakimlərin vəzirləri olmaqla onların günahlarına kömək etmiş və (bu işdə onlara) şərik olublar. Deməli, onlar (zalım hakimlərin vəzirləri) sənin sirdaşların olmamalıdırlar. Ona görə ki, onlar günahkarların köməkçiləri və zülmkarların qardaşlarıdır. Halbuki, sənin ən yaxşı köməkçilərin var ki, fikir və ictimai nüfuz cəhətindən onlardan (keçmiş vəzirlərdən) aşağı deyildirlər və onlar kimi günah qazanmamışlar. Onlar (təzə vəzirlər) elə şəxsiyyətlərdir ki, zalımların zülmündə onlarla əməkdaşlıq etməyiblər və onların günahlarında şərik deyildirlər.”***

Həzrəti Əli (əleyhissalam) özünün dahiliyi ilə öz nümayəndəsi Malik Əştərə tövsiyə edir ki, keçmişdə zülmə qurşananlarla əməkdaşlıq etməsin. Malik Əştərin hökuməti dövründə dövlət idarəçiliyində mütəxəssis şəxslərin azlığına görə belə şəxslərlə qarşılaşacağının mümkün olmasını nəzərə alaraq cəmiyyətin nəcib şəxslərini seçməyi tövsiyə edir, ona tapşırır ki, İslam cəmiyyətinin sağlamlığını tə`min etmək üçün bu cür şəxslərin dövlət aparatına nüfuz etməsinə yol verməsin. Onların yerinə hökumətə sağlam ruhlu, sağlam düşüncəli, imanlı şəxsləri cəlb etsin.

### *HİZBULLAH[1] QÜVVƏLƏRİNİN ÜSTÜNLÜYÜ*

Qeyd etdik ki, Həzrəti Əli (əleyhissalam) Malik Əştəri əmin edir ki, keçmiş zalım hakimlərlə həmkarlıq edən vəzirləri hökumət aparatından uzaq etsən, ölkənin idarə olunmasında xeyirxah, mö`min və mütəxəssis müsəlmanlar sənə kömək edərlər. Mütəxəssis mö`minlər onların yerlərini asanlıqla əvəz edərlər. Mövla Əli (əleyhissalam) sözünə davam edərək, hizbullah qüvvələrin zalımların yerində oturmasını müqayisə edərək buyurur:

أُولَئِكَ أَخَفُّ عَلَيْكَ مؤُونَةً وَ أَحْسَنُ لَكَ مَعُونَةً وَ أَحْنَى عَلَيْكَ عَطْفاً وَ أَقَلُّ لِغَيْرِكَ إِلْفاً فَاتَّخِذْ أُولَئِكَ خَاصَّةً لِخَلَوَاتِكَ وَ حَفَلَاتِكَ

***Onların (hizbullah qüvvələrin) xərcləri sənin üçün yüngül, əməkdaşlığı səninlə yaxşı, məhəbbətləri sənə çoxdur. Onların şübhəli şəxslərlə rabitəsi azdır. Beləliklə, onları öz dostların və sirdaşların qərar ver!***

### *SEÇİLMİŞLƏR*

Qeyd olundu ki, keçmiş fasiq və günahkar qüvvələrdən uzaqlaşmaq, hizbullah qüvvələri cəzb etmək, İslam hakiminin əsas vəzifələrindən biridir. Doğrudur ki, hizbullah şəxslər keçmiş fasiq şəxslərdən dəfələrlə üstündür, amma onların hamısı əhdə vəfa və əmrə itaət etməkdə eyni səviyyədə deyildirlər. Elə buna görə də Həzrəti Əli (əleyhissalam) hizbullah qüvvələri müəyyən olunmuş qanunlarla araşdırmağı, hər birisinin qabiliyyətinə uyğun ***"cəzb"*** etməyi və uzaqlaşdırmağı tövsiyə edir. Bununla da nalayiq və səlahiyyətsiz şəxslərin dövlətdə artması və layiqli

---

[1] Allahın ən xalis və mö`min bəndəsi, İslam yolunda heç bir şeyi əsirgəməyən şəxs.

şəxsiyyətlərin dövlətdən üz döndərməsinə şərait yaranmasın.

ثُمَّ لْيَكُنْ آثَرُهُمْ عِنْدَكَ أَقْوَلَهُمْ بِمُرِّ الْحَقِّ لَكَ وَ أَقَلَّهُمْ مُسَاعَدَةً فِيمَا يَكُونُ مِنْكَ مِمَّا كَرِهَ اللَّهُ لِأَوْلِيَائِهِ وَاقِعاً ذَلِكَ مِنْ هَوَاكَ حَيْثُ وَقَعَ وَ الْصَقْ بِأَهْلِ الْوَرَعِ وَ الصِّدْقِ ثُمَّ رُضْهُمْ عَلَى أَلَّا يُطْرُوكَ وَ لَا يَبْجَحُوكَ بِبَاطِلٍ لَمْ تَفْعَلْهُ فَإِنَّ كَثْرَةَ الْإِطْرَاءِ تُحْدِثُ الزَّهْوَ وَ تُدْنِي مِنَ الْعِزَّةِ

***“Elə isə, (hizbullah qüvvələrin arasında) haqq sözü deməkdə hamıdan qabağa düşənləri və Allahın xoşu gəlmədiyi işlərdə az köməklik edənləri başqalarından üstün tut! İstər sənin meylinlə düz gəlsin, istərsə də düz gəlməsin. Özünü təqvalı, əxlaqlı, düz danışanlara yaxınlaşdır. Onları elə tərbiyə et ki, səni həddindən artıq tə`rifləməsinlər. Səni icra etmədiyin pis əməllərə təşviq etməsinlər. Ona görə ki, həddindən çox tə`rif təkəbbür gətirir və (insanı) qürurlanmağa yaxınlaşdırır.”***

Doğrusu, əgər mövla Əli (əleyhissalam)-ın sözlərinə əməl olunsa, hakimlə dövlətin icraçı qüvvələri arasında ixtilaf yaranarmı?! Çirkin qüvvələr özlərinin mənfur niyyəti və riyakar xidmətləri ilə zahir ola bilərlərmi?! Yalançılar, münafiqlər, qarətçilər, riyakarlar, “qurban olum” deyənlər sirli işlərin gedişini əllərinə ala bilərlərmi?! Təmiz, saf qəlbli, əhdlərinə əməl edən mö`min şəxslər hökumətdən üz çevirərlərmi?! Sözsüz ki, yox. İslam hökumətində bütün mühakimələr və dəyərlərdə (hakimin və vəzirlərin razılığına görə yox)Allahın razılığı me`yar götürüldüyünə görə hökumətdə çalışan şəxslərə hər cəhətdən e`timad olunacaq. Nəticədə elə bir şərait yaranacaq ki, hər kəs haqq sözü açıq şəkildə bəyan edə bilsin. Haqq söz bə`ziləri üçün nə qədər acı olsa da, sözsüz deyiləcək. İşçilərin əqidəsi möhkəmlənəcək, aşkarlıq, sədaqət və

təmizliyi özlərində vərdiş halına gətirəcəklər. Amma riyakar, müftəxor və “baş üstə” deyənlər heç vaxt haqqı deməzlər. Bu vəziyyətdə hakimin əsas vəzifəsi təmiz qəlbli şəxslərə yaxınlaşmaq, düz danışanları irəli keçirməkdir.

### *İSLAM QANUNUNDA DÜZGÜN İDARƏÇİLİK*

İslam dini ədalət üzərində qurulub. Ədalət-yə`ni hər şeyi öz yerində qərar vermək. Bu me`yara əsasən, düzgün idarəçilik yalnız İslamın irəli sürdüyü idarəçilikdir. Bu idarəçilikdə xidmətçi işçi ilə xainə bir gözlə baxılmaz; əksinə, xain cəzalandırılar, xidmət edənə mükafat verilər. Onların mükafatlandırılmasında me`yar yalnız öz iş və əməllərinin nəticəsinə görədir. Əgər hər hansı idarəçilikdə həvəsləndirmə olmasa, ürəklə, səmimi qəlbdən çalışanlarla xainlərə eyni səviyyədə baxılsa, hər iki dəstə eyni üstünlük və hüquqdan bəhrələnsələr, bir müddətdən sonra işçilərdə belə bir fikir yaranacaq ki, yaxşı işlər qiymətləndirilmir, çəkilən zəhmətlər bərbad olur. Bu hissiyyat baş qaldırdıqda müxtəlif iste`dadlara malik olanlar ruhdan düşər və idarəçilik dağılmağa tərəf gedər. Daha aydın desək, əgər həvəsləndirmə metodsuz, ədalətsiz müdirlərin həva-həvəsləri əsasında olarsa, bu halda dövlətə tabe olan işçilər öz işlərində e`tinasız olacaq və müdiriyyətə qarşı səmimiyyət və sədaqəti tərk edəcəklər.

وَ لَا يَكُونَنَّ الْمُحْسِنُ وَ الْمُسِيءُ عِنْدَكَ بِمَنْزِلَةٍ سَوَاءٍ فَإِنَّ فِي ذَلِكَ تَزْهِيداً لِأَهْلِ الْإِحْسَانِ فِي الْإِحْسَانِ وَ تَدْرِيباً لِأَهْلِ الْإِسَاءَةِ عَلَى الْإِسَاءَةِ وَ أَلْزِمْ كُلًّا مِنْهُمْ مَا أَلْزَمَ نَفْسَهُ

***Xeyirxahla pis işləyən sənin nəzərində bərabər olmamalıdır. Çünki bu iş, xeyirxahların xeyir işlərinə qarşı məs`uliyyətsiz olmalarının ən başlıca səbəbidir. Bununla da pis işləyənlər öz pisliklərinə daha çox meyl edərlər. Hər bir dəstəyə öz işlərinə görə qiymət ver!***

## *XALQA E`TİMAD*

Fasiq hökumətlərin əsasını xalqa qarşı bədbinlik, e`tinasızlıq və sui-zənn təşkil edir, hakim özünü xalqdan ayırıb üstün tutur və əhalini özünə qarşı düşmən hesab edir. Bu fikirlə əhali sarıdan təşviş hissi keçirir və müxtəlif dövlət orqanları vasitəsilə camaatdan mə`lumat toplamaqla məşğul olur. Öz müxalifləri üçün bəhanə axtarır ki, qəlbindəki kinini bir dəstə məzlumun başında əzsin, özünün bir neçə günlük hakimiyyət müddətində əhalini qorxu və dəhşət içərisində saxlasın...

Bunların müqabilində İslam hökuməti xalqa e`timad etməyi və onlara hüsn-niyyətlə baxmağı təklif edir. İslam hökumətində hakim əhalini özünün dostu və köməkçisi hesab edir. Dövləti xalqla, xalqı da dövlətlə bir hesab edir. Xalqın hərəkətlərini, hakimiyyətin möhkənlənmsi kimi qələmə verir və bu barədə heç bir axtarış aparmır. Daim əhalinin razılığını ələ gətirmək üçün çalışır.

وَ اعْلَمْ أَنَّهُ لَيْسَ شَيْءٌ بِأَدْعَى إِلَى حُسْنِ ظَنِّ رَاعٍ بِرَعِيَّتِهِ مِنْ إِحْسَانِهِ إِلَيْهِمْ وَ تَخْفِيفِهِ الْمَؤُونَاتِ عَلَيْهِمْ وَ تَرْكِ اسْتِكْرَاهِهِ إِيَّاهُمْ عَلَى مَا لَيْسَ لَهُ قِبَلَهُمْ فَلْيَكُنْ مِنْكَ فِي ذَلِكَ أَمْرٌ يَجْتَمِعُ لَكَ بِهِ حُسْنُ الظَّنِّ بِرَعِيَّتِكَ فَإِنَّ حُسْنَ الظَّنِّ يَقْطَعُ عَنْكَ نَصَباً طَوِيلًا وَ إِنَّ أَحَقَّ مَنْ حَسُنَ ظَنُّكَ بِهِ لَمَنْ حَسُنَ بَلَاؤُكَ عِنْدَهُ وَ إِنَّ أَحَقَّ مَنْ سَاءَ ظَنُّكَ بِهِ لَمَنْ سَاءَ بَلَاؤُكَ عِنْدَهُ

***Bil ki, hakimin rəiyyətin vəfadarlığını cəlb etməsi üçün onlara ehsan etməkdən, xərclərini azaltmaqdan və onları vəzifələri olmayan işlərə məcbur etməməkdən yaxşı yol yoxdur. Elə isə sənin tərəfindən elə bir iş quruluşu hazırlanmalıdır ki, onunla xalqın e`timadını qazanasan. Bu xoşniyyətlik bir çox əziyyətləri sənin üzərindən götürər. Xoşniyyətlə tanınmağa ən layiqli şəxs o kəsdir ki, siyasətini yaxşı bilsin. Bədniyyətlə tanınmağa ən layiqli şəxs o kəsdir ki, siyasətini pis bilsin!”***

Həzrəti Əli (əleyhissalam) xalqa e`timad etməyin və onlara hüsn-niyyətlə baxmağın sözdə qalmaması üçün Malik Əştərə xalqa e`timad etməyi, onlara xoş niyyətlə davranmağı tövsiyə etməklə bərabər, bu yolda möhkəm olmaq üçün ona göstərişlər verir:

***1-Ehsan etmək;***

***2-Xərcləri azaltmaq;***

***3-Zorakı işlərin qarşısını almaq;***

Gələcək bəhslərdə bu mövzuların hər biri haqqında ayrıca söhbət açacağıq. Buna görə burada mətləbi genişləndirmirik.

### *ŞƏR`İ VƏ QEYRİ-ŞƏR`İ ADƏTLƏR*

İslamda cəmiyyətdə mövcud olan adətlər iki qismə bölünür: 1-***Şər`i adətlər.*** 2-***Qeyri-şər`i adətlər***.

İslam dininin qanun və me`yarlarının əksinə olan adətlər “***qeyri-şər`i adətlər***” adlanır. Hakimin vəzifəsi

cəmiyyətdəki bu cür adətlərlə mübarizə aparmaq və onları aradan aparmaqdır. İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) ilk dəfə təbliğə başlayanda ***"bütpərəstlik"*** əhali arasında ən geniş yayılmış adət-ən`ənə idi. O, İslam dini və onun qaydaları ilə birbaşa zidd olduğuna görə Həzrət Qur`anın şüarlarından olan ***"La ilahə illəllah"-deyin - nicat tapın!"*** cümləsi ilə bütpərəstliyə qarşı ciddi mübarizəyə başladı və bu mübarizə yolunda şəhadət məqamına nail oldu.

İslam dininin qanun və qaydaları ilə müxalif olmayan adətlər ***"şər`i adətlər"*** adlanır. İslam hökumətinin bu cür adətlərə qarşı mübarizə aparmağa haqqı yoxdur; əksinə hakimin vəzifəsi bu cür adətləri cəmiyyətdə qoruyub saxlamaq və onların möhkəmlənməsi üçün çalışmaqdır. Belə adətlər cəmiyyətin öz xeyrinədir. Nümunə üçün: ***"Novruz"*** bayramı İslam dinindən də əvvəl ən çox yayılmış adətlərdən biri idi. Bu gün də müsəlman ölkələrində geniş yayılan adətdir. Novruzda hamı təzə paltar geyinir və bir-birinə baş çəkirlər. Bu adət İslam dininin qanunlarına zidd olmamaqdan əlavə, cəmiyyətdə dostluq, səfa, səmimiyyət və mehribançılığı artırır. Bu vəziyyətdə hakimin vəzifəsi bu adətlə mübarizə aparmaq yox, onun qorunub saxlanması və yaxşı istiqamətə yönəlməsi üçün çalışmaqdır. Bir sözlə, hansı adət ki, İslama zidd deyil, onlar cəmiyyətdə qorunmalıdır.

وَ لَا تَنْقُضْ سُنَّةً صَالِحَةً عَمِلَ بِهَا صُدُورُ هَذِهِ الْأُمَّةِ وَ اجْتَمَعَتْ بِهَا الْأُلْفَةُ وَ صَلَحَتْ عَلَيْهَا الرَّعِيَّةُ وَ لَا تُحْدِثَنَّ سُنَّةً تَضُرُّ بِشَيْءٍ مِنْ مَاضِي تِلْكَ السُّنَنِ فَيَكُونَ الْأَجْرُ لِمَنْ سَنَّهَا وَ الْوِزْرُ عَلَيْكَ بِمَا نَقَضْتَ مِنْهَا

***İslam ümmətinin dahilərinin əməl etdiyi, əhali arasında birliyin yaranmasına, millətin işlərinin islah olunmasına səbəb olan heç bir adət-ən`ənəni pozma! Elə bir təzə adət yaratma ki, keçmişdə olan adətlərə xələl yetirsin. (Əgər bu cür adəti pozan bir qanun gətirsən) əvvəlki yaxşı adətlərin bünövrəsini qoyanlara savab verilər, amma adət-ən`ənəni pozduğuna görə sənə günah yazılar.***

## *DÖVLƏT İŞÇİLƏRİNİN PROBLEMLƏRİ VƏ ONLARIN HƏLL EDİLMƏSİ YOLLARI*

Dövlət işçiləri icra işləri ilə məşğul olub vaxtlarının çoxunu məmləkətin xeyir-şər işlərinə sərf etdiklərinə görə, çətin məsələ qarşıya çıxan vaxtlarda çaşbaş qalırlar. Məsələləri yaxşı anlamır və nəticədə ölkənin bə`zi məsələlərinə qarşı onlarda biganəlik əmələ gəlir. Bu vəziyyət dövlət işçilərinin ən böyük dərdidir və zamanın keçməsi ilə bu iş ciddi şəkildə təhlükə yaradır. Yə`ni, dövlət işçiləri öz vəzifələrini icra edərkən cəmiyyətdə şöhrət və nüfuz qazanırlar. Bu vaxt onlar yaranmış vəziyyətə aldanmaqla yanaşı, ictimai nüfuza dərindən ürək bağlayırlar. Məhz həmin halda ictimai məsələləri düzgün anlamaqda və ölkədə baş verən hadisələri düzgün təhlil etməkdə müşküllə qarşılaşır, bundan əlavə, özünün fərdi və ibadi məsələlərinə qarşı e`tinasız olurlar. Bu dərdin qarşısının alınma yolu, alimlərlə görüşmək və onların dəyərli təcrübələrindən istifadə etməkdir:

وَ أَكْثِرْ مُدَارَسَةَ الْعُلَمَاءِ وَ مُنَاقَشَةَ الْحُكَمَاءِ فِي تَثْبِيتِ مَا صَلَحَ عَلَيْهِ أَمْرُ بِلَادِكَ وَ إِقَامَةِ مَا اسْتَقَامَ بِهِ النَّاسُ قَبْلَكَ

***Din alimlərilə çox söhbət et! Filosoflar və mütəxəssislərlə çoxlu bəhs et! Bu bəhs və danışıqlar o məsələlər haqqında olsun ki, onun vasitəsi ilə ölkənin vəziyyətini sahmana salmaq mümkündür. Onlarla, səndən əvvəlki dövrdə əhalinin işlərinin möhkəm olması səbəbləri haqqında söhbət et!***

## *DİNDAR, YOXSA MÜTƏXƏSSİS OLMAQ?*

Nəzər sahibləri həzrəti Əli (əleyhissalam)-ın dərin mə`nalı kəlamında başqa məsələ ilə tanış olurlar. Bu gün İslam cəmiyyətində bə`ziləri ***"mütəxəssis"*** olmaqdan dəm vurur və ***"mütəxəssis"*** olmağı seçkilərdə əsas qərar verirlər. Bə`ziləri isə ***"məzhəbçi"*** (sırf dindar) olmağı əsas bilirlər. Həzrəti Əli (əleyhissalam) ***"din alimləri ilə çox söhbət et!"*** cümləsi ilə Malik Əştərə İslam alimləri və mütəfəkkirləri ilə müzakirə etməyi tövsiyə edir. Başqa tərəfdən ***"filosoflarla da çoxlu bəhs et!"*** cümləsi ilə hakimin "***mütəxəssis"lərdən*** məsləhət almasını tapşırır. Bu bəyanla aydın olur ki, dindar və mütəxəssis olmağın seçkilərdə əsl olması şərtdir. Ölkənin həssas işlərində belə şəxslərdən istifadə olunmalıdır.

## *CƏMİYYƏTDƏ İNSANLARIN TALEYİ VƏ İCTİMAİ TƏBƏQƏLƏRİN ƏLAQƏSİ*

"Nəhcül-bəlağə"nin nəzərincə, cəmiyyətin müxtəlif sinifləri bir nəsildən təşkil olunub. Ona görə də onların

taleyi müştərəkdir. Bu nəzəri aydınlaşdırmaq üçün aşağıdakı iki müqəddiməni qeyd etmək lazımdır.

### *1-CƏMİYYƏTİN MƏ`NASI*

Hər bir cəmiyyət insanlar qruplarından və onların ictimai rabitələrindən təşkil olunub. Bu insanlar bir-birlərinə bağlıdırlar. Deməli, cəmiyyət, insan qruplarından təşkil olunmuşdur və müxtəlif qanunlar, adət və nizamlarla bir-birlərinə bağlıdırlar. Nəticə alırıq ki, cəmiyyət insanlardan təşkil olunmuş bir tərkibdir ki, əgər insan olmasa, cəmiyyətin vücudu olmaz.

### *2-CƏMİYYƏTİN MÜSTƏQİLLİYİ*

İndi belə bir sual yaranır, görəsən bu tərkib və cəmiyyətin bir-biri ilə bağlılığı hansı növ bağlılıqdır? Cəmiyyətin hər bir şəxsiyyət müqabilində özünün şəxsiyyəti və təbiəti var, ya yoxdur? Başqa sözlə cəmiyyət və onun ayrı-ayrı fərdlərinin xarici vücudu vardırmı? Yoxsa cəmiyyət və onun fərdlərinin heç bir müstəqilliyi yoxdur? İslam filosofları arasında bu məsələ haqqında geniş bəhs olunub. Əbdürrəhman ibni Xəldun ***(“ibni Xəldun” adı ilə məşhurdur)*** “***Əl-İbər”*** adlı tarixi kitabın müqəddiməsində yazır:

***“Hər cəmiyyətin körpəlik, uşaqlıq, cavanlıq və qocalıq dövranı vardır. Nəhayət, istər-istəməz cəmiyyətin müəyyən əcəli də vardır. Hətta hər bir cəmiyyətin ömrünü təxmini olaraq xəbər vermək olar. ”***

Aydındır ki, cəmiyyət insan fərdlərindən təşkil və onun üzvləri bir-birləri ilə bağlı olduqlarına görə taleləri də müştərək olacaq. Sözsüz ki, cəmiyyətdə

insanların əməlləri qarşılıqlı olaraq bir-birinə tə`sir edir. Əgər cəmiyyətin əksəriyyəti pis olsa, azlıqda olan xeyirxah insanlar onların taleyindən tamamilə kənarda qalmayacaqlar. Əgər cəmiyyətin əksəriyyəti xeyirxah insanlar olsa, sözsüz ki, azlıq təşkil edən pislər onların xeyirxah əməllərindən istifadə edəcəklər. Bir sinfin başqa sinfə görə taleyi də həmin qəbildəndir. Bu əsasla Həzrəti Əli (əleyhissalam) cəmiyyətin təbəqələrinin tanınmasını, hər bir sinfin sağlam olmasının aydınlaşdırılmasını hakimin əsas vəzifələrindən hesab edir. Malik Əştərə, cəmiyyətin hər bir təbəqəsinin sağlam ruhiyyəsinə diqqət etməyi tövsiyə edir.

وَ اعْلَمْ أَنَّ الرَّعِيَّةَ طَبَقَاتٌ لَا يَصْلُحُ بَعْضُهَا إِلَّا بِبَعْضٍ وَ لَا غِنَى بِبَعْضِهَا عَنْ بَعْضٍ فَمِنْهَا جُنُودُ اللَّهِ وَ مِنْهَا كُتَّابُ الْعَامَّةِ وَ الْخَاصَّةِ وَ مِنْهَا قُضَاةُ الْعَدْلِ وَ مِنْهَا عُمَّالُ الْإِنْصَافِ وَ الرِّفْقِ وَ مِنْهَا أَهْلُ الْجِزْيَةِ وَ الْخَرَاجِ مِنْ أَهْلِ الذِّمَّةِ وَ مُسْلِمَةِ النَّاسِ وَ مِنْهَا التُّجَّارُ وَ أَهْلُ الصِّنَاعَاتِ وَ مِنْهَا الطَّبَقَةُ السُّفْلَى مِنْ ذَوِي الْحَاجَةِ وَ الْمَسْكَنَةِ وَ كُلٌّ قَدْ سَمَّى اللَّهُ لَهُ سَهْمَهُ وَ وَضَعَ عَلَى حَدِّهِ فَرِيضَةً فِي كِتَابِهِ أَوْ سُنَّةِ نَبِيِّهِ ص عَهْداً مِنْهُ عِنْدَنَا مَحْفُوظاً

***Ey Malik! Bil ki, əhali müxtəlif dəstələrə bölünüb. Bir dəstənin işi başqa dəstə olmadan heç vaxt islah olunmaz və heç bir dəstə başqa dəstədən ehtiyacsız deyil. Bu dəstələr aşağıdakılardan ibarətdir: Allahın qoşunları, ümumi və xüsusi yazıçılar, ədalət məhkəmələri, xidmətçilər, maliyyat (vergi) və cizyə verənlər (istər müsəlmanların pənahında olanlar, istərsə müsəlmanlar), tacirlər və sənətkarlar, aşağı dəstələr (fəqirlər və zəiflər). Hər bir dəstə üçün Allah-taala tərəfindən bir səhm qərara alınıb. Bu səhm, Qur`anda və İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) bəyan etdiyi qanunlarda müəyyən edilib. Onlar bizim yanımızda bir əhd kimi qorunur. Onların hər birini özünə münasib yerdə qərar ver!***

Aydın olur ki, Həzrət Əli (əleyhissalam) cəmiyyətin təbəqələrini çox dəqiqliklə bəyan edir və hər təbəqənin məqamını tə`yin edir. Cəmiyyətin təkamülündə hər təbəqənin vəzifəsini Qur`anın və İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) açıqladığı qanunlarla tə`yin edir.

## *CƏMİYYƏTİN HƏR BİR DƏSTƏSİNİN MÖHKƏMLƏNMƏSİ BAŞQA DƏSTƏNİN MÖHKƏMLƏNMƏSİNƏ BAĞLIDIR*

Bundan əvvəlki bəhslərdə cəmiyyət üzvlərinin taleyinin müştərək və ictimai təbəqələrin bir-birləri ilə bağlı olması haqqında söhbət açdıq. Bunu da əlavə edirik ki, Həzrəti Əli (əleyhissalam)-ın nəzərinə görə hər bir ictimai təbəqənin möhkəmlənməsi başqa bir ictimai təbəqənin möhkəm olmasından asılıdır. Başqa sözlə desək, heç bir ictimai təbəqə başqa bir ictimai təbəqədən ehtiyacsız deyil. Əgər bir ictimai təbəqə (hər hansı səviyyədə olursa-olsun) öz mövcudiyyətini saxlamaq istəyirsə, cəmiyyətdəki başqa təbəqələrin də vücudunun daimi olmasına çalışmalı və fikirləşməməlidir ki, onun mövcud olması başqa təbəqənin aradan getməsinə səbəb olur. Məsələn, cəmiyyətin silahlı qüvvələri olmasa, orada əmniyyət də olmaz. Əminiyyət olmasa, ticarət və əkinçiliyə də xələl gələcək. Əgər ticarət və əkinçiliyin səviyyəsi aşağı düşsə, istənilən maliyyat olmaz və nəticədə silahlı qüvvələr lazımınca tə`min olunmaz.

Hakimlərin və məhkəmə işçilərinin işi müxtəlif ictimai fəaliyyətləri qanun əsasında tənzimləməkdir. Əgər onların üzərində dəqiq nəzarət olmasa, cəmiyyətdə fitnə-fəsad baş alıb gedəcək. Aşağı səviyyəli təbəqələr də cəmiyyəti təşkil edənlərdəndir.

Qeyd etdik ki, əgər insan olmasa, cəmiyyət də əmələ gəlməz. Odur ki, Həzrəti Əli (əleyhissalam) hər bir təbəqənin möhkəm olmasını başqa təbəqənin varlığı ilə şərtləndirir. O həzrətin nəzərinə görə, əgər bir təbəqə öz varlığını əldən versə və çalışmağa qüdrəti

olmasa, başqa bir təbəqə onun mənfi tə`sirini görəcəkdir.

فَالْجُنُودُ بِإِذْنِ اللَّهِ حُصُونُ الرَّعِيَّةِ وَ زَيْنُ الْوُلَاةِ وَ عِزُّ الدِّينِ وَ سُبُلُ الْأَمْنِ وَ لَيْسَ تَقُومُ الرَّعِيَّةُ إِلَّا بِهِمْ ثُمَّ لَا قِوَامَ لِلْجُنُودِ إِلَّا بِمَا يُخْرِجُ اللَّهُ لَهُمْ مِنَ الْخَرَاجِ الَّذِي يَقْوَوْنَ بِهِ عَلَى جِهَادِ عَدُوِّهِمْ وَ يَعْتَمِدُونَ عَلَيْهِ فِيمَا يُصْلِحُهُمْ وَ يَكُونُ مِنْ وَرَاءِ حَاجَتِهِمْ ثُمَّ لَا قِوَامَ لِهَذَيْنِ الصِّنْفَيْنِ إِلَّا بِالصِّنْفِ الثَّالِثِ مِنَ الْقُضَاةِ وَ الْعُمَّالِ وَ الْكُتَّابِ لِمَا يُحْكِمُونَ مِنَ الْمَعَاقِدِ وَ يَجْمَعُونَ مِنَ الْمَنَافِعِ وَ يُؤْتَمَنُونَ عَلَيْهِ مِنْ خَوَاصِّ الْأُمُورِ وَ عَوَامِّهَا وَ لَا قِوَامَ لَهُمْ جَمِيعاً إِلَّا بِالتُّجَّارِ وَ ذَوِي الصِّنَاعَاتِ فِيمَا يَجْتَمِعُونَ عَلَيْهِ مِنْ مَرَافِقِهِمْ وَ يُقِيمُونَهُ مِنْ أَسْوَاقِهِمْ وَ يَكْفُونَهُمْ مِنَ التَّرَفُّقِ بِأَيْدِيهِمْ مَا لَا يَبْلُغُهُ رِفْقُ غَيْرِهِمْ ثُمَّ الطَّبَقَةُ السُّفْلَى مِنْ أَهْلِ الْحَاجَةِ وَ الْمَسْكَنَةِ الَّذِينَ يَحِقُّ رِفْدُهُمْ وَ مَعُونَتُهُمْ

***Qoşunlar Allahın izni ilə rəiyyətin qalalarıdır. Hakimlərin zinəti, dinin izzəti, əmniyyət vəsiləsi onlardır. Əhalinin əmin-amanlığı "cundullah"sız (Allah qoşunları olmadan) mümkün deyil. Başqa tərəfdən, qoşunların möhkəmliyi yalnız Allahın, əhalinin dəstələrinin boynuna qoyduğu maliyyat xərcilə mümkündür. Ona görə ki, (qoşun) düşmənlə cihad etmək üçün maliyyatla möhkəmlənir, işlərini sahmana salmaq üçün ona arxalanır. Onunla öz ehtiyaclarını tə`min edirlər.***

***Bu iki dəstə (qoşun və maliyyat verən əhali) yalnız üçüncü bir dəstənin vasitəsi ilə nizamlanır. Onlar da qazilər, dövlət işçiləri və onların köməkçiləridir. Ona görə ki, bu dəstə müqavilələri və al-ver işlərini möhkəmlədirlər, maliyyatı cəm edirlər. Xüsusi və ümumi işlərin qeydiyyata alınmasında mö`təbərdirlər.***

***Bütün bu dəstələr, tacirlər və sənətkarlar olmadan möhkəmlənə bilməzlər. Ona görə ki, onlar mənfəət götürmək niyyəti ilə cəm olurlar, onların əlləri ilə başqa siniflərin ehtiyacları ödənilir. Bu iş başqalarının qüdrət dairəsində deyil.***

***Nəhayət, möhtaclar və işləyə bilməyən zəif dəstələr var. Onların haqqı budur ki, başqa həmkarlarının köməyindən bəhrələnsinlər.***

## *QÜVVƏLƏRİN AYRILMASI VƏ İŞİN LƏYAQƏTƏ GÖRƏ BÖLÜNMƏSİ*

Qeyd etdik ki, cəmiyyətin təbəqələrinin hər birinin möhkəmliyi başqa təbəqələrdən asılıdır. Əlavə edirik ki, cəmiyyətdə təbəqələr bir-biri ilə bu cür bağlı olsalar, İslam hakiminin ən əsas və ümdə vəzifələrindən biri qüvvələrin və vəzifələrin düzgün bölünməsidir. Aydındır ki, icra olunmalı işlər bölüşdürülməsə, çox yerlərdə inzibatsızlıq və qarışıqlıq yaranacaq. Bə`zi vaxtlar ixtilaf da qarşıya çıxa bilər. Bu halda İslam hakimi ilk növbədə əsas qüvvələrin yerlərini müəyyənləşdirməli, sonra isə işləri hər kəsin ləyaqətinə görə bölməlidir. Bu əsasda olan dostlarını qanundan üstün tutmağın qarşısını alsın. Bu iş İslam hakiminin ən mühüm və məs`uliyyətli vəzifələrindən biridir. Hakim yalnız ciddi sə`ylə və Allah-taaladan kömək almaqla bu İlahi vəzifənin öhdəsindən layiqincə gələ bilər.

وَ فِي اللَّهِ لِكُلٍّ سَعَةٌ وَ لِكُلٍّ عَلَى الْوَالِي حَقٌّ بِقَدْرِ مَا يُصْلِحُهُ وَ لَيْسَ يَخْرُجُ الْوَالِي مِنْ حَقِيقَةِ مَا أَلْزَمَهُ اللَّهُ مِنْ ذَلِكَ إِلَّا بِالِاهْتِمَامِ وَ الِاسْتِعَانَةِ بِاللَّهِ وَ تَوْطِينِ نَفْسِهِ عَلَى لُزُومِ الْحَقِّ وَ الصَّبْرِ عَلَيْهِ فِيمَا خَفَّ عَلَيْهِ أَوْ ثَقُلَ

***Bütün bu dəstələr üçün Allah yanında genişlik var. Hər birinin İslam hakiminin yanında işlərini sahmana salmağa qədər haqqı vardır. Hakim, Allah tərəfindən onun öhdəsinə qoyulan vəzifəni yalnız (ciddi-cəhdlə) çalışmaq, Allahdan kömək istəmək, haqqı ödəmək üçün özünü hazırlamaq, vəzifəsində səbirli və möhkəm olmaqla yerinə yetirə bilər. Bu iş onun üçün istər yüngül olsun, istərsə də ağır.***

## *İSLAM QOŞUN BAŞÇILARININ XÜSUSİYYƏTLƏRİ*

İslamın həyati qanunlarının və Qur`anın hakimiyyətinin keşiyində olan, Allah yolunda canla-başla xidmət edən İslam qoşunları İslam əxlaqından sirab olub bu dinin tə`yin etdiyi ali sifətləri, insani səciyyələri özlərində cəm etməlidir. Başqa sözlə, insan o vaxt ***"İslam qoşunlarından"*** hesab olunur ki, ali xüsusiyyətləri, o cümlədən iman, paklıq, İlahi təqva, Allah yolunda cihada hazır olmaq və mö`minlərə məxsus olan digər sifətləri özündə cəm etsin. Amma İslam qoşun başçıları, yə`ni silahlı qüvvələrin ixtiyarını və başçılığını, yaxud atəş, döyüş və hücum göstərişini öz öhdəsinə alan şəxslər üçün daha dəqiq və ali xüsusiyyətlər nəzərdə tutulmuşdur. Belə ki, İslam hökumətində qoşun başçısı məqamına çatmaq hamı üçün asanlıqla müyəssər olan məqam deyil. İslam qoşun başçılığı məqamına çatmaq istəyən şəxsin iman, təqva, şücaət, fədakarlıq, huşyarlıq və rəhbərlik,

qüdrət, səbir, əxlaq, yerli-yerində qəzəb və mülayimlik, ruhi qüdrətə və başqa əxlaqi xüsusiyyətlərə ehtiyacı var. Bütün bunlar ona görədir ki, qoşun başçısı hissiyyata qapılaraq İslam döyüşçülərini fəlakətə atmasın, habelə özünün şəxsi düşmənçiliyinə görə ixtiyarında olan qüdrətdən istifadə etməklə başqalarına qarşı güc işlətməsin; yersiz döyüşə, məqam uğrunda mübarizəyə əl atmasın.

Beləliklə, Malikə göndərilən ***"əhdnamədən"*** istifadə etməklə, həzrəti Əli (əleyhissalam)-ın nəzərində İslam qoşunlarının başçısının aşağıdakı xüsusiyyətlərə malik olması mə`lum olur:

1-***Allahın hökmlərini, Peyğəmbərin (s), İmamın (ə) və İslam rəhbərinin göstərişlərinin icra olunmasında ürək yandırmaq və xeyirxahlıq etmək. Onlarla çiyin-çiyinə rəhbərliyə itaət və onlarla səmimi-qəlbdən həmkarlıq etmək.***

2-***Qəlb genişliyi və ruhi aramlıq.***

3-***Paklıq, pərhizkarlıq və İlahi təqva***.

5-***Çətinliklər və müsibətlər qarşısında sinə gərib möhkəm və səbirli olmaq.***

6-***Mülayim olmaq və özünü saxlamaq, nəfsinə hakim olmaq, tez qəzəblənməyin qarşısını almaq üçün qüdrətin olması.***

7-***Bağışlamaq, peşman olub bağışlanmaq istəyən işçilərin üzrünü qəbul etmək ruhiyyəsinin olması.***

8-***Şəxsi həyatda və döyüş meydanında şücaətli və öndə gedən olması.***

9-***Səxavətli və ehsan edən olması.***

10-***Yüksək nəzərə malik olması, Allahdan başqa hər şeyi kiçik hesab etmək.***

11-***Əqldən, fikirdən səbir və hövsələ ilə istifadə etmək qabiliyyəti.***

12-***Cəmiyyətin zəif siniflərinə və məhrumlarına qarşı mehriban və nəvazişli olmaq, zorakılıq edənlər və zalımlar qarşısında möhkəm dayanmaq.***

Həzrəti Əli (əleyhissalam)-ın İslam qoşun başçıları haqqında söylədiyi dəyərli sözlər aşağıdakılardan ibarətdir:

فَوَلِّ مِنْ جُنُودِكَ أَنْصَحَهُمْ فِي نَفْسِكَ لِلَّهِ وَ لِرَسُولِهِ وَ لِإِمَامِكَ وَ أَنْقَاهُمْ جَيْباً وَ أَفْضَلَهُمْ حِلْماً مِمَّنْ يُبْطِئُ عَنِ الْغَضَبِ وَ يَسْتَرِيحُ إِلَى الْعُذْرِ وَ يَرْأَفُ بِالضُّعَفَاءِ وَ يَنْبُو عَلَى الْأَقْوِيَاءِ وَ مِمَّنْ لَا يُثِيرُهُ الْعُنْفُ وَ لَا يَقْعُدُ بِهِ الضَّعْفُ ثُمَّ الْصَقْ بِذَوِي الْمُرُوءَاتِ وَ الْأَحْسَابِ وَ أَهْلِ الْبُيُوتَاتِ الصَّالِحَةِ وَ السَّوَابِقِ الْحَسَنَةِ ثُمَّ أَهْلِ النَّجْدَةِ وَ الشَّجَاعَةِ وَ السَّخَاءِ وَ السَّمَاحَةِ فَإِنَّهُمْ جِمَاعٌ مِنَ الْكَرَمِ وَ شُعَبٌ مِنَ الْعُرْفِ

***Döyüşçülərindən o kəsə başçılıq məqamı ver ki, sənin yanında Allaha, Peyğəmbərə, İmama qarşı hamıdan çox xeyirxah, təmiz qəlbli və ağıllı olsun. O kəslər ki, gec qəzəblənir, üzrü tez qəbul edirlər, zəiflərə qarşı mehribandırlar. Zorakılıq edənlərin qarşısında möhkəmdirlər. O kəslər ki, müşküllər onları diz çökdürmür. Sonra pak nəsildən və parlaq keçmişə malik olan adlı-sanlı, hörmətli şəxslərlə qaynayıb-qarış.***

Mə`lumdur ki, İmam Əli (əleyhissalam)-ın zəmanəsində ərəb cəmiyyətində qoşun başçılarının tə`lim-tərbiyələrinə yetişmək üçün hərbi tə`lim düşərgəsi və ya hərbi məktəb yox idi. Amma həmin günlərdə tanınmış şərəfli ailələr öz övladlarını müəyyən adət və qanunla tərbiyə edirdilər. Bu tə`limlər əsasında onların övladları müxtəlif döyüş taktikası və fəndləri ilə tanış olurdular. Döyüş meydanlarında göstərdikləri şücaət və qəhrəmanlıqlara

görə əhalinin rəğbətini qazanırdılar. Bu iş öz-özünə şərait yaradırdı ki, əhali qoşun başçılarını tə`yin etməkdə çətinlik çəkməsinlər. Ona görə də Həzrəti Əli (əleyhissalam) Malik Əştərə bu cür ailədən olan tanınmış şəxsyyiətləri cəzb etməyi tövsiyə edir.

### *İSLAM QOŞUN BAŞÇILARININ MÜQABİLİNDƏ HAKİMİN VƏZİFƏLƏRİ*

Həzrət Əli (əleyhissalam) heç vaxt məsələyə yalnız bir cəhətdən nəzər etməz. O, məsələnin müxtəlif cəhətlərini nəzərdə tutur. Əgər Həzrət, qoşun başçıları haqqında müəyyən şərait və vəzifə tə`yin edirsə, sözsüz ki, İslam cəmiyyətinin rəhbərlərinin qoşun başçıları qarşısındakı vəzifələrini də nəzərdən qaçırmayıb. Həzrəti Əli (əleyhissalam) insanlara əbədiyyətə qədər yol göstərən bu ***"əhdnaməsində"*** İslam rəhbərinin qoşun başçılarının vəzifələrini aydınlaşdırmışdır. Onların ən başlıcası aşağıdakılardan ibarətdir:

1-***Qoşun başçıları ilə mehriban olmaq.***

2-***Ata-ananın öz övladlarına qarşı mehriban olduğu kimi, qoşun başçılarına səlahiyyət vermək. Belə ki, hakim onların qüdrətli olması üçün əlindən gələn heç bir şeyi əsirgəməsin. Onların qüvvətlənməsi üçün heç bir elmi və ya qeyri-elmi müşkül yaratmasın.***

3-***Qoşun başçlarına həmişə xüsusi diqqət yetirmək. Yə`ni hakim həmişə zabitlərin əhvalından və yaşayış məsələlərindən agah olmalı, onlara lütf və məhəbbət göstərməli, bu məsələni əhəmiyyətsiz hesab etməməlidir. Ona görə ki, döyüşçülər və qoşun başçıları, hakim tərəfindən müxtəlif məsələlərdə***

***hörmətə layiq görüldükdə, onlarda da hakimə qarşı gözəl fikir yaranır. Bu da səbəb olur ki, qoşun hakimlə tam şəkildə xeyirxahlıqla həmkarlıq etsin, xidmət vəzifələrini canla-başla yerinə yetirsinlər.***

4-***Hakim, qoşun başçılarına göstərdiyi mehribançılığa və onlara kiçik bəxşişlər etdiyinə görə öz vəzifəsini tamam olmuş hesab etməsin, onlara kiçik xidmətlər göstərməkdən əl çəkməsin. Çox vaxt zahirdə kiçik görünən xırda hörmətlərin çox incə və böyük tə`sirləri olur. Şəxsin diqqətinin cəlb olunmasında və qəlbində məhəbbət oyanmasında xırda hörmətlərin çox böyük rolu vardır.***

***Qoşun başçıları hakimdən böyük işləri təvəqqe etdikləri kimi, kiçik və zərif işlərdən də şad olurlar. Hakim bu cür xırda insani məsələləri qoşun başçıları haqqında vaxtında icra etməlidir.***

ثُمَّ تَفَقَّدْ مِنْ أُمُورِهِمْ مَا يَتَفَقَّدُ الْوَالِدَانِ مِنْ وَلَدِهِمَا وَ لَا يَتَفَاقَمَنَّ فِي نَفْسِكَ شَيْءٌ قَوَّيْتَهُمْ بِهِ وَ لَا تَحْقِرَنَّ لُطْفاً تَعَاهَدْتَهُمْ بِهِ وَ إِنْ قَلَّ فَإِنَّهُ دَاعِيَةٌ لَهُمْ إِلَى بَذْلِ النَّصِيحَةِ لَكَ وَ حُسْنِ الظَّنِّ بِكَ وَ لَا تَدَعْ تَفَقُّدَ لَطِيفِ أُمُورِهِمْ اتِّكَالًا عَلَى جَسِيمِهَا فَإِنَّ لِلْيَسِيرِ مِنْ لُطْفِكَ مَوْضِعاً يَنْتَفِعُونَ بِهِ وَ لِلْجَسِيمِ مَوْقِعاً لَا يَسْتَغْنُونَ عَنْهُ

***Qoşun başçılarının vəziyyəti barədə ata övladının əhvalını öyrənən kimi, axtarış apar. Onların qüvvətlənməsi üçün sərf etdiyin heç bir şeyi böyük hesab etmə. Hər bir kiçik mehribançılıqla onların vəziyyətindən xəbər tutsan, (nə qədər kiçik olsa da) onu kiçik hesab etmə, çünki həmin az məhəbbət və mehribançılıq onları vadar edir ki, sənə qarşı mehriban və xeyirxah olsunlar. Onların böyük çətinliklərini həll etdiyini bəhanə edib, yaşayışlarındakı kiçik məsələlərə baş qoşmamaqdan özünü qoru. Çünki, həmin kiçik mehribançılığın xüsusi faydası olduğuna görə ondan bəhrə aparırlar. Böyük işlərin öz vaxtı vardır. Lazım olanda onlara da ehtiyacları olur.***

Həzrəti Əli (əleyhissalam)-ın bəyanına diqqət etməklə çoxlu dəqiq, incə və həssas mətləbləri dərk etmək olar. Mə`lumdur ki, söylənilən şərt və me`yar üzrə layiqli qoşun başçılarının seçilməsi çox çətin məsələdir. Doğrudur ki, bu xüsusiyyətlərə malik olan qoşun başçılarını axtarıb tapmaq, hakim üçün böyük hünər hesab olunur, amma bununla belə, qoşun başçılarını öz ləyaqətlərinə uyğun şəkildə qorumaq, onlara mehribanlıq göstərib qayğısına qalmaq əvvəlkindən də ağır işdir. Çünki belə layiqli şəxsiyyətlər cəmiyyətin seçilmiş adamlarıdır. Onların özlərinin xüsusi imtiyaz və üstünlükləri var ki, başqalarında tapılmır. Başqa tərəfdən, qoşun başçıları bütün vücudları ilə böyük məs`uliyyətləri öhdələrinə

alıb həyatlarından keçməklə ölkənin qorunması yolunda qədəm götürmüşlər. İşləri-gücləri döyüşmək və ölümlə üzbəüz olmaqdır. Başqa sözlə desək, onlar hər dəqiqə qarşı-qarşıyadırlar. Deməli, ağır məs`uliyyətli işləri öhdələrinə alan şəxslərin hakim tərəfindən xüsusi qayğının intizarında olmağa haqları vardır. Bu qayğının düzgün şəkildə göstərilməsi heç də asan iş deyil. Həqiqətdə, hər bir məs`uliyyətli hakimin vəzifəsidir ki, bu cür məsələlərdə diqqətli olsun, məsələyə yüksək şüur və dərin baxışla nəzər salsın, öz vəzifəsini layiqincə icra etsin. Çünki, belə işlərdə yalnız maddi və zahiri ehtiyaclardan söz getmir, əksinə, mövzu incə ruhlu, həssas məsələlərdən və mə`nəvi ehtiyaclardan bəhs edilir. Bu cür məsələlərə diqqətsiz yanaşmaq nəticəsində qəlblər soyuya, mə`nəvi əziyyətə düşə bilər, hətta faciəyə də çevrilə bilər. Elə buna görə həzrəti Əli (əleyhissalam) bu cür mövqelərdə atanın övladlarına olan qayğısını hakimə xatırladır ki, hakim məsələni kiçik hesab etməsin, qoşun başçılarına ata-ananın övladlarına göstərdiyi qayğını göstərsin.

## *YÜKSƏK RÜTBƏLİ QOŞUN BAŞÇILARININ ƏN MÜHÜM XÜSUSİYYƏTLƏRİ*

Qeyd etdiyimiz kimi, qoşun bölmələri arasında müəyyən xüsusiyyətlərə və yüksək ruhiyyələrə malik olan bə`zi şəxslər olur ki, qoşun başçılığına seçilirlər. Bununla belə, qoşun başçılarının öz aralarında da yüksək dərəcədə üstünlüklərə və fəzilətlərə malik olan şəxsiyyətlər mövcud olur. Bu gözə çarpan üstünlük səbəbilə bə`zi qoşun başçıları dövlət başçısına daha yaxın olur, həmişə onunla rabitədə olur və aralarında

xüsusi səmimiyyət yaranır. Bu cür üstünlüklərə malik olan qoşun başçıları həqiqətdə, İslam qoşun başçılarının ən üstünü və ən ali dərəcəlisidir. Başqa sözlə desək, onlar elə şəxsiyyətlərdir ki, ölkə rəhbəri döyüş mövzusunda ən mühüm məşvərətləri onlarla aparır, nizami və sirli məsələlərini onlarla müzakirə edir, müharibə bölgəsinin ən mühüm və dəqiq planlarını onlarla çəkir. Nəhayət, tam arxayınlıqla döyüş planlarını və İslam qoşunlarının ixtiyarını onlara tapşırır. Həzrəti Əli (əleyhissalam)-ın nəzərində bu cür şəxslərin ən mühüm və üstün xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

1-***Həyat səviyyəsinə və yaşayış tərzinə diqqət etmək, maddi, rifahi işlərə və ev ləvazimatına nəzər etmək, belə ki, başqa hərbçilərlə bir səviyyədə olsun. Belə olan halda ondan aşağı səviyyədə yaşayan sair qoşun başçıları onu özlərinin həmdərdi hesab edərlər. Eyni halda, bu şəraitdə olan qoşun başçısı hərbçilərin əsl müşküllərini yaxından tanıyar və onlarla daha yaxından əməkdaşlıq edər.***

2-***Tam diqqət və ürək yanğısı ilə ölkənin mövcud qanunu əsasında qoşun hissələrinin yaşayış və ehtiyaclarının ödənilməsinə çalışsın. Belə ki, hər vaxt İslam qoşunları düşmənlə cihada getsə, əmin olsun ki, ailəsi və uşaqları heç kəsə ehtiyacı olmadan maddi və mə`nəvi cəhətdən rifahda olacaqlar. Bu halda İslam döyüşçüsü heç bir nigarançılıq olmadan, yalnız düşmənlə döyüşmək və ilahi məqsəd naminə müharibə meydanına gedəcək.***

***3-Döyüşçülərlə bərabər səviyyədə (ədalətlə) rəftar etsin. İmkanı olan qədər ixtiyarında olan büdcədən (qanunu pozmamaq şərtilə) İslam qoşunlarına***

***bağışlasın. Təbii haldır ki, döyüşçü öz ehtiyaclarının ödənilməsi və ailəsinin rifahı cəhətindən heç bir müşkül olmadığını hiss etdikdə daha da şücaət və möhkəm iradə ilə döyüş meydanına qədəm qoyar. Başqa dostları ilə yalnız bir hədəfdə-İlahi hədəfin həyata keçməsinə çalışar.***

Unutmaq olmaz ki, İslam mədəniyyətində müxtəlif məsələlər,-hansı genişlikdə və sahədə olursa olsun,- Allaha iman, İlahi təqva, Allaha təvəkkül birinci dərəcəli məsələ olmaqla yanaşı, insanın adi dünya yaşayışı özünün bütün incəlikləri ilə nəzərə alınmış, insanların maddi ehtiyacları nəzərdən qaçmamışdır. Belə ki, Həzrəti Əli (əleyhissalam) bu məsələni tam aydınlıqla bəyan edir ki, əgər İslam qoşunlarının başçılarının maddi və məişət ehtiyacları düzgün yolla ödənilməsə, onların güclü iradə və ruhiyyə ilə döyüş meydanlarında bir hədəfdə olmağa və düşmən müqabilində qələbə çalmağa qüdrətləri olmayacaq.

وَ لْيَكُنْ آثَرُ رُءُوسِ جُنْدِكَ عِنْدَكَ مَنْ وَاسَاهُمْ فِي مَعُونَتِهِ وَ أَفْضَلَ عَلَيْهِمْ مِنْ جِدَتِهِ بِمَا يَسَعُهُمْ وَ يَسَعُ مَنْ وَرَاءَهُمْ مِنْ خُلُوفِ أَهْلِيهِمْ حَتَّى يَكُونَ هَمُّهُمْ هَمّاً وَاحِداً فِي جِهَادِ الْعَدُوِّ فَإِنَّ عَطْفَكَ عَلَيْهِمْ يَعْطِفُ قُلُوبَهُمْ عَلَيْكَ

***Sənin nəzərində ən layiqli döyüş başçısı o kəslər olmalıdır ki, öz qoşunlarına ədalətlə, imkanları daxilində daha çox kömək edir. Belə ki, onlar (döyüşçülər) və ailələri elə tə`min olunmalıdır ki, hədəfləri yalnız düşmənlə döyüşmək olsun. Çünki, sənin onlara qarşı məhəbbətin, onların qəlblərini sənə qarşı mehriban edər. ”***

## *DÖVLƏTİN DAVAMLI OLMASI*

Bütün peyğəmbərlərin (xüsusən, həzrət Məhəmməd (səlləllahu ələyhi və aleh)-in vəzifəsi cəmiyyətdə sülh və ədalətin bərqərar olunması olub. Bu əsasa görə İslam dini Qur`anın hökmü ilə həm hökuməti ədalətli olmağa də`vət edir, həm də insanları bir-birləri ilə ədalətlə rəftar etməyə çağırır. Qurani-Kərimdə buyurulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُونُواْ قَوَّامِينَ بِالْقِسْطِ شُهَدَاء لِلّهِ وَلَوْ عَلَى أَنفُسِكُمْ أَوِ الْوَالِدَيْنِ وَالأَقْرَبِينَ إِن يَكُنْ غَنِيّاً أَوْ فَقَيراً فَاللّهُ أَوْلَى بِهِمَا فَلاَ تَتَّبِعُواْ الْهَوَى أَن تَعْدِلُواْ وَإِن تَلْوُواْ أَوْ تُعْرِضُواْ فَإِنَّ اللّهَ كَانَ بِمَا تَعْمَلُونَ خَبِيراً

***“Ey iman gətirənlər! Ədalətə riayət edin və özünüzün, ata-ananızın, qohumlarınızın zərərinə olsa da (istər fəqir, istərsə də dövlətli olsalar) haqqa şəhadət verin. Çünki, Allah-taala onların hər ikisinə sizdən daha yaxındır. Nəfsi istəkləriniz sizi ədalətdən azdırmasın!”[1]***

---

[1] Nisa surəsi, 135-cü ayə.

Qur`anın bu nəzəri əsasına Həzrəti Əli (əleyhissalam) dövlətin davamlı və möhkəm olmasını hökumətin ədalət və insafla idarə olunmasında görür. Yə`ni əgər dövlət ədalət və insafın qüvvədə olmasını özünün şüarı qərar versə və onun icra olunmasında müvəffəq olsa, dövlətin davam etməsi və möhkəmlənməsi zəruri olacaq, bu dövlət uzun sürəcək. Lakin dövlətin hədəfi zülm, istismar və şəxsi mənafelər olsa, dövlət heç də davam gətirə bilməz və tez aradan gedər. Təbiidir ki, dövlət nəzarəti altında həyat sürən əhali həmişə arzu edər ki, bu ədalətli hakimiyyət uzun sürsün. Lakin zalım dövlət bayrağı altında yaşayan xalq, həmişə arzu edir ki, dövlət tezliklə dağılsın, əhali zülmün və əzabın ağrılarından dincəlsin.

**وَ إِنَّ أَفْضَلَ قُرَّةِ عَيْنِ الْوُلَاةِ اسْتِقَامَةُ الْعَدْلِ فِي الْبِلَادِ وَ ظُهُورُ مَوَدَّةِ الرَّعِيَّةِ و إِنَّهُ لَا تَظْهَرُ مَوَدَّتُهُمْ إِلَّا بِسَلَامَةِ صُدُورِهِمْ وَ لَا تَصِحُّ نَصِيحَتُهُمْ إِلَّا بِحِيطَتِهِمْ عَلَى وُلَاةِ الْأُمُورِ وَ قِلَّةِ اسْتِثْقَالِ دُوَلِهِمْ وَ تَرْكِ اسْتِبْطَاءِ انْقِطَاعِ مُدَّتِهِمْ فَافْسَحْ فِي آمَالِهِمْ**

***Hakimlərin ən fəzilətli gözaydınlığı bütün şəhərlərdə ədalətin bərqərar olması və rəiyyətin onlara ehtiramlarının aşkar olmasıdır. Sözsüz ki, əhalinin hakimlərlə dostluğu yalnız onların (hakimlərin) qəlblərinin təmizliyinə görə olar. Xeyirxahlıqları o zaman düzgün olar (fayda verər) ki, öz istəkləri ilə hökmdarların ətrafını dövrəyə alsınlar və hakimlərin hökuməti onlar üçün ağırlıq etməmiş olsun, hakimiyyətin uzun çəkməsi onlar üçün acı olmasın. Elə isə onların istəklərinə meydan ver!***

## *HƏVƏSLƏNDİRMƏ VƏ TƏŞVİQ ETMƏ*

Həzrəti Əli (əleyhissalam)-ın nəzərincə cəmiyyətin birliyi, qoşun başçılarının, döyüşçülərin, millət və hakimlə bir olması elə bir məsələ deyil ki, proqramsız və dəqiq şəkildə planlaşdırılmamış olsun. Onların birliyi nəticəsində İslam cəmiyyəti və qüvvələri möhkəmlənir, Allah-taalanın hökmləri geniş icra olunur. Cəmiyyət üzvlərinin həvəs, səmimiyyət və imanla İslam qüvvələrinin möhkəmlənməsinə çalışması, həmçinin, İslam hərbi qüvvələrinin ürəkdən və fədakarlıqla qoşun başçılarına itaət etməklərinə görə hər iki dəstənin birlikdə, İlahi hədəfə tərəf hərəkət etmələrinə bə`zi şərait və xüsusiyyətlər lazımdır. Bu şərait və xüsusiyyətlər İslam mədəniyyətində cəmiyyətin hər bir təbəqəsi üçün diqqət və incəliklə tə`yin olunmuşdur. Məsələn, əgər hakim və qoşun

başçısı İslam əsgərlərindən qəhrəmanlıq və fədakarlıq tələb edirsə, ilk növbədə onun özü onlarla ata kimi mehribanlıqla rəftar etməlidir. Əgər onların arasında səmimiyyət olmasını istəyirsə, həyatda maddi və məişət ehtiyaclarını tə`min etməlidir. Əgər onlardan xeyirxahlıq, canıyananlıq umursa onların arasında ədalətlə hökm etməlidir. Həzrəti Əli (əleyhissalam)-ın hakimlə əhalinin, zabitlərlə adi əsgərlərin qarşılıqlı münasibətləri haqqında buyurduğu ən böyük və aydın məsləhətlərindən biri budur ki, hakimlər və zabitlər işçilərinin yaşayışının bütün yönlərinə diqqətlə nəzarət etsinlər, onların bütün ehtiyaclarını (istər maddi, istərsə də mə`nəvi) nəzərə alsınlar. Belə ki, əgər hakim yalnız mə`nəvi məsələləri nəzərə alıb onun həllinə çalışsa, bununla da öz tabeçiliyində olanları ac-yalavac və möhtac saxlayarsa, öz işində müvəffəq olmayacaq. Həmçinin, əgər hakim öz tabeçiliyində olanlara yalnız maddi cəhətdən diqqət etsə, amma mə`nəvi məsələləri görməməzliyə vursa, yenə də istədiyinə nail ola bilməz. Əsgərlərin ən böyük ruhi və mə`nəvi ehtiyaclarından biri onların hakim tərəfindən təşviq edilməsidir. Heç vaxt hakimin nəzərindən yayınmamalıdır ki, döyüşçü canını dişinə tutub bütün qüdrəti ilə döyüş meydanına tərəf gedəndə, özünü şəhadətə hazırlayanda, onun ruhi və mə`nəvi cəhətdən möhkəmlənməsinə ehtiyacı vardır. Bu ehtiyacı onların layiqli işlərinin hakimlər tərəfindən qiymətləndirilməsi tə`min edə bilər. Bu şəxslər bütün vücudları ilə ən böyük və təhlükəli döyüş məs`uliyyətini öz ödələrinə götürür, canları bahasına və fədakarlıqla İslam dininin genişlənməsinə, qorunmasına, cəmiyyətin əmin-amanlıqda olmasına çalışırlar. Onların qəlblərindəki

arzu və ümidlər doğrulmalıdır. Hakim onlara e`tinasız yanaşmamalıdır ki, onlar özlərini unudulmuş hiss etsinlər. Onlar əmin olmalıdırlar ki, böyük fədakarlıqları və qorxulu işləri həmişə nəzərə alınacaq, qədir-qiymətləri bilinəcək, məs`uliyyətli şəxslər tərəfindən həyatda olan çətinlikləri həll olunacaqdır. Bəli, o hakimlər ki, hərbçilərin bu kimi ehtiyaclarını nəzərə alırlar, əsgərləri həvəsləndirməklə bir tərəfdən onların döyüş ruhiyyəsini möhkəmləndirir, istiqanlı rəftar etməklə onların fədakarlıqlarını daha da artırır, başqa tərəfdən, bu cür həvəsləndirmələr nəticəsində öz işində e`tinasız olan şəxslər fikirləşib özlərinə gəlirlər, fədakar əsgərlər kimi eşq və əlaqə ilə mübarizə meydanına qədəm atırlar, özlərinin uca hədəfləri yolunda qəhramanlıqlar göstərirlər.

ووَاصِلْ فِي حُسْنِ الثَّنَاءِ عَلَيْهِمْ وَ تَعْدِيدِ مَا أَبْلَى ذَوُو الْبَلَاءِ مِنْهُمْ فَإِنَّ كَثْرَةَ الذِّكْرِ لِحُسْنِ أَفْعَالِهِمْ تَهُزُّ الشُّجَاعَ وَ تُحَرِّضُ النَّاكِلَ إِنْ شَاءَ اللَّهُ

***Həmişə (əsgərləri) təşviq et! İcra etdikləri mühüm işləri hesaba al. Çünki şücaətlilərin yaxşı işlərini yada salmaq hərbi bölməni daha çox çalışmağa vadar edir və tənbəllik edənləri işləməyə həvəsləndirir. İnşaəllah!”***

### *AYRI-SEÇKİLİK BƏLASI*

Həzrəti Əli (əleyhissalam) şəxsiyyətlərin əməyinin düzgün qiymətləndirilməsini və həvəsləndirilməsini, İslam hərbi dəstələrinin ruhiyyəsinin və ictimai müdiriyyətin möhkəmlənməsini zəruri hesab etdiyi kimi, idarə işlərində həvəsləndirmədə ədalətin əsas götürülməsinin də mühüm əhəmiyyəti olduğunu lazım bilir. Hər bir ləyaqətli hakim bilməlidir ki, fərdlər arasında ədalətsizlik və ayrı seçkilik salmaqdan böyük bəla yoxdur. Məhz bunun nətticəsində cəmiyyətin əsası sarsılıb uçur, əhalidə hakimə qarşı soyuqqanlılıq və ümidsizlik yaranır. Başqa sözlə desək, İslam cəmiyyətində heç vaxt belə bir hal görünməməlidir ki, bir dəstə adam çox zəhmət çəkib, çalışsın, lakin öz haqqından az həvəsləndirmə və qiymətlənmə görsün. Amma başqaları nəzərə çarpacaq qədər iş görmədikləri halda, hakim tərəfindən məhəbbətə layiq görülüb qiymətləndirilsin. Bu cür hallar İslamda açıq-aşkar ədalətsizlik olmaqdan əlavə, cəmiyyətin kökünə öldürücü zərbələr vurur, çalışqan şəxslərdə öz işlərinə qarşı soyuqqanlılıq və e`tinasızlıq yaradır. Onların eşq və əlaqə ilə öz fədakarlıqlarına davam etmələrinin qarşısını alır. Beləliklə, layiqli hakim, şəxsləri həvəsləndirməkdə qəflət etmədiyi kimi, şəxsin

hüququndan artıq həvəsləndirməyə də yol verməməlidir. Hakim özünü ədalətsizliyin və ayrı-seçkiliyin nişanəsi olan bu işlərdən qorumalıdır. Bu əsasa görə, hakim həvəsləndirmə və qiymətləndirmə işlərini – xüsusilə silahlı qüvvələr haqqında – dəqiq hesablama, çalışma və şəxsin ləyaqəti əsasında icra etməlidir. Bu işdə qarşı tərəfin böyüklüyü, kiçikliyi, şöhrəti, tanınmamazlığı, dövlətli və kasıb olmağı və sair tə`sir etməsinin qarşısını almalıdır. Bu baxımdan Həzrəti Əli (əleyhissalam) buyurur:

ثُمَّ اعْرِفْ لِكُلِّ امْرِئٍ مِنْهُمْ مَا أَبْلَى وَ لَا تَضُمَّنَّ بَلَاءَ امْرِئٍ إِلَى غَيْرِهِ وَ لَا تُقَصِّرَنَّ بِهِ دُونَ غَايَةِ بَلَائِهِ وَ لَا يَدْعُوَنَّكَ شَرَفُ امْرِئٍ إِلَى أَنْ تُعْظِمَ مِنْ بَلَائِهِ مَا كَانَ صَغِيراً وَ لَا ضَعَةُ امْرِئٍ إِلَى أَنْ تَسْتَصْغِرَ مِنْ بَلَائِهِ مَا كَانَ عَظِيماً

***Hər kəs hansı işdə imtahan olunubsa, onu öz hesabında qərar ver! Birinin zəhmət və əməyini başqasına nisbət verib onun xidmətinin qiymətini haqlı olduğundan aşağı dərəcədə hesablama! Şəxsin böyüklüyü səbəb olmasın ki, onun kiçik işini böyük hesab edəsən. Habelə, birinin aşağı səviyyədə olması səbəb olmasın ki, onun böyük və əhəmiyyətli işini kiçik hesab edəsən!***

İslam cəmiyyətində Qur`an və qanunun (sünnənin)[1] yüksək və dəyərli məqamları vardır. Bu da təkcə şüar olduğuna və Qur`anın müqəddəsliyinə görə deyil, əksinə, bu iki məfhumun cəmiyyətdə hakim olması və ən ali müraciət yerinin Qur`an və İslam sünnələrindən ibarət olması bunu tələb edir. Başqa sözlə desək, əvvəla, Qur`an və sünnə bütün ictimai, siyasi, iqtisadi və s... Məsələlərin mənbəyi hesab olunur. İkinci, ixtilaf

---

[1] Sünnə dedikdə, İslam Peyğəmbərinin (s) və mə`sum İmamların (ə) sözü, əməli və rəftarları nəzərdə tutulur.

qarşıya çıxdıqda, haqq və batil müəyyən olmayanda, Qur`an və sünnə haqqı batildən ayırmaqda əsas me`yar götürülür. Bu hədəfin aydınlaşdırılması, Qur`an və sünnənin İslam cəmiyyətində məqamını tanımaq üçün bir neçə müqəddiməni bəyan etməliyik:

### *SÜNNƏNİN MƏ`NASI*

İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) və mə`sum İmamların (ələyhimussalam) yolları, əməl və rəftarları "***sünnə" (qanun)*** adlanır. Sünnə üç yolla sübut olunur:

Əvvəl: ***Mə`sumun sözü.***

Mə`sum İmamların (ələyhimussəlam) dedikləri sözlərə və bəyanlara ***"mə`sumun sözü"*** deyilir. Məsələn, Mə`sum (əleyhissalam)-dan soruşurlar: "Cihadi-əkbər" nədir? Cavabında buyurur: ***"Nəfslə mübarizə. "***

İkinci: ***Mə`sumun rəftarı***

mə`sumların (ələyhimussalam) hərəkət, davranış və rəftarlarına ***"mə`sumun rəftarı"*** deyilir. Nümunə üçün, tarixdə oxuyuruq ki, Rəsuli-Əkrəm (səlləllahu əleyhi və alih) öz əshabı ilə birlikdə olarkən dairəvi şəkildə oturarmış. Başqa yerdə yazırlar: "İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) bütün ömrü boyu salam verməkdə heç kəs Ondan qabağa düşə bilməyib. " Belə əməllərə ***"mə`sumun rəftarı"*** deyilir.

Üçüncüsü: ***Mə`sumun sükutu.***

Hər vaxt Peyğəmbərin (səlləllahu əleyhi və alehi və səlləm) İmamın (əleyhissalam) yanında bir iş görsələr və o həmin işin görülməsinin qarşısını almasa, bu halət ***"mə`sumun sükutu"*** adlanır.

### *QUR`ANDA MÖHKƏM VƏ MÜTƏŞABEHİN MƏ`NASI*

Bütün Qur`an ayələri iki qismə bölünür. Onun bir bölməsinə ***"möhkəm",*** başqa bir qisminə isə ***"mütəşabeh"*** deyirlər. O ayələr ki, aşkar şəkildə bir mə`naya dəlalət edir və zahiri heç bir başqa mə`na ilə oxşar deyil, ***"möhkəm"*** ayələr adlanır. O ayələr ki, müxtəlif mə`nalarda olmasına ehtimal verilir ***"mütəşabeh"*** ayələr adlanır.

### *SÜNNƏDƏ MÜTƏŞABEH OLMAQ EHTİMALI*

Bə`zi İslam alimləri mövcud hədislərə əsasən inanırlar ki, ***"sünnə"*** də, Qur`an kimi ***"möhkəm"*** və ***"mütəşabih"*** olaraq iki qismə bölünür. Bu nəzər düzgün deyil. Ona görə ki, bizim əqidəmizcə "***sünnə"***, Qur`anın mə`nasını aydınlaşdırmaq üçün gəlib. Əgər sünnədə mütəşabihat hədis olsa (mə`nasında bir neçə ehtimal verilsə) Qur`anın (xüsusilə o ayələrin ki, mütəşabeh və mütləqdir) mə`nasını bəyan edə bilməz. Ona görə də inanırıq ki, ***"sünnə"*** yalnız ***"möhkəmatdan"*** (yalnız, bir mə`nası olandan) ibarətdir və mütəşabeh deyil. Bu müqəddəmə ilə Həzrətin zikr etdiyi kəlmələrin mə`nasını anlaya bilərik. Həzrət, Qur`an və sünnənin məqamları və onların İslam cəmiyyətində əsas rol oynamasını, Qur`andan sənəd gətirərək qısa ibarətlə belə bəyan edir: Qur`an və sünnənin İslam cəmiyyətindəki rolu, hakimiyyətin və mərcəiyyətin rolu deməkdir. Yə`ni, əgər haqqı batildən ayıra bilməsələr, fikirlər və zehnlər çaş-baş qalsa, Qur`an və sünnə hakimdir. Qur`an dedikdə bütün ayələr yox, təkcə ***"möhkəm ayələr"*** nəzərdə tutulur ki, hamısı yalnız aşkar şəkildə bir mə`na verir və başqa mə`na ehtimalı nəzərdə tutulmur.

وَ ارْدُدْ إِلَى اللَّهِ وَ رَسُولِهِ مَا يُضْلِعُكَ مِنَ الْخُطُوبِ وَ يَشْتَبِهُ عَلَيْكَ مِنَ الْأُمُورِ فَقَدْ قَالَ اللَّهُ تَعَالَى لِقَوْمٍ أَحَبَّ إِرْشَادَهُمْ "يا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللَّهَ وَ أَطِيعُوا الرَّسُولَ وَ أُولِي الْأَمْرِ مِنْكُمْ فَإِنْ تَنازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللَّهِ وَ الرَّسُولِ" فَالرَّدُّ إِلَى اللَّهِ الْأَخْذُ بِمُحْكَمِ كِتَابِهِ وَ الرَّدُّ إِلَى الرَّسُولِ الْأَخْذُ بِسُنَّتِهِ الْجَامِعَةِ غَيْرِ الْمُفَرِّقَةِ

***Qarşına çıxan müsibətlərdə və (hökmünü bilmədiyin) oxşar məsələlərdə, Allaha və Onun Peyğəmbərinə (s) müraciət et! Çünki, Allah Öz yol göstərənlərini sevən camaat üçün buyurub: “Ey mö`minlər! Allaha, Peyğəmbərinə, özünüzdən olan ixtiyar sahiblərinə (mə`sum imamlara) (ulul-əmri minkum) itaət edin! Əgər bir şeydə ixtilafınız olsa, Allaha və Rəsuluna müraciət edin. ” “Allaha müraciət” yə`ni, Onun Kitabının möhkəmatına (ayələrə) əməl edin. “İşi Onun Rəsuluna qaytarın”, yə`ni, onun qəti sünnələrinə və o həzrətin təsdiq etdiyi işə əməl edin!”***

Həzrəti Əli (əleyhissalam)-ın bəyanından (xüsusilə Həzrətin zikr etdiyi ayədə Qur`an və sünnəyə müraciətindən) aydın olur ki, “Nəhcül-bəlağə”nin nəzərinə görə İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) və mə`sum İmamların (əleyhimussalam) göstərişləri iki qismə bölünür:

***1. ALLAHIN HÖKMLƏRİNİN BƏYANI***

***2. HÖKUMƏT FƏRMANLARI***

Peyğəmbər (səlləllahu əleyhi və alehi və səlləm) və mə`sum İmamlar (əleyhimussalam) Allahın hökmlərini, haram və halal kimi məsələləri açıqlayarkən insanları vacib işlərə əməl və haram olunmuşları tərk etməyə də`vət edirlər. Onlar bu halda əslində Allah hökmlərini bəyan edirlər. Lakin elə ki,

özləri hökumət təşkil etdilər (məsələn, Peyğəmbər (səlləllahu əleyhi və alehi və səlləm) kimi insanları döyüşə və döyüş ləvazimatlarını hazır etməyə çağırarkən, onların fərmanları "hökumət fərmanları" adlanır. Bunların çoxu Qur`anda və vəhydə gəlməmişdir. Ona görə də yuxarıda qeyd olunan ayədə ***"itaət edin"*** cümləsi iki dəfə təkrar olunub:

***1. "Allaha itaət edin!"*** yə`ni, Allahın hökmlərinə;

***2. "Peyğəmbərə itaət edin!"*** yə`ni, hökumət fərmanlarına.

Əli (əleyhissalam)-ın əhalini müharibəyə aparıb onlara döyüş ləvazimatının hazırlanmasına dair verdiyi göstərişlər ***"hökumət fərmanları"*** adlanır. Bunlar birbaşa Qur`anda gələn ilahi hökmləri və İslam Peyğəmbərinə (səlləllahu ələyhi və alih) birbaşa nazil olan ***"vəhy"*** deyil. Buna görə də yuxarıdakı ayədə ***"ətiu"*** (itaət edin) kəlməsi iki dəfə təkrar olub.

1. ***"Ətiullah"*** yə`ni Allahın hökmlərinə itaət edin!

2. ***"Ətiurrəsul"*** yə`ni hökumət fərmanlarına (Peyğəmbərə) itaət edin. Həmin əsasa görə ayədə ***"ulul-əmr"*** kəlməsindən sonra ***"ətiu"(itaət edin)*** kəlməsi bir daha təkrar olunmayıb. Çünki, itaətdən məqsəd hökumət fərmanlarıdır. Hökumət də İslam Peyğəmbərindən (səlləllahu ələyhi və alih) sonra mə`sum İmamlara (əleyhissalam) məxsusdur.

## *İSLAMDA QƏZAVƏTİN ƏHƏMİYYƏTİ VƏ QAZİNİN ŞƏXSİYYƏTİ*

Hökumətin əsasları o vaxt möhkəm və sabit olar ki, cəmiyyətdə zülm, təcavüz və fəsad olmasın. Zülm və fəsad, cəmiyyətdən o vaxt gedər ki, məhkəmə orqanları

ədalət və əmniyyətə riayət etməklə bütün qüdrətlə cəmiyyətdə bərqərar olsunlar, hər növ zülmü, zorakılığı, təcavüzü və haqqı ört-basdır edənləri sistemdən kənarlaşdıra bilsinlər. Bütün bunlar o zaman mümkündür ki, hökumətin qüdrəti olsun, imanlı, ədalətli və tam şəraitə malik olan qaziləri məhkəmə orqanlarının ixtiyarına qoysun. Bəli, layiqli qaziləri olmayan hökumətin məhkəmə orqanları fəsad və qanunsuzluğa çəkiləcək. Əmniyyət cəmiyyətdən yoxa çıxacaq, zorakılıq, təcavüz, qanun pozğunluğu hər yerdə hakim olacaq. Belə olan halda hakimiyyət nizamı aradan gedər, hərc-mərclik hər yeri tutar. Cəmiyyət bir-birinə qarışıb fəsadla dolar. Deməli, məhkəmə orqanlarının sağlam və qanunlarının möhkəm olması üçün hər şeydən əvvəl, ədalətli və imanlı qəzavət işçilərinə (qazilərə) ehtiyacı vardır. Bu ədalətli şəxslər məhkəmə orqanlarını lazımi şəraitlə idarə etməlidirlər. Amma o şəraitlər hansılardır? Qazi hansı şərtlərə malik olmalıdır?

Həzrət Əli (əleyhissalam)-ın nəzərincə qəzavət məqamına layiqli şəxslər aşağıdakı şərtlərə malik olmalıdır:

1-***Ən yaxşı və üstün şəxs olmalıdır.***

2-***Səbirli və geniş ürəkli olsun. Ədalətli məhkəmənin bütün mə`lumatlarını müxtəlif cəhətlərdən ələ gətirsin.***

3-***Əxlaqı və şücaəti ilə özünün səhvlərini qəbul etsin. Səhvindən tez qayıtsın və onu bərpa edib aradan aparsın.***

4-***Tez qəzəblənməsin. Xüsusən, iki tərəfin araşdırılmasında, onların haqqa yetişməsində öz əsəblərinin idarəsini əldən verməsin.***

5-***Möhkəm inam və güclü ruhiyyə sahibi olsun. Qüdrətlilərdən qorxmasın.***

6-***Möhkəm nəfsi və ali fikirləri olsun. Dünya malının əsiri və onun arzusunda olmasın. Dövlətlilərin və rüşvət verənlərin vasitəsi ilə yolunu azmasın.***

7-***Tədqiqatçı olsun. Məsələlərdən asanlıqla və səhlənkarlıqla ötməsin. Qaneedici mə`lumat ələ gətirməyincə məhkəməyə başlamasın. İlk qarşılaşmadan və birinci sorğu-sualdan sonra hökm verməsin.***

8-***Oxşar məsələ və dolaşıq yerlərdə ehtiyat və fikir etsin. Həqiqəti aşkar etməkdə qəti dəlillərə və mö`təbər sənədlərə əsaslansın. Hər bir xırda məsələ ilə maraqlansın.***

9-***Münaqişəli tərəflərlə xoş rəftar etsin. Narahat etmədən hər iki tərəfə danışmaq fürsəti versin.***

10-***Yalançıların və hiyləgərlərin toruna düşməsin. Qoluzorluların və sərvətlilərin qarşısında iradəsini əldən verməsin. Bütün bu şərtlərdən sonra özündə qətiyyət yaratsın. Həqiqəti kəşf etdikdən sonra heç bir amil onun, qəti və ədalətli hökm verməsinə mane olmasın. Yə`ni hökmünü tam qətiyyətlə, heç bir tərəfə az-çox da olsa tərəfdarlıq etmədən versin. Heç bir şeydən və heç kəsdən ötrü başqasının haqqını zay etməsin.***

Həzrət Əli (əleyhissalam) Malikə və bütün hakimlərə xəbərdarlıq edir ki, bu cür xüsusiyyətlərə malik olan şəxslər çox az tapılır. Qazinin, ali məhkəmənin layiqli və e`tibarlı olması hökumət başçısının ən böyük müvəffəqiyyəti hesab olunur ki, onun qədri bilinməlidir.

ثُمَّ اخْتَرْ لِلْحُكْمِ بَيْنَ النَّاسِ أَفْضَلَ رَعِيَّتِكَ فِي نَفْسكَ مِمَّنْ لَا تَضِيقُ بِهِ الْأُمُورُ وَ لَا تُمَحِّكُهُ الْخُصُومُ وَ لَا يَتَمَادَى فِي الزَّلَّةِ وَ لَا يَحْصَرُ مِنَ الْفَيْءِ إِلَى الْحَقِّ إِذَا عَرَفَهُ وَ لَا تُشْرِفُ نَفْسُهُ عَلَى طَمَعٍ وَ لَا يَكْتَفِي بِأَدْنَى فَهْمٍ دُونَ أَقْصَاهُ وَ أَوْقَفَهُمْ فِي الشُّبُهَاتِ وَ آخَذَهُمْ بِالْحُجَجِ وَ أَقَلَّهُمْ تَبَرُّماً بِمُرَاجَعَةِ الْخَصْمِ وَ أَصْبَرَهُمْ عَلَى تَكَشُّفِ الْأُمُورِ وَ أَصْرَمَهُمْ عِنْدَ اتِّضَاحِ الْحُكْمِ مِمَّنْ لَا يَزْدَهِيهِ إِطْرَاءٌ وَ لَا يَسْتَمِيلُهُ إِغْرَاءٌ وَ أُولَئِكَ قَلِيلٌ

***Əhali arasında hökm vermək üçün (qazilik məqamına) tanıdığın ən layiqli adamları tə`yin et! Elə şəxs olsun ki, ürək genişliyinə malik olsun, iki tərəfin düşmənçilik ixtilafı (və münaqişəsi) onu qəzəbə və pis əxlaqlı olmağa məcbur etməsin. Səhvlərinin üstündə möhkəm dayanmasın (israr etməsin). Öz səhvini başa düşən kimi haqqı qəbul etməkdə və səhvini e`tiraf etməkdə çətinlik çəkməsin. Qəlbində tamaha yer verməsin. Məsələni aydınlaşdırmaq üçün azacıq təhqiqatla kifayətlənməsin. Elə bir şəxs olsun ki, şübhəli məsələlərdə hamıdan çox ehtiyat etsin. Dəlil ələ gətirməkdə və ona istinad etməkdə hamıdan bacarıqlı olsun. Məsələyə təzədən baxmaqdan yorulmasın, məsələnin aşkar edilməsində hamıdan səbirli olsun, haqq aydın olduqdan sonra qətiyyətlə hökm versin. Hörmət olunması heç də onu yolundan çıxarmasın. Çox tə`riflənməsi heç də qazini tə`rif edən şəxsə meyl etməsin. Bu cür şəxslər çox azdır***

### *HAKİMİN LAYİQLİ QAZİLƏR QARŞISINDAKI VƏZİFƏSİ*

Qeyd etdiyimiz kimi, Həzrəti Əli (əleyhissalam)-ın nəzərincə layiqli və ədalətli qazi məqamına çatıb bütün şərtlərə malik olan şəxslər çox azdır. Hökumət başçıları bu cür şəxsiyyətləri axtarıb tapmaq üçün ciddiyyətlə çalışmalıdır. Amma, əsas məsələ budur ki, hakimlərin

vəzifəsi yalnız layiqli qaziləri tapıb onları münasib məqamlara tə`yin etməklə bitmir. Ədalətli qaziləri (məhkəmə işçilərini) tapdıqdan sonra hakimin öhdəsində iki mühüm vəzifə qalır. Bu da hakimin qazilərlə rəftarı və onların öz vəzifəsində daimi olmalarına aid olur. Bu məsələnin həlli hətta qaziləri axtarıb tapmaqdan da mühümdür.

***Birinci:*** Dövlət başçısı çalışmalıdır ki, qazi maddi cəhətdən sıxıntı və məşəqqətdə olmasın. Əks halda, ehtimal üzrə o ya öz işindən kənara çəkiləcək, ya soyuqqanlıq edib, vəzifəsini lazımınca yerinə yetirməyəcək və ya da səbrini və hövsələsini əldən verdikdə, tamahkarların və rüşvətxorların dəstəsinə qoşulub haqq işi nahaq, nahaq işi haqq kimi qələmə verəcəkdir.

***İkinci:*** Hakim qazinin məqamını möhkəm edib öz yanında onun üçün uca məqam qərar versin. Çünki:

1-***ci, hakimin qüdrəti olmasın ki, özünün şəxsi istəklərini zorla ona qəbul etdirsin.***

2-***ci, heç kəs ona tə`sir göstərməyə cəsarət etməsin .***

3-***cü, hakimdən başqa heç kəsin onu vəzifəsindən azad etməyə səlahiyyəti olmasın və heç kəsin ona əziyyət etməyə cür`əti olmasın.***

4-***cü, heç kəs onun haqqında yalan xəbərlər yaymağa, ona qarşı çıxmağa cür`ət etməsin. Hamı bilsin ki, qazi saleh və adil şəxsdir. Hakimin yanında başqalarının ona nüfuzundan amandadır***.

Həzrəti Əli (əleyhissalam) hakimin ədalətli və layiqli qazinin qarşısındakı vəzifələrini saydıqdan sonra qazinin haqq hökumət üçün nə qədər əhəmiyyətli və ədalətli qanunun cəmiyyətdə nə qədər möhkəm olması haqqında xəbərdarlıq edir. Dövlət

başçıları layiqli qazilərin ədalətin icrasına nəzarətini artırmaq üçün hərc-mərclik, fəsadın aradan aparılması və Allahın hökmlərinin icra olunmasında onların rolunu qeyd edərək tələb edir ki, hakim bu sahəyə daha çox diqqət yetirsin. Bu barədə Həzrət, İslam Peyğəmbərinin (səlləllahu ələyhi və alih) vəfatından sonra İslam hökumətində İslam dini adı altında öz həva-həvəsləri ilə fəsad törədənlərə işarə edir, onların din adı altında ən çirkin əməllərə qurşanmalarını qeyd edir. Xüsusilə, bu vaxt İslam hökumətinin qəzavət dəstgahı tamamilə nüfuzdan düşmüşdü.

ثُمَّ أَكْثِرْ تَعَاهُدَ قَضَائِهِ وَ افْسَحْ لَهُ فِي الْبَذْلِ مَا يُزِيلُ عِلَّتَهُ وَ تَقِلُّ مَعَهُ حَاجَتُهُ إِلَى النَّاسِ وَ أَعْطِهِ مِنَ الْمَنْزِلَةِ لَدَيْكَ مَا لَا يَطْمَعُ فِيهِ غَيْرُهُ مِنْ خَاصَّتِكَ لِيَأْمَنَ بِذَلِكَ اغْتِيَالَ الرِّجَالِ لَهُ عِنْدَكَ فَانْظُرْ فِي ذَلِكَ نَظَراً بَلِيغاً فَإِنَّ هَذَا الدِّينَ قَدْ كَانَ أَسِيراً فِي أَيْدِي الْأَشْرَارِ يُعْمَلُ فِيهِ بِالْهَوَى وَ تُطْلَبُ بِهِ الدُّنْيَا

***Qazini seçdikdən sonra onun üstündə nəzarətin olsun! Verdiyi hökmlərdə yoxlama apar. Ona bəxşiş verməklə səxavət süfrəni geniş aç! Onu elə tə`min et ki, əhaliyə ehtiyacı olmasın. Məqamını elə uca et ki, bə`zi xüsusi şəxslər ona tamah salmasın. (Belə olsa, qazi) sözbazların xəbərçiliyindən və pis fikirlərindən amanda olar. Söylədiyim işlərə diqqətlə nəzarət et! Çünki bu din, keçmişdə xəyanətkarların (şər törədənlərin) əlində olub, onlar öz həvayi-nəfslərinə əsasən əməl etmiş və dünyanı ələ gətirmək üçün dini vəsilə qərar vermişdilər.***

## *DÖVLƏT İŞÇİLƏRİNİN SEÇİLMƏSİNDƏ DOSTLUQ, TANIŞLIQ YOX, HAKİMİYYƏT QANUNU ƏSAS OLMALIDIR*

İslam cəmiyyətində haqq-ədalətin icra olunması, bərabərlik, ayrı-seçkilik salmamaq, başqa sözlə desək, şəxsi istəkləri əsas tutmamaq və oyunbazlıqdan əl çəkmək hökumətin əsas vəzifələrindən biridir. İslami olmayan ölkələrdə oyunbazlıq, vəzifələrin dostluq və rabitə əsasında bölünməsi, bə`zi xüsusi şəxslərin vəzifələri özlərinə məxsus etməsi əsas prinsiplərdəndir. Amma İslam hökumətində bunun əksinədir. Ona görə ki, İslam mədəniyyətində qanun dostluq və şəxsi fikirləri kənara qoyur. Yalnız haqq-ədalətin icra olunmasını tələb edir. Hökumətdə vəzifələr və məqamlar insanın əsli, əxlaqı, fəziləti və başqa islami məziyyətlərə əsasən tə`yin olunmalıdır. Hər kəs özünün ləyaqətinə, işinə və təqvasına əsasən vəzifəyə seçilməlidir. Buna görə də Həzrəti Əli (əleyhissalam)-ın nəzərincə layiqli hakim o kəsdir ki, məs`uliyyətli vəzifələrin bölgüsündə namizədlər arasında yalnız haqq və ədaləti əsas tutmaqdan başqa bir şey fikrində olmasın, namizədləri diqqətlə yoxlayıb imtahan etmədən, onların xüsusiyyətlərini və üstünlüklərini nəzərə almadan vəzifəyə tə`yin etməsin. Bu səbəbə görə İmam, Malik Əştərə və bütün İslam hökumət başçılarına tövsiyə edir ki, dövlət işçilərini və namizədləri məqamlı vəzifələrə tə`yin etməkdə yalnız İslam prinsiplərini nəzərə alsınlar, heç vaxt şəxsi meyllərini və ya daxili hislərini, dostluğunu əsas tutmasınlar. Həzrəti Əli (əleyhissalam)-ın nəzərincə,

hər bir dövlət işçisinin seçilməsində əsas götürülən me`yarlar aşağıdakılardan ibarətdir:

1-***Təcrübəli və işbilən olsun. Müxtəlif məsələlərdə, müşkül işlərdə təcrübə görmüş və səbirli olsun.***

2-***Nəcib və təmiz adlı olsun. İffətli, həyalı və nəfsi pak olsun. Çirkinliyi və pis işləri özünə yol verməsin.***

3-***Əxlaqlı, pak və xeyirxah ailədən olsun, fəsad, xəyanət və zülmkarlıq mühitində böyüməsin.***

4-***Yaxşı keçmişə malik olsun. İslamda başqalarına nisbətən yaxşı keçmişi olsun. Yə`ni, o kəslərdən olsun ki, İslam dininin qüdrətlənib yayılmasından əvvəl, Allahın dininə çox meyl etmiş olsun, o şəxslərdən olmasın ki, İslam dini genişləndikdən və qüdrətə çatdıqdan sonra ya qorxudan, ya İslamın qüdrətindən sui-istifadə etməkdən ötrü, ya da İslamda məqama çatıb sərvət toplamaq üçün bu dinə üz gətirsin.***

5-***Şəxsiyyətli adam olsun. Həmişə öz nəfsini qorumağa çalışanlardan və ruhunu hər cür həyəcanlardan pak etmiş olsun.***

6-***Müdiriyyət, idarəçilik və uzaqgörənlik qabiliyyəti, müxtəlif məsələlərdə fikir edən və dəqiq yoxlama aparan olsun.***

7-***Maddi şeylərdə gözü qalmasın. Nəfsi və əqli sağlam olsun.***

Həzrət Əli (əleyhissalam) dövlət işçilərinin xüsusiyyətlərini və şərtlərini sadalamaqla bərabər, hakimlərin onların qarşısındakı vəzifələrini də tə`yin edir və bu cür şəxslərin seçilməsini onların öhdəsinə qoyur. Bu vəzifələr aşağıdakılardan ibarətdir:

1-***Hakimlər gərək işçilərin əməllərinə və işləmə keyfiyyətlərinə diqqət etsinlər, onların hər birini sınaqdan keçirdikdən sonra işə götürsünlər.***

2-***Bu şəxslərin seçilməsində şəxsi nəzərindən və təkəbbürçülüyündən istifadə etməsin, əksinə, başqalarının rə`ylərini nəzərə alsın və onlarla məşvərət etsin***.

3-***Hakim öz işçilərinə fürsət versin ki, özlərinin iste`dad və ləyaqətlərini aşkar etsinlər. Öz əl işlərini yoxlamaq üçün göz qabağında canlandırsınlar.***

4-***Hakim öz meylinə və ya şəxsi rabitəsinə görə bir nəfərdə məs`uliyyət məqamına aid olmayan bir xüsusiyyətə görə onu uca vəzifəyə tə`yin etməsin.***

Bu vaxt Həzrət Əli (əleyhissalam) buyurur: Əgər hakim sadalanan islami prinsipləri və me`yarları nəzərə almadan bir nəfərə yüksək məqam tapşırsa, bu elə bir müştərək ***"kökdür"*** ki, zülmün, xəyanətin və təcavüzkarlığın müxtəlif şaxələri o kökdən baş qaldırır.

ثُمَّ انْظُرْ فِي أُمُورِ عُمَّالِكَ فَاسْتَعْمِلْهُمُ اخْتِبَاراً وَ لَا تُوَلِّهِمْ مُحَابَاةً وَ أَثَرَةً فَإِنَّهُمَا جِمَاعٌ مِنْ شُعَبِ الْجَوْرِ وَ الْخِيَانَةِ وَ تَوَخَّ مِنْهُمْ أَهْلَ التَّجْرِبَةِ وَ الْحَيَاءِ مِنْ أَهْلِ الْبُيُوتَاتِ الصَّالِحَةِ وَ الْقَدَمِ فِي الْإِسْلَامِ الْمُتَقَدِّمَةِ فَإِنَّهُمْ أَكْرَمُ أَخْلَاقاً وَ أَصَحُّ أَعْرَاضاً وَ أَقَلُّ فِي الْمَطَامِعِ إِشْرَاقاً وَ أَبْلَغُ فِي عَوَاقِبِ الْأُمُورِ نَظَراً

***Sonra işçilərin işlərinə diqqət et! Elə ki, onları sınaqdan keçirtdin, onlara iş tapşır. Onları, öz şəxsi meyllərin və öz istəklərinə görə vəzifəyə qoyma. Çünki, bu cür yol, zülm və xəyanətdir. Onları (dövlət işçilərini) təcrübəli şəxslərdən, adlı-sanlı, pak və həyalı ailələrdən, imanlı şəxslərdən, İslam yolunda öndə gedənlərdən tə`yin et! Çünki, onların əxlaqı daha yaxşı, ailələri daha pak və tamahları azdır. İşin aqibətini fikirləşməkdə təcrübələri vardır!”***

## *DÖVLƏT İŞÇİLƏRİNİN MADDİ EHTİYACLARININ TƏ`MİN OLUNMASI*

Bundan əvvəlki bəhslərdə bu məsələ haqqında müəyyən qədər söz açdıq və qeyd etdik ki, böyük insaniyyət məktəbi olan İslam dini, İlahi görüşlə həmişə cəmiyyətdə insanların rifahını və maddi ehtiyaclarını nəzərə almış, onların tə`min olunması üçün müəyyən qanun-qaydalar vermişdir. İslam hakiminin həmkarları, daha doğrusu, dövlət işçiləri haqqında öhdəsinə düşən vəzifəni Həzrəti Əli (əleyhissalam) özünün diqqət və uzaqgörənliyi ilə qeyd edir. İşçilərin maddi ehtiyaclarının nəzərə alınmasını və onların ödənilməsini idarəçiliyin ən mühüm işi hesab edir. Əslində bu ehtiyacların ödənilməsi ilə dövlət işçilərində hökumətə xəyanət, rüşvətxorluq və başqalarının haqqının zay olmasının qarşısı alınır.

İmam tövsiyə edir ki, əgər onların ehtiyacları ödənilsə, bə`zi şəxslər oğruluğa, xəyanətə və rüşvətxorluğa əl ata bilməzlər. Əgər bu iş baş versə, dövlət işçiləri hakimin qaşısında başı aşağı olar, özlərinin xəyanətləri üçün cavab tapa bilməzlər. Həmçinin, əgər bu şəxslərin maddi ehtiyacları tə`min olunmasa, kəskin ehtiyac onları düz yoldan azdıracaq və onlarda əmanətdarlıq ruhiyyəsini aradan aparacaq, onların qarşısında hakimin heç bir dəlili olmayacaq. Çünki, özlərinin oğurluq və xəyanətlərinə hakimin onları ac və ehtiyac içində saxlamasını bəhanə gətirəcəklər.

ثُمَّ أَسْبِغْ عَلَيْهِمُ الْأَرْزَاقَ فَإِنَّ ذَلِكَ قُوَّةٌ لَهُمْ عَلَى اسْتِصْلَاحِ أَنْفُسِهِمْ وَ غِنًى لَهُمْ عَنْ تَنَاوُلِ مَا تَحْتَ أَيْدِيهِمْ وَ حُجَّةٌ عَلَيْهِمْ إِنْ خَالَفُوا أَمْرَكَ أَوْ ثَلَمُوا أَمَانَتَك

***Sonra onlara (dövlət işçilərinə) lazımı dərəcədə hüquq ver! Çünki bu iş onların ruhiyyəsinin möhkəmlənməsinə və əllərinin altında olan işçilərin mallarına əl uzatmaqdan çəkinmələrinə səbəb olar. Bundan əlavə, əgər göstərişlərdən boyun qaçırsalar və ya əmanətə xəyanət etsələr, bu iş onlar üçün (onların cəzalanması üçün) bir dəlil olar!***

## *İSLAM HÖKUMƏTİNDƏ YOXLANIŞ (TƏFTİŞ) DƏSTƏSİ VƏ ONLARIN QARŞISINDA HAKİMİN VƏZİFƏSİ*

Dövlət işçiləri və mə`murlar haqqında hakimin vəzifəsi yalnız onları seçib vəzifə tapşırmaq və onların maddi ehtiyaclarını ödəməklə qurtarmır. Əksinə, seçib məqama tə`yin etdikdən sonra onların əməllərini, rəftarlarını daim nəzarət altında saxlamalıdır, öz vəzifələrini yerinə yetirməkdə, millətin nümayəndələri ilə rəftar etməkdə, ölkənin müxtəlif məsələləri haqqında mə`lumat verdikdə vəzifələrinə düzgün əməl edib-etməmələrinə, əhalinin hökumət planları haqqında olan şikayətlərini hakimə çatdırmaq vəzifələrini və bundan başqa yüzlərlə müxtəlif məsələlərə fikir verməlidir. Baxmalıdır ki, bütün bunları dövlət mə`murları olduğu kimi hakimə çatdırırmı? Hakim bu işlərə nəzarət etməlidir. Lakin əgər hakim dövlət işçilərinin əməllərinə və rəftarlarına fikir verməsə, bə`ziləri öz məqamından şəxsi mənafeləri üçün istifadə edəcək, əhaliyə zülm edib fəsad törətməklə, ədalətsizliklə xalqı hökumətə qarşı

e`tinasız edəcək və cəmiyyətin nizamını pozacaqlar. Bu işin baş verməməsi üçün hakim dövlət mə`murlarının əməllərini daim nəzarət altına almalıdır. Başqa tərəfdən, bu işləri yoluna salmaq üçün dövlət işçilərindən, dövlət mə`murlarının əməllərini yoxlayan (müfəttiş) dəstə yaradılmalıdır. Bu dəstənin üzvləri ən inanılmış, vəfalı şəxslər olmalı, dövlət mə`murlarının rəftar və əməlləri barədə hakimə düzgün mə`lumat verməlidirlər. Bütün bunları təşkil etmək dövlət başçısının vəzifələrindəndir. Təbiidir ki, bu yoxlama dəstəsinin üzvləri hakimin inandığı ən təqvalı, mö`min, Allaha ibadət edən və imanlı şəxslərdən olmalı, hakim onların özünə qarşı olan vəfadarlığına və doğruçuluğuna tamamilə inanmalıdır. Hakimin bu şəxslərin hər birinin yalan, hiylə və xəyanətdən uzaq olaraq düzgün mə`lumat verəcəklərinə, öz vəzifələrini yerinə yetirməkdə yalnız Allahı nəzərdə tutacaqlarına, işlərində yalnız İslam hökumətinin qanunlarını əsas götürəcəklərinə yəqinliyi olmalıdır.

Yoxlama dəstələrinin məsələləri ilə əlaqədar əsas işlərdən biri də budur ki, İslam hökuməti yoxlanış işləri ilə məşğul olan dəstələri ***“gözlər”*** yə`ni, “hökumətin görən gözləri” adlandırır. Doğrudan da yoxlama aparanlar hökumətdə hakimin gözüdürlər. Düzgün və sağlam ruhlu yoxlama dəstələrinə malik olmayan hökumət, sanki özünün eyiblərini görməyən bir şəxsdir. Bu halda ölkə fəsad içində boğular.

Həzrəti Əli (əleyhissalam) İslam hökuməti başçısına yol göstərib buyurur ki, bu ***“gözləri”*** (yoxlama dəstələrini) gizlin şəkildə ölkənin müxtəlif nöqtələrinə göndər. Çünki məxfi nəzarət səbəb olur ki, dövlət işçiləri və mə`murları bir tərəfdən əmanətdarlıq və

pərhizkarlıqla xəyanətdən uzaq olsunlar, başqa tərəfdən millətlə mülayim və mehribançılıqla rəftar edib dövlət tapşırıqlarını, mühüm işləri tə`xirə salmadan əhalinin işlərini diqqətlə nəzərə alsınlar. Həzrəti Əli (əleyhissalam) xəbərdarlıq edir ki, yoxlama aparanlar hökumət tərəfindən inanılmış şəxslər olmalıdırlar. Onların verdiyi mə`lumatlar hakim üçün əsas dəlil hesab olunur. Hökumət bu xəbərlər əsasında qərar verir. Əgər yoxlama dəstələri hər hansı işçinin fəsad və eybləri haqqında xəbər versələr, amma bu xəbərlərə e`tina olunmasa və müəyyən qərar qəbul olunmasa, yaxud bu xəbərlər xəta kimi qələmə verilsə, bundan sonra heç kəs yoxlama dəstələrinə e`tibar etməyəcək, fəsad törədənlər asanlıqla öz xəyanətlərinə davam edərək cəmiyyəti həlakətə və hərc-mərcliyə doğru aparacaqlar. Buna görə də Həzrəti Əli (əleyhissalam) buyurur ki, əgər hökumət işçilərindən birinin, hətta hakimin ən yaxın adamlarının fəsad və xəyanət etdiyi aydın olsa, gizli yoxlama dəstələri də bu mövzunu təsdiq etsə, bu xəbərlər həmin şəxslərin əməllərində yoxlanış aparılması və müəyyən ölçü götürülməsi üçün kifayət edir. Həzrət Əli (əleyhissalam) hakimin xainlərin müqabilindəki vəzifəsini bu cür tə`yin edir: Xaini öz yaramaz əməlinin cəzasına çatdırmaq lazımdır. Şəriətdə tə`yin olunmuş həddi, onun xəyanətinə uyğun (nə az, nə çox) icra et! Xaini rüsvay et! Onu zəlil və xar et! Xəyanət dağmasını açıq şəkildə onun alnına vur! Xarlıq qandalını onun boynuna sal! Elə et ki, əhali arasında barmaqla göstərilsin. Bunu görən həmkarları bundan ibrət götürər və bununla da əhali arasında heç kəs xəyanət etməyə cür`ət etməz. Maraqlıdır ki, Həzrəti Əli

(əleyhissalam)-ın bəyanında yoxlama dəstələrinə qarşı e`timad və onların tövsiyələrinə ehtimal olunan bütün suallara cavab verilir. Bəli, bütün diqqət və ehtiyata riayət etməklə seçilmiş yoxlanış dəstələrindən bə`ziləri də xəyanət etsələr və yalan mə`lumat versələr, onlara hansı e`timadla yanaşmaq olar? Diqqət etmək lazımdır ki, Həzrəti Əli (əleyhissalam) yoxlama dəstəsinin seçilməsində, ruhi sağlamlıq və əxlaqi xüsusiyyətlərə diqqət olunmasına tövsiyə etməklə yanaşı, yenə də hakimləri də`vət edir ki, hər bir işi müxtəlif cəhətlərdən yoxlasınlar. Hər vaxt bir neçə inanılmış məntəqələrdən xəbər yetişsə və bu xəbər bütün şahidlərlə təsdiq olunsa, hakimlər o xəbərin qəbul olunmasında zərrə qədər şəkk etməsinlər. Bu sözün mə`nası odur ki, yoxlama üçün tə`yin olunmuş şəxsi seçərkən bütün şərtlərdən başqa, ***əvvəla,*** verilən xəbər təklikdə höccət sayılmamalıdır. ***İkincisi,*** əgər bir xəbər haqqında fikir birliyi olmasa, o xəbər haqqında daha çox təhqiq aparmaq lazımdır. Bundan əlavə, yoxlama zamanı yalan mə`lumat vermək dövlət mə`murunun öz vəzifəsinə xəyanət etməsi kimidir. Bunun da ağır və rüsvayedici cəzası var. Cəmiyyət bu cür şəxsiyyətləri heç vaxt qəbul etmir.

ثُمَّ تَفَقَّدْ أَعْمَالَهُمْ وَ ابْعَثِ الْعُيُونَ مِنْ أَهْلِ الصِّدْقِ وَ الْوَفَاءِ عَلَيْهِمْ فَإِنَّ تَعَاهُدَكَ فِي السِّرِّ لِأُمُورِهِمْ حَدْوَةٌ لَهُمْ عَلَى اسْتِعْمَالِ الْأَمَانَةِ وَ الرِّفْقِ بِالرَّعِيَّةِ وَ تَحَفَّظْ مِنَ الْأَعْوَانِ فَإِنْ أَحَدٌ مِنْهُمْ بَسَطَ يَدَهُ إِلَى خِيَانَةٍ اجْتَمَعَتْ بِهَا عَلَيْهِ عِنْدَكَ أَخْبَارُ عُيُونِكَ اكْتَفَيْتَ بِذَلِكَ شَاهِداً فَبَسَطْتَ عَلَيْهِ الْعُقُوبَةَ فِي بَدَنِهِ وَ أَخَذْتَهُ بِمَا أَصَابَ مِنْ عَمَلِهِ ثُمَّ نَصَبْتَهُ بِمَقَامِ الْمَذَلَّةِ وَ وَسَمْتَهُ بِالْخِيَانَةِ وَ قَلَّدْتَهُ عَارَ التُّهَمَةِ

***Sonra vəfalı və sadiq gizli dövlət mə`murlarını göndərməklə onları (dövlət işçilərini) nəzarət altında saxla! Çünki, əgər işlərində yoxlama olduğunu bilsələr əmanətə xəyanət etməz və əhalinin təbəqələri ilə mülayim rəftar edərlər. Tam diqqətlə özünün, köməkçilərinin və dostlarının əməllərinə nəzarət et! Əgər onlardan biri xəyanət etsə və gizlin mə`murların hamısı bu işi təsdiq etsələr, onların sözünə inanmalı, xəyanətkarı dərhal öz cəzasına çatdırmalısan. Onu xəyanət etdiyi miqdarda cəzalandır, sonra onu xar və zillətdə saxla, xəyanət damğasını alnına vur və rüsvaylıq qandalını onun boynuna at!***

## *ƏKİNÇİLİYİN ƏHƏMİYYƏTİ VƏ XƏRACIN MƏ`NASI*

İslam dini zühur etdiyi vaxtda sənətkarlığın zəif və məhdud olduğuna, dünya tacirlərinin qanunsuz əməllər gördüyünə, ticarət əlaqələrinin lazımi dərəcədə olmadığına görə iqtisadiyyatda əmniyyət yox idi. İqtisadiyyat, əkin torpaqlarının məhsuldarlığından asılı idi. Buna görə də yalnız, əkinçilik və torpaqdan ***"maliyyat"*** alınırdı. Fiqh istilahında bu cür vergilərə ***"xərac"*** və ya ***"müqasimə"*** deyilir. Əgər hökumət torpağın müəyyən bir hissəsini (məsələn, üçdə-birni və ya üçdə-iki hissəsi) maliyyat kimi tə`yin etmişdirsə ona

***"müqasimə"*** deyirlər. Hər bir ölçülmüş torpaq sahəsinə müəyyən vergi tə`yin olunmuşdu. Bu vergi ***"xərac"*** adlanırdı. Xərac və müqasimə verən şəxslərə ***"əhli-xərac"*** deyirlər. ***"Xərac"*-**ın istilahdakı mə`nası aydın olduqdan sonra əkinçiliyin əhəmiyyəti və cəmiyyətin inkişaf edib təkamülə çatmasında onun roluna diqqət edək. Mə`lumdur ki, şəhərdə yaşayanlar və məcburiyyət üzündən şəhər mühitinə düşənlər hazır məhsullardan istifadə edənlərdir. Onların yaşayışı əkinçilərin və kəndlilərin becərib əldə etdikləri məhsullarla tə`min olunur. Şəhərlilərin özləri bir şey becərmirlər. Əgər əkinçilər yüksək ruhiyyə ilə işləyib əkinçilik məhsullarını artırsalar şəhərlilərin ehtiyacları tə`min olunmuş olacaq. Əks halda heç bir şəhər sakini gündəlik tələbat məhsullarını əldə edə bilməz. Odur ki, əkinçilik heç vaxt öz əhəmiyyətini əldən verməyəcək, həmişə insanların zəruri ehtiyaclarını tə`min edən mənbə hesab olunacaq. Başqa tərəfdən, şəhər sakinləri öz ehtiyaclarını birbaşa tə`min edə bilməzlər. Əksinə, onlar öz ehtiyaclarını əkinçilərdən, heyvan, bitki və məhsulu olan tacirlərdən və başqa vasitələrlə tə`min edirlər. Əlbəttə, əkinçilər də öz növbəsində lazım olan yaşayış vasitələrini, məsələn, paltar, əkinçilikdə istifadə etdikləri əmək alətləri və sair satdıqları məhsulların pulu ilə alırlar. Bu alış-verişlər təbii iqtisadiyyatın inkişaf etməsinə səbəb olur. Bütün bunlar, əkinçilərin işlərindən asılıdır. Buna görə də əkinçilərin işlərinin nizamının pozulması yalnız onların özlərinə zərər yetirmir, onun tə`siri bütün cəmiyyətdə yayılır və onları fəaliyyətdən saxlayır. Bunun da nəticəsində cəmiyyət iqtisadi faciəyə uğrayır və aradan gedir.

وَ تَفَقَّدْ أَمْرَ الْخَرَاجِ بِمَا يُصْلِحُ أَهْلَهُ فَإِنَّ فِي صَلَاحِهِ وَ صَلَاحِهِمْ صَلَاحاً لِمَنْ سِوَاهُمْ وَ
لَا صَلَاحَ لِمَنْ سِوَاهُمْ إِلَّا بِهِمْ لِأَنَّ النَّاسَ كُلَّهُمْ عِيَالٌ عَلَى الْخَرَاجِ وَ أَهْلِهِ

***Xərac işini elə tənzim et ki, xərac verənlərin vəziyyəti yaxşı olsun. Ona görə ki, əgər xəracın və xərac verənin işi yaxşılaşsa, cəmiyyətin başqa sinifləri rahatçılıqla yaşayacaqlar. Cəmiyyətin başqa təbəqələri yalnız onlara arxalanmaqla rahatlıq və amanda olurlar. Çünki, əhalinin hamısı ya maliyyatdan istifadə edənlər, ya da maliyyat verənlərdir.***

## *DÖVLƏT ƏKİNÇİLİYİ GÜCLƏNDİRMƏK ÜÇÜN ÇALIŞMALIDIR*

Əgər dövlət maliyyata və xəraca arxalanmalıdırsa, onun şəraitini də tədarük görməlidir. Əkinçilərin suyunu, torpağını, suvarma şəbəkələrini, arxları, körpüləri, dərin quyuları, o cümlədən onlarla müxtəlif məsələləri tə`min etmək dövlətin əsas vəzifələrindəndir. Bir məntəqənin əkinçilərinin başqa məntəqələrin əkinçiləri ilə əlaqələri möhkəmlənməlidir. Zəhmətkeş kəndlilərə daha çox köməklik göstərməklə əkinçiliyin məhsuldarlığını artırmaq olar. Yalnız bu vaxtı hökumətin əhalidən maliyyat yığmağa haqqı vardır. Əgər bu cür olmasa, əkinçilik inkişaf etməyən ölkədə kəndlilərin gəliri olmadığı üçün dövlətə məhsul təhvil verə bilməzlər. Bu vaxt heç bir maliyyatdan söz ola bilməz. Millət ehtiyac içərisində qalar və hökumətə qarşı narazılıqlar başlanar. Nəhayət, hökumətin strukturu sarsılar və kökündən viran olar. Ona görə də Həzrəti Əli (əleyhissalam) maliyyatın verilməsini əhalinin gəlirindən sonra qeyd edir, hər bir hakimə

əhalidən maliyyat yığmaq fikrindən əvvəl ölkənin abadlaşdırılması və quruculuq fikrində olmasını tövsiyə edir.

وَ لْيَكُنْ نَظَرُكَ فِي عِمَارَةِ الْأَرْضِ أَبْلَغَ مِنْ نَظَرِكَ فِي اسْتِجْلَابِ الْخَرَاجِ لِأَنَّ ذَلِكَ لَا يُدْرَكُ إِلَّا بِالْعِمَارَةِ وَ مَنْ طَلَبَ الْخَرَاجَ بِغَيْرِ عِمَارَةٍ أَخْرَبَ الْبِلَادَ وَ أَهْلَكَ الْعِبَادَ وَ لَمْ يَسْتَقِمْ أَمْرُهُ إِلَّا قَلِيلًا

***Maliyyat almaq fikrindən əvvəl torpağın abadlaşdırılmasına daha çox nəzər et! Ona görə ki, torpaq abadlaşmasa, xərac almaq mümkün deyil. Hər kəs torpağda əziyyət çəkmədən, sərmayə qoymadan və çalışmadan əhalindən xərac (maliyyat) istəsə, sanki şəhərləri viran etmiş və Allahın bəndələrini həlakətə çatdırmışdır. Bu cür hökumət çox az müddət ömür sürə bilər!***

## *MALİYYATDA YÜNGÜLLÜK*

Kəndlilər cəmiyyətin bütün təbəqələrindən artıq zəhmətkeş və əzab-əziyyətə qatlaşırlar. Yaşayışları təbii amillərin əsiridir. Təbiət hadisələrinə azacıq belə diqqət olunmasa və bu hadisələr qarşısında onlara kömək edilməsə, onlara böyük xəsarət dəymiş olacaq. Buna görə də əkinçi il boyu hansı halda olursa olsun, öz vaxtını əkin sahəsi haqqında fikirləşməklə keçirməyə, bir an da olsa, əkin torpağından qəflət etməməyə məcburdur. Amma başqa təbəqələr bunun əksinədir; hər vaxt istəsələr öz işlərindən ayrılıb, yaşayışlarını istədikləri kimi tənzim edə bilərlər. İşləri bu qədər əziyyətli olduğu üçün əkinçilərin həyat səviyyələrini münasib vəziyyətdə saxlamaq lazımdır ki, əkinçi hiss etsin ki, gördüyü işin mənfəəti başqalarının cibinə axmayıb, öz xeyrinədir, heç vaxt hiss etməsin ki, məzlum və istismar olunmuşdur. Əkinçi, torpağını özününkü hesab etməli və arxayın olmalıdır ki, onun

ruzisini heç kəs əlindən ala bilməz. Bütün bu məsələlərlə yanaşı, əkinçilərin torpaq və onun məhsuldarlığı haqqında olan nəzərlərinə də diqqət etmək lazımdır. Əgər əkinçi dövlətə verdiyi maliyyatla müqayisədə gəlirinin münasib olmadığını bilsə və ya əkin məhsullarının müxtəlif xəstəliklərindən şikayətlənsə dövlətə maliyyatla verməkdə özünü qüdrətsiz görəcək. Dövlət məs`ulları onun çətinliklərini dərk etməli və əkinçinin işlərinin qaydaya düşməsi üçün maliyyatdan azaltmalı və ya ümumiyyətlə almamalıdır. Çünki, əkinçinin ehtiyacı olan vaxtı ondan maliyat alınmaması, əslində dövlətin öz xeyrinədir. Bu vaxt əkinçi açıq ürəklə və şadlıqla torpağın abad olunmasına çalışacaq və ona zəruri olan ehtiyaclarını tə`min edəcək. Nəticədə, əkinçilik məntəqələri cəmiyyətin maddi ehtiyaclarını tə`min edəcəkdir. Bu işin başqa səmərəsi də budur ki, əkinçilər (onlar cəmiyyətin əksəriyyətini təşkil edirlər) tam arxayınlıqla işləyib hökuməti ürəkdən sevəcəklər. Hökumət çətinliklərə düşən zaman ona kömək edəcək, ölkədə böhranlı vəziyyət yarandıqda hökuməti himayə edəcəklər. Odur ki, Həzrət Əli (əleyhissalam) buyurur:

فَإِنْ شَكَوْا ثِقَلًا أَوْ عِلَّةً أَوِ انْقِطَاعَ شِرْبٍ أَوْ بَالَّةٍ أَوْ إِحَالَةَ أَرْضٍ اغْتَمَرَهَا غَرَقٌ أَوْ أَجْحَفَ بِهَا عَطَشٌ خَفَّفْتَ عَنْهُمْ بِمَا تَرْجُو أَنْ يَصْلُحَ بِهِ أَمْرُهُمْ وَ لَا يَثْقُلَنَّ عَلَيْكَ شَيْءٌ خَفَّفْتَ بِهِ الْمَؤُونَةَ عَنْهُمْ فَإِنَّهُ ذُخْرٌ يَعُودُونَ بِهِ عَلَيْكَ فِي عِمَارَةِ بِلَادِكَ وَ تَزْيِينِ وِلَايَتِكَ مَعَ اسْتِجْلَابِكَ حُسْنَ ثَنَائِهِمْ وَ تَبَجُّحِكَ باسْتِفَاضَةِ الْعَدْلِ فِيهِمْ مُعْتَمِداً فَضْلَ قُوَّتِهِمْ بِمَا ذَخَرْتَ عِنْدَهُمْ مِنْ إِجْمَامِكَ لَهُمْ وَ الثِّقَةَ مِنْهُمْ بِمَا عَوَّدْتَهُمْ مِنْ عَدْلِكَ عَلَيْهِمْ وَ رِفْقِكَ بِهِمْ فَرُبَّمَا حَدَثَ مِنَ الْأُمُورِ مَا إِذَا عَوَّلْتَ فِيهِ عَلَيْهِمْ مِنْ بَعْدُ احْتَمَلُوهُ طَيِّبَةً أَنْفُسُهُمْ بِهِ فَإِنَّ الْعُمْرَانَ مُحْتَمِلٌ مَا حَمَّلْتَهُ

***Əgər əhali xəracın ağırlığından, əkin sahələrinin xarab olmasından, suyun olmamasından və ya yağışın***

***yağmamasından, toxumun xarab olmasından, selin və tufanın xəsarət və quraqlıqdan sənə şikayət etsələr, sən onlardan maliyyat alanda güzəştə get, qoy öz işlərini sahmana sala bilsinlər. Bu güzəştlər sənin üçün ağır olmasın. Çünki, bu güzəştlərin arxasınca şəhərlərin abadlaşdırılması, sənin ölkənin yaxşılaşması gəlir. Nəhayət, işlər sənə tərəf gələr. Bundan əlavə, bu iş onların sənə qarşı məhəbbətini çoxaldacaq. Özün də onların haqqında ədalətlə rəftar etdiyin üçün xoşhal olacaqsan. (Bunların hamısının nəticəsində) sən arxayın olacaqsan ki, onlar qüvvətləndikdən sonra sənə kömək edəcəklər. Çünki, sən onların rifahının yaxşılaşmasına kömək etmisən və onlarla ədalətlə, mülayim rəftar etmisən. Ola bilsin, müxtəlif hadisələr baş versin ki, əgər onların həllini əhalinin öhdəsinə qoysan, səmimiyyətlə qəbul edərlər. Ölkənin abadlaşması nə qədər istəsən, o qədər də genişlənə bilər!***

## *ƏKİNÇİLƏRƏ QARŞI DİQQƏTSİZLİYİN NƏTİCƏSİ*

Həzrəti Əli (əleyhissalam)-ın bəyanlarından aydın olur ki, əgər əkinçilərə ağır maliyyatlar qoyulsa, başqa tərəfdən onların torpaqlarının qorunması və inkişaf etdirilməsi sahəsində dövlət tərəfindən bir iş görülməsə, onlar hiss edəcəklər ki, özləri üçün işləmirlər, ağır zəhmətlərinin müqabilində əllərinə qaneedici qazanc gəlmir və işlərinin nəticəsi başqalarına qismət olur. Nəhayət, bu hissiyatlar əkinçiləri və kəndliləri yalan, hiyləgərlik, qaçaq alver, oğurluq və sair kim azğınlıqlara tərəf çəkəcək. Günlərini zülm, cinayətlə keçirəcək və ya yolkəsənlər

libası geyib insaniyyətin ən aşağı səviyyəsinə düşəcəklər. Bu vəziyyətin başqa mənfi tə`siri də bu olacaq ki, kəndlərdəki cavan işgüzar və fəal qüvvələr yaxşı yaşamaq üçün şəhərə doğru axışacaqlar. Şəhərdə xırda-xuruş alverlə məşğul olacaqlar. Bu təbii vəziyyətin nəticəsində, kəndin pak cavanları günaha düşəcək və cəmiyyəti fəsada tərəf çəkəcəklər. Nəhayət, dövlət və hökumət zillətdə qalacaq.

### *DÖVLƏTİN ARADAN GETMƏSİ VƏ DAĞILMA SƏBƏBLƏRİ*

Həzrəti Əli (əleyhissalam)-ın nəzərində hökumət üç səbəbə görə süqut edir:

1-***Dövlətlilərin mal-dövlət yığmaq ruhiyyəsi.***

2-***Dövlətin qalmasına və davam etməsinə sui-zənn (şübhə) etmək.***

3-***Cəmiyyətdə baş verən hadisələrdən ibrət götürməmək***.

Əgər dövlət adamları hökumətin möhkəmliyinə, davam etməsinə əmin olmasalar və hökumətin vəziyyətini böhranlı və süqutetmə ərəfəsində görsələr, eyni halda bu fürsətdən istifadə edib mal toplamaq arxasına düşsələr, habelə ölkədə baş verən hadisələrdən ibrət götürməsələr, dövlətin süquta yetməsinə şərait yaranmağa başlayır. Bu cür dövlət, davamiyyətli olmaq və hökumətlik etmək qabiliyyətinə layiq deyil və istər-istəməz aradan gedib dağılacaq.

وَ إِنَّمَا يُؤْتَى خَرَابُ الْأَرْضِ مِنْ إِعْوَازِ أَهْلِهَا وَ إِنَّمَا يُعْوِزُ أَهْلُهَا لِإِشْرَافِ أَنْفُسِ الْوُلَاةِ عَلَى الْجَمْعِ وَ سُوءِ ظَنِّهِمْ بِالْبَقَاءِ وَ قِلَّةِ انْتِفَاعِهِمْ بِالْعِبَرِ

***Torpağın xarablığı o kəslərin imkansızlığından irəli gəlir ki, onun üstündə iş görürlər. Torpaq əhlinin vəziyyəti o zaman pis olacaq ki, dövlət adamları mal toplamaq ruhiyyəsində olsun və hadisələrdən ibrət götürməsinlər!***

### *SEÇKİ ÜÇÜN ƏN YAXŞI ME`YAR*

İslam dininin ən ali məqsədlərindən biri cəmiyyətdə ədalətin və sinfi bərabərliyin vücuda gəlməsidir. Hər hansı bir hakim özünə müavin seçməkdə ədalətə riayət etmək istəyərsə, cəmiyyətin içindən insani xüsusiyyətlərə yiyələnib, yüksək əxlaqa malik olan və işləri İlahi yönümlü olan fərdi özünə müavin seçməlidir. Aydındır ki, hər kəs ***"Allahın əxlaqından əxlaq götürün"*** şüarını özünün proqramı qərar versə, aşağıdakı sifətlərə malik olacaq:

***1. Alim və savadlı;***

***2. Əmanətdar;***

***3. Bacarıqlı;***

***4. İşgüzar;***

***5. İşi hesab üzrə olan;***

***6. Diqqətli və mütəfəkkir;***

***7. Ədəbli və tam qabiliyyətli;***

***8. Xeyirxahları sevən, pislər və zalımlardan uzaq olan;***

***9. Təvazökar;***

Bir sözlə, bütün insani kamal və fəzilətlərə malik olmuş olsun. Onların bə`zilərini imam Əli (əleyhissalam)-ın kəlamında tapmaq olar:

ثُمَّ انْظُرْ فِي حَالِ كُتَّابِكَ فَوَلِّ عَلَى أُمُورِكَ خَيْرَهُمْ وَ اخْصُصْ رَسَائِلَكَ الَّتِي تُدْخِلُ فِيهَا مَكَايِدَكَ وَ أَسْرَارَكَ بِأَجْمَعِهِمْ لِوُجُوهِ صَالِحِ الْأَخْلَاقِ مِمَّنْ لَا تُبْطِرُهُ الْكَرَامَةُ فَيَجْتَرِئَ بِهَا عَلَيْكَ فِي خِلَافٍ لَكَ بِحَضْرَةِ مَلَإٍ وَ لَا تَقْصُرُ بِهِ الْغَفْلَةُ عَنْ إِيرَادِ مُكَاتَبَاتِ عُمَّالِكَ عَلَيْكَ وَ إِصْدَارِ جَوَابَاتِهَا عَلَى الصَّوَابِ عَنْكَ فِيمَا يَأْخُذُ لَكَ وَ يُعْطِي مِنْكَ وَ لَا يُضْعِفُ عَقْداً اعْتَقَدَهُ لَكَ وَ لَا يَعْجِزُ عَنْ إِطْلَاقِ مَا عُقِدَ عَلَيْكَ وَ لَا يَجْهَلُ مَبْلَغَ قَدْرِ نَفْسِهِ فِي الْأُمُورِ فَإِنَّ الْجَاهِلَ بِقَدْرِ نَفْسِهِ يَكُونُ بِقَدْرِ غَيْرِهِ أَجْهَلَ

***Sonra müavinlərinin vəziyyətinə diqqət et! Öz işini onların ən layiqlisinə tapşır. Siyasi və şəxsi sirlərinə aid olan gizli məktublarını onların əxlaq cəhətdən ən yaxşısına tapşır. O elə bir şəxs olsun ki, sonralar vəzifə onu təkəbbürlü etməsin, camaat arasında heç vaxt səninlə müxalifət etməsin, qoşun başçılarına fərman verdikdə və onlara cavab yazdıqda sənin məsləhətini əsas tutmaqdan qəflət etməsin, xəbərlərin nə cür tənzim olunmasını bilsin (süstlük etməsin). Əgər sənin zərərinə peyman bağlanmış olsa, onun həllində aciz olmasın. Habelə özünün qədrini və mövqeyini yaxşı tanısın. Çünki hər kəs öz qədrini bilməsə, başqalarının qədrinə agah olmaz, naçar qalıb onlarla üzləşməkdən qaçar!***

### *YALNIZ YAXŞI XİDMƏT VƏ ŞƏXSİ TANIŞLIĞI ME`YAR QƏRAR VERMƏYƏK*

Qeyd etdik ki, Həzrəti Əli (əleyhissalam)-ın sözlərinə əsasən, müavinlərin seçilməsində ***"Allah adamı"*** olmağı ən yaxşı me`yar qərar vermək lazımdır. Həzrət müavinlərin seçilməsində (hər cür seçki olursa-olsun) əsas me`yarı bəyan etdikdən sonra başqa bir məsələni diqqətə çatdırır. İmam özünün xüsusi dahiliyi və dərin nəzəri ilə insanın mürəkkəb vücudundan qaynaqlanan sirləri faş edir. Hamıya mə`lumdur ki, hər

kəs mühüm dövlət işlərində çalışsa özünə çoxlu dost tapacaq, bu cür dostlar zahirdə yaxşı əxlaqdan bəhrələnmiş olacaqlar. Bəli, onlar bə`zən zahidlərin donuna girib abidləri tə`rifləyir, bə`zən şücaətdən və qəhrəmanlıqdan dəm vuraraq İsfəndiyarın və Rüstəmin şücaətini məsxərəyə qoyur, başqa vaxtlarda bir neçə saatlığa özlərini "əsrin mütəfəkkiri" hesab edirlər. Halbuki, bu cür əməllər fürsəttələblərin məkrli planlarından başqa bir şey deyildir. Onlar çalışırlar ki, bu yolla yüksək dövlət məqamında oturanları özlərinə cəlb edərək əsas işləri öz əllərinə alsınlar. Buna görə Həzrəti Əli (əleyhissalam) Malikə tövsiyə edir ki, şəxsi tanışlığını seçkilərdə əsas tutma, əvvəldə saydığımız me`yarlardan əlavə, aşağıdakı xüsusiyyətləri də yadında saxla:

ثُمَّ لَا يَكُنِ اخْتِيَارُكَ إِيَّاهُمْ عَلَى فِرَاسَتِكَ وَ اسْتِنَامَتِكَ وَ حُسْنِ الظَّنِّ مِنْكَ فَإِنَّ الرِّجَالَ يَتعَرَّضُونَ لِفِرَاسَاتِ الْوُلَاةِ بِتَصَنُّعِهِمْ وَ حُسْنِ خِدْمَتِهِمْ وَ لَيْسَ وَرَاءَ ذَلِكَ مِنَ النَّصِيحَةِ وَ الْأَمَانَةِ شَيْءٌ وَ لَكِنِ اخْتَبِرْهُمْ بِمَا وُلُّوا لِلصَّالِحِينَ قَبْلَكَ فَاعْمِدْ لِأَحْسَنِهِمْ كَانَ فِي الْعَامَّةِ أَثَراً وَ أَعْرَفِهِمْ بِالْأَمَانَةِ وَجْهاً فَإِنَّ ذَلِكَ دَلِيلٌ عَلَى نَصِيحَتِكَ لِلَّهِ وَ لِمَنْ وُلِّيتَ أَمْرَهُ

***Daha lazım deyildir ki, müavinlərinin seçilməsində özünün onlara inanmağını və xoşüzlülüyü əsas tutasan. Çünki, bə`zi qarətçilər özlərini xoş xidmətli göstərməklə çalışırlar ki, hakimin nəzərində tədbirli, üstün və işbilən nəzərə gəlsinlər. Halbuki, bu üzlərin arxasında düzgünlük, əmanətdarlıq və ürək yandırmadan xəbər yoxdur. Onları, xeyirxahlarla nə cür həmkarlıq etmələri ilə, səndən əvvəl əhali arasında nə qədər doğruçu və təmiz qəlbli olmaları ilə yoxla! Əhali arasında hansının çox nüfuzu olduğunu bil! Çünki, bu işi görməyin Allahın fərmanına və öz İmamına tərəfdarlıq etməyin bir dəlilidir.***

### *İŞLƏRİN BÖLÜNMƏSİ VƏ MƏS`ULİYYƏTLİ ŞƏXSLƏRİN TƏ`YİN OLUNMASI*

Keçən fəsillərdə qeyd olundu ki, işlərin bölünməsi və qüvvələrin tə`yin olunması İslam hakiminin əsas vəzifələrindən biridir. Həzrəti Əli (əleyhissalam) bu bölmədə işlərin bölünməsi ilə yanaşı, Malikə hər bir iş üçün xüsusi məs`ul ayırmağı tövsiyə edir və buyurur: İş başında olan məs`ulun elə qüdrəti olmalıdır ki, işin böyüklüyü və əzəməti onu qorxutmasın və işin mürəkkəbliyi onu çaşqınlığa və heyrətə salmasın. Çünki, bütün bu eyiblərin hamısı axırda hakimin boynuna qoyulacaq.

وَ اجْعَلْ لِرَأْسِ كُلِّ أَمْرٍ مِنْ أُمُورِكَ رَأْساً مِنْهُمْ لَا يَقْهَرُهُ كَبِيرُهَا وَ لَا يَتَشَتَّتُ عَلَيْهِ كَثِيرُهَا وَ مَهْمَا كَانَ فِي كُتَّابِكَ مِنْ عَيْبٍ فَتَغَابَيْتَ عَنْهُ أُلْزِمْتَهُ

***Hər bir iş üçün məs`uliyyətli şəxsləri tə`yin et! Elə bir məs`ul olsun ki, işin əhəmiyyəti onu qorxutmasın, işin çoxluğu və müxtəlif olmağı onu çaşqınlığa və heyrətə salmasın. Əgər müavinlərində eyb olsa və sənin ondan xəbərin olmasa, əhali onların eyblərini sənin hesabına yazcaq!***

## *TACİRLƏR, FƏHLƏLƏR VƏ SƏNƏTKARLAR*

Ticarət ictimai həyatın yaxşılaşıb insanların ehtiyaclarının ödənilməsinə, əhalinin ümumi vəziyyətinin yaxşılaşmasına səbəb olur. Əgər ticarətdə Allahın qoyduğu qanunlardan istifadə olunarsa, bu iş İslam tərəfindən bəyənilir və onun inkişafına təşviq olunur. Amma əgər ticarət və sənətkarlıq yaşayışın hədəfinə çevrilərsə, özünü başqalarına göstərmək üçün pul mənbəyi hesab olunarsa, bu cür ticarət İslam tərəfindən kəskin şəkildə pislənir. İslam nəzərinə görə bu cür ticarət və sənətkarlıq, insanın bədbəxtçiliyinə gətirib çıxaracaq. İmamın bu hissədə söylənilən bəyanında o sənətkarlar və tacirlərdən söhbət açılır ki, onlar sənət və ticarəti yaşayışlarında hədəf və məqsəd verməmiş, əksinə, onlar bu cür çalışmağı öz yaşayış ehtiyaclarını tə`min etmək üçün vəsilə və cəmiyyətdə insani hərəkətlərinə ucalıq vermək kimi istifadə edirlər. İslam mədəniyyətində ticarət məhz belə tə`rif olunur. Hətta bu cür tacirlərə qiyamətdə ***“siddiqlər”*** və ***“şəhidlər”***in yanında məqam veriləcək. İslam Peyğəmbəri (səlləllahu ələyhi və alih) bu barədə buyurur:

***“Əgər bərəkəti on qismətə bölsək, onun doqquz qisməti ticarətdə olar.”*[1]**

***“Qiyamət günündə doğruçu tacirlər “siddiqin” və “şühəda” ilə birlikdə olarlar.”*[2]**

İmam Sadiq (əleyhissalam) buyurur:

***“Ticarət insanın əqlini artırır. Ticarəti tərk etmək ağlı azaldır. ”*[3]**

***“Ticarətlə məşğul olun! Çünki onun vasitəsi ilə başqalarından ehtiyacsız olarsınız. ”*[4]**

Buna görə Həzrət Əli (əleyhissalam) Malik Əştərə xitab edərək buyurur:

**ثُمَّ اسْتَوْصِ بِالتُّجَّارِ وَ ذَوِي الصِّنَاعَاتِ وَ أَوْصِ بِهِمْ خَيْراً الْمُقِيمِ مِنْهُمْ وَ الْمُضْطَرِبِ بِمَالِهِ وَ الْمُتَرَفِّقِ بِبَدَنِهِ فَإِنَّهُمْ مَوَادُّ الْمَنَافِعِ وَ أَسْبَابُ الْمَرَافِقِ وَ جُلَّابُهَا مِنَ الْمَبَاعِدِ وَ الْمَطَارِحِ فِي بَرِّكَ وَ بَحْرِكَ وَ سَهْلِكَ وَ جَبَلِكَ وَ حَيْثُ لَا يَلْتَئِمُ النَّاسُ لِمَوَاضِعِهَا وَ لَا يَجْتَرِءُونَ عَلَيْهَا فَإِنَّهُمْ سِلْمٌ لَا تُخَافُ بَائِقَتُهُ وَ صُلْحٌ لَا تُخْشَى غَائِلَتُهُ وَ تَفَقَّدْ أُمُورَهُمْ بِحَضْرَتِكَ وَ فِي حَوَاشِي بِلَادِكَ**

***Bundan başqa, tacirlər və sənətkarlar haqqında mənim tövsiyəmi qəbul et! Sən də onların haqqında xeyirxahlıqla tövsiyə et! İstər şəhərlərdə oturanlar, istərsə də malları ilə birlikdə gəzənlər və ya öz bədən qüvvəsindən istifadə edənlər olsun (hünər və incəsənət sahibləri). Çünki, bunlar yaşayışın xoş keçməsinin əsası və faydalarının başlanğıcı hesab olunur. Onlar əhalinin ehtiyac duyduğu şeyləri uzaq şəhərlərdən, dəniz və səhra yollarından, hamar və dağlıq yollarla, başqalarının cür`ət edib getmədiyi yerlərdən gətirirlər. Deməli, onlar barışığın və məhəbbətin mayasıdırlar.***

---

[1] Biharul-ənvar, 23-cü cild, səh. 5

[2] İhyaul-ulum, 2-ci cild, səh. 45

[3] Furui-Kafi, 1-ci cild, səh. 37

[4] Furui-Kafi, 1-ci cild, səh. 37

***Qorxu, xətər və zərər onların haqqında yoxdur. Onların əhvalını soruş və işlərinə yetiş, istər sənin yanında olanların, istərsə də başqa şəhərlərdə yaşayanların!***

### *TİCARƏT MƏHDUDİYYƏTLƏRİ*

İslam, tacirləri azad hesab edib onları həvəsləndirdiyi kimi, pul qazanmaq üçün də müəyyən məhdudiyyətlər qoymuşdur. Tacirlər üçün xüsusi əhkam və ədəb qanunları vardır və ***"Əl-fiqhu summəl-mətcər"*** (***əvvəl fiqhi öyrən, sonra ticarət et!***) şüarı əsas tutulur. İslam qanunu budur ki, hər kəs ticarətlə məşğul olmaq istəsə əvvəlcə ticarətin qayda – qanunlarını öyrənməlidir ki, onların işləri cəmiyyətdə fəsada səbəb olmasın və özlərini harama salmasınlar. Buna görə də böyük şiə alimləri (Allah onlardan razı olsun) fiqh kitablarında ***"mətacir"*** başlığı altında xüsusi bir bölmə olaraq mə`sum İmamlarımızın (əleyhimussalam) sözlərinə istinadən alverlə məşğul olan şəxslər (tacirlər) barəsində aşağıdakı tövsiyələri ələ gətiriblər:

***1-Alver vaxtında satıcı alıcılarla kobud rəftar etməsin və onu çətinlikdə saxlamasın.***

***2-Malın qiymətində müştərilər arasında fərq qoymasın.***

***3-Hər cür and içməkdən, hətta doğru olduğu halda belə çəkinsin.***

***4-Malda eyb və nöqsan olduqda müştəriyə xəbər versin.***

***5-Müştəri peşman olanda imkan daxilində malı geri almaqdan imtina etməsin.***

***6-Satıcı malını həddən artıq tə`rifləməkdən çəkinsin.***

***7-Çəkidə aldatmasın.***

***8-Möhtəkirlik etməsin.***

***9-Zorakılıq olmasın.***

Bu əsasa görə Həzrəti Əli (əleyhissalam) Malik Əştərə xitabən buyurur:

وَ اعْلَمْ مَعَ ذَلِكَ أَنَّ فِي كَثِيرٍ مِنْهُمْ ضِيقاً فَاحِشاً وَ شُحّاً قَبِيحاً وَ احْتِكَاراً لِلْمَنَافِعِ وَ تَحَكُّماً فِي الْبِيَاعَاتِ وَ ذَلِكَ بَابُ مَضَرَّةٍ لِلْعَامَّةِ وَ عَيْبٌ عَلَى الْوُلَاةِ فَامْنَعْ مِنَ الِاحْتِكَارِ فَإِنَّ رَسُولَ اللَّهِ ص مَنَعَ مِنْهُ وَ لْيَكُنِ الْبَيْعُ بَيْعاً سَمْحاً بِمَوَازِينِ عَدْلٍ وَ أَسْعَارٍ لَا تُجْحِفُ بِالْفَرِيقَيْنِ مِنَ الْبَائِعِ وَ الْمُبْتَاعِ فَمَنْ قَارَفَ حُكْرَةً بَعْدَ نَهْيِكَ إِيَّاهُ فَنَكِّلْ بِهِ وَ عَاقِبْهُ فِي غَيْرِ إِسْرَافٍ

***Bütün bunlarla bərabər bil ki, onlardan çoxusu alış-verişdə hədsiz çətinlik törədir, hərislik göstərirlər, çoxlu xeyir qazanmaq üçün ən çox möhtəkirliyə əl atırlar. Alverlərində zorakılıq edirlər (və mallarını hansı qiymətə istəsələr satırlar). Bu işlər əhali üçün böyük zərər qapısı, hakimlərə vurulan böyük ləkədir. Belə isə, möhtəkirliyin qarşısını al! Çünki, Rəsulullah (səlləllahu ələyhi və alih) onun qarşısını almışdır. Alver sadəliklə və ədalət tərəzisi ilə baş verməlidir. Qiymətlər heç bir tərəfə (satıcı və alıcı) ağır gəlməsin. Nəhy olunmuş möhtəkirlər yenidən möhtəkirlik edərsə onları cəzalandır və onların cəzalanmasında həddini aşma!***

Bu bəyandan aydın olur ki, İslami ticarətdə həm möhtəkirlik, həm də zorakılıq haramdır. Hamımız bilirik ki, tacirlər bu günlərdə əhalini iki yolla sıxıntıda qoyurlar:

***Birinci***, çalışırlar ki, onların ehtiyacı olan malları anbarda saxlasınlar, əhalinin əlinə vaxtında çatmasın, sonradan malların qiyməti artdıqda və qıtlıq yarandıqdan sonra qara bazarda baha qiymətə satmağa başlasınlar. Bu əmələ ***“möhtəkirlik”*** deyirlər. İslam bu

əməli haram bilir və möhtəkirlər üçün cəza növü tə`yin etmişdir.

***İkincisi,*** dövlətlilər bir yerə yığışaraq, dava-dalaşla, hər hansı bir malı tam şəkildə yalnız öz ixtiyarlarına almaq istəyirlər. Belə ki, malı almaq əhali üçün azad olmasın, birisi mal almaq istəyəndə onların vasitəsi ilə alsın. Bu əməl ***"inhisarçılıq"*** adlanır və İslamda ona yer yoxdur. Həzrəti Əli (əleyhissalam) bu əməlin pisliyini və çirkinliyini iki cümlədə bəyan edir:

***"Çoxlu gəlir əldə etmək üçün möhtəkirliyə əl atıb, alverlərində zorakılıq edirlər. Bu əsasa görə Malikə fərman verir ki, mallar üçün müəyyən qiymət qoysun və tacirləri mütləq azadlıqda qərar verməsin. Bu yolla möhtəkirliyin və inhisarçılığın qarşısını alsın. "***

## *İSLAM CƏMİYYƏTİNDƏ ZƏİFLƏRİN VƏ FƏHLƏLƏRİN MƏQAMI*

Söz yox ki, hər bir cəmiyyətdə müxtəlif səbəblərə görə iş qabliyyətinə malik olmayanlar tapılır. Yaxud bə`ziləri elə bir işlə məşğuldurlar ki, bu iş onların güzəranlarını tə`min etmir. Buna görə də fəqir və yoxsuldurlar. Əgər belə şəxslərə köməklik olunmasa, onların cavanları əxlaqsızlığa, fəsada qurşanacaq, gücsüzləri acından öləcəklər. Cəmiyyətdə (xüsusən, İslam cəmiyyətində) bu vəziyyət ən qorxulu və rüsvayedici vəziyyət hesab olunur. Ehtiyaclıların fəqirliyinə və müsibətlərinə çarə tapılmalıdır. Onların cavanlarını münasib işlə tə`min etmək, vəziyyətlərini abırlı hala salmaq lazımdır. Texniki tərəqqidə olan dünya bu gün iddia edir ki, bu işin öhdəsindən gəlmiş, qanunlar qəbul etməklə işçilərin həqiqi hüquqlarını

tə`min etmiş, fəqirlərə ölümcül vəziyyətdən nicat vermişlər. Bizim nəzərimizcə, bu günkü zəmanədə fəhlələrin və yoxsulların vəziyyətində (gündəlik sıxıntıların nəticəsində) az da olsa, bə`zi irəliləyişə nail olublar. Amma əsl iddia şüar həddindən kənara çıxmayıb. Çünki, hazırda fəhlələr və fəqirlər sənayenin inkişaf etdiyi ölkələrdə (məs; Amerika, keçmiş sovetlər ölkəsi, İngiltərə, Almaniya, Fransa... ) can verən vəziyyətdə hələ də istismar olunur, sırf fəqirlik və fəlakətlə mübarizə aparmaq həddindədirlər. Bu vəziyyətdən nicat tapmaq üçün kömək istəyirlər. Amma həzrəti Əli (əleyhissalam) fəhlələrin qanununu və fəqirlərə qayğı göstərmək yolunu bütün təfsilatı ilə min üç yüz il bundan qabaq tə`yin etmşdi. O zaman bu qanun şüar mərhələsindən əməl mərhələsinə keçmişdi. Malikin vəzifəsi o Həzrətin əmrini sözsüz icra etmək idi.

ثُمَّ اللَّهَ اللَّهَ فِي الطَّبَقَةِ السُّفْلَى مِنَ الَّذِينَ لَا حِيلَةَ لَهُمْ مِنَ الْمَسَاكِينِ وَ الْمُحْتَاجِينَ وَ أَهْلِ الْبُؤْسَى وَ الزَّمْنَى فَإِنَّ فِي هَذِهِ الطَّبَقَةِ قَانِعاً وَ مُعْتَرّاً وَ احْفَظِ لِلَّهِ مَا اسْتَحْفَظَكَ مِنْ حَقِّهِ فِيهِمْ وَ اجْعَلْ لَهُمْ قِسْماً مِنْ بَيْتِ مَالِكِ وَ قِسْماً مِنْ غَلَّاتِ صَوَافِي الْإِسْلَامِ فِي كُلِّ بَلَدٍ فَإِنَّ لِلْأَقْصَى مِنْهُمْ مِثْلَ الَّذِي لِلْأَدْنَى وَ كُلٌّ قَدِ اسْتُرْعِيتَ حَقَّهُ وَ لَا يَشْغَلَنَّكَ عَنْهُمْ بَطَرٌ فَإِنَّكَ لَا تُعْذَرُ بِتَضْيِيعِكَ التَّافِهَ لِإِحْكَامِكَ الْكَثِيرَ الْمُهِمَّ فَلَا تُشْخِصْ هَمَّكَ عَنْهُمْ وَ لَا تُصَعِّرْ خَدَّكَ لَهُمْ وَ تَفَقَّدْ أُمُورَ مَنْ لَا يَصِلُ إِلَيْكَ مِنْهُمْ مِمَّنْ تَقْتَحِمُهُ الْعُيُونُ وَ تَحْقِرُهُ الرِّجَالُ فَفَرِّغْ لِأُولَئِكَ ثِقَتَكَ مِنْ أَهْلِ الْخَشْيَةِ وَ التَّوَاضُعِ فَلْيَرْفَعْ إِلَيْكَ أُمُورَهُمْ ثُمَّ اعْمَلْ فِيهِمْ بِالْإِعْذَارِ إِلَى اللَّهِ يَوْمَ تَلْقَاهُ فَإِنَّ هَؤُلَاءِ مِنْ بَيْنِ الرَّعِيَّةِ أَحْوَجُ إِلَى الْإِنْصَافِ مِنْ غَيْرِهِمْ وَ كُلٌّ فَأَعْذِرْ إِلَى اللَّهِ فِي تَأْدِيَةِ حَقِّهِ إِلَيْهِ وَ تَعَهَّدْ أَهْلَ الْيُتْمِ وَ ذَوِي الرِّقَّةِ فِي السِّنِّ مِمَّنْ لَا حِيلَةَ لَهُ وَ لَا يَنْصِبُ لِلْمَسْأَلَةِ نَفْسَهُ وَ ذَلِكَ عَلَى الْوُلَاةِ ثَقِيلٌ وَ الْحَقُّ كُلُّهُ ثَقِيلٌ وَ قَدْ يُخَفِّفُهُ اللَّهُ عَلَى أَقْوَامٍ طَلَبُوا الْعَاقِبَةَ فَصَبَّرُوا أَنْفُسَهُمْ وَ وَثِقُوا بِصِدْقِ مَوْعُودِ اللَّهِ لَهُمْ

***Rəiyyətin aşağı təbəqələri haqqında, xüsusən biçarələr, yoxsullar, fəqirlər, ehtiyaclılar, xəstələr və***

*əlillər-onların arasında pak və abırlı şəxslər vardır-həmişə Allahı nəzərdə tut! Allahın Öz haqqından sənin ixtiyarına verdiyi şeylərdən onların ixtiyarına qoy! Müsəlmanların beytül-malından, qənimət kimi ələ gələn İslam torpaqlarından, hansı şəhərdə olsalar onlar üçün pay nəzərdə tut! Çünki, ən uzaqda olan müsəlmanların ən yaxında olan müsəlmanlar kimi haqqı vardır. Hər bir müsəlman, harada olursa, haqqı vardır. Sən onların haqqına riayət olunmasında cavabdehsən. Elə olmasın ki, yaxşı güzəranın səni, onların vəziyyətinə yetişməkdən qafil etsin. Çünki, ən mühüm işlərə məşğul olmağın, sənə icazə vermir ki, xırda işlərdən qafil olasan. Elə isə onların işlərini fikrindən çıxartma və onlardan üz döndərmə! O kəslərin işlərinə yetiş ki, sənin yanına gəlməyə imkanları yoxdur və əhali onlara fəqir sifəti ilə tamaşa edir, onları xar olunmuş sayırlar. Bu qrup ehtiyaclılara kömək etmək üçün təvazökar və əxlaqlı şəxsiyyətlərdən (bir neçəsini) ayır ki, onların işlərini (dəqiqliklə) araşdırıb sənin yanına gətirsinlər. Sonra onlar (fəqirlər) haqqında elə rəftar et ki, qiyamət günü üzürlü hesab olunasan. Ona görə ki, əhalinin bu dəstəsi başqalarından çox ədalət və insafa ehtiyaclıdır. Cəmiyyətin bütün üzvlərinin haqqının ödənilməsində qiyamət günü üzürlü olmağın lazımdır. Yetimlərə nəvaziş et, qocalıb əldən düşmüşləri (özlərini dilənçi yerində qərar verməyənləri) yaddan çıxarma! Bu vəzifə hakimlər üçün ağırdır. Amma Allah-taala bu işi axirəti istəyən bəndələrə və bu yolda səbirli olanlara, Allahın və`dələrinə e`timad edənlərə bu işi yüngülləşdirəcəkdir.*

Qeyd etdik ki, bu günkü dünyada fəhlələr müxtəlif çətinliklərə və narahatçılıqlara dözməklə müəyyən

imtiyazlar (məs; iş saatının azalması, əmək haqqının artması, işdən çıxarkən haqq alınması, əhaliyə kömək üçün bank şö`bələrinin açılması) ələ gətiriblər. Yaxşı olar ki, bunları da bilək:

***Birinci:*** Bu nəticələr fəhlələrin illər boyu zəhməti və mübarizəsindən sonra ələ gəlmişdir. Qanun qəbul edən məclislər özbaşlarına onların vəziyyətlərini nəzərə almayıblar, bir an da olsa, onların vəziyyətlərinin yaxşılaşmasına çalışmayıblar. Üstəlik, fəqir işçilərin istək və tələbləri qarşısında müqavimət göstəriblər.

***İkinci,*** bu qanunlar hamıya aid deyil və bə`zi zəruri yerlərdə icra olunmur.

***Üçüncü,*** Bu qanunda qocalar, yetimlər, başsızlar və iş görə bilməyən uşaqlara yer yoxdur, onlar üçün fikirləşməmişlər.

Həzrəti Əli (əleyhissalam)-ın əhdnaməsində isə ***əvvəla,*** qanunun təşkil olunması işçilərin tələbi olmadan qanunverici tərəfindən hazırlanmışdır. ***İkincisi,*** bütün ehtiyaclı şəxslər qanunda nəzərdə tutulmuşdur. ***Üçüncüsü,*** dövlət qanunun icra olunmasında özünü məs`uliyyətli hesab edir və ehtiyaclı şəxsləri axtarıb tapmaq üçün bir dəstə mə`mur tə`yin edir.

## *ƏHALİ TƏRƏFİNDƏN QƏBUL EDİLƏN HAKİMİN XÜSUSİYYƏTLƏRİ*

Əhalinin qəbul etdiyi hakimin xüsusiyyətlərindən biri də budur ki, özünü onlarla, onları da özü ilə bir bilsin. Bu əsasa görə İslam hakimi əhali ilə özü arasında pərdə çəkməyə və mane yaratmağa razı deyil. O çalışır ki, əhaliylə bir yerdə olsun və birlikdə yaşasın. Bu iş, əhalinin hakimə qarşı məhəbbətini artırmaqdan

əlavə (nəticədə, əhali hakimin arxasında dayanacaq), bə`zi müftəxor və fürsəttələb şəxslərin (həmişə fəsad və xəyanət arzusunda olanların) əhalinin zehnini hakimə qarşı mənfi cəhətə çəkə bilməməsinə səbəb olacaq. Bununla da əhalini hakimlə üzbəüz saxlaya bilməyəcəklər. Buna görə də Həzrəti Əli (əleyhissalam) Malikə tə`kidlə tapşırır ki, həmişə əhali ilə birbaşa rabitə qursun və elə şərait yaratsın ki, əhalinin bütün təbəqələri əziyyətsiz, bər-bəzəksiz, qorxusuz və vəhşətsiz mühitdə tam rahatlıqla öz çətinliklərini onunla müzakirə edə bilsinlər. Əgər onlara zülm olunsa, zalımı rüsvay etsin, xəyanətkarı ifşa etsin və hər bir xəyanətkarı öz cəzasına çatırsın.

وَ اجْعَلْ لِذَوِي الْحَاجَاتِ مِنْكَ قِسْماً تُفَرِّغُ لَهُمْ فِيهِ شَخْصَكَ وَ تَجْلِسُ لَهُمْ مَجْلِساً عَامّاً فَتَتَوَاضَعُ فِيهِ لِلَّهِ الَّذِي خَلَقَكَ وَ تُقْعِدُ عَنْهُمْ جُنْدَكَ وَ أَعْوَانَكَ مِنْ أَحْرَاسِكَ وَ شُرَطِكَ حَتَّى يُكَلِّمَكَ مُتَكَلِّمُهُمْ غَيْرَ مُتَتَعْتِعٍ فَإِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ص يَقُولُ فِي غَيْرِ مَوْطِنٍ لَنْ تُقَدَّسَ أُمَّةٌ لَا يُؤْخَذُ لِلضَّعِيفِ فِيهَا حَقُّهُ مِنَ الْقَوِيِّ غَيْرَ مُتَتَعْتِعٍ ثُمَّ احْتَمِلِ الْخُرْقَ مِنْهُمْ وَ الْعِيَّ وَ نَحِّ عَنْهُمُ الضِّيقَ وَ الْأَنَفَ يَبْسُطِ اللَّهُ عَلَيْكَ بِذَلِكَ أَكْنَافَ رَحْمَتِهِ وَ يُوجِبْ لَكَ ثَوَابَ طَاعَتِهِ وَ أَعْطِ مَا أَعْطَيْتَ هَنِيئاً وَ امْنَعْ فِي إِجْمَالٍ وَ إِعْذَارٍ

***Gündəlik proqramlarının bir hissəsində ehtiyaclılara vaxt ayır! Onlarla şəxsən özün görüş! Ümumi məclislərdə onlarla birlikdə iştirak et! Səni yaradan Allaha (Onun razılığına) görə onlarla mülayim rəftar et! Bu məclisdə qoşunlarına və köməkçilərinə əmr et ki, kənara çəkilsinlər və əhaliyə mane olmasınlar, səninlə söhbət etmək istəyənin dili topuq vurmasın. Mən İslam Peyğəmbərindən (səlləllahu ələyhi və alih) dəfələrlə eşitmişəm ki, buyururdu: “O ümmət ki, onların arasında zəifin haqqı güclüdən asanlıqla, qorxusuz və müşkülsüz alınmasa, heç vaxt pak olmaz və günahdan təmizlənməzlər. ” Sonra çalış, onların kobud rəftarlarına agahlıqla döz! Hövsələsizliyi və təkəbbürü özündən uzaq et! Bu cür olsan, Allah rəhmət qapılarını sənin üzünə açar, itaətinin savablarını artıq hesab edər. Bağışladığını açıq üzlə bağışla, əgər hər hansı səbəbə görə bir şeyi qadağan etmək istəsən, mehribançılıq və üzr istəməklə qadağan et!”***

Görün, əgər hökumətdə yalnız bu ədalət prinsipindən istifadə olunsa və ədalət əməli şəkildə həyata keçsə, xainlərin, fürsət güdənlərin xəyanətə əl atıb əhalini və hökuməti xeyirxahlıq yolundan azdırmağa və fəsada doğru çəkməyə qüdrəti çatarmı? Dövlət mə`murlarının məsələdən xəbəri olmadan

qanun verməsi və əhalinin vəziyyətindən xəbərdar olmaması nəticəsində əhali hökumətdən kənarda qalır. Əgər ədalət icra olunsa xalq hökumətdən uzaq düşərmi?

## *MƏS`ULİYYƏTLİ ŞƏXSLƏRİN ÖZ İŞLƏRİNDƏ MÜVƏFFƏQİYYƏTLƏRİNİN SİRRİ*

Keçən fəsillərdə işlərin bölünməsi və qüvvələrin yerbəyer olunması haqqında söhbət açdıq. İndi onu da əlavə edirik ki, məs`uliyyətli şəxslərin öz işlərində müvəffəq olmalarına iki əsas səbəb vardır:

***Birinci:*** Aydındır ki, məs`uliyyətli şəxslər bütün vaxtlarda vəzifələrini özləri yerinə yetirə bilməzlər. Ona görə də işlərinin bə`zi hissələrini öz müavinlərinə tapşırmağa məcbur olurlar. Əlbəttə, bə`zi işləri məs`ul özü şəxsən icra etməlidir. Hər bir məs`ul şəxs, həm öz işlərini yerinə yetirmək, həm də müavinlərə tapşırılan işlərə nəzarət etmək üçün mühüm işlərini xırda və qeyri-zəruri işlərindən ayırmalı, müavinlərin görə biləcəyi işləri müəyyən etməlidir. Mühüm işləri diqqətlə, sür`ətlə və layiqli şəkildə icra etməli, qeyri-zəruri işlərin dəqiq icrasını müavinlərindən tələb etməlidir.

***İkincisi:*** Məs`ulların vəzifələrini müəyyən edib hər bir işin mühümlərini ayırd etdikdən sonra hər bir iş üçün münasib vaxt ayırmaq lazımdır. Hər günün işi elə həmin gün görülməlidir, bu günün işi sabaha, sabahın işi o biri günə saxlanılmamalıdır.

ثُمَّ أُمُورٌ مِنْ أُمُورِكَ لَا بُدَّ لَكَ مِنْ مُبَاشَرَتِهَا مِنْهَا إِجَابَةُ عُمَّالِكَ بِمَا يَعْيَا عَنْهُ كُتَّابُكَ وَ مِنْهَا إِصْدَارُ حَاجَاتِ النَّاسِ يَوْمَ وُرُودِهَا عَلَيْكَ بِمَا تَحْرَجُ بِهِ صُدُورُ أَعْوَانِكَ وَ أَمْضِ لِكُلِّ يَوْمٍ عَمَلَهُ فَإِنَّ لِكُلِّ يَوْمٍ مَا فِيهِ

***İşlərinin içərisində eləsi var ki, məcbur olaraq özün icra etməlisən. Bu işlərdən biri də odur ki, əgər katiblər, müavinlərinin işlərinə yetişə bilməsə özün onların işlərinə nəzarət etməlisən. Sənin başqa işlərindən biri də odur ki, əgər müavinlərin əhalinin ehtiyacı olduğu işləri yerinə yetirə bilməsələr, onları özün icra etməlisən. Hər bir gün üçün həmin günün işini gör! Çünki, hər günün işi həmin günlə bağlıdır.***

## *NƏFSİ PAK ETMƏK İNSANI MƏS`ULİYYƏTSİZLİK BƏLASINDAN XİLAS EDİR*

İslam dininin tərbiyəvi proqramlarından biri də nəfsi saflaşdırmaqdır. Nəfsin pak edilməsində hədəf budur ki, insanın kamala yetişməsi üçün mövcud olan hər bir maneəni öz nəfsindən təmizləsin. Bu yolla da qəlbini, insani və pak xüsusiyyətlərin qəbul edilməsi üçün hazır etsin. Bunun nəticəsində insanın təkamülə yetişməsi və Allaha yaxın olması üçün münasib şərait yaranacaq. İslamda hər bir xeyirli və faydalı iş Allaha görə icra edilərsə, ibadət hesab olunur. Bu hesabla, bütün məs`uliyyətli şəxslərin və onların köməkçilərinin işləri xalis şəkildə, Allaha görə olsa, ibadət hesab olunacaq. Həzrəti Əli (əleyhissalam) məs`uliyyətli şəxslərin bu niyyətli işlərini ibadət sayır. İşçilərin məs`uliyyətsiz olmamaları və öz vəzifələrindən qəflət etməmələri üçün İmam, Malikə fərman verir ki, ən yaxşı vaxtlarını ibadətə sərf etsin. İnsanın me`rac səfəri

hesab olunan namazı kamil şəkildə, azaldıb çoxaltmadan, var-qüvvəsi ilə, bütün işlərinin əsasında qərar versin.

وَ اجْعَلْ لِنَفْسكَ فِيمَا بَيْنَكَ وَ بَيْنَ اللَّهِ أَفْضَلَ تِلْكَ الْمَوَاقِيتِ وَ أَجْزَلَ تِلْكَ الْأَقْسَامِ وَ إِنْ كَانَتْ كُلُّهَا لِلَّهِ إِذَا صَلَحَتْ فِيهَا النِّيَّةُ وَ سَلِمَتْ مِنْهَا الرَّعِيَّةُ وَ لْيَكُنْ فِي خَاصَّةِ مَا تُخْلِصُ بِهِ لِلَّهِ دِينَكَ إِقَامَةُ فَرَائِضِهِ الَّتِي هِيَ لَهُ خَاصَّةً فَأَعْطِ اللَّهَ مِنْ بَدَنِكَ فِي لَيْلِكَ وَ نَهَارِكَ وَ وَفِّ مَا تَقَرَّبْتَ بِهِ إِلَى اللَّهِ مِنْ ذَلِكَ كَامِلًا غَيْرَ مَثْلُومٍ وَ لَا مَنْقُوصٍ بَالِغاً مِنْ بَدَنِكَ مَا بَلَغَ وَ إِذَا قُمْتَ فِي صَلَاتِكَ لِلنَّاسِ فَلَا تَكُونَنَّ مُنَفِّراً وَ لَا مُضَيِّعاً فَإِنَّ فِي النَّاسِ مَنْ بِهِ الْعِلَّةُ وَ لَهُ الْحَاجَةُ وَ قَدْ سَأَلْتُ رَسُولَ اللَّهِ ص حِينَ وَجَّهَنِي إِلَى الْيَمَنِ كَيْفَ أُصَلِّي بِهِمْ فَقَالَ صَلِّ بِهِمْ كَصَلَاةِ أَضْعَفِهِمْ وَ كُنْ بِالْمُؤْمِنِينَ رَحِيماً

***Ən yaxşı vaxtlarını ibadət etmək (nəfsini paklaşdırmaq) üçün qərar ver! Baxmayaraq ki, icra etdiyin bütün işlər əgər pak və xalis niyyətlə, xalqın xeyrinə olsa, Allaha ibadət sayılır. Allaha məxsus olan İlahi vaciblərin hər birisini öz məxsus vaxtında icra et! Gecə-gündüz canını və cismini Ona tapşır. Səni Allaha yaxınlaşdıran vəzifələrini lazımi şəkildə icra et! Cismin əziyyət çəksə də, bu işləri yerinə yetir. Camaat namazına dayandıqda namazı o qədər uzatma ki, camaat ondan cana gəlsin; və o qədər də tələsmə ki, namazı zay edəsən. Çünki namaz qılanlar arasında elələri vardır ki, ehtimal üzrə xəstədir, və ya işləri vardır. Allahın Rəsulu (səlləllahu ələyhi və alih) məni Yəmənə göndərərkən ondan soruşdum: “Onlarla namazı (hansı keyfiyyətlə) qılım?” Allahın Rəsulu buyurdu: “O cür namaz qıl ki, sanki onların ən zəifləri ilə namaz qılırsan və mö`minlərə qarşı mehriban ol!”***

Bu göstərişdə İmam bütün diqqəti ilə fərdi ibadətdə mülahizə olunanları kənara qoymağı tövsiyə edir. Çünki İslam dini əhalinin bir yerə yığıb, bir cərgədə dayanmasına xüsusi dəyər və qiymət verir. Buna görə

də İslamda cümə və camaat namazlarında iştirak edənlərə yüksək savab nəzərdə tutulub. Səbəbi də budur ki, müsəlmanlar həmişə birliklərini qoruyub ayrılıqdan, ixtilafdan amanda qalsınlar.

### *ƏHALİNİNN İTTİHADININ FAYDASI VƏ TƏFRİQƏNİN FƏSADLARI*

Əhali tərəfindən qəbul olunan hakimin xüsusiyyətləri haqqında qeyd olundu ki, bu cür hakim həmişə əhali ilədir və əhali ilə öz arasında mane və pərdə olmasına razı olmaz. İmam Əli (əleyhissalam) fərmanının bu hissəsində hakimin əhalidən ayrı düşməsinin acı nəticələrini və onun əhali ilə bir olmasının həyati səmərəsini qeyd edir:

وَ أَمَّا بَعْدُ فَلَا تُطَوِّلَنَّ احْتِجَابَكَ عَنْ رَعِيَّتِكَ فَإِنَّ احْتِجَابَ الْوُلَاةِ عَنِ الرَّعِيَّةِ شُعْبَةٌ مِنَ الضِّيقِ وَ قِلَّةُ عِلْمٍ بِالْأُمُورِ وَ الِاحْتِجَابُ مِنْهُمْ يَقْطَعُ عَنْهُمْ عِلْمَ مَا احْتَجَبُوا دُونَهُ فَيَصْغُرُ عِنْدَهُمُ الْكَبِيرُ وَ يَعْظُمُ الصَّغِيرُ وَ يَقْبُحُ الْحَسَنُ وَ يَحْسُنُ الْقَبِيحُ وَ يُشَابُ الْحَقُّ بِالْبَاطِلِ وَ إِنَّمَا الْوَالِي بَشَرٌ لَا يَعْرِفُ مَا تَوَارَى عَنْهُ النَّاسُ بِهِ مِنَ الْأُمُورِ وَ لَيْسَتْ عَلَى الْحَقِّ سِمَاتٌ تُعْرَفُ بِهَا ضُرُوبُ الصِّدْقِ مِنَ الْكَذِبِ وَ إِنَّمَا أَنْتَ أَحَدُ رَجُلَيْنِ إِمَّا امْرُؤٌ سَخَتْ نَفْسُكَ بِالْبَذْلِ فِي الْحَقِّ فَفِيمَ احْتِجَابُكَ مِنْ وَاجِبِ حَقٍّ تُعْطِيهِ أَوْ فِعْلٍ كَرِيمٍ تُسْدِيهِ أَوْ مُبْتَلًى بِالْمَنْعِ فَمَا أَسْرَعَ كَفَّ النَّاسِ عَنْ مَسْأَلَتِكَ إِذَا أَيِسُوا مِنْ بَذْلِكَ مَعَ أَنَّ أَكْثَرَ حَاجَاتِ النَّاسِ إِلَيْكَ مِمَّا لَا مَؤُونَةَ فِيهِ عَلَيْكَ مِنْ شَكَاةِ مَظْلِمَةٍ أَوْ طَلَبِ إِنْصَافٍ فِي مُعَامَلَةٍ

***Amma sonra: Elə olmasın ki, pərdə arxasında və rəiyyətdən gizlin olmağın uzun çəksin. Çünki hökmdarların əhaliyə görünməməsi (istər hakimin özü üçün, istərsə də əhali üçün) bir növ sıxıntı gətirir və işlərdən agah olmamağa səbəb olur. Bundan başqa, pərdə arxasında olmaq, rəiyyətin içində nə baş vediyindən dəqiq xəbərdar olmamasına gətirib çıxaracaqdır. Bu da yaxşının pislə, haqqın batillə qarışmasına səbəb olacaqdır. Hakim də başqaları kimi***

***başərdir. Əhalinin ondan gizlin tutduğu bə`zi işlərdən tam agah ola bilməz. Başqa tərəfdən, haqqın xüsusi nişanəsi yoxdur ki, onun vasitəsi ilə yalanı doğrudan ayırasan. Sən iki halətdən kənarda deyilsən: Ya Allah yolunda bağışlayan bir adamsan. Bu vəziyyətdə nəyə görə bağışladığın vacib haqqı, gördüyün yaxşı işi və özünü gizlin saxlayırsan?! Ya da xəsis bir insansan (səndən əhaliyə xeyir dəymir, beləliklə də tezliklə əhali səndən naümid olar və səninlə görüşməyi arzulamazlar. Bu vaxt görərsən ki, əhalinin sənə olan ehtiyacları o işlərdəndir ki, onu yerinə yetirmək üçün xərc çəkməyə ehtiyac yoxdur. Onların ehtiyacı ya onlara yetişən zülmdən şikayətdir, ya da sənin işlərində və müamilələrində haqq-ədalətin və insafın riayət olunmasını tələb edirlər.***

Mövla Əli (əleyhissalam)-ın bu sözlərində aşağıdakı əsas mətləblərə diqqət olunmuşdur:

***Birincisi, "mə`lumat"*** əldə etmək üçün iki yol təsəvvür olunur: Birinci yol odur ki, hakim, məxfi-aşkar qüvvələr və ya müxtəlif vasitələrlə məmləkətdə baş verən hadisələrdən xəbər tutsun.

***İkincisi,*** hakim hərdən əhali ilə birbaşa rabitə yaratsın və əhali ilə görüşündən (əhalinin müxalif və müvafiq dəstələri cəmiyyətdə mə`lumdur) ölkədə baş verən hadisələrlə tanış olsun. Həzrət Əli (əleyhissalam)-ın nəzərində hakim üçün ən yaxşı yol, əhali ilə birbaşa görüşməkdir. Çünki, əhali hakimi görməklə (əlbəttə, söhbət o hakimdən gedir ki, əhali onu qəbul etsin) həqiqətləri açıqlayacaq və hadisələr haqqında nəzər verəcəklər. Bu görüş vasitəsilə hakim dövlət orqanları tərəfindən əldə etdiyi mə`lumatların (istər məxfi, istərsə də aşkar yolla) nə qədər düzgün

olmasını anlayacaq, bununla da düzgün nəticə əldə edib qərar çıxara biləcək.

***İkinci,*** haqq və batili ayırd etməkdə (xüsusi ictimai məsələlərdə) əhali ilə üzbəüz olmadan, onların rə`ylərini nəzərə almadan, yalnız şəxsi təfəkkürlə və ya müxtəlif vasitələrlə mə`lumat əldə etməklə müvəffəqiyyət qazanmaq olmaz. Çünki, insanlar bə`zi mürəkkəb və dolaşıq məsələlərə görə hər bir məsələni qəlblərindən keçirdikləri kimi açıqlayıb müxbirlərin ixtiyarına qoymağa hazır deyildirlər. Amma hakimlə birbaşa görüşdükdə ona e`timad etdiklərinə görə məsələləri olduğu kimi açar və əsl hadisələri ona bəyan edərlər.

## ***HƏDƏF ALLAHIN HÖKMLƏRİNİN İCRA OLUNMASIDIR***

İslam nəzərində hökumətdən hədəf, Allahın hökmlərinin icra olunmasıdır. Hakim, əhalinin əmanətdarı və hüquqlarının qoruyucusu hesab olunur. Həmin dəlilə görə Həzrət Əli (əleyhissalam) Azərbaycana tə`yin etdiyi hakimə məktubda yazır:

***“Hökmranlıq sənin üçün ov deyil, əksinə, boynuna qoyulmuş əmanətdir. Səndən yuxarıdakı şəxs (xəlifə) səndən əmanətdarlıq və əhalinin hüquqlarının qorunmasını tələb edir. Layiq deyildir ki, əhali arasında təkəbbürlə və öz istədiyin kimi rəftar edəsən!”***

İslam bu əsas qanunla həm hakimin, həm də onun qouhumlarının və yaxınlarının vəzifəsini tə`yin edir. Hakimin vəzifəsi budur ki, hakimiyyəti şikar (ov) kimi təsəvvür etməsin, dünya malı cəm etməklə məşğul olmasın. Onun də hədəfi yalnız Allahın əhkamını cəmiyyətdə icra etmək olsun. Hakimin qohumlarının

vəzifəsi odur ki, onun məqamından öz xeyirləri üçün istifadə etməsinlər, hakimin adıyla zorakılıq, qarətçilik etməsinlər. Əgər bu cür iş baş versə hakimin vəzifəsi budur ki, İslamın hökmü ilə ictimai ədaləti qorusun, zəiflərin hüququnu müdafiə etməklə, müftəxorların meyllərinin qarşısını ciddiyyətlə alsın. Bu cür amillərin kökünü kəsməklə cəmiyyətdə ədalətsizliyin, qarətçiliyin, soyğunçuluğun və insafsızlığın qarşısını almaq olar.

ثُمَّ إِنَّ لِلْوَالِي خَاصَّةً وَ بِطَانَةً فِيهِمُ اسْتِئْثَارٌ وَ تَطَاوُلٌ وَ قِلَّةُ إِنْصَافٍ فِي مُعَامَلَةٍ فَاحْسِمْ مَادَّةَ أُولَئِكَ بِقَطْعِ أَسْبَابِ تِلْكَ الْأَحْوَالِ وَ لَا تُقْطِعَنَّ لِأَحَدٍ مِنْ حَاشِيَتِكَ وَ حَامَّتِكَ قَطِيعَةً وَ لَا يَطْمَعَنَّ مِنْكَ فِي اعْتِقَادِ عُقْدَةٍ تَضُرُّ بِمَنْ يَلِيهَا مِنَ النَّاسِ فِي شِرْبٍ أَوْ عَمَلٍ مُشْتَرَكٍ يَحْمِلُونَ مَئُونَتَهُ عَلَى غَيْرِهِمْ فَيَكُونَ مَهْنَأُ ذَلِكَ لَهُمْ دُونَكَ وَ عَيْبُهُ عَلَيْكَ فِي الدُّنْيَا وَ الْآخِرَةِ

***Habelə, hakimin yaxın dostları və qohumları var ki, özbaşına (xalqın malına) əl uzadırlar, alış-verişdə insafsızlığa adət etmişlər. Bu sayaq xoşagəlməz amilləri aradan qaldır və onların əllərini xalqın malından kəs! Əkinçilik etmədiklərinə qarşı qonşularına zərər verən amillər yaradarlarsa (məs: onların suyuna təcavüz etmək və ya şirkətlə görülməli olan) işləri ətrafındakılara və qohumlarına torpaq və icarə vermə! Elə etmə ki, onların (qohumlarının və yaxın adamlarının) əkinlərinin xərci kəndlilərin boynuna düşsün! Əks halda malın istifadəsi onlarla, dünya və axirətdə tənbeh və pislik sənin adınla olacaq!***

Bu cümlələrdə Həzrət Əli (əleyhissalam) hakimdən öz şəxsi mənafeləri üçün istifadə edənlərə işarə edərək göstərir ki, hakimin ətrafında yığılanlar və onun qohumları hansı ünvanlarla xalqın malına əl uzadır və qarətçiliklə məşğul olurlar. Fəqirlərin mülkiyyət və sularının yanında qərar tutduğuna görə onların mülk və sularına əl uzadırlar və müştərək görülməli işlərdən qaçırlar.

### *QANUN QARŞISINDA BƏRABƏRLİK*

İslam dininin mühüm və həyati qanunlarından biri bütün şəxslərin qanun qarşısında bərabər olmasıdır. Bu əsasa görə Allah-taala hər bir günahın cəzasını bütün insanlar üçün eyni səviyyədə tə`yin etmişdir. Bütün

insanlar İslam qanunları qarşısında bərabər və onların cəzalanması sahəsində birdirlər. Bu gün dünyada özlərini “mütərəqqi ölkə” adlandıranlar iddia edirlər ki, qanunları bütün ictimai təbəqələrin haqqında eyni səviyyədə icra olunur. Amma əməldə bu bərabərliyin icra olunmasına heç bir zəmanət yoxdur. Şiələrin birinci imamı Həzrəti Əli (əleyhissalam)-ın zirehli paltarı oğurlanır, onu tapdıqda zirehi gözünün qarşısında olan halda dəlili olmasa da, öz məqamından istifadə edib oğrunu müttəhim etmir. Adi şəxslər kimi öz haqqını almaq üçün ölkənin qazisinə müraciət edir. Bundan əlavə, məhkəmədə qazi ona daha çox hörmət etdiyi və oğrunun haqqını gözləmədiyi üçün qəzəblənərək məhkəməni tərk edir. Bu yolla Qüreyşin seyyidinin həbəşli qul ilə məhkəmə salonunda bir hüquqa malik olduğunu əməli olaraq isbat edir. Bu baxımdan Malik Əştərə buyurur:

وَ أَلْزِمِ الْحقَّ مَنْ لَزِمَهُ مِنَ الْقَرِيبِ وَ الْبَعِيدِ وَ كُنْ فِي ذَلِكَ صَابِراً مُحْتَسِباً وَاقِعاً ذَلِكَ مِنْ قَرَابَتِكَ وَ خَاصَّتِكَ حَيْثُ وَقَعَ وَ ابْتَغِ عَاقِبَتَهُ بِمَا يَثْقُلُ عَلَيْكَ مِنْهُ فَإِنَّ مَغَبَّةَ ذَلِكَ مَحْمُودَةٌ

***Yaxında da, uzaqda da olsa, ədalətə və haqqa əməl et! Bu yolda səbirli və dözümlü ol! Əməlini Allahın hesabına tapşır! Bu iş yaxınlarının və qohumlarının zərərinə tamam olsa da,, həmişə haqqın aqibəti haqqında fikirləş! Ona görə ki, haqqın nəticəsi bəyənilən və xoşa gələndir.***

### *XALQI İŞİN GEDİŞİNDƏN AGAH ETMƏK*

İslam dinində dövlət məs`ulları ilə xalqın bir-birinə qarşı e`timadlı olması hökumətin həyati əsaslarından biri hesab olunur. Belə ki, əgər hakimlə əhali arasında e`timad olmasa, dövlət özünün ictimai həyatını davam

etdirməyə qadir olmayacaq. Hakim əhaliyə qarşı e`timadlı və hüsn-niyyətli olduğu kimi, əhali də öz növbəsində İslam hakiminə qarşı yaxşı niyyətli olmalı və ona e`timad etməlidirlər. Buna görə də hər vaxt müəyyən bir məsələ haqqında əhali üçün anlaşılmazlıq olsa, işin düzgün icra olunmadığına, bə`zilərinin vəzifəyə tə`yin olunmasında və ya vəzifədən kənarlaşdırılmasında və sair şəkk etsələr, bu halda hakim əhalini işin gedişindən xəbərdar etməlidir ki, İslam ümmətinin məntiqi nəzərini aydınlaşdırmaqla əhalinin e`timadını qazansın və onların qaranlıq və anlaşılmaz məsələlərini həll etsin.

وَ إِنْ ظَنَّتِ الرَّعِيَّةُ بِكَ حَيْفاً فَأَصْحِرْ لَهُمْ بِعُذْرِكَ وَ اعْدِلْ عَنْكَ ظُنُونَهُمْ بِإِصْحَارِكَ فَإِنَّ فِي ذَلِكَ رِيَاضَةً مِنْكَ لِنَفْسِكَ وَ رِفْقاً بِرَعِيَّتِكَ وَ إِعْذَاراً تَبْلُغُ بِهِ حَاجَتَكَ مِنْ تَقْوِيمِهِمْ عَلَى الْحَقِّ

***Əgər əhali sənin haqqında pis fikirdə olsa, üzrünü və dəlilini onlara açıq söylə! Ehtimal olunan zənni fikirləri əhalinin zehnindən çıxart! Çünki, bu yol sənin üçün nəfsini pak etmək, əhali üçün lütf və mərhəmətdir. Bu üzürxahlıq, haqqı və ədaləti onlara başa salmağından ötrü bir vəsilə olacaqdır. Onları haqdan tərəfdarlıq etməyə məcbur etmiş olarsan.***

Həzrətin buyurduğu bu həyatbəxş cümlələrdən bə`zi məsələlər üçün məntiqi nəticələr alırıq. Bu nəticələr aşağıdakılardan ibarətdir:

1-***Əhali qarşısında müxtəlif məsələlər haqqında izahat verməyi özünə borc bilən hakim, həqiqətdə onların üstünlüyünü qəbul etmişdir. Əhali ilə bu cür davranış səbəb olacaq ki, hakim öz nəfsinə hakim olsun. Bu hakimliklə (hakimlik özü böyük bir işdir)***

***pisliklərlə və nəfsinin istəkləri ilə mübarizə aparmağa qadir olar.***

2-***Məsələlərin izahı səbəb olur ki, əhali haqqı tanısın, haqq və ədalətin riayət olunmasını özünə vacib bilsin və onun icra olunmasından narazılıq hissi keçirməsin.***

### *SÜLH VƏ SAĞLAM YAŞAYIŞ*

İslam dini hər şeydən əvvəl insanları sülhə, birliyə, dinc və sağlam yaşayışa də`vət edir. ***"Sülh sizin üçün ən xeyirlidir"*** şüarı ilə özünün ən mühüm və ali hədəflərini bəyan edir. Qur`ani-Kərim bu barədə buyurur:

وَإِن جَنَحُواْ لِلسَّلْمِ فَاجْنَحْ لَهَا

***"Hər vaxt kafirlər sülh təklif etsələr, onu qəbul et!"***[1]

Başqa ayədə Allah-taala mö`minləri ümumi sülhə də`vət edir:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ ادْخُلُواْ فِي السِّلْمِ كَآفَّةً وَلاَ تَتَّبِعُواْ خُطُوَاتِ الشَّيْطَانِ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ

***"Ey mö`minlər, hamınız sülhə gəlin! Şeytanın tərəfdarı olmayın, çünki o sizin üçün aşkar düşməndir."***[2]

Bu iki ayə və müsəlmanların kafirlərlə rabitəsi haqqında nazil olan başqa ayələrdən, habelə, İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) risalət dövranını mülahizə etməklə belə nəticə almaq olur ki, İslam dininin xarici və daxili siyasəti ilk növbədə sülh və sağlam yaşayış əsasındadır. İslam həmişə və hər yerdə dünyada sülh və əmin-amanlığın olamsına çalışır. Bu əsasa görə hər vaxt düşmən tərəf sülh və

---

[1] Ənfal surəsi, 61-ci ayə.

[2] Bəqərə surəsi, 208-ci ayə

sakitlik təklif etsə, İslam hakiminin (qeyd olunacaq şərtlər əsasında) vəzifəsi budur ki, sülhü qəbul etsin və müharibəni saxlasın.

İndi ki, İslamın bu mütərəqqi siyasəti ilə tanış olduq, belə bir sual yaranır ki, İslam sülhü görəsən bütün yerlərdə, bütün hallarda və qeydsiz-şərtsiz qəbul edir, yoxsa sülhü qəbul etmək üçün xüsusi şərtlər var? Bütün şiə alimlərinin nəzərinə görə sülhü qəbul etməyin başlıca şərtlərindən biri odur ki, sülh müqaviləsi müsəlmanların xeyrinə olsun. Əgər sülh İslamın zərərinə və müsəlmanların zəifləməsinə səbəb olarsa, bu cür sülhü qəbul etmək düzgün deyil. Bu əsasa görə Həzrəti Əli (əleyhissalam) buyurur:

**وَ لَا تَدْفَعَنَّ صُلْحاً دَعَاكَ إِلَيْهِ عَدُوُّكَ و لِلَّهِ فِيهِ رِضًا فَإِنَّ فِي الصُّلْحِ دَعَةً لِجُنُودِكَ وَ رَاحَةً مِنْ هُمُومِكَ وَ أَمْناً لِبِلَادِكَ وَ لَكِنِ الْحَذَرَ كُلَّ الْحَذَرِ مِنْ عَدُوِّكَ بَعْدَ صُلْحِهِ فَإِنَّ الْعَدُوَّ رُبَّمَا قَارَبَ لِيَتَغَفَّلَ فَخُذْ بِالْحَزْمِ وَ اتَّهِمْ فِي ذَلِكَ حُسْنَ الظَّنِّ**

***Düşmənin sənə təklif etdiyi sülh, Allahın razılığı ilə düz gəlsə, onu rədd etmə! Çünki sülh, qoşunların sakitləşməsinə, sənin qəlbinin rahatlığına və ölkənin əmin-amanlığına səbəb olur. Amma barışıq və sülhdən sonra ciddi şəkildə ayıq ol! Çox vaxt sülh təklifi qarşı tərəfi qəflətdə saxlamaq üçün olur. Buna görə də ehtiyatı əldən vermə və müqavilədə təklif olunan barışığa həmişə imtahan nəzəri ilə bax!***

Həzrətin bəyanlarına diqqət etdikdə sülhün əsas faydalarını başa düşmək daha asan olur. Sülh və əmin-amanlıq olan yerdə qoşunlar və silahlı qüvvələr sakitliklə qarşılaşırlar, İslam hakiminin ruhiyyəsi asudə və əmin-amanlıqda olur. Bu sakit ruhiyyə ilə hakim üçün ölkədə mövcud olan çatışmazlıqlar haqqında fikirləşib qərar çıxarmağa fürsət yaransın. Bütün

bunlardan da əhəmiyyətlisi odur ki, cəmiyyətin üzvləri sülh və əmniyyət arzularına çatırlar. Həzrət sülhün faydalarını qeyd etdikdən sonra xəbərdarlıq edir ki, sülh e`lan olunduqdan sonra düşməndən qəflətdə olmaq lazım deyil. Çünki, düşmən düşməndir və həmişə qarşı tərəfi döyüş meydanında məğlubiyyətə uğratmaq arzusundadır. Ola bilsin, sülh təklifini qüvvə toplamaq üçün irəli sürmüşdür. Bu səbəbdən hakim gərək ehtiyatlı hərəkət etsin, düşmənə qarşı hüsn-zənnini sui-zənnə və ehtiyat baxışına çevirsin.

### *ƏHDƏ VƏFA ETMƏK*

Əhdə vəfa və öhdəliyə əməl etmək İslamda insanın ən ali fəziləti hesab olunur. Qur`ani-Kərim və mə`sum İmamların (əleyhimussalam) əməlləri göstərir ki, əhdə əməl etmək imanın əsas şərtlərindən biridir. Əhddən qaçmaq isə dinsizlik və imansızlıq əlamətidir. [1]

Bu rabitə normaları yalnız müsəlmanların bir-biri ilə rəftarına dəlalət etmir. Əksinə, müsəlmanlar başqa dindən olan şəxslər və kafirlər qarşısında da bu öhdəliyə riayət etməyə borcludurlar.

---

[1] İmam Səccad (əleyhissalam)-ın köməkçilərindən olan Əbi Malik bir gün İmamdan soruşdu: “Yəbnə Rəsulillah! Dinin bütün şərti nədir? Һansı şərtlə insan İlahi dində və dindar hesab olunur?” İmam (əleyhissalam) buyurdu: “Dinin bütün şərti üç şeydə xülasə olunub: Birinci, haqq sözü demək. İkinci ədalətlə hakimlik etmək. Üçüncü: Əhdə vəfa etmək.”

وَ إِنْ عَقَدْتَ بَيْنَكَ وَ بَيْنَ عَدُوِّكَ عُقْدَةً أَوْ أَلْبَسْتَهُ مِنْكَ ذِمَّةً فَحُطْ عَهْدَكَ بِالْوَفَاءِ وَ ارْعَ ذِمَّتَكَ بِالْأَمَانَةِ وَ اجْعَلْ نَفْسَكَ جُنَّةً دُونَ مَا أَعْطَيْتَ فَإِنَّهُ لَيْسَ مِنْ فَرَائِضِ اللَّهِ شَيْءٌ النَّاسُ أَشَدُّ عَلَيْهِ اجْتِمَاعاً مَعَ تَفَرُّقِ أَهْوَائِهِمْ وَ تَشَتُّتِ آرَائِهِمْ مِنْ تَعْظِيمِ الْوَفَاءِ بِالْعُهُودِ وَ قَدْ لَزِمَ ذَلِكَ الْمُشْرِكُونَ فِيمَا بَيْنَهُمْ دُونَ الْمُسْلِمِينَ لِمَا اسْتَوْبَلُوا مِنْ عَوَاقِبِ الْغَدْرِ فَلَا تَغْدِرَنَّ بِذِمَّتِكَ وَ لَا تَخِيسَنَّ بِعَهْدِكَ وَ لَا تَخْتِلَنَّ عَدُوَّكَ فَإِنَّهُ لَا يَجْتَرِئُ عَلَى اللَّهِ إِلَّا جَاهِلٌ شَقِيٌّ وَ قَدْ جَعَلَ اللَّهُ عَهْدَهُ وَ ذِمَّتَهُ أَمْناً أَفْضَاهُ بَيْنَ الْعِبَادِ بِرَحْمَتِهِ وَ حَرِيماً يَسْكُنُونَ إِلَى مَنَعَتِهِ وَ يَسْتَفِيضُونَ إِلَى جِوَارِهِ فَلَا إِدْغَالَ وَ لَا مُدَالَسَةَ وَ لَا خِدَاعَ فِيهِ وَ لَا تَعْقِدْ عَقْداً تُجَوِّزُ فِيهِ الْعِلَلَ وَ لَا تُعَوِّلَنَّ عَلَى لَحْنِ قَوْلٍ بَعْدَ التَّأْكِيدِ وَ التَّوْثِقَةِ وَ لَا يَدْعُوَنَّكَ ضِيقُ أَمْرٍ لَزِمَكَ فِيهِ عَهْدُ اللَّهِ إِلَى طَلَبِ انْفِسَاخِهِ بِغَيْرِ الْحَقِّ فَإِنَّ صَبْرَكَ عَلَى ضِيقِ أَمْرٍ تَرْجُو انْفِرَاجَهُ وَ فَضْلَ عَاقِبَتِهِ خَيْرٌ مِنْ غَدْرٍ تَخَافُ تَبِعَتَهُ وَ أَنْ تُحِيطَ بِكَ مِنَ اللَّهِ فِيهِ طِلْبَةٌ لَا تَسْتَقْبِلُ فِيهَا دُنْيَاكَ وَ لَا آخِرَتَكَ

***Əgər düşmənlə peyman (sülh müqaviləsi) bağlayıbsansa və ya ona aman vermisənsə, öz əhdinə vəfa et! Öhdənə aldığın əmanətin şərtini yerinə yetir! Özünü düşmənə verdiyin şeyin qarşısında sipər qərar ver! Çünki, Allahın vacibatlarından heç biri əhdə vəfa etməkdən üstün deyil. Bütün insanlar müxtəlif fikir və əqidələrlə yanaşı vacibatlardan ən çox "əhdə vəfa etmək" vəzifəsi barəsində eyni fikirdədirlər. İslamdan əvvəlki müşriklər belə, əhdə vəfa etməyi özlərinə vacib hesab edirdilər. Ona görə ki, onlar əhdə vəfa etməməyin və onu pozmağın ağır aqibətini görmüşdülər. Heç vaxt (belə) olmasın ki, bağladığın əhdə vəfasız olasan! Heç vaxt əhdini pozma və bununla düşməninə qarşı hiylə işlıtmə! Ona görə ki, Allahın adı ilə peyman bağlayıb sonra onu ayaqlar altına atan şəxs yalnız bədbəxt insan olar. Allah-taala əhd-peymanı əmin-amanlıq üçün səbəb qərar vermişdir. İnsanlar onun səbəbinə asudə yaşayırlar. Bu yolda***

***hiyləgərlik, fəsad və aldatmaq yoxdur. Elə bir müqavilə bağlayıb imzalama ki, orada bəhanəçilik üçün yol açıq olsun. Əhd-peymanı möhkəmlətdikdən sonra ikitirəli söz danışma! (tövriyə, təfsir, tə`vil)***[1]

---

[1] Hər vaxt bir kəlmənin iki mə`nası olsa, danışan şəxs kəlmənin ikinci mə`nasını nəzərdə tutsa, bu tərzdə söz danışmağa "tövriyə" deyirlər. Tarixdə oxuyuruq ki, həzrəti Əli (əleyhissalamın) vəfalı köməkçilərindən birini – Və`də ibni Cabiri zorla Həcac ibni Yusifin qəsrinə gətirirlər. Həccac soruşur: Mə`nim haqqımda nəzərin necədir? Cavab verir: ***"Əntə qasitun, adilun"*** (sən adil adamsan). Məclis qurtardıqdan sonra Həccac öz adamlarından soruşur: Və`dənin nəzəri necə idi? Dedilər: Sənin yaxşılığından başqa bir şey deyildi. " Həccac: Və`dənin nəzəri mənim haqımda pis idi. Onun "qasit" kəlməsindən məqsədi ***"Amma zülmkarlar Cəhənnəmin oduna çevriləcəklər***" – ayəsindəki ***"qasitun"*** kəlməsidir ki, ***"zülmkar"*** mə`nasındadır. ***"Adil"*** kəlməsindən məqsədi bu kəlmənin ikinci mə`nası olan ***"haqdan və həqiqətdən aşmaq, təcavüz etmək"*** mə`nası idi.

Başqa yerdə qeyd olunur ki, Harunər-Rəşid öz dövründə göstəriş verir ki, "Bəraməkə" məntəqəsinin bütün kişilərini öldürsünlər. Bu məntəqədə bir qadın Harunun hüzuruna gəlib ondan kömək istəyir. O da kömək edir. Qadın sonra Haruna xitab edərək deyir: Allah sənin gözlərini aydın etsin, etdiyin hədiyyəyə görə səni şad etsin. Sən qist və ədl üzrə hərəkət etdin. "(***əqrə Allahu eynəykə və fərəhəkə bima ətakə)*** Harun soruşur: Hansı qəbilədənsən? Cavab verir: "Ali-Bəraməkə" qəbiləsindənəm ki, göstəriş vermisən kişilərini öldürələr. Qadın getdikdən sonra Harun deyir: Bu qadın bizi pisliklə yad etdi. Çünki ***"əqrə"*** kəlməsindən məqsədi "istiqrar" idi. Yə`ni, gözlərin hərəkətdən dayansın kor olasan. ***"Fərəhəkə"*** kəlməsindən məqsədi dünya haqqında gələn ayəyə işarə etmək idi. " Qist" kəlməsindən məqsədi həmin "zülmkar" mə`nasıdır ki, ayədə zikr olunub (Cin surəsi, 15-ci ayə). "Ədl" kəlməsindən məqsədi haqdan dönmək və həqiqəti inkar etmək mə`nası idi.

***Allahın əhdinə əməl etməkdə olan çətinlik səni haqsız olaraq peymanın pozulmasına vadar etməsin. Çünki, müşkül məsələnin həll olunması ümidi üçün səbir etmək və işinin axırının xeyirli olması, səni dünya və axirətdə boynundan tutub əzaba çəkmək və səni Allah dargahından uzaqlaşdıran "hiyləgərlik" kimi işdən yaxşıdır!"***

Peyğəmbərlərin yolu da məhz həmin əsasda idi. Ona görə də Həzrəti İsmail (əleyhissalam) haqqında İmam Sadiq (əleyhissalam)-dan belə nəql olunur:

***"Həzrəti İsmail (əleyhissalam) Məkkədən xaricdə "Vəfah" adlı yerdə bir nəfərlə və`də tə`yin edirlər. Bir müddət həmin yerdə gözləyir, amma həmin şəxs gəlib çıxmır. Məkkə əhalisi İsmail (əleyhissalam)-ı axtarmağa gedirlər, amma tapa bilmirlər. Nəhayət, bir kişi Həzrətin yanından keçir və deyir: Ey Allahın Peyğəmbəri! Əldən düşənə qədər səni axtarmışıq. Həzrəti İsmail (əleyhissalam) buyurur: Mən filankəslə və`də etmişəm ki, burada görüşək. O gəlməyincə buradan hərəkət edən deyiləm. " Əhali kişinin arxasınca gedir. Ona deyirlər: "Ey Allahın düşməni, Allahın Peyğəmbəri ilə peyman bağlayırsan, sonra onu pozursan?!" Kişi işin nə yerdə olduğunu başa düşür, İsmail (əleyhissalam)-a tərəf gəlir, deyir: Ey Allahın Peyğəmbəri (məni bağışla), mən bu və`dəni unutmuşdum. "***

İmam Sadiq (əleyhissalam) bu hadisəni nəql etdikdən sonra buyurur: ***"Allah-taala bu rəftara görə Həzrəti İsmail (əleyhissalam)-ı Qur`anda "Sadiqul-və`d" adlandırır."*** [1]

---

[1] Biharul-ənvar, 15-ci cild, səh. 144.

İmam Sadiq (əleyhissalam) İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) adəti haqqında buyurur:

***"İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) bir kişi ilə bir daşın üstündə və`dələşmişdilər. Həzrət müəyyən olunmuş vaxtda ora gedir. Gün çıxır, hava istiləşir. Dostları xahiş edib deyir ki, Ya Rəsuləllah! Nə olar ki, günəşin altından kölgəyə gələsiniz?! Həzrət buyurur: Mən onunla burada və`dələşmişəm. Əgər o gəlməsə, qiyamətə qədər burada duracam. "***[1]

Bütün bu deyilənlərdən, eləcə də mə`sum İmamların (ələyhimussalam) əhdi pozmağın pis iş olması barəsində bizə çatan kəlamlarından aydın olur ki, əhdi pozmaq, qəbul etdiyi öhdəliyə əməl etməmək insan üçün ziyanlı nəticə ilə tamamlanacaqdır. Ona görə ki, insan (filosofların sözü ilə desək) fitrətən ictimai yaşamaq meylindədir. Həmişə başqa şəxslərlə alış-veriş etmək və gəliş-gediş etmək istəyir. Bu cür yaşayış tərzi tələb edir ki, hər bir insan öz öhdəsinə aldığı işə əməl etsin, əhd-peymanın pozulmasına səbəb olan hər bir amildən uzaq olsun (bu amillər Həzrətin cümlələrində "***idğal", "müdalisə"*** və ***"xida"*** kəlmələri ilə qeyd olunub). Əks halda dünyanın ictimai nizamı tamamilə pozulacaqdır. Həmin əsasa görə dünya hüquqşünaslarının ən mühüm bəhslərindən biri ***"müahidat"*** (əhd və peyman) bölməsidir. Onlar inanırlar ki, beynəlxalq əhd-peyman xalqlar arasında sülh və sağlamlığın bərqərar olmasına səbəb olur.

Bu əsasa görə İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) risalət dövründə müşriklər, Nəcran məsihiləri,

---

[1] Biharul-ənvar, 15-ci cild, səh. 144.

əhli-kitab və ərəb qəbilələri ilə əhdnamə bağlayıb ona əməl edirdi.

### *HÖKUMƏT QAN TÖKMƏKLƏ DAVAM EDƏ BİLMƏZ!*

İslam, müasir şərq və qərb hökumətlərinin əksinə olaraq hökumətin daimi olmasını qan tökməkdə görmür və inanır ki, qan tökmək hökumətin əsaslarını lərzəyə salır, nəticədə hökumət başqalarının əlinə keçir. Bu nəzər İslam dininin, insanın ***"şərəfli olması"*** barəsində e`tiqadından söhbət açır. İslam, hər bir insan üçün elə bir hörmət qoyur ki, bir nəfərin öldürülməsi bütün insanların öldürülməsi, bir nəfərin dirildilməsini isə bütün insanların dirilməsi ilə bərabər hesab edir. Qur`ani-Kərim bu barədə buyurur:

مِنْ أَجْلِ ذَلِكَ كَتَبْنَا عَلَى بَنِي إِسْرَائِيلَ أَنَّهُ مَن قَتَلَ نَفْساً بِغَيْرِ نَفْسٍ أَوْ فَسَادٍ فِي الأَرْضِ فَكَأَنَّمَا قَتَلَ النَّاسَ جَمِيعاً وَمَنْ أَحْيَاهَا فَكَأَنَّمَا أَحْيَا النَّاسَ جَمِيعاً

***"Hər kəs, qisasdan və fəsad etməyinə görə öldürülməsi istisna olmaqla, birisini öldürsə, elə bil ki, bütün insanları öldürüb. Hər kəs bir nəfəri diriltsə, elə bil ki, bütün insanlara həyat bağışlamışdır."***[1]

Qur`ani-Kərimin bu bəyanında sirr vardır. O da budur ki, əgər birisi heç bir səbəb olmadan başqasını öldürüb onun həyatına qəsd etsə, əslində bu şəxs insanın yaradılışı və insaniyyət ilə müxalifət etmişdir, insanların heç birini görməyə gözü yoxdur, yer üzündə insan növü olmasını istəmir. Çünki, məsələn, Zeydin və ya Əmrin öldürülməsi onun üçün fərq etmirsə, səbəbsiz olaraq Zeydin qanını tökən şəxs, Əmrin qanını tökməkdən həya etməz. İmkanı olsa bütün insanların

---

[1] Maidə surəsi, 32-ci ayə

qanını tökər. Quran-Kərimin həmin bəyanı başqa şəkildə, natiqi-Qur`an Həzrəti Əliyyibni Əbi Talibin (əleyhissalam) kəlamında təcəlli etmişdir:

إِيَّاكَ وَ الدِّمَاءَ وَ سَفْكَهَا بِغَيْرِ حِلِّهَا فَإِنَّهُ لَيْسَ شَيْءٌ أَدْعَى لِنِقْمَةٍ وَ لَا أَعْظَمَ لِتَبِعَةٍ وَ لَا أَحْرَى بِزَوَالِ نِعْمَةٍ وَ انْقِطَاعِ مُدَّةٍ مِنْ سَفْكِ الدِّمَاءِ بِغَيْرِ حَقِّهَا وَ اللَّهُ سُبْحَانَهُ مُبْتَدِئٌ بِالْحُكْمِ بَيْنَ الْعِبَادِ فِيمَا تَسَافَكُوا مِنَ الدِّمَاءِ يَوْمَ الْقِيَامَةِ فَلَا تُقَوِّيَنَّ سُلْطَانَكَ بِسَفْكِ دَمٍ حَرَامٍ فَإِنَّ ذَلِكَ مِمَّا يُضْعِفُهُ وَ يُوهِنُهُ بَلْ يُزِيلُهُ وَ يَنْقُلُهُ وَ لَا عُذْرَ لَكَ عِنْدَ اللَّهِ وَ لَا عِنْدِي فِي قَتْلِ الْعَمْدِ لِأَنَّ فِيهِ قَوَدَ الْبَدَنِ وَ إِنِ ابْتُلِيتَ بِخَطَإٍ وَ أَفْرَطَ عَلَيْكَ سَوْطُكَ أَوْ سَيْفُكَ أَوْ يَدُكَ بِالْعُقُوبَةِ فَإِنَّ فِي الْوَكْزَةِ فَمَا فَوْقَهَا مَقْتَلَةً فَلَا تَطْمَحَنَّ بِكَ نَخْوَةُ سُلْطَانِكَ عَنْ أَنْ تُؤَدِّيَ إِلَى أَوْلِيَاءِ الْمَقْتُولِ حَقَّهُمْ

***Nahaq qan tökməkdən uzaq ol! Çünki, nahaq qan tökmək kimi Allahın qəzəbini artıran, (Allahın) ne`mətini əldən çıxardan və ömrü qısaldan bir şey yoxdur. Allah-taalanın qiyamət günündə yoxladığı birinci iş, qətl işidir. Elə isə hökumətinin bərqərar olmasını nahaq qan tökməklə möhkəmlətmə! Çünki nahaq yerə qan tökmək hökuməti zəiflədən işlərdəndir. Hətta, onu aradan aparar və başqasına nəql etdirər. Sənin qəsdən adam öldürmək barəsində Allah dərgahında və mənim yanımda üzrün yoxdur. Çünki, onun cəzası ölümdür. Amma əgər xəta etmiş olsan, qırmancın, ya qılıncın, ya əlin, iradən və niyyətinin əksinə olaraq cəza verəndə həddini aşsa, yumruq vurmaq və ondan üstün öldürmək var. Bu vaxt qürur sənə qalib gəlməsin. Öldürülənin qan bahasını, vərəsəsinə çatdırmaqdan imtina etmə!***

Həzrətin bu bəyanından iki əsas mətləb aydın olur:

1-Həzrəti Əli (əleyhissalam)-ın nəzərində nahaq qan tökməyin ən böyük tə`siri, qüdrətin və dövlətin aradan getməsidir. Pəhləvi (İran şahı)-nın tarixi,

Həzrətin bu sözlərinin aydın nümunəsidir. Bütün İran xalqı müşahidə etdilər ki, pəhləvi sülaləsi nahaq qan tökmək və qan içməyinə görə tarixin zibilliyinə gömüldü, nifrətdən və xəcalətdən başqa bir şey yadigar qoymadı.

2-Dünyanın yalançı ***“bəşər hüququ”*** iddiaçıları insanların sülh və əmin-amanlığını tə`min edən və onun səbəbinə cəmiyyətdə sakitlik yaradan ***“qisas”*** məsələsini inkar edib deyirlər, Qur`anın bəyanında deyilən ***“Qisas hökmü sizin həyatınızı qorumaq üçündür”***[1] cümləsi bəşər hüquqları ilə düz gəlmir. Bu əsasa görə dünyaya başa salmaq istəyirlər ki, İran ölkəsində bəşər hüquqlarına riayət olunmur. Amma həqiqətdə, görəsən onlar hansı hüquqdan və hansı bəşərdən söz açırlar? Məgər əlinə silah alıb günün-günorta çağında və ya gecə qaranlığında günahsız əhaliyə hücum edən, onlarla uşaq, qadın, kişini gülləbaran edən adama ***“bəşər”*** adı vermək rəvadırmı? Görəsən küçələrdə və xiyabanlarda partlayıcı maddə qoyub adətən cəmiyyətin fəqirlərinin istifadə etdiyi sərnişin avtobuslarını partladan, zəiflərin bir dəstəsini yandırıb kül edən, kiçik yaşlı uşaqları qanına qəltan edənə “insan hüququ” adı vermək olarmı? Əgər günahsız əhalini bu cür cinayətkarcasına qanına qəltan edənlərə “bəşər” adı vermək mümkün olsaydı, bəs o günahsızlar ki, bunların atəşində yanırlar, onların bəşər hüququ və insaniyyətləri necə olsun?! Əgər onlarla günahsız insanın qisasını almaq və cəmiyyəti iyrənc və mənfur şəxslərdən təmizləmək vəhşilik və qeyri-insani əməl hesab olunursa, bəs yüzlərlə kişi, qadın və kiçik

---

[1] Bəqərə surəsi, 179-cu ayə.

yaşlı uşaqları öldürmək necə?! Hətta onlar bilmirlər ki, qatilləri kimdir. Bu rəhmsiz qətl işlərindən hədəf nədir? Hansı bəhanə ilə bunlara bəraət qazandırmaq olar? Belə rəhmsiz mövcudun bu cür qansız əməli, heyvanlıqdan və vəhşilikdən başqa bir şeydirmi? Onun qurbanlarının insani qiyməti yoxdurmu? Rəhimsiz qatil qüdrətli dövlətlərə arxalanaraq bəşər hüququndan istifadə edə bilərmi? Bu cür gülünc və əsassız hüquqa riayət olunmasına görə İslam hökuməti günahızların qatillərinə ehtiram etməli və onlara xidmət etməlidir?! Onları rahat yerlərdə yatızdırıb yemək-içmək verməlidir?! Törətdikləri cinayətlərə görə onlara mükafat verməlidir? "Bəşər hüququ" olduğuna görə onlara ehtiram olunmalı, öldürdükləri günahsızların əvəzinə onların cinayətlərinə göz yumulmalı və onların cinayətlərini yaddan çıxartmalıdır? Bu cür mə`nasız sözlərə məzlum şəhid ayətullah doktor seyyid Məhəmməd Behişti, İranda ***"qisas"*** layihəsini müdafiə etmək üçün dövlət aparatında konfrans təşkil etdi və bu barədə yaranan şübhəli suallara cavab verdi. Həzrəti Əli (əleyhissalam) Qur`andan ilham alaraq qisas hökmünün cəmiyyətdə icra olunmasını vacib bilir və ən yaxın adamları (hətta Malik Əştər) olsa da bağışlanmamasına tə`kid edir.

## *TƏKƏBBÜRÜN VƏ ÖZBAŞINALIĞIN DƏRMANI*

Əxlaqi məsələlərin ən əhəmiyyətlisindən biri (ictimai mövzuda, hakimlərdə və məs`ul şəxslərdə tapılan) özbaşınalıq və təkəbbürçülükdür. Keçmiş bəhslərdə bu məsələnin çirkinliyindən və pisliyindən söhbət açmışdıq. Bu hissədə həmin halətin əlacını

fəlsəfə nəzərindən təhlil edəcəyik. Mühüm fəlsəfi məsələlərdən biri də ***“mümkünül-vücud”*** və ***“vacibəl-vücud”*** bəhsidir. ***“Mümkünül-vücud”*** yə`ni, insan və bütün yaranmışlar nəzərdə tutulur ki, onların olması və olmaması bərabərdir. ***“Vacibəl-vücud”*** dedikdə zatən heç bir şeyə ehtiyacı olmayan Allah-taala nəzərdə tutulur. Görəsən ***“vacibəl-vücud”la “mümkünül vücudun”*** arasında hansı əlaqə var? İki cür cavab vermək olar. Sadə dünyagörüşü ilə demək olar ki, insan və başqa yaranmışlar (şey`un ləhur-rəbt) ***“elə bir şeydirlər ki, onlar üçün rabitə var. ”*** Ehtiyaclıdırlar və ***“vacibəl-vücudun”*** hökmü ilə vücuda gəliblər. Amma ən dərin mə`nalı təfsiri böyük filosof Sədrul-Mütəllihin qeyd etmişdir. O yazır: ***“Mümkünül-vücudla” “vacibəl-vücudun”*** rabitəsi ***“şey`un ləhur-rəbt”*** deyil, (huvə eynur-rəbt”dir) ***“mümkünün həqiqətinin və zatının özü Xaliqə bağlıdır. ”*** Deməli, Allahla insanın rabitəsi bu cür olan surətdə insan, təkəbbürlük və özbaşınalıq edə bilməz. O insan ki, Qur`an onun haqqında buyurur:

يَا أَيُّهَا النَّاسُ أَنتُمُ الْفُقَرَاء إِلَى اللَّهِ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ

***“Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə heç bir şeyə möhtac deyildir. O, hər (növ) şükrə layiqdir!”***[1]

Beləliklə, insanın təkəbbürünün ən yaxşı dərmanı onun Allahla rabitəsinin möhkəmlənməsi, özünün möhtac olmağını zatən ehtiyacsız olan Allah qarşısında e`tiraf etməsidir. Fikirləşməlidir ki, bütün bu fəqirlik və ehtiyaclı olmaqla yanaşı insanın özbaşınalıq və təkəbbürlük etməsi axmaqlıqdan başqa bir iş ola bilərmi? Məgər Allah belə buyururmayıbmı:

---

[1] Fatir” surəsi, 15-ci ayə.

***“Təkəbbür və böyüklük libası yalnız Mənə məxsusdur!”?!***

Təkəbbürlü insan özünü Allaha məxsus olan bu həddə təsəvvür etməkistəyirmi? Məgər bu ***“gizlin şirk”*** deyil?! Odur ki, Həzrəti Əli (əleyhissalam) Malik Əştəri təkəbbürün aqibətindən qorxudur.

وَ إِيَّاكَ وَ الْإِعْجَابَ بِنَفْسِكَ وَ الثِّقَةَ بِمَا يُعْجِبُكَ مِنْهَا وَ حُبَّ الْإِطْرَاءِ فَإِنَّ ذَلِكَ مِنْ أَوْثَقِ فُرَصِ الشَّيْطَانِ فِي نَفْسِهِ لِيَمْحَقَ مَا يَكُونُ مِنْ إِحْسَانِ الْمُحْسِنِينَ وَ إِيَّاكَ وَ الْمَنَّ عَلَى رَعِيَّتِكَ بِإِحْسَانِكَ أَوِ التَّزَيُّدَ فِيمَا كَانَ مِنْ فِعْلِكَ أَوْ أَنْ تَعِدَهُمْ فَتُتْبِعَ مَوْعِدَكَ بِخُلْفِكَ فَإِنَّ الْمَنَّ يُبْطِلُ الْإِحْسَانَ وَ التَّزَيُّدَ يَذْهَبُ بِنُورِ الْحَقِّ وَ الْخُلْفَ يُوجِبُ الْمَقْتَ عِنْدَ اللَّهِ وَ النَّاسِ قَالَ اللَّهُ تَعَالَى كَبُرَ مَقْتاً عِنْدَ اللَّهِ أَنْ تَقُولُوا ما لا تَفْعَلُونَ

***Özünü bəyənməkdən, xoşun gəldiyi şeylərdən arxayın olmaqdan, habelə əhalinin tə`rifindən özünü qoru! Çünki, bu halətlərdə şeytan fürsət tapır və xeyirxahların xeyirxah işlərini məhv edib aradan aparır. O şeydən çəkin ki, əhaliyə ehsan edəsən, sonra onların boynuna minnət qoyasan! Məbada onlar üçün gördüyün işi həddindən artıq onların üzünə çəkib böyük göstərəsən və ya onlara verdiyin və`dədən üz döndərəsən, və`dənə xilaf iş görəsən! Çünki, minnət ehsanı batil və onu mükafatsız edir. Nuru həddindən artıq göstərmək həqiqəti aradan aparır. Və`dəyə xilaf çıxmaq Allahın və xalqın qəzəbini artırır. Allah-taala buyurur: “Söz verib əməl etmədiyiniz işlərdən, Allah qəzəblənəcək!***

Bu kəlmələrdə Həzrəti Əli (əleyhissalam) təkəbbürün çirkinliyindən əlavə üç əsas mətləbi nəzərə çatdırır:

***Əvvəl minnət;***

Ümumiyyətlə, İslam tə`limlərində harada olursa-olsun minnət qoymaq pislənir. İstər bir insanın başqa insana olan minnəti, istərsə də dövlətin insanlara minnət qoyması olsun. Ona görə ki, ***əvvəla*** infaq və sədəqə (başqa sözlə, başqalarına kömək) fəqirlərin ürəkyandırıcı yaşayışlarından nicat tapıb vəziyyətlərinin yaxşılaşmasına səbəb olur, onların

maddi ehtiyaclarını tə`min etməklə ruhi narahatçılıqlarını aradan aparır. Əgər kömək və bəxşişin ardınca minnət qoyulsa, nəinki bu əməlin hədəfi həyata keçmir, üstəlik bu iş fəqirlərin ruhiyyəsinə ağır zərbələr endirir. ***İkincisi,*** dövlətin xidmət adı ilə gördüyü iş əslində vəzifədir ki, yerinə yetirir, bu işdə başqalarına minnət qoymağa ixtiyarı yoxdur. ***Üçüncüsü,*** kömək və bəxşiş Allaha görə olmalıdır. Minnət qoymaq isə onu bildirir ki, əməl Allaha görə edilməyib. ***Dördüncüsü,*** Allah-taala – bütün qüdrətlərin və qüvvələrin sahibi – bu qədər ne`mətləri insana bağışladığı halda, (yalnız, İslam Peyğəmbəri (səlləllahu ələyhi və alih) və İslam ne`mətindən başqa) insanlara minnət qoymamışdır. Əgər insan hər hansı bir ehsan və xeyrin müqabilində başqasına minnət qoysa, onu bildirir ki, bu şəxs özünü müstəqil hesab edir və ne`məti özününkü sayır. Halbuki, ***"La hovlə və la qüvvətə illa billah"***ın (Allahın güc və qüvvətindən başqa heç bir güc-qüvvə yoxdur) tələbinə görə hər bir şeyin həqiqi maliki Allahdır və hər bir ne`mət Ondandır: "İnna lillahi və inna iləyhi raciun."

***İkincisi və`dəyə xilaf;***

İslamda və`dəyə əməl etməmək, dinsizlik və imansızlıq hökmündədir. Qur`an bu barədə buyurur:

كَبُرَ مَقْتاً عِندَ اللَّهِ أَن تَقُولُوا مَا لَا تَفْعَلُونَ

***"(Qorxun ki) bir söz deyərsiniz və onun xilafına əməl edərsiniz, bu iş Allahı möhkəm qəzəbə gətirir. "***[1]

Onun müqabilində isə əhdə vəfa etmək imanın və İslami məsələlərə vəfalı olmağın nişanəsidir. Əgər bir

---

[1] Səff surəsi, 3-cü ayə

məs`ul əhaliyə və`də versə və ondan qaçsa, Allahın qəzəbinə düçar olmağından əlavə, bunun zərəri dövlətə qayıdacaq. Ona görə də məs`ullar əhaliyə verdikləri və`dələrin hamısının icra olunma qabiliyyətini nəzərə almalıdırlar, öhdəsindən gələ bilmədikləri və`dələri verməkdən çəkinməlidirlər.

***Üçüncüsü şişirtmələr;***

Haqq və həqiqətdən bəhrələnən hər bir şey xüsusi nuraniyyətdən bəhrələnmiş olur. Buna görə də, məsələn, yalan danışan insan daim öz batinində vicdan əzabı çəkir. Bu cür insan sanki zülmətdə, qaranlıqda yaşayır. Halbuki, düzdanışan həmişə aydınlıq içindədir və xüsusi nuraniyyəti vardır. Bu əsasa görə baş vermiş hər hansı hadisəni özünə qarşı söylədikdə, əhalidə heç də nifrət oyatmaz, əksinə, insanlar nuraniyyəti müşahidə etməklə həqiqətə tərəf cəzb olunacaqlar. Ona görə də, İslam dövləti üçün gördüyü işləri şişirtməklə və həddən artıq tə`rifləməklə xalqa yalan mə`lumat verməsi layiq deyil. Çünki, əhali görülmüş işi müşahidə etməklə, həqiqətə çatacaq və İslam dövlət məs`ullarının şişirtmələrini anlayıb onlara qarşı e`tinasız olacaq, hətta İslam mənbələrinə də yaxşı nəzərlə baxmayacaqlar.

## *MÜVƏFFƏQİYYƏTLİ QƏRAR QƏBUL ETMƏK*

Məs`uliyyətli şəxslərin qələbə çalması onların qərarlarında xülasə olunur. Əgər məs`ulun qərarı vaxtında və yerində olsa, işində müvəffəqiyyət qazanar və qələbə çalan hesab olunur. Amma yersiz və həqiqətdən uzaq olan bir qərar qəbul etsə, müvəffəq hesab olunmur. Bu hesaba görə hər bir məs`ulun

hərəkətləri hər şeydən əvvəl aydın bir hədəf üzrə olmalıdır. İkincisi, şərait hazır olan kimi heç bir şişirtmə və ya azaltma olmadan münasib qərar qəbul etməlidir. Əlbəttə, layiqli qərar o vaxt olar ki, lazımi şəraitdən əlavə, qərar münasib vaxtda və yerində verilmiş olsun.

وَ إِيَّاكَ وَ الْعَجَلَةَ بِالْأُمُورِ قَبْلَ أَوَانِهَا أَوِ التَّسَقُّطَ فِيهَا عِنْدَ إِمْكَانِهَا أَوِ اللَّجَاجَةَ فِيهَا إِذَا تَنَكَّرَتْ أَوِ الْوَهْنَ عَنْهَا إِذَا اسْتَوْضَحَتْ فَضَعْ كُلَّ أَمْرٍ مَوْضِعَهُ وَ أَوْقِعْ كُلَّ أَمْرٍ مَوْقِعَهُ

***İşin vaxtı yetişməmişdən əvvəl (lazımi şərait olmadan) tələsməkdən özünü qoru! Əgər işin görülməsi mümkündürsə, onu kiçik hesab etmə! İşin növü mə`lum olmayan surətdə tələsik öz nəzərini vermə! Habelə, işlərin aydın olan vaxtı (planlar, proqramlar... ) səhlənkarlıq etmə! Beləliklə, hər bir işi öz yerində qərar ver və öz vaxtında yerinə yetir!***

Gündəlik beş vaxt qıldığımız namazlara diqqət edək; namazın vaxtının, onun qılınmasında xüsusi əhəmiyyəti vardır. Belə ki, çox şəraitlər vaxta qurban olur. Məsələn, əgər su tapılmasa və namazın vaxtı qurtarmaq üzrə olsa, təyəmmümlə namaz qıla bilərik. Amma vaxtından xaricdə yox. Başqa ibadətlər üçün də müəyyən vaxt tə`yin olunmuşdur. Məsələn, həcc (xüsusi vaxtda icra edilməlidir), oruc tutmaq (yalnız ramazan ayında vacibdir). Şəriətin bu qanunları onu göstərir ki, vaxtı tanımaq xüsusi əhəmiyyətə malikdir. Vaxta diqqət etməmək müəyyən ziyanlara və xəsarətlərə səbəb olacaq ki, onları bərpa etmək də çətin olacaq. İmam Həsən Əsgəri (əleyhissalam) bu barədə buyurur:

***“Yetişməmiş meyvənin dərilməsində tələsmə! Öz vaxtında yetişəcək. Öz ehtiyaclarını tə`min etmək üçün vaxtından əvvəl tələsmə! Bu iş sənin dərdinə və***

***hövsələsizliyinə səbəb olacaq. Beləliklə də, ümidsizliyə düçar olarsan. "*[1]**

### *AXİRƏTİ YADA SALMAQ NƏFSİN İSTƏKLƏRİNİN QARŞISINI ALIR*

Bilirik ki, bu dünyadan sonra axirət aləmi də var. Dünya insanların çalışmaları, bəhrə aparmaları və axirət dünyasında səadət əldə etmək üçündür. Əgər hökumət taxtında oturan (hər hansı insan, fərdi və ictimai fəaliyyətlərində) bilsə ki, (və bu fikirdə olsa ki, ) arzuların həyata keçməsində hər hansı tüğyan və azğınlıq (cəmiyyətdə fəsada səbəb olan sair işlər) axirətdə yalnız cəhənnəm odu və əzabla nəticələnəcək, bu halda nəfsi istəklərini orta səviyyədə, mö`tədil saxlamağa çalışar, İslam və Qur`anın yolu ilə hərəkət edər.

**وَ إِيَّاكَ وَ الِاسْتِئْثَارَ بِمَا النَّاسُ فِيهِ أُسْوَةٌ وَ التَّغَابِىَ عَمَّا تُعْنَى بِهِ مِمَّا قَدْ وَضَحَ لِلْعُيُونِ فَإِنَّهُ مَأْخُوذٌ مِنْكَ لِغَيْرِكَ وَ عَمَّا قَلِيلٍ تَنْكَشِفُ عَنْكَ أَغْطِيَةُ الْأُمُورِ وَ يُنْتَصَفُ مِنْكَ لِلْمَظْلُومِ امْلِكْ حَمِيَّةَ أَنْفِكَ وَ سَوْرَةَ حَدِّكَ وَ سَطْوَةَ يَدِكَ وَ غَرْبَ لِسَانِكَ وَ احْتَرِسْ مِنْ كُلِّ ذَلِكَ بِكَفِّ الْبَادِرَةِ وَ تَأْخِيرِ السَّطْوَةِ حَتَّى يَسْكُنَ غَضَبُكَ فَتَمْلِكَ الِاخْتِيَارَ وَ لَنْ تَحْكُمَ ذَلِكَ مِنْ نَفْسِكَ حَتَّى تُكْثِرَ هُمُومَكَ بِذِكْرِ الْمَعَادِ إِلَى رَبِّكَ**

***Heç vaxt əhalinin hamısının bərabər payı olan bir malın bölgüsündə özünə hamıdan çox pay ayırma! Əhali üçün aydın və aşkar olan şeydə özünü qəflət və nadanlığa vurma! Ona görə ki, o şey səndən alınacaq və başqasına veriləcək, tezliklə pərdə aradan götürüləcək və sən məzlumların xeyrinə hökm vermiş olacaqsan. Qəzəbinin, tünd (kobud) xasiyyətinin, əli uzunluğunun və uzun dilliyinin qarşısını al! Söyüş***

---

[1]Biharul-ənvar, 88-ci cild, səh. 379

***söyməkdən qorun! Qəzəbin sakitləşənə, ixtiyarını öz əlinə alana və gözlərin həqiqəti görənə qədər sakit ol! O vaxt özünə gələcəksən ki, Allaha tərəf qayıtmaq yadına düşər və qəm-qüssən artar.***

Yuxarıdakı cümlələri xülasə şəkildə təhlil etsək aşağıdakı mətləbləri ələ gətirmək olar:

1-***Təkəbbür və özbaşınalıq sadə insanlardan çox, hakimlərdə olur. İxtiyarında olan imkanları nəzərə alaraq demək olar ki, onun qarşısını "təqvadan" başqa heç bir şey ala bilməyəcək. Deməli, hamıdan çox hakimin "təqvaya", pəhrizkarlığa ehtiyacı var.***

2-***Əhalinin payı olan hər bir şey hamının arasında bərabər səviyyədə bölünməlidir. Hakimin ümumi malları (ümumxalq əmlakını) özünə və ya xüsusi bir dəstəyə məxsus etməyə ixtiyarı yoxdur. Əgər hakimdən bu cür iş baş versə, bu aşkar zülmdür və bir zaman məzlumların hakimiyyəti ilə qurulan məhkəmədə, zalım məhkum olunacaq və öz zülmünün acınacaqlı aqibətini görəcək.***

3-***Əhalinin seçdiyi hakimin vəzifələrindən biri də cəmiyyətin rə`y və nəzərlərinə hörmət etməkdir. Əgər hakim əhalinin gözü qarşısında baş verən xilaf işləri, əxlaqsızlıqları, fəsadları e`tinasızlıqla qarşılasa, hakim də bu barədə ümumi kütlənin fikrindən qəflət edərsə və bu bəhanə ilə cəmiyyətin islahına baş qoşmazsa, ağır və acınacaqlı vəziyyətlə qarşılaşmalı olacaq.***

4-***Əhalinin hakimə olan ehtiyacını nəzərə alaraq və onların ehtiyaclarının hakim tərəfindən ödənilməsi arzuları olduğuna görə hakim xoşagəlməz hallarda öz nəfsinə sahib olmalı, qəzəbinin qarşısını almalıdır.***

***Buna görə də hakim tərəfindən baş verən kiçik bir xoşagəlməz hərəkət ağır nəticəyə səbəb ola bilər.***

Bu əsasa görə məs`uliyyətli şəxslər gərək insani və islami normalardan kənara çıxmaqla əhalinin qəlbini yaralamasınlar və bununla da əhalinin İslamdan və hakimdən uzaq düşməsinə səbəb olmasınlar.

## *İBRƏT GÖTÜRMƏK, QUR`AN VƏ QANUN ÜZRƏ HƏRƏKƏT ETMƏK*

"Qur`an və İslam qanunlarının İslam cəmiyyətində yeri" fəslində deyildi ki, Qur`an və qanun, bütün ictimai, siyasi, iqtisadi və sair kimi... Məsələlərin mənbəyi hesab olunur. İslam hakimi bu mənbə üzrə hərəkət etməlidir. Hakimin Peyğəmbər (səlləllahu ələyhi və alih) qanunlarından çıxması heç bir vəchlə qəbul olunmur. Bu cür hərəkətin aşkar olması öz-özünü İslam hakimliyi vəzifəsindən kənarlaşdırmaq deməkdir. Həzrəti Əli (əleyhissalam) qeyd olunacaq cümlələrində Malik Əştərə, Qur`an göstərişlərini, İslam Peyğəmbəri (səlləllahu ələyhi və alih) və mə`sum İmamların (ələyhimussalam) hərəkət və davranışlarını nümunə qərar verməklə yanaşı, hakimin tarixdə baş vermiş hadisələrdən ibrət götürməsini onun üçün zəruri bilir. Bu əsasa görə həzrət buyurur:

وَ الْوَاجِبُ عَلَيْكَ أَنْ تَتذَكَّرَ مَا مَضَى لِمَنْ تَقَدَّمَكَ مِنْ حُكُومَةٍ عَادِلَةٍ أَوْ سُنَّةٍ فَاضِلَةٍ أَوْ أَثَرٍ عَنْ نَبِيِّنَا ص أَوْ فَرِيضَةٍ فِى كِتَابِ اللَّهِ فَتَقْتَدِىَ بِمَا شَاهَدْتَ مِمَّا عَمِلْنَا بِهِ فِيهَا وَ تَجْتَهِدَ لِنَفْسِكَ فِى اتِّبَاعِ مَا عَهِدْتُ إِلَيْكَ فِى عَهْدِى هَذَا وَ اسْتَوْثَقْتُ بِهِ مِنَ الْحُجَّةِ لِنَفْسِى عَلَيْكَ لِكَيْلَا تَكُونَ لَكَ عِلَّةٌ عِنْدَ تَسَرُّعِ نَفْسِكَ إِلَى هَوَاهَا

***Vəzifən budur ki, ədaləti yayan hökumətlərin fəzilətli qanunları, Qur`anda gələn vacibatlar və ya İslam Peyğəmbərin (səlləllahu ələyhi və alih)***

***kitablarda yazılan sünnələri yadında olmuş olsun. O şeylərə ki, biz əməl etmişik və sən onları görmüsən, onlardan tərəfdarlıq et! Çalış bu fərmanda yazdığım qanunlarla hərəkət edəsən və göstərişlərimə əməl edəsən! Ey Malik! Mən bu fərmanımla səninlə olan peymanımı möhkəmlətdim və höccəti sənə tamamladım. Əgər nəfsin tüğyan etsə və müxtəlif həva-həvəslər ardınca düşsən, heç bir bəhanən olmayacaq. İnsanı pisliklərdən qoruyan və ona yaxşı işlər görmək fürsəti verən, yalnız Allah-taaladır. Allahın Peyğəmbəri (səlləllahu ələyhi və alih) həmişə mənə əmr edərdi ki, namazımda, zəkatımda və nökərlərlə rəftarımda çox diqqət edəm və ehtiyatlı olam!***

Mövla Əli (əleyhissalam)-ın kəlmələrinə diqqət etdikdə anlayırıq ki, ***əvvəla,*** İslami məsələlərin öyrənilməsi, Allahın hökmlərinin icra olunması üçün meydanın açıq olması Allahın ən böyük höccətidir. Bu cür höccətin olması ilə yanaşı müxtəlif bəhanələrlə ilahi hökmlərin icra olunmasından boyun qaçırmaq olmaz. Bu əsasa görə İran İslam İnqilabının böyük rəhbəri Xomeyni, ruhanilərlə görüşündə e`lan etdi ki, “***bu gün höccət tamam olub. İslam alimlərinin iş görməmək və Allahın hökmlərini icra etməkdən boyun qaçırmaq üçün bəhanəsi yoxdur.*** ”

***İkincisi,*** İslam hökmlərinin icra olunması üçün çalışmaq məs`ullara icazə vermir ki, öz nəfslərinə fikir verməkdən və nəfsani istəkləri ilə mübarizə aparmaqdan əl çəksinlər. Onların vəzifəsi budur ki, İslam hökmlərinin ölkədə bərqərar olunması üçün çalışmaqla bərabər, təqvalı və pərhizkar olsunlar və

dinin vacibatlarını yerinə yetirməkdən qəflət etməsinlər.

### *YOLUN SONU-"ŞƏHADƏT"*

Mö`min insanlar üçün xüsusi ilahi ne`mətlərdən biri, Allah yolunda və Allah hökmlərinin cəmiyyətdə hakim olması yolunda şəhadətə yetmək məqamıdır. Şəhadətə yetişmək insanın ən uca məqamı və yolunun sonu hesab olur. Buna görə də Həzrəti Əli (əleyhissalam) həm özü, həm də Malik üçün ***"şəhadət"*** arzulamaqla yanaşı, qoşun başçısını, duanın tə`siri və nəticəsi ilə də tanış edir. İndi ki, bu kitabın axırına yetişmişik, həzrətin duasını birlikdə oxuyaq:

وَ أَنَا أَسْأَلُ اللَّهَ بِسَعَةِ رَحْمَتِهِ وَ عَظِيمِ قُدْرَتِهِ عَلَى إِعْطَاءِ كُلِّ رَغْبَةٍ أَنْ يُوَفِّقَنِى وَ إِيَّاكَ لِمَا فِيهِ رِضَاهُ مِنَ الْإِقَامَةِ عَلَى الْعُذْرِ الْوَاضِحِ إِلَيْهِ وَ إِلَى خَلْقِهِ مَعَ حُسْنِ الثَّنَاءِ فِى الْعِبَادِ وَ جَمِيلِ الْأَثَرِ فِى الْبِلَادِ وَ تَمَامِ النِّعْمَةِ وَ تَضْعِيفِ الْكَرَامَةِ وَ أَنْ يَخْتِمَ لِى وَ لَكَ بالسَّعَادَةِ وَ الشَّهَادَةِ إِنَّا إِلَيْهِ راجِعُون وَ السَّلَامُ عَلَى رَسُولِ اللَّهِ صَلَّى اللَّهِ عَلَيْهِ وَ آلِهِ وَ سَلَّمَ الطَّيِّبِينَ الطَّاهِرِينَ وَ سَلَّمَ تَسْلِيماً كَثِيراً وَ السَّلَامُ

***Mən ulu Tanrıdan istəyirəm ki, sonsuz rəhmət və əzəmətli qüdrəti ilə (ki, əta etməkdə və ehsan etməkdə istədiyi şeyi icra etməyə qadirdir,) məni, səni, özünün razı olduğu şeylərə tərəf aparsın! Yerli və aşkar üzrümüzü Özünün və məxluqatının qarşısında qəbul etsin! Bəndələrinin arasında yaxşı adla, xeyirxahlıqla, şəhərlərdə, diyarlarda yaxşı tə`sir qoymaqla, bütün ne`məti ilə izzətlə, sonsuz səadətlə və şəhadətlə ömrümüzü başa vursun! Biz Ondanıq və Ona tərəf qayıdacağıq. Allahın elçisinə və Onun pak Əhli-beytinə çox salam olsun ki, hamısı pak və münəzzəhdir!***

***"Amin ya Rəbbəl-aləmin. "***

## *MÜNDƏRİCAT*


Bismillahir-rəhmanir-rəhim ...................................................... 6
***ÖN SÖZ***......................................................................... 8
USTADIN ƏSƏRLƏRİ............................................................ 14
USTADIN SİYASİ MÜBARİZƏLƏRİ .................................... 17
QARŞINIZDAKI KİTAB HAQQINDA ................................. 19
BİRİNCİ FƏSİL ......................................................................... 20
MALİK ƏŞTƏR VƏ MİSİR HÖKUMƏTİ.............................. 20
MALİK ƏŞTƏRƏ FƏRMAN.................................................... 24
MALİK ƏŞTƏR NƏXƏİNİN ŞƏXSİYYƏTİ.......................... 26
İSLAM PEYĞƏMBƏRİNİN (səlləllahu əleyhi və alih) NƏZƏRİNDƏ MALİK ƏŞTƏRİN ŞƏXSİYYƏTİ ................. 28
DÜŞMƏN DİLİNDƏN TƏ`RİF ............................................... 30
MİSİR HAQQINDA ................................................................. 31
İSGƏNDƏRİYYƏ ŞƏHƏRİ...................................................... 31
İNKİŞAF VƏ GERİÇİLİK ......................................................... 34
MİSİRİN SİYASİ VƏZİYYƏTİ ................................................ 36
İSLAMDAN SONRA MİSİRDƏ BAŞ VERƏN İKİ MÜHÜM HADİSƏ..................................................................................... 42
MİSİRİN ƏHƏMİYYƏTİ GÜNDƏN-GÜNƏ AŞKAR OLUR43
HƏZRƏT ƏLİ (ƏLEYHİSSALAM) MİSRİN VƏZİYYƏTİNİ YAXŞILAŞDIRIR ...................................................................... 45
MƏHƏMMƏD İBNİ ƏBU BƏKRİN ŞƏHADƏTİ VƏ ONDAN SONRAKI HADİSƏLƏR ......................................................... 48
İMAM ƏLİ (ƏLEYHİSSALAM)-IN NƏZƏRİNDƏ ÖLKƏNİ İDARƏ ETMƏ YOLU.............................................................. 52
***“NƏHCÜL-BƏLAĞƏ” İLƏ ÜZBƏÜZ***.................................... 54
***İkinci:Allaha bəndəlik etməklə rəhbərlik***....................................... 60
HÖKUMƏT VƏ VİLAYƏT ƏTRAFINDA ............................. 62
***ƏVVƏL: XƏRAC CƏM ETMƏK***............................................. 62
***İKİNCİ: DÜŞMƏNLƏRDƏN MÜDAFİƏ*** ............................... 63
ÜÇÜNCÜ: ƏHALİNİN İSLAH OLUNMASI........................ 63
***DÖRDÜNCÜ: ŞƏHƏR VƏ KƏNDLƏRİN ABADLAŞDIRILMASI***.............................................................. 64

MƏRKƏZLƏŞMİŞ SİSTEM, YOXSA... . ? .............................. 64
QUR`ANDA TƏQVANIN ƏHƏMİYYƏTİ............................ 67
TƏQVANIN MƏ`NASI .......................................................... 68
TƏQVANIN DƏRƏCƏ VƏ MƏRTƏBƏLƏRİ ...................... 71
SƏADƏT VƏ BƏDBƏXTLİK YOLU...................................... 73
TƏQVANIN CƏHƏTLƏRİ..................................................... 74
ƏN BÖYÜK CİHAD................................................................. 75
ALLAHIN QEYBİ KÖMƏKLƏRİ.......................................... 78
QANUN ZOR GÜCÜNƏ YOX, DAXİLİ İSTƏKLƏ İCRA OLUNMALIDIR ....................................................................... 79
ALLAHIN VƏ`DƏSİNDƏ XİLAF OLMAZ........................... 82
ÖZÜNÜ UNUTMAQ.............................................................. 83
XEYİRXAHLARIN DÜNYADAKI MÜKAFATI.................. 85
YAXŞI AD AXİRƏTDƏ XEYİRXAHLARIN SƏNƏDİDİR.. 88
XEYİRXAH İŞİN ƏHƏMİYYƏTİ ........................................... 88
XEYİRXAH İŞLƏR HANSILARDIR? .................................... 89
MEYLLƏRİ QORUMAQ .......................................................... 93
İSLAM VƏ PUÇ “BƏŞƏR HÜQUQU” İDDİAÇILARI ........ 94
ÖZBAŞINALIĞIN VƏ FƏSADIN SƏBƏBLƏRİ .................. 97
“İSMƏT”, “ƏDALƏT” VƏ “FASİQ” KƏLMƏLƏRİNİN MƏ`NALARI............................................................................. 97
MƏ`SUM ŞƏXS GÜNAHA DÜŞÜRMÜ? .............................. 98
YADDAN ÇIXAN HALDA “MƏ`SUM” OLMAĞIN RƏMZİ ..................................................................................... 100
ƏHALİ İLƏ QƏZƏBLƏ RƏFTAR ETMƏK ALLAHLA MÜHARİBƏ KİMİDİR............................................................ 101
DİKTATORÇULUQ ................................................................ 101
TƏKƏBBÜRLÜK .................................................................... 102
ÖZLƏRİNİ SƏHVSİZ HESAB EDƏNLƏRİN SƏHVİ........ 106
İNSAF VƏ ƏDALƏTLƏ ƏMƏL ETMƏK, ZÜLMLƏ MÜBARİZƏ APARMAQ........................................................ 108
ƏHALİ İLƏ İNSAFLI OLMAQ ............................................. 112
ZALIM KİMİNLƏ HESABLAŞMALIDIR?.......................... 113
***GÖZƏL SÖZ ÜSLUBUNDA DƏRİNDƏN FİKİRLƏŞMƏK***115
ZALIMIN LABÜD OLAN MƏĞLUBİYYƏTİ...................... 117
ZALIMIN TÖVBƏSİ............................................................... 117
MƏZLUMUN NALƏSİNİN TƏ`SİRİ .................................. 119

HAKİMİN QƏRAR ÇIXARMA ME`YARLARI .................. 121
ADİ VƏ XÜSUSİ İNSANLARIN XÜSUSİYYƏTLƏRİ VƏ HƏR BİRİSİNİN HÖKUMƏTDƏ ROLU....................................... 123
ƏN YÜNGÜL XƏRC, ƏN ÇOX KÖMƏK............................ 124
İNSAF VƏ ƏDALƏTİ QƏBUL ETMƏK............................... 124
NE`MƏTLƏR QARŞISINDA TƏŞƏKKÜR.......................... 125
ÜZRÜ QƏBUL ETMƏK......................................................... 125
MÜSİBƏTLƏR QARŞISINDA SƏBİRLİ VƏ MÖHKƏM OLMAQ ................................................................................... 126
AZADLIQ YOLUNUN DÖYÜŞÇÜLƏRİ............................. 127
SİRR SAXLAMAQ VƏ EYBLƏRİ ÖRTMƏK....................... 130
İMPERİALİZMİN ƏN QORXULU HİYLƏSİ ...................... 131
DÜYÜN AÇAN ...................................................................... 132
İSLAMDA MƏŞVƏRƏT........................................................ 133
MÜŞAVİRLƏRİN ƏXLAQİ NİŞANƏLƏRİ......................... 135
KİMLƏR MÜŞAVİR OLA BİLMƏZ?................................... 136
DÖVLƏT ADAMLARI ........................................................... 137
HİZBULLAHQÜVVƏLƏRİNİN ÜSTÜNLÜYÜ ................. 140
SEÇİLMİŞLƏR ........................................................................ 140
İSLAM QANUNUNDA DÜZGÜN İDARƏÇİLİK ............. 142
XALQA E`TİMAD.................................................................. 143
ŞƏR`İ VƏ QEYRİ-ŞƏR`İ ADƏTLƏR ................................... 144
DÖVLƏT İŞÇİLƏRİNİN PROBLEMLƏRİ VƏ ONLARIN HƏLL EDİLMƏSİ YOLLARI ................................................. 146
DİNDAR, YOXSA MÜTƏXƏSSİS OLMAQ?....................... 147
1-CƏMİYYƏTİN MƏ`NASI.................................................. 148
***2-CƏMİYYƏTİN MÜSTƏQİLLİYİ***......................................... 148
CƏMİYYƏTİN HƏR BİR DƏSTƏSİNİN MÖHKƏMLƏNMƏSİ BAŞQA DƏSTƏNİN MÖHKƏMLƏNMƏSİNƏ BAĞLIDIR151
QÜVVƏLƏRİN AYRILMASI VƏ İŞİN LƏYAQƏTƏ GÖRƏ BÖLÜNMƏSİ .......................................................................... 153
İSLAM QOŞUN BAŞÇILARININ XÜSUSİYYƏTLƏRİ...... 154
YÜKSƏK RÜTBƏLİ QOŞUN BAŞÇILARININ ƏN MÜHÜM XÜSUSİYYƏTLƏRİ ................................................................ 160
DÖVLƏTİN DAVAMLI OLMASI......................................... 163
HƏVƏSLƏNDİRMƏ VƏ TƏŞVİQ ETMƏ........................... 165
AYRI-SEÇKİLİK BƏLASI ....................................................... 168

SÜNNƏNİN MƏ`NASI ........................................................ 170
QUR`ANDA MÖHKƏM VƏ MÜTƏŞABEHİN MƏ`NASI171
SÜNNƏDƏ MÜTƏŞABEH OLMAQ EHTİMALI .............. 171
***1. ALLAHIN HÖKMLƏRİNİN BƏYANI*** .............................. 172
***2. HÖKUMƏT FƏRMANLARI*** .............................................. 172
İSLAMDA QƏZAVƏTİN ƏHƏMİYYƏTİ VƏ QAZİNİN ŞƏXSİYYƏTİ ........................................................................... 173
HAKİMİN LAYİQLİ QAZİLƏR QARŞISINDAKI VƏZİFƏSİ ......................................................................................... 176
DÖVLƏT İŞÇİLƏRİNİN SEÇİLMƏSİNDƏ DOSTLUQ, TANIŞLIQ YOX, HAKİMİYYƏT QANUNU ƏSAS OLMALIDIR.......................................................................... 180
DÖVLƏT İŞÇİLƏRİNİN MADDİ EHTİYACLARININ TƏ`MİN OLUNMASI ........................................................... 183
***İSLAM HÖKUMƏTİNDƏ YOXLANIŞ (TƏFTİŞ) DƏSTƏSİ VƏ ONLARIN QARŞISINDA HAKİMİN VƏZİFƏSİ*** ................. 185
***ƏKİNÇİLİYİN ƏHƏMİYYƏTİ VƏ XƏRACIN MƏ`NASI*** .. 189
***DÖVLƏT ƏKİNÇİLİYİ GÜCLƏNDİRMƏK ÜÇÜN ÇALIŞMALIDIR*** ...................................................................... 191
***MALİYYATDA YÜNGÜLLÜK*** .............................................. 193
***ƏKİNÇİLƏRƏ QARŞI DİQQƏTSİZLİYİN NƏTİCƏSİ*** ....... 195
***DÖVLƏTİN ARADAN GETMƏSİ VƏ DAĞILMA SƏBƏBLƏRİ*** ......................................................................................... 196
***SEÇKİ ÜÇÜN ƏN YAXŞI ME`YAR*** ..................................... 197
***YALNIZ YAXŞI XİDMƏT VƏ ŞƏXSİ TANIŞLIĞI ME`YAR QƏRAR VERMƏYƏK*** ............................................................ 198
***İŞLƏRİN BÖLÜNMƏSİ VƏ MƏS`ULİYYƏTLİ ŞƏXSLƏRİN TƏ`YİN OLUNMASI*** .............................................................. 200
***TACİRLƏR, FƏHLƏLƏR VƏ SƏNƏTKARLAR*** .................. 201
***TİCARƏT MƏHDUDİYYƏTLƏRİ*** ......................................... 203
***İSLAM CƏMİYYƏTİNDƏ ZƏİFLƏRİN VƏ FƏHLƏLƏRİN MƏQAMI*** ................................................................................. 205
***ƏHALİ TƏRƏFİNDƏN QƏBUL EDİLƏN HAKİMİN XÜSUSİYYƏTLƏRİ*** ............................................................... 208
***MƏS`ULİYYƏTLİ ŞƏXSLƏRİN ÖZ İŞLƏRİNDƏ MÜVƏFFƏQİYYƏTLƏRİNİN SİRRİ*** ................................... 211

***NƏFSİ PAK ETMƏK İNSANI MƏS`ULİYYƏTSİZLİK BƏLASINDAN XİLAS EDİR***.................................................... 212
***ƏHALİNİNN İTTİHADININ FAYDASI VƏ TƏFRİQƏNİN FƏSADLARI*** .............................................................................. 214
***HƏDƏF ALLAHIN HÖKMLƏRİNİN İCRA OLUNMASIDIR***216
***QANUN QARŞISINDA BƏRABƏRLİK*** ................................ 218
***XALQI İŞİN GEDİŞİNDƏN AGAH ETMƏK***........................ 219
***SÜLH VƏ SAĞLAM YAŞAYIŞ***............................................... 221
***ƏHDƏ VƏFA ETMƏK***............................................................ 223
***HÖKUMƏT QAN TÖKMƏKLƏ DAVAM EDƏ BİLMƏZ!***. 228
***TƏKƏBBÜRÜN VƏ ÖZBAŞINALIĞIN DƏRMANI***............ 231
***MÜVƏFFƏQİYYƏTLİ QƏRAR QƏBUL ETMƏK***............... 236
***AXİRƏTİ YADA SALMAQ NƏFSİN İSTƏKLƏRİNİN QARŞISINI ALIR***...................................................................... 238
***İBRƏT GÖTÜRMƏK, QUR`AN VƏ QANUN ÜZRƏ HƏRƏKƏT ETMƏK***................................................................ 240
***YOLUN SONU-“ŞƏHADƏT”*** ................................................ 242